OĞLU MAHİRDƏN

XATİRƏ



## QISA TƏRCÜMEYİ-HAL

**ŞAİR QABİL** – Qabil Allahverdi oğlu İmamverdiyev 12 avqust 1926-cı ildə Bakıda, dəmiryolçu ailəsində anadan olmuşdur. 1944-1948-ci illərdə V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutunun filologiya fakültəsində ali təhsil almışdır. Moskvada M.Qorki adına Ədəbiyyat İnstitutunun nəzdində iki illik ədəbiyyat kursunun müdavimi olmuşdur. Əmək fəaliyyətinə 1948-ci ildə, Yardımlı qəsəbə orta məktəbində Azərbaycan dili və ədəbiyyat müəllimi kimi başlamışdır. Sonrakı illərdə "Azərbaycan müəllimi", "Ədəbiyyat və incəsənət", "Kommunist" qəzetlərində, Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində, "Azərbaycan" jurnalında müxtəlif vəzifələrdə çalışmışdır. Azərbaycan Yazıçılar Birliyi Ağsaqqallar Şurasının sədri olmuşdur. Qabil ədəbiyyata 4 aprel 1944-cü ildə, "Ədəbiyyat qəzeti"ndə çap olunan "Gəl, baharım" adlı şeiriylə gəlmişdir. "Qabil İmamverdiyev", "Qabil Nikbin", "Qabil" təxəllüsləri ilə yazıb-yaratmışdır. Yaradıcılığının şah əsəri sayılan "Nəsimi" mənzum romanı 1976-cı ildə Azərbaycan SSR Dövlət Mükafatına layiq görülmüşdür. "Azərbaycan SSR Əməkdar İncəsənət xadimi", "Azərbaycan Respublikasının Xalq şairi" fəxri adlarını almışdır. "Şöhrət" və "İstiqlal" ordenləri ilə təltif olunmuşdur. Azərbaycan və rus dillərində 100-dən çox kitabı çap edilmişdir. Qabil 4 aprel 2007-ci ildə vəfat etmişdir. Azərbaycan Prezidenti İlham Əliyev, dövlət və hökumət rəsmilərinin iştirakı ilə Rəşid Behbudov adına Mahnı Teatrında vida mərasimi keçirilmişdir. 1-ci Fəxri Xiyabanda dəfn edilmişdir.

Tərtib edən:
**Mahir Qabil oğlu İmamverdiyev**

Redaktoru:
**Mahir Qabil oğlu İmamverdiyev**

Korrektoru:
**Sevinc Fəzail qızı İmamverdiyeva**

Bədii tərtibat:
**Zaur Qafarzadə**

**Qabil.** "Əsərlər". III cild.
Bakı, "Adiloğlu"nəşriyyatı, 2017, 520 səh.

*"ƏSƏRLƏR" yeddi cildliyinin 3-cü cildinə Xalq şairi Qabilin müxtəlif illərdə yazdığı şeir və poemaları daxil edilmişdir. Redaktə və korrektə zamanı həmin dövrün qrammatik qaydaları nəzərə alınmışdır.*

**İSBN 978-9952-25-102-9**

© M.Q.İmamverdiyev, 2017

# QƏBİL

## ƏSƏRLƏR

(YEDDİ CİLDDƏ)

## III

## CİLD

BAKI - 2017



# ŞEİRLƏR

# ALİM-HAKİM

*Hörmətli Prezidentimiz Heydər Əliyevin sərəncamıyla işi-gücü, fəaliyyəti bütün ölkəyə nümunə göstərilən Suraxanı rayon İcra Hakimiyyətinin başçısı, professor HACIBALA ABUTALIBOV üçün*

Sadəliyin, təvazönün
Dipdiri məğrur heykəli.
Qurub-yaradan bir şəxsin
İşıq, şəfəq, nur heykəli –
Professor Hacıbala!
Belə hakim, belə başçı
Qismət olsun hər mahala.

Qapısında polisi yox,
Cangüdəni – dəlisi yox,
Qana həris zəlisi yox,
Yalan "bəli-bəli"si yox.
Hər tədbiri əsl bayram,
Bilməz yaz-qış – fəsil, bayram
Hacıbala.
İş otağı tikintilər
Hacıbala.
Çöllərdədir axşam-səhər
Hacıbala.

Ziyalı qədrini bilən,
Şairlə xoş deyib-gülən.
Müxbirlərin arı şanı,
Səmimiyyət – ruhu-canı.

Civə, qıvraq Hacıbala,
Mətin, qoçaq Hacıbala.
Əlillərə, zəlillərə
Ümid, dayaq Hacıbala.
Bu hərc-mərc ümmanında
Sönməz mayak Hacıbala.

Tədbirləri keçməyir boş,
Neçə könül olur da xoş:
Mənzil payı, torpaq payı,
Həm minnətsiz, həm havayı.
Öpür şəhid anasının
Əllərini Hacıbala,
Öpür şəhid balasının
Tellərini Hacıbala.

Qartal, ceyran, şir aşiqi,
Məscid, bulaq, pir aşiqi.
Sısqa-mısqa ölüsü yox,
Sel aşiqi, gur aşiqi.

Muğamatsız məclisi yox –
Segah, Qatar, Şur aşiqi.
Möcüzəsi abadlıqdır,
Musa kimi Tur aşiqi.

Xərabələr bağa dönür qərarıyla
Vüqarımız dağa dönür vüqarıyla.
Zirək, çevik, qaynar hakim,
Məşəl kimi yanar hakim.

– Suraxanı Sankt-Peterburq
Olmalıdır! –
Deyən hakim.

Ancaq onu zənn etməyin
Sinəsinə döyən hakim –
Şit-şit ucuz təriflərə
Durub boyun əyən hakim.
İşi-gücü, zəhmətiylə
Fərəhdən don geyən hakim.

Təzə ana abidəsi
Ucalmaqda xəyalında.
Fikri qalıb
Təzə ana abidəsi cəlalında.

Hakim – alim, alim – hakim,
İbrət alsın zalım hakim!
Sənin kimi hakim istər
Elim-obam, xalqım, hakim.

Qədim atəşpərəstlərin
Ocağına başçı hakim,
Professor Hacıbala
Fəhlə – hakim, işçi – hakim!

*1999*

## “ALİM-HAKİM” şeirinə “SÖZ ARDI”

*Bakı ŞİH-in başıçısı Hacıbala müəllimə*

Bu gün Bakı şəhərinin
Pərvanəsi Hacıbala.
Abadlığın-gözəlliyin
Divanəsi Hacıbala.
Yaxşı işlər şövqündədir
Vüsətiylə Hacıbala.

Müasirlik zövqündədir
Xislətiylə Hacıbala.
İşindədir-gücündədir,
Yorulmayır.
Acı dildən qanadları
Qırılmayır.
Bakı meri
Sadə, həlim Hacıbala.
Beş-onuna xoşa gəlməz,
Camaata xoşagəlim Hacıbala.

*1 yanvar 2007*

## TƏZƏ MERİMİZ HACIBALA ABUTALIBOVA

Avropa Şurasına – sözüm yoxdu – mübarək!
Gəl, yeri səhv düşməyən təzə merə sevinək.

*2001*

## GÖZƏLLƏR ÖPÜR MƏNİ

*Ofeliya Həsənovaya*

Gözəllər öpür məni,
Minnət öpüşüdür bu.
Ehtiram öpüşüdür,
Hörmət öpüşüdür bu.
Gənclik xatiratımın,
Cavanlıq həyatımın
Həsrətidir bu öpüş.
Qızların – gəlinlərin
İsmətidir bu öpüş.
Şum çəkilmiş üzümün
Qismətidir bu öpüş.
Gözəllər öpür məni
Gümüşü papağımçın...
Mavi ekranda əksim,
Məclisdən sorağımçın.
Gözəllər öpür məni,
Busə deyil bu öpüş.
Hər yaşın öz öpüşü,
Qüssə deyil bu öpüş.
Paltomu tutan qızın
Öpüşüdür bu öpüş.
Nəvəmtək ceyran qızın
Öpüşüdür bu öpüş.
Şe`rimin barəsində
Yaxşı rəydi bu öpüş.
Şairlə görüşməyə
Səydi – nəydi bu öpüş.
Dayı, əmi sözündən

Qulağım çoxdan qabar.
Çoxdan quru səhradır,
Dodağım çoxdan cadar.
Ancaq ki, dünənin yox –
Dünənki süsənin yox,
Bu günün, bu saatın
Öpüşüdür bu öpüş.
Bugünkü batabatın...
Öpüşüdür bu öpüş.
Gözəllər öpür məni,
Bu nə böyük mükafat!
Ömrün hər bir anında
Su qalıbsa canında,
Vallah, gözəldir həyat.
Gözəllər öpür məni,
Savaba qərq olurlar.
Gözəllər öpür məni,
Gülaba qərq oluram.
Ömür xatirə dolu,
Həyat ağlı-qaralı,
Olmamışam tamarzı –
Qəlbi nisgil yaralı.
Bu günün öz sövdası,
Bu sinnin də öz dəmi.
Gəncliyin öz dünyası,
Qocalığın aləmi...
Gözəllər öpür məni –
Uşaq öpüşüdür bu.
Gözəllərin zarafat –
Şıltaq öpüşüdür bu.

*2002*

## AXI NİYƏ?

*Bəzi jurnalistlər qospitalda yaralı əsgərlərə – döyüşçülərə yersiz, lüzumsuz suallar verirlər.*

Qızarır sarğısında
Hələ qan ləkələri.
O yaralı əsgəri
Niyə üzə salırsan?
Niyə xəbər alırsan:
Yəqin qayıdacaqsan –
Cəbhəyə sağalantək?
O da: – Əlbəttə! – deyir.
Bəs başqa nə deyəcək?
Bəs sən necə qıyırsan?
Ürəyin daşdı yoxsa,
Niyə mikrofonunla
Lap minnət qoya-qoya
Danışırsan onunla?
Divara dirəyirsən
Sən bu halsız uşağı –
Özünü şux göstərən
Bu əhvalsız uşağı?
Qospitaldan çıxantək –
İnanıram ki, hökmən
Cəbhəyə dönəcəksən!
Allah qoysa –
Əlbəttə...
Yarası göynədikcə
Sızıldayır xəlvətdə...
Ərlərin,

Ərənlərin,
Ana yurda,
Vətənə
Canını verənlərin,
Qanını verənlərin,
Borcunu verənlərin
Gəncliyin, sağlamlığın
Zəlzələ,
Top dağıtmaz
Möhtəşəm qalasını,
Bürcünü verənlərin
Xoş təsadüf üzündən –
Allahın rəhmi ilə
Salamat qalanların,
Yarımcan olanların,
Çıxa-çıx qalanların,
Bata-bat qalanların,
Niyə cırmaqlayırsan
Üzünü bu məqamda?!
Bir duyğu, bir hissiyyat
Olmaz imiş adamda?
Getməyənlərdən yapış,
Getməyənlərdən soruş
Namus nə,
Qeyrət nədir,
Yurda məhəbbət nədir,
Xalqa sədaqət nədir.
Yaralı döyüşçüyə
Ana südündən halal
İnnən belə
Ən xoşbəxt
Ömür-gün arzu elə,
Çal-çağır arzu elə!
Toy-düyün arzu elə!

Onlar yadigar qalıb.
Onlar əmanət qalıb,
Onlar qənimət qalıb.
Şanlı döyüşçülərə –
Sarğıları hələ də
Qanlı döyüşçülərə -
Arzu-kam arzu elə!
Həyatın şərbətilə
Dolu cam arzu elə!
Desən də, deməsən də
Bilsən də, bilməsən də
İgidlər dinc oturmaz,
Çətində-darda bəli!
Müdrik ol, incə tərpən,
Mikrofonlarla bəli.

*4 yanvar, 1994*

## ÇADIRLAR

Səksənib oyandım gecə tən yarı,
Dağıdıb tökürdü aləmi külək.
Şaxta çatdadırdı daşı-divarı,
Ağaclar əsirdi nalə çəkərək.

Çadırlar dayandı gözüm önündə,
Yanıq yarasıtək göynək çadırlar.
İpdə sıralandı gözüm önündə
Lap suyu süzülən köynək çadırlar.

Yatağıma dolan közmü, qardımı?
Yanıram, donuram, bilə bilmirəm.
Mən bu humanitar gələn yardımı
Vur öldür... sədəqə ala bilmirəm...

Çadır şəhərciyin nəvə sakini
Donur qucağında yumaq nənənin.
Bu gün qar ağartmır xalqın saçını,
Ağardır düşmənə qəzəbi, kini.

Ağardır tərsinə silləyə gələn
Qeyrətsiz cavanın yanağı bu gün.
Tribunal hökmüylə gülləyə gələn
Fərarisi bu gün, qorxağı bu gün.

Biz hoydu deyirik, birləşin daha,
Külək cövlan edir çadır içində.
Millətin ümidi qalıb Allaha,
Ümid də it-batdır çamır içində.

Yox, yox, səhv elədim, nə desən itər,
Ümid itə bilməz dumanlarda da.
Ayın-günün nuru hər axşam-səhər,
İşarar qaranlıq zindanlarda da.

Soyuq çadırlarda gəlin-analar,
Basıb körpəsini bağrına, yanır.
Fikrim pərakəndə, ruhum tarimar,
Şe`rimin tüstüsü ərşə dayanır.

Soyuq çadırlarda bir stəkan süd
Rəvayətli olub, nağıllı olub.
Qəzetlər dop-dolu nəsihət, öyüd,
Hamı alim olub, ağıllı olub.

Odur tüstülənir tək-tək samovar...
Çadır məskənlərin qapılarında,
Tərk edilmiş yurddan təkcə yadigar
Yurdun sızıldayır intizarında.

Yaylaq söhbətidir çadır, alaçıq...
Mən onu neynirəm qarda-boranda.
Yazda yamaca çıx, yayda yola çıx,
Çadırda xoşhallan dolu yağanda...

Min-min yardım əli uzanır bizə,
Görməsə kor olsun nankorun gözü,
Ancaq, dağ çəkmirmi ürəyimizə
Çadıra bürünmüş Hərami düzü?

Çadıra bürünüb Milim, Muğanım,
Əlvan qutularda naz-nemət gəlir.
Qana qan! – deməkçin, Azərbaycanım!
Yeşikdə de kimə rəşadət gəlir?!

Yağır çəpəki qar, doğrayır sazaq,
Sətəlcəm sinələr xırhaxırdadır.
Çadırda dünyaya göz açır uşaq
Qoy millət çoxalsın, Vətən dardadır.

Çadır mühitinə vərdiş etmə dur!
Sən ki, dərd əlindən çıxmısan dağa.
Özün bir nöqtə qoy, bir nöqtə qoydur,
Bu gün-güzərana, bu yaşamağa.

Uyuma, uyusan qarda donarsan!
Müdhiş rahatlığın ləzzətindən qaç!
Axı bu torpağın çoxunda varsan,
Azı çoxnan qaytar, çoxuna yol aç!

Yardım ayağıyla, yardım əliylə
Bu yol bir qarış da açılan deyil.
Bu yol açılacaq xalqın əliylə,
Bu badə yad əllə içilən deyil.

Fəqət həqiqətdir bu gün çadırlar,
Başımın altında balış yox, daşdır.
O üzgün qaçqınlar, süzgün çadırlar,
Tariximdə yaddaş, gözümdə yaşdır.

*14 dekabr, 1993*

## ÇADIRLARA ALIŞMAYIN

Cərgə-cərgə, düzüm-düzüm,
Görüb qan ağlayır gözüm...
Millətimə budur sözüm:
Çadırlara alışmayın!

Nə gen-bolu, nə də darı,
Nə qırışı, nə hamarı...
Yığışdırın bu bazarı,
Çadırlara alışmayın!

Vurun, deşin dolu kimi,
Qırın tikan kolu kimi,
Uzaqlaşın dəli kimi...
Çadırlara alışmayın!

Əski-üskü dam-daşımız?!
Burda xeyir-şər aşımız?!
Qaraçı da yoldaşımız?!
Çadırlara alışmayın!

Burda tapmayın rahatlıq,
Bir dəqiqə, bir saatlıq,
Aman günü! El-elatlıq...
Çadırlara alışmayın!

İmarətə tən olsa da,
Pəncərəsi gen olsa da,
Dövrəsi gülşən olsa da,
Çadırlara alışmayın!

Tayfa deyil, millətik Biz,
Bir evik, bir külfətik Biz,
Saraylara şöhrətik Biz
Çadırlara alışmayın!

Burum-burum qalxır tüstü,
Deməyiniz bu da bəsdi.
Məst etməsin sizi isti,
Çadırlara alışmayın!

Sən ey xalqım, ey diyarım,
Ey cavanım, ixtiyarım,
Ey didərgin balalarım,
Çadırlara alışmayın!

Barışqanlıq cinayətdir,
Lap bir anlıq – cinayətdir,
Alışqanlıq – cinayətdir,
Çadırlara alışmayın!

*3 dekabr, 1993*

## BELƏ OLMAZ

Cəbhə xəbərlərinə
Mən daha inanmıram.
Bu nə müharibədir?
Allah haqqı qanmıram.
Nisbi sakitlik nədir?
Belə məqam da var ki?
Düşmənə də bircə an
Aman vermək olar ki?
Gözləyirsən erməni
Azacıq nəfəs dərsin
Sonra yerdən və göydən
Başına od əndərsin?
Bu nə müharibədir
Allah haqqı qanmıram.
Həmzə həmzəliyində
Eyvaza inanmıram.
Həmzələşib Eyvaz da
Qardaş, belə olmaz da!

## YANIQ KƏRƏMİ

Ağla, ya ağlama,
Yanıq Kərəmi!
Sinəmi
Dağla, ya dağlama,
Yanıq Kərəmi!
İşlər belə getsə
Belə qalacaq.
Naləylə azalmaz
Millətin qəmi,
İşlər belə getsə.
Elə getməsə
Dünya belə qalıb,
Belə qalacaq.

Alıb qucağına
Qara baxtını,
Sazla səsləyirsən
Qarabağını.
Gönü suya verən
Ey dili qafil,
Bu iş bilirsən ki,
Saz işi deyil,
Yanıq Kərəmi!
Qorası sıxılan
Göz işi deyil
Yanıq Kərəmi!

Sazı köynəyə sal,
Apar küncə qoy.
Qılınca əl apar

Sazı dincə qoy.
Yanıq Kərəmi!
Döyüş səhnəsində
Meydana atıl,
Səhnə meydanından
Hələlik çəkil!
Silkələ beynini,
Qafa tasını.
Bəsdi Qarabağın
Qurdun yasını!
Hədər ümidlərin
Kəndirini kəs.
Xoşluqla qaytarmaz
Torpağı heç kəs!

Ağla, ya ağlama,
Yanıq Kərəmi!
Düşmən Qarabağda
Göyərdib zəmi...
Taxıl biçib-döyür.
Büllur sularımdan
Ovucla içir,
Oxx-ay da deyir.
Sən də, sən də ki,
Ağlamağında ol,
Çalmağında ol,
Baxıb yana-yana
Qalmağında ol!

Ay Əsliyçin yanan
Yanıq Kərəmi!
Qeyrət xəcaləti,
Namus sitəmi
Bəs niyə öldürmür?
Get qisas al da,

Get qan al,
Qisas al,
Gəl, sonra çal da.
İçin də özünü
Yandırır bu gün,
Çölün də özünü
Yandırır bu gün.
Odun da özünü
Yandırır bu gün,
Külün də özünü
Yandırır bu gün
Yanıq Kərəmi!
Vallah, Qara keşiş
Yaman geydirib
Ovsunlu köynəyi
Əyninə, yaman:
Açılır, bağlanır
Qızıl düymələr,
Tilsimli düymələr
Gör bir haçandan.

Ağla, ya ağlama,
Demirəm daha...
Ağlama, deyirəm
Yanıq Kərəmi!
Səni and verirəm,
Qadir Allaha,
Tilsimli köynəyi
Cırma, çəkib cır.
Tilsim düymələri
Qoparıban qır,
Qır, inamla qır!
İntiqamla qır!
Qır ki, qara baxtın
Boyansın ağa...

Yoxsa ki, yoxsa ki,
Əlində sazın...
Həsrət qalacaqsan
Sən Qarabağa
Həsrət qalacaqsan
Sən Qarabağa...
Qara baxtım
Deyə-deyə,
Qarabağım
Deyə-deyə,
Yanıq Kərəmi!

*7 iyul, 1995*

## YADDAŞIM

Unutmayaq 1905-ci ili...
18-in... yanğınına
Su səpməyək ha!..
Daha bəsdir... eşitməyək
“Dili qafili...”
Barışığa qol açmayaq.
Uçmayaq daha!
Qardaşlığın sağlığına
Arsız-arsız
Dibinəcən
İçməyək daha!

Olan-oldu,
Keçən-keçdi
Deməyək daha!
Qonşuluqda
Olan işdi,
Deməyək daha.
Yediyimiz
Xirtdəyəcən
Bəsimizdi, ah!...
Axmaq olub,
Maymaq olub,
Uşaq olub,
Yeməyək daha!
Yaddan çıxa bu qan-qada
Yaman qorxuram.
Körpələrim yandı oda
Yaman qorxuram.
Namusumun ləkəsini
Sellər də yumaz.
Namusumda ləkə qala,
Yaman qorxuram.

18-də Lənkəranım
Boyandı qana,
Qırğın düşdü
Şamaxıda – Əngəxərana.
Neçə obam, neçə elim,
Qaldı virana.
Qorxuram ki,
Acıdərə qucağındakı
Türkün qəbri yandığından
Qalxa üsyana.
Qan yaddaşım itəcəksə
İtəcəksə ah...
Xocalının
Ağlasığmaz müsibətləri
Erməninin ağlasığılmaz
Cinayətləri
Belə asan, belə sakit...
Bitəcəksə ah...

Sülh ayrıdır...
Təslim ayrı.
Kin ayrıdır,
Zalım ayrı.
Tükü tükdən demirəm ey!..
Tükü tirdən ayır,
Bəsdi.
Əsrlərin qəsdidi bu.
Sən bu qəsdə qarışdırma
Bir ötəri sui-qəsdi.

Bəsdi, bizi
Yapışqanla yapışdırdılar
Bir ötəri yığıncaqda,
Bir mərasimdə
İtələyə-itələyə
Öpüşdürdülər.
Öpüşəndə yadına sal

Murov dağını.
Əsirlərin xaç damğalı
Sinə dağını.
Öpüşəndə yadına sal
Şəhid qanını.
Viran olmuş
Azərbaycan xanimanını.

Bu söhbətdə heç kim
Mənim qahmarım deyil.
Unutqanlıq mərhəmətim,
Vüqarım deyil.
Məst etməsin
Danışıqlar badəsi bizi!
Çox sayıblar sadələrin
Sadəsi bizi.
Qan yaddaşım,
Can yaddaşım,
Vicdan yaddaşım,
Əcdadımın uyuduğu,
Övladımın böyüdüyü
Məkan yaddaşım,
Hüceyrəsi
Hüceyrəmin
Düşmənə
Nifrət yaddaşım
Korşalmasın!
Qisas-hiddət yaddaşım
Korşalmasın!
Hünər-qeyrət yaddaşım
Korşalmasın!
Allah, Allah...
Qətiyyət yaddaşım
Korşalmasın!

*6 aprel, 1995*

## NƏSİMİ BAZARINDA

Çeçen aullarında
Xalq torpaq vayındadır,
Sinəsində avtomat.
Nəsimi bazarında
Xalq qarın hayındadır
Əlində ölü manat.

Bomba yağmurlarından
Çeçen xərabələri
Xalqın şöhrət tacıdır.
Bir daşı laxlamayan,
Gəlməylə dolub daşan,
Qaçqınla dolub daşan,
Köçkünlə dolub daşan,
Veyillə dolub daşan,
Möhtəkirlə, qatillə,
Düşgünlə dolub-daşan,
Bu adlı-sanlı Bakı,
Tarixi şanlı Bakı
Sədəqə möhtacıdır.

Nəsimi bazarında
Vur çattasındı, vallah!
Babək də, Koroğlu da
Nağıl As-ındı, vallah!
Azərbaycan torpağı
Doludur generalla.
Bir general, ay çeçen,
Sənin bəsindi vallah...

Bir ovuc millətə bax,
Millətdə qeyrətə bax,
Sən bir qaşıq qana bax,
Bir qaşıq ümmana bax.
Yeddi başlı əjdaha
Başında tufana bax!

Nəsimi bazarında
Böyük Mirzə Ələkbər
Deyir ki:
Tərsinə yox,
Düzünə dövran edir
Elə çərxi fələklər.
Nəsimi bazarına
Çevrilib başdan-başa
Azərbaycan torpağı.
Hər eli, hər oymağı.
Əbəs yerə çəkmirəm
Nəsiminin adını
Əbəs yada salmıram
İnamın, kişiliyin
Fərhadlar Fərhadını!
Nəsimi dönməzliyi
Axtarıram, camaat!
Nəsimi sönməzliyi
Xalqa lazım bu saat.
Hədər misal çəkmirəm
Nəsimi bazarını.
Nəsimi bazarında
Görüb qan ağlayıram
Millətin ruzgarını.
Çeçen küçələrində
Körpə kamikadzelər
Dağ boyda tank üstünə
Fəda olmağa gəlir...

Nəsimi bazarında
Bizim də ki, uşaqlar
Cındır əski əlində
Maşınlara şığıyır,
Şüşə silməyə gəlir.

Nəsimi bazarına
Niyə Çeçenistandan
Əsmir odlu küləklər?
Atəşkəslə nə sayaq,
Sakit olsun ürəklər?

Bu qədər şəhid qanı,
Bu qədər şəhid canı
Hədərmi getdi, hədər?
Yad əllərdə mahallar
Yad əllərdə namus-ar...
Küləkdən şappıldayan
Çadırların sırası
Ana-bacı saçında
Bəlalar sırsırası
Şəhid deyil, nədir bəs?
Nəsimi bazarına
Əs, ey odlu külək, əs!
Əs, Çeçen diyarından!
Bəlkə tərpəniş görə
Xalq öz oğullarından...

Ay nə  bilim, nə bilim
Sındırdılar milləti,
Dondurdular milləti,
Yandırdılar milləti,
Keçməz bu bəhanələr!
Lap Cövhər Dudayevi
Doğrasalar da əgər

Nədir çeçenin həddi,
Nə həddi sına qəddi?!
Nəsimi bazarında
Dəyirman daşı kimi
Vallah hərlənir başım.
Yanıram-yaxılıram
Vallah, atam-qardaşım.
Nə qədər satmaq olar
Bu yaralı diyarı?
Nə qədər satmaq olar
Nəsimi bazarında
Humanitar damğalı
Sədəqə – yardımları?
Nə qədər batmaq olar
Yuxarıdan aşağı,
Aşağıdan yuxarı?!
Bəlkə çeçen qanından
Qan vuraq qanımıza?
Ya çeçen vicdanından
Vicdan calaq eyləyək
Sabirlərə dağ çəkən
Bu kor vicdanımıza?!
Qınama Vətən məni,
Nahaqqamsa qəbrə qoy,
Diri-diri sən məni.

Qınama, millət, məni,
Neyləyim, dilləndirir
Aşkar həqiqət məni.
Ağlar həqiqət məni.
Xalqın bu ruzgarında
Nəsimi bazarında,
Nəsimi bazarında...

*4 fevral, 1995*

## RƏQS

*Televiziyada "Əsgər poçtu" verilişinə baxarkən*

Rəqs eləyir arsız-arsız,
Bığlarını eşən mayor.
Əllərini belinə vurub
Döşəməni deşən mayor.
Rəqs... rəqs... rəqs...

Hərbçilər geyimində
Rəqs eləyir telli qızlar.
Bellərini qayış sıxan,
Qəşəng, incəbelli qızlar.
Küçələrdə körpə-körpə,
Uşaq-uşaq dilənçilər,
Gəlinlərin qucağında
Qundaq-qundaq dilənçilər.
Rəqs... rəqs... rəqs...

Toz qoparır cavan çavuş,
Gizir çırpır nağaranı.
Cərgələrdən qopur alqış,
Allah haqqı şillələrdim
Neçə dişi ağaranı.
Rəqs... rəqs... rəqs...

Əl çalır zal,
Şəhidlərin məzarına,
Qonur xəyal,

Məzarların gülzarına
Qonur xəyal.
Rəqs eləyir sütül əsgər.
Dırnağına daş dəyməyi
Kim istəyər?
Fəqət onu,
Axı kişi sanır şəhid,
Axı qisas həsrətiylə,
Yanır şəhid.
Axı hələ rəqsin vaxtı
Yetişməyib,
Uşaqların yaraları
Bitişməyib...
Rəqs... rəqs... rəqs...

Müqavilə,
Müşavirə,
– Buyur, – deyib
Torpaq vermir.
Zurna-qaval
Nə Laçından, nə Şuşadan
Soraq vermir.
Xocalının qisasını
Almaq üçün
Yaraq vermir,
Qara namus ləkəsini
Yumaq üçün
Bulaq vermir,
Gedən getdi, qalanların
Ürəyinə
Dayaq vermir.
"Əsgər poçtu" konsert verir
Çeçen dərsi nahaq vermir.
Rəqs... rəqs... rəqs...

Əsgər klarnet füləyir,
Ovurdları şişə-şişə.
Zurnaçılıq ayrı peşə,
Döyüşçülük ayrı peşə.
Bax yaralı torpağıma,
Nə yaraşır bu çağıma?
Rəqs... rəqs... rəqs...

Mən qətiyyət axtarıram
Zər ulduzlu paqonlarda.
Ağsaqqallar, ağbirçəklər
Can tapşırır
Daş üstündə daşa dönmüş,
Vaqonlarda.
Yığışdır, əl-ayağını!
Bəri gətir qulağını,
Sən döyüşlə almalısan,
Torpağını!
Sədəqətək qaytarsalar onu əgər,
Tarix səni lənətləyər...

Qarmonunu bəsdir zilə çəkmə görək,
Ətimizi tökmə görək,
Qızışdıqca yan-yörəni
Sökmə görək!
Gözlərini bir nəfərə
Dikmə görək!
Qələbə xalq işi olsun,
Olsun gərək.
Millət gərək kişi olsun,
Olsun gərək.
Rəqs... rəqs... rəqs...

*11 fevral, 1996*

## DƏNİZDƏ ADAM BATIB...

Gecənin bir aləmi
Tir-tir titrədi şəhər,
Qopdu çərçivəsindən
Qapılar, pəncərələr.

Sovruldu asimana
Yerin tozu-torpağı.
Şaqqıltıyla qırıldı
Ağacların budağı.

Xəyalım uçdu bu dəm
Uşaqlıq çağlarına
Əlçatmaz illərdəki,
Qumlu sahillərdəki
Pirşağı bağlarına...

O vaxt, o zaman haçan –
Haçan qopsaydı tufan,
Haçan, haçan ki, Xəzər
Nərildəsəydi nər-nər,
Rişəsindən qopsaydı
Yaşıl-yaşıl tənəklər,
Səma burulğanında
Çaşbaş olsaydı quşlar,
Yaylım atəşlərinə
Dönsəydi xırda daşlar.

Məsmə nənəm deyərdi,
Suğra anam deyərdi,

Fatma xalam deyərdi:
Xəzri qopmayıb hədər –
Qurban aparıb yenə
Qan-qan deyən ləpələr.
Dənizdə adam batıb,
Onunçun bir-birinə
Xəzri aləmi qatıb.
Ya da nahaq qan düşüb,
Bu bağlar arasında.
Qız üstündə cayıllar...
Uşaqlar arasında.

Ya hansı yekəbaşın
Ağız-burnu əyilib.
Allaha xoş getməyən
Artıq-əskik deyilib.

Xəzri Allah cahadı,
Xəzri Allah inadı,
Xəzri Allah üsyanı,
Çərxi fələk fəğanı.

Bəs niyə bu gün qopmur
Azərbaycanda xəzri?!
Təkcə Pirşağıda yox
Hər yer, hər yanda xəzri?!

Dağ-daş ahu-fəğandır,
Qurularım bir yana,
Yaşlarım yanhayandır...
Dolu zindanlarımız
Düşmənə ərməğandır!..
Gediş-gəlişlər hədər,
Danışıqlar gümandır.
Dənizdə cür'ət batır

Qət`i qətiyyət batır.
Kişilik axtalanır,
Qan dəryası daşmayır.
Neçin ki, laxtalanır...
Yerə, yurda dağılıb
Tökülmüş dəndi birlik,
Pərən-pərəndi birlik.
Lüzum varkən yumruğa,
Lüzum yoxdur buyruğa.

Çıxır suyun üzünə
Cinayətlə, xəyanət.
Batır suyun dibinə
Abır-həya, ləyaqət.

Dənizdə saya gəlməz
Dilənçi uşaq batır.
Gələcək nəsil batır,
Günəşli sabah batır.
Didişmə güdazına
Verilmiş torpaq batır.

Dənizdə adam batmır,
Dənizdə millət batır.
Şan batır, şöhrət batır,
Kim-kimi bəyənməyir,
Əli tətikdə hazır.
Kim-kimi bəyənməyir
Qətlinə fərman yazır.
Batmış qanlar bürüyüb
Bu gün dağı-dərəni.
Ay Allahın cahadı,
Əs, ey dəli tufanım,
Dəyiş bu mənzərəni!

Təyyarədən satqınım
Enir qolları bağlı.
Cəza cəza yerində
Baxıb xəcalət çəkir
Vətən sinəsi dağlı.

Məscid məscid dibində,
Məscid işbaz cibində.
Yox, Allah evi deyil
Bu Allah evcikləri.

Xəzri, yerlə-yeksan et
Bu haram evcikləri.
Bu bədnam evcikləri,
Bu günah evcikləri,
Bu tamah evcikləri.
Bu bəladan hamını
Xilas et, qopar, Xəzri!
Xalqı qat qabağına
Cəbhəyə apar, Xəzri!

Dənizdə adam batıb,
Yenə də bir-birinə
Xəzri aləmi qatıb.
Pirşağı bağlarında,
Uşaqlıq çağlarında
Rəhmətliklər deyərdi...
Rəhmətliklər nə yaxşı
Görmədilər bu dərdi.

*22 aprel, 1996*

## ÜMİD SƏNƏDİR  ANCAQ...

Uzanır danışıqlar,
İmzalanır sənədlər.
Xəritədə aləmə
Göstərilir sərhədlər....
Səsimizə səs verir
Dünya başbilənləri;
Ümid sənədir ancaq,
Azərbaycan əsgəri!

Dəyirmi masalarda
İzi var dirsəklərin...
Ağlasığan söhbəti,
Sözü var dəstəklərin.
Yardım bağlamasında
Özü var dəstəklərin.
Lap ləl-cavahir olsun
Hər yardımın dəyəri...
Ümid sənədir ancaq,
Azərbaycan əsgəri!

Diplomat cənabların
Hər biri hörmətlidir.
Bu məqamda ölkəmə
Təşrifi qiymətlidir.
Səyi təqdirə layiq,
Rəyi ədalətlidir.
Gözdən-nəzərdən salan
Kimdir ki, bu işləri?
Ümid sənədir ancaq,
Azərbaycan əsgəri!

İşğal altında qalır
Torpağımız-daşımız,
Nələr görmür gözümüz,
Nələr çəkmir başımız.
Qarışıb bir-birinə
Baharımız-qışımız.
Çadır göstərmək olub
Hər çatana peşəmiz...
Sərgi olmasın deyə
Bu Mil-Muğan düzləri
Ümid sənədir ancaq,
Azərbaycan əsgəri!

Ali qonaqlar gəlir
Dünyanın hər yerindən.
Ürək yanır, göz dolur
Şəhid qəbirlərindən...
Düşünüb daşınıram
Özlüyümdə dərindən:
İntiqam ala bilməz,
Qana qan ola bilməz
Məzarları bəzəyən
Ehtiram çiçəkləri...
Ümid sənədir ancaq,
Azərbaycan əsgəri!

Söhbətlər çözələnir,
Bir şey görünmür hələ,
Hey`ətlər təzələnir,
Bir şey görünmür hələ.
Müddətlər təzələnir,
Bir şey görünmür hələ.
Açılmır ki, açılmır
Düyünü bu torpağın.
Qov alışa bilərmi,

Od saçmasa çaxmağın?
İldırımlardan belə
Umma bu zərrələri.
Ümid sənədir ancaq,
Azərbaycan əsgəri!

Sülhə qurban kəsərəm,
Mən də qan istəmirəm.
Təzə-tər qərənfilli
Xiyaban istəmirəm.
Tükənir səbrim fəqət,
Sazişlər,
Qətnamələr,
Bəyanətlər
Kifayət!
Ziyafətlər
Kifayət!
Ziyafət dumanında
Nəzakətlər kifayət!
Yurdsuzlara yurd olan
Biyaban istəmirəm!

Yellənsin sülh bayrağı,
Bu bayrağa kəm baxan,
Həm baxmayan,
Həm baxan
Bədgüman istəmirəm,
Sevindirsin milləti
Qoy sülhün şad xəbəri,
Ümid sənədir ancaq,
Azərbaycan əsgəri!

*1996*

## HAVA NECƏ OLACAQ

Hava necə olacaq
Laçında-Kəlbəcərdə?! –
Salma təzədən məni
Bu xəbərinlə dərdə.

Seyr et dərdli Vətənin
Sən abi-havasını.
Satılmış Qarabağın
Kim çəkir səfasını?!

Get, ey odu söndürüb
Küllə oynayanlarım.
Toyda-vayda pıqqapıq
Daşıb-qaynayanlarım!

Qoruduzmu havanı,
Qoruduzmu iqlimi?
Niyə azdırırsınız
Düşüncəmi-əqlimi.

Şelliyə, Gülablıya
Qırov düşəcək, ya qar?
Səlamət çıxacaqmı
Yaza bağçalar-bağlar?

Səhər iyirmi-otuz
Axşam on beş dərəcə.
Lap olsun qırx beş-əlli,
Göydən od yağsın gecə.

Bu gün, bu saat, bu dəm
Bunun sənə nə dəxli?
Əsarətdə inləyən
Çöl-çəmənə nə dəxli?

Bu hava məlumatın,
Yox, tavakabab deyil,
Havakababdı qardaş!
Öz-özünü aldatmaq
Yaman əzabdı, qardaş!

"Tutulub-açılacaq
Bu gün Şuşada hava".
Sənə nə var tutulub-
açılacaq, binəva?!

Ağ yağış çimdirəcək
Cəbrayıl çinarını,
Sabir Süleymanovun
O yetim məzarını,
O dustaq məzarını…

Dayan görüm, ey, dayan!
Mənə ayrı xəbər ver
Zəngilan-Qubadlıdan.
Söyləmə ki, Ağdamda
Hava necə olacaq?
Söylə Ağdam uğrunda
Dava nə vaxt olacaq?
Dava necə olacaq?

Füzulinin adını
Daşıyan torpağı ver!
Hava sorağı vermə
Qələbə sorağı ver!

Get, haqq-hesabı çürüt
Satqın nəfərlərinlə.
Bəsdi, xalqı hərrədin
Hava xəbərlərinlə.

Yad əllərdəsə torpaq
İstiliyi isitməz,
Soyuqluğu soyutmaz.
Bu saat ancaq, ancaq
Qətiyyətdən ver soraq!
Ayrı söhbət, ayrı söz
Qəlbimizi ovutmaz.

*1996*

## HARAY, TƏLƏSİN, GƏLİN!

Hamı – Cıdır düzü –
Deyib dayanır.
Hamı – Şuşa – deyib
Alışır-yanır.
Ancaq ki, qanan da,
Qanmaz da qanır;
Sən get ha sinə vur,
Ha mərsiyə de:
Vətən talanır! –
Çoxu bu harayı
Vızıltılı sanır –
Milçək vızıltısı,
Vətən naləsi –
Adam xəcalətdən
Ölür... utanır...

Əşşi, nankor deyil,
Düşmandı qonşu.
Səmumdan beşbetər
Tufandı qonşu.
Sən gül yarpağında
Əlvan kəpənək...
Zirehdi, qılıncdı,
Qalxandı qonşu.
Dağımda qapqara
Dumandı qonşu,
Bağımda sapsarı
Xəzandı qonşu,
Qanıma-canıma
Susandı qonşu.

Yerimə, yurduma
Dadandı qonşu.
Əf`idən də əf`i
İlandı qonşu.
Sən də deyirsən ki:
Bəlkə sülh ola…
Usandı, utandı,
Dayandı qonşu?
Arzu yaxşı şeydir,
Dilək gözəldir.
Arzuyla döyünən
Ürək gözəldir.
"Gün o gün olsun ki..."
Demək gözəldir.
Xəyalplovdansa –
Bir dağ aşıran
Vallah, bircə tikə
Çörək gözəldir.
Duayla qələbə
İstəməkdənsə
Qələbə naminə
Ölmək gözəldir.

Ağ bayrağa dönüb
Bayrağı sülhün,
Həm də cidarlanıb
Ayağı sülhün.
Boş şeydi – yoxdusa
Yarağı sülhün.
Yalnız qol gücüdür
Dayağı sülhün.
Sonsuz gəlin kimi
Bəs nə vaxtacan
Qundaqsız qalacaq
Qucağı sülhün?!

Böyüklü-kiçikli
Rəqs edir hamı.
Durub gözləyən yox
Heç bir bayramı
“Çal-oyna” çaşdırıb
Bütün adamı...
Üzlərdə-gözlərdə
Yoxdu zərrəcə
Qəzəb qığılcımı,
Qisas eyhamı
Bu dərddən-bəladan
Xilas eyhamı.

Vətən əldən getsə
Nə şah, nə vəzir?!..
Namusa-qeyrətə
Duraq müntəzir!
Nə dua, nə səna
Nə niyaz-nəzir?!
Soyuq biganəlik
Milləti pozur...
Söz cəng-cidalında
Ağızlar qızır...
Deyinə-deyinə
Camaat gəzir:
Kremlə sadəlövh
Məktublar yazır...

Başının altınnan
Tulla balıncı,
Dillə yox,
Dur əllə
Götür qılıncı!
Bütöv bir millətə
Ötür qılıncı!

Son qisas həddinə
Yetir qılıncı!
Kafərlər qanına
Batır qılıncı
Ya da itkin düşən
Qız-gəlinimtək
Əlinnən salıb da
İtir qılıncı...

Bu qədər çal-çağır,
Bu qədər vur-hay
Efirdə, ekranda
Axı nə gəzir?
Düşmən Xocalıya
Raketlər düzür...
Yansın baxışlarda
Döyüş atəşi.
Səfərbər etməli
Eli-mahalı,
Dəyişsin millətin
Halı-əhvalı.
Yığıb-yığışdıraq
Hırıltıları,
Yığıb-yığışdıraq
Zırıltıları,
Gileyi-güzarı,
Qırıltıları.

Cəbhəyə açılsın
Neft kəməri...
Bütün üzükləri,
Bilərzikləri
Satıb topa verək,
Tüfəngə verək.
Bəsdi də nə qədər

Biz əngə verək?!
Biz də raket alaq,
Biz də tank alaq.
Düşmənlə döyüşdə
Barı tən qalaq.
Halalı-harama
Qataq, razıyam.
Təki bir məqsədə
Çataq, razıyam.
Bakıya tuşlanır
Raketlər, gəlin!
Şirkətlər, tələsin!
Marketlər, gəlin!

*22 mart, 1997*

## SÜMÜKLƏR

Kəfənsiz,
Dəfnsiz
Adsız sümüklər.
Ünvansız, ocaqsız
Odsuz sümüklər.
Səpilib dünyanın
Hər bucağına,
Doğma torpağına,
Yad torpağına,
Qumlara, sulara
Səpilib gedib,
Əlli cür diyara
Səpilib gedib.
Nə məş’əl,
Nə məzar,
Nə xaç, nə dua.
Eh... tələm-tələsik
Üstü örtülən
İnsan sümüyüylə
Doludu dünya...
Vəhşi Kalımadan
Xocalıyadək
Yerə sümük-sümük
Sancılıb insan.
Şirmayıya dönüb
İncəlib insan.
Məzarsız şəhidlər,
Hardasınız siz?
Harda sürmə olub
Sümükləriniz?

Torpağa asta bas
Ayağını, dost!
Torpağa yaxın tut
Qulağını, dost!
Tayqadan, Sibirdən
Narginə qədər
Dinlə gör nə deyir
Adsız sümüklər.
Əbədi məş'əlsiz,
Odsuz sümüklər
Uraldan, Pamirdən
Murova qədər
Kəfənsiz, dəfnsiz
Məchul sümüklər,
Ağlayanları yox
Məlul sümüklər.
Çox şükür, bir Cavid
Qayıtdı yurda...
Minlərcə cavidlər
Düzlərdə qalır.
Kövrək bir təsəlli
Tapsam da burda
Gözüm izi itmiş
İzlərdə qalır.
Dünya sularında
Narginlər nə çox
Hər Nargin bir zindan
Şəkki-şübhəm yox.
Mən öz Narginimin
Dövrəsindəyəm,
Mən öz nisgilimin
Çevrəsindəyəm.
Əhməd Cavadımı
Axtarıram mən.
Sınıq qanadımı

Axtarıram mən.
Almas İldırımı
Axtarıram mən.
Baxtı uçurumu
Axtarıram mən.
Mikayıl Müşfiqi
Axtarıram mən.
Sümükləri pünhan,
İşığı aşkar
Əbədi şəfəqi
Axtarıram mən.
Şəhid məzarları
Sıra-sıradır
Hər məzar köksümdə
Qanlı yaradır.
Məzarsız şəhidlər,
Dərd sizsiniz, siz!
Sümükləriniz
Şölə çəkir şamtək,
Əriyir şamtək
Əriyə-əriyə ərimәyəcək!
Kəfənsiz,
Dəfnsiz
Adsız sümüklər
Məş'əlsiz, alovsuz
Odsuz sümüklər.
Doğmasız sümüklər,
Yadsız sümüklər.

*10 may, 1997*

## OTUZ YEDDİDƏ

Yazıçı Seyid Hüseyn
Satmadı bir nəfəri
Otuz yeddidə.
Ədibi sındırmadı
Cəllad işgəncələri
Otuz yeddidə.
Biri birini çoxu
Satdı otuz yeddidə.
Satan da, satmayan da
Batdı otuz yeddidə.
Otuz yeddidə satdı
Biri birini hamı.
Yazıçı Seyid Hüseyn
Satmadı bir adamı.
Qorxudan bir-birinin
Çoxu üzünə durdu.
Ruhullasa dişiylə
Tac damarını qırdı...
Çoxu nakişi oldu,
Çoxu çıxdı naxələf,
Satqınları hamıdan
Əvvəl etdilər tələf.
Satqınlar canlarını
Satın almaq istədi.
Can şirindir, neyləsin
Diri qalmaq istədi.
Diri qalmaq bir ayrı,
Yaşamaq ayrı söhbət.

Bir var dipdiri ləkə,
Bir də var əbədiyyət.
Müşfiqin işgəncəyə
Nə qədər çatdı tabı?
Götürdümü üstünə
Atılan o çirkabı?
Bu kəmfürsət
O cəlladdan
Daha da beşbetərdi.
Görən otuz yeddidə
Kəmfürsətim nə qədər
Cəlladım nə qədərdi?!

*23.02.1999.*

## ÇAXMAĞI ÇƏK

*Sabir Rüstəmxanlıya*

Çaxmağı çək,
Çırağı yandırmamışam.
Qaranlıq vicdanları,
Zülmətsevər insanları
Nura boyandırmamışam.
Çaxmağı çək,
Yansın ürəklərin qurdu,
Qaradan-quradan təmizləyək
Ana yurdu.

Bu çaxmaq ayrı çaxmaqdır,
Bunu kim bilməz – axmaqdır.
Çaxmağı çək,
Qığılcımlarından
Dan sökülsün,
Səhər gülsün,
Dünyadan
Əli üzülənlər gülsün.
Çaxmağı çək,
Oynamaq istəyirəm,
Damarlarımın
Donu açılıb,
Qaynamaq istəyirəm.
Çaxmağı çək,
Oynasın qızlar-oğlanlar.
Qaranlıq xəlvətlərdə
Bıçaqlaşmasın
Ağılsız dəliqanlılar.

Çaxmağı çək,
Qığılcımlar səpilsin
Ulu Sabirin məzarına,
Vətənin-xalqın
İşıqsız ruzgarına.
Əlacsız yürüşlərə,
Piketlərə
Yerlə yeksan daxmaların
Xərabəsinə,
Təzə məscidlərin
Minarəsinə.

Çaxmağı çək,
Toy şamları yansın.
Əhd-peyman
Beş günlük yox,
Ömürlük qaynaqlansın.

Çaxmağı çək,
Yansın
Yalançılar,
Böhtançılar,
Talançılar.
Hörümçək toru
Zirzəmi divarında,
Gəmi anbarında
Yoxdu bu gün.
Haram imarətlərin,
Haram əzəmətlərin
Tavanındadır.
Haram yeyənlərin
Vicdanındadır.
Çaxmağı çək,
Bünövrəsindən
Yansın haram.

Hörümçək torunu
Özüm də
Süpürüb salaram.

Çaxmağı çək, Sabir!
Oynasın iki şair.
Biri cavan,
Biri qoca,
Biri yüksək,
Bir uca.
Bəlkə
Arsızlığa
Qoymuşam özümü?
Çaxmağı çək,
Qamaşdır
Bu işlərdən
Su içməyən gözümü.
Düyün açılmayanda
Kəsilər.
Kəsilməyəndə
Oda tutular.
Çaxmağı çək,
Odla açaq düyünləri.
Nə yaxşı ki,
Allah bizə çox görməyib
Bu toyları, düyünləri...
Çaxmağı çək,
Çırağı yandırmamışam,
Çək, Sabir,
Çaxmağı çək!

*25.07.1999.*

## – LAZIM GƏLSƏ...
## – LAZIMSAN DƏ!

Deyirsən ki: – Lazım gəlsə hazıram
Qəsb edilmiş bu torpağı almağa.
Vallah-billah eşitməkdən bezirəm,
Hapla-gopla Qarabağı almağa.

Qənşərimdə lay divarsan, lay divar.
Şir kimisən od saçılır gözündən.
Lazımsan də... bu lazımın vaxtı var?!
Düz demirəm? Nə çıxırsan özündən!

Bəbəyinin içinəcən yalansan.
Keyf-damağın, ticarətin mərəkə.
Sən Bakıdan çıxıb torpaq alansan?
Badamdarda imarətin mərəkə.

Şan-şərəflə "mən qaçqınam" deyirsən,
Əsl qaçqın ilanmələr çöldədir.
Min boynuma, çox sinənə döyürsən.
Tifil qaçqın Muğandadır, Mildədir..

Restoranın "Şuşa" qoyub adını,
Söylə, bumu təəssübün, həsrətin?
Get körüklə manqalının odunu,
Lazım gəlib... ancaq yoxdu qeyrətin.

– Qurban olum Kəlbəcərə, Laçına,
Lazım gəlsə qan uddurram yağıya.
– Get bir yol gir çadırların içinə,
Gir, qulaq as oxşamaya, ağıya.

Bir gör nədən çıxardırsan pulunu.
"Şuşa", "Laçın" – qiyamətdir reklamın...
Unut girov gəlinini, dulunu,
Tez-tez de ki: – Lazım gəlsə, inanın!

Əsl qaçqın dağ üstündən dağımdır.
Xəcalətlə baxır sənin boyuna.
Fərarilər yağıdan pis yağımdır.
Yox, gəlmərəm fərarinin toyuna,

Əsl qaçqın nənə, baba, körpədir,
Körpələrin yox nənnisi, beşiyi.
Lazımsan də... bəs görmürsən bu nədir?
Bir qaçqının varmı evi-eşiyi?

Yolda, izdə qabağımı kəsirsən,
Soruşursan: – Nə olacaq axırı?
Cavabımda qəzəbindən əsirsən.
Üzə çıxır mis qazanın paxırı.

Lazımsan də!.. Nə gəzirsən bazarda?
"Qaçdı-tutdu" oynasınlar səninlə?
Torpaqları tapdaq olan diyarda,
"Qaçqın" deyib neyləsinlər səninlə?

Barmaq saylı Çeçen xalqı qəhrəman,
Dağı-daşı partizandı davada.
Qaçqınsansa sən bu saat, sən bu an,
Qeyrətə gəl, boş-boş gəzmə havada.

Xoruz kimi kəkələnmə o saat,
Bir doğru söz toxunanda şəstinə.
Lazımsan də... düz deyil, ay camaat?
Düşmən durub vətənimin qəsdinə.

Mən Ağdamdan gül fəslində çıxanda,
Dedim: "Arif[1], segah üstə qəzəl de".
Ayrılığın buludunu sıxanda,
Familin[2] də göz yaşları süzüldü.

İstəyirsən orda hazır olasan,
Qoşun-ləşkər qaytaranda torpağı?!
Qarabağda sənə lüzum olmadan,
Yellənəndə Azərbaycan bayrağı?!.

Deyirsən ki: – Lazım gəlsə hazıram,
Qəsb edilmiş bu torpağı almağa.
Vallah-billah eşitməkdən bezirəm
Hapla-gopla Qarabağı almağa.

*12.09.1998.*

---

[1] Xanəndə Arif Babayev
[2] Şair Famil Mehdi

## SAGALMADI YARAN, BALAM!

Qəbrin üstündə bir ana
Ağı deyir yana-yana:
“Sağalmadı yaran, balam,
Həkimlərə yalvaran balam”.

Görəsən sağalmadı?
Ya sağaltmağa
Can atmaq istəmədilər?
Görəsən yaşaya bilərdi ki...
Yaşatmaq istəmədilər?!
“Sağalmadı yaran, balam,
Həkimlərə yalvaran balam”.

Görəsən əcəli çatdı,
Ömrü qurtardı, sağaltmadılar?
Ya təmənnaları vardı –
Sağaltmadılar?!
“Sağalmadı yaran, balam,
Həkimlərə yalvaran balam”.

Ananın gözlərindən
Yağış tökürdü... yağış.
Görəsən
Gərəkliydi-gərəksizdi
Bu yalvarış?
İş-işdən keçmiş – fələksizdi
Bu yalvarış?
Görəsən həkimlər
Acizdi...
Ya nacinsdi?!

Qəbrin üstündə bir ana
Ağı deyir yana-yana:
"Sağalmadı yaran, balam,
Həkimlərə yalvaran balam".

*15.07.1999.*

## ODA DÜŞƏRLƏR, YADA DÜŞƏRLƏR

Buruq saçlı, gülər üzlü,
Sinəsi qızıl ulduzlu,
Gözləri mavi,
Əzrayılı səmavi
Kosmonavt Komarov.
Fikrimə hardan düşdü,
Hansı axardan düşdü
Bu dəqiqə, bu saat?!
Kainatda xəyalim,
Xəyalim kainatda.
Raket bülənd odlu
Yana-yana, içində
Kosmonavt Komarov.
Raket əriyib töküldü asimana
İçində kosmonavt Komarov.
O getdi
İkinci ulduzu dərməyə,
Allahı bir də görməyə.
Nə ulduzu dərə bildi,
Nə Allahı görə bildi.
Hər gülü
Bir ulduza döndü,
Ulduzlar içində
Qaldı Komarov.
Əbədiyyətin, sonsuzluğun
Qanadlarında
Ucaldı Komarov.
Odlar diyarına
Gəlmişdi Komarov.
Gəlmişdi,

Şıxəlinin qonağı olmuşdu.
Odlu iqbalını
Bildi Komarov...
Bu odlu, atəşli,
Alovlu torpaq.
Səməndər ömrünün,
Səma ömrünün
Müdhiş falı olmuşdu,
Sınağı olmuşdu.
Birinin məzarı
Xiyabandadır,
Birinin məzarı
Asimandadır.
Yerlə-göy birlikdə
Kainatımız.
Elə Şıxəli də
Kosmonavtımız.
Göyərçinlər qonur
Qız qalasına.
Bütün quşlarınsa
Ruhdur bir adı,
Dualar oxuyur öz balasına.
Yerdə də, göydə də,
Bəşər övladı.
Qorxudan-ürküdən
Azad olanlar,
Amalı yolunda
Fərhad olanlar.
Vətənə-millətə
Övlad olanlar
Yerdə də, göydə də oda düşərlər,
Oda düşərlər...
Yada düşərlər...

*14.07.1999.*

## BAĞLI QAPILAR

Söylə, nə deməkdir
Bağlı qapılar?
Bağlı qapıların
Dalında nə var?

Bir açar yeri də
Yoxdur ki, baxım.
Haradan boylanım,
Haraya çıxım?!

Qəribə söhbətdir,
Qəribə işdir.
Bu da dəbə düşmüş
Təzə gedişdir.

Kim hansı ölkəyə
Gətirdi təşrif –
Dərhal bağlı qapı
Edilir təklif.

Çox saya alınmır
Səviyyə filan:
Hə... təki söz getsin
Bağlı qapıdan.

Tikanlı məftillər
Gözə girəndə,
Sərhədçi sərhəddə
Sinə gərəndə.

Berlini ikiyə
Böləndə hasar,
Nəhəng bir ölkənin
Qapılarından
Eyzən sallananda
Batman qıfıllar.

Təbii fəlakət
Gizlədiləndə,
Dövləti cinayət
Gizlədiləndə.

Təyyarə qəzası
Gizlədiləndə,
Bir rəhbər xətası
Gizlədiləndə.

Bir gəmi dəryada
Batanda – pünhan,
Katib xəstələnib
Yatanda – pünhan...

Dəmir pərdələrin
Kor kəsafəti
Ört-basdır edəndə
Çox həqiqəti.

Qulaq pıçıltıya
Adət edəndə,
Xalq qadağalara
Nifrət edəndə...

Nəydi bağlı qapı?
Bilən deyildik.
Qapı güdmək üçün
Ölən deyildik.

Sadəcə – hər sirrin
Öz dağarcığı,
Bəli, senzor da ki
Söz dağarcığı.

Sual verirdin ki,
Cavab alasan?
Gedib orda-burda
Zurna çalasan?

İndi hər şey açıq,
Hər şey aşikar.
Aşikar içində
Bağlı qapılar?!

Vallah çox əmmalı
Görünür mənə.
Yaman müəmmalı
Görünür mənə.

Bağlı qapıların
Dalında nədən –
Nədən söhbət gedir
Baş tapmıram mən.

Əgər xeyirdisə
Xeyrini görək,
Təki belə olsun –
Öz-özümüzə
Qoy lap aldadıcı
Təsəlli verək.

Bəlkə xəyanətin
Hörülür toru?
Bağlı qapıların
Arxasında bəs?

Bəşərin küt deyil
Zehni-şüuru.
Yaxşı əməlləri
Gizlətməz heç kəs.
Qaynar nöqtələrdə
Qan tökülür, qan.
Səs-səmir gəlməyir
Qapı dalından.

Bağlı qapıları
Açın taybatay.
Təklənmiş millətlər
Qoparsın haray!

Bağlı qapıları
Açın – sındırın!
Xəyanət imzalı,
Namərd möhürlü
Yazını-pozunu
Yığın, yandırın!

Bir milyon qaçqınım
Zillət içində.
İntizar içində,
Möhnət içində.

Qurulan şey yoxdu
Qapı dalında,
Qırılan şey çoxdu
Qapı dalında.

Nə inam qalıbdır,
Nə də etibar.
Biryolluq bağlansın
Bağlı qapılar!

Düşmən tapdağında
Torpağım əsir.
Bağlı qapıların
Dalındakılar
Beh verir, beh alır,
Məzəndə kəsir.

Suallar cavabsız
Qapılar bağlı
Canilər cəzasız,
Yarlı-yaraqlı.

Bağlı qapıların
Dalında, vallah,
Cırmaq yerinə də
Məlhəm qoyulmur.

Bağlı qapıların
Dalında, vallah,
Haqqın-ədalətin
Sözü deyilmir.

Haqlı şikayətin
Sözü deyilmir.
Heç bir cinayətin
Sözü deyilmir.

Qanlı kazinodur
Bağlı qapılar.
Bağlı qapıların
Dalında qumar.

Bağlı qapıların
Arxası dəhşət.

Elə orda köpdü
O boyda dövlət.

Nüvəyə güvənən
Möhtəşəm diyar.
Qapı dalındaca
Oldu tarimar.

Pozuldu bəzəyi,
Söndü növrağı.
Xəyala gəlmədən
Endi bayrağı...

Bağlı qapıların
Arxası duman,
Dumanlar içində
Görünmür güman.

*01.02.1999.*

## BU KÖKDƏ, BU PƏRDƏDƏ...

Şairciklər yetişdirib
Faciəsi Qarabağın;
Bax bu da bir faciəsi
Bu millətin, bu torpağın..
Nə əyri, nə düz bilənlər,
Nə çox, nə də az bilənlər;
Nə saz bilib aşıq olan,
Nə söz bilib şair olan
Çalmağında, yazmağında
Ekran-ekran,
Efir-efir,
Qəzet-qəzet,
İclas-iclas gəzməyində.
İmlasında əlli qüsur,
Cümləsində əlli qələt,
Bax budur ha gülünc, dəhşət...
Şeir yazır ağıllısı-dəlisi də,
Şair olub əlisi də, vəlisi də.
Doğrudur ki,
Dərd adamı dilləndirər,
Hansı sözü hədər deyib
Müdrik ellər?!
Dərd adamı düşündürər
Daha dərin...
Dərd başından aşmayıbmı
Dağdan ağır kişilərin?!
Dərd adamı alim edər,
Dərdə çarə yol axtarar;
Dərd adamı düşməninə

Zalim edər,
Həzrət Abbas qollarıtək
Qılınc vuran qol axtarar!
Şairciklər!
Qarabağın partizanı
Gərək mənə!
Qrafoman küyçüsü yox,
Şanlı qılınc qəhrəmanı
Gərək mənə!
Bəsdi, sürtük nəzmə çəkdiz
Qarabağın ruzgarını!
Yığışdırın
Cızma-qara bazarını!
Rahat qoyun şəhidlərin məzarını!
Anaların göz yaşına
Su qatmayın,
Yaraları
Naşılıqla qanatmayın!..
Şair olmaq olmaz-olmaz,
Yox! Bu kökdə, bu pərdədə.
Heç bir hava çalmaq olmaz,
Yox! Bu kökdə, bu pərdədə.
İlham başqa... fürsət başqa;
Məqam başqa... sənət başqa.

*1997*

# KİPR

Kipr, zümrüd sular
Qoynunda-qoynunda,
Kipr, zümrüd bahar
Qoynunda-qoynunda.
Kipr, layiq vüqar
Tacında-tacında
Ay-ulduzlu diyar
Tacında-tacında.
Kipr namərd
Dumanında-dumanında.
Yanılsın cəmi namərdlər
Gümanında-gümanında.
Kipr millət
Amanında-amanında
Əsl qeyrət
Amanında-amanında.
Bir gün türkün
Cəlalında-cəlalında
Sabah ərzin
Vüsalında-vüsalında.
Kipr ibrətdi-ibrətdi
Batanlarçın-yatanlarçın.
Bu azad Kiprə fikrində
Xəyalında çatanlarçın,
Çatanlarçın.

## ATATÜRKÜN HEYKƏLİ

Kiprin ay-ulduzlu torpağında
Dörd fəslin dördündə də
Baharlı-yazlı torpağında
Bu torpağın
Buludlara dirənən
Ən uca dağında
Atatürkün heykəli
İftixarla dayanır.
Gecələr gündüzlərin işığına boyanır
Şah vüqarla dayanır.
Seyr edir millətinin
Əzmini-qeyrətini
Yenilməz mənliyini,
Qüdsi heysiyyətini.
Heykəllərlə doludur
Yer üzü başdan-başa,
Atatürkün heykəli
Deyil adi tamaşa.
O hürriyyət rəmzidir
Cümhuriyyət rəmzidir.
Türkün bərabəri yox
Yer üzündə, dünyada
Türk öz vətəndaşının,
Yarının-yoldaşının
Harayına yetişdi.
Fövrən çətində-darda
Qoymadı qərq olsun o
Bu aralıq sularda.
Atatürkün heykəli
Ən zirvədə bərqərar
Ayaqları altında
Cənnət misallı diyar.

## HACI

*Səfər yoldaşımız, ustad  jurnalistimiz*
*Hacı Hacıyevə*

Qaraqabaq, acıdil
Hacı Bakıda qaldı.
Kiprdə allah haqqı
Hacı şəkərdi-baldı.

Hamıyla şirin-şirin
Deyib-güləndi Hacı
Kiprə Bakıdan deyil,
Göydən gələndi Hacı.

Kiprin daşı-torpağı
Hacını məlhəm etdi.
Səfər yoldaşlarının
Cəminə məhrəm etdi.

Oylağımız Çatal köy
Otelimiz  Dədəman
– Qardaş olma, yoldaş ol!
Qalıb dədə-babadan.

Yeddi gün, yeddi gecə
Yazıldı ömrümüzə
Gülüşlər, zarafatlar
Məzəli əhvalatlar
Mirvaritək, incitək
Düzüldü ömrümüzə.

Qulluğumda dayandı
Hacı o günlər inan

Ancaq ki, olmasaydı
Başımızın üstündə
Bircə o saxsı güldan.

İstədim restoranda
Toxunam o güldana
Dedi: – Qoy oturmuşuq,
Salarsan bizi qana.

Aralıq dənizinin
Suları dumdurudur
Belə yerlər insanın
Əhvalını duruldur.

Əlli ildi Hacını
Tanıyırdım sən demə
Əlli ildi Hacını
Tanımırdım sən demə.

Şad ollam evlərində
Hacını səhv salalar
Bu acıdır, Hacıdır?
Mat-məəttəl qalalar.

Lap qardaşı qardaşa
Bağlayır ruhu türkün.
Kiprdən ayrılırıq
Ovqatımızda eyzən
Çağlayır ruhu türkün.

## SALAM , OTELLO!

Salam, Otello, salam!
Hal-əhval?
Ey tunc general!
Həm sadəlövh,
Həm cəsur,
Həm də
Qorxunc general!

* * *

Gəlmişik o yerə ki,
Orda sən qan elədin.
Bir mirvari tapmışdın
Onu nihan elədin.

* * *

Pələng hənirtin gəlir,
Gəlir qulağımıza
Dezdemona yalvarır
Düşür ayağımıza,
Söyləyir günahsızam.
O qara əllərinlə
Söndürülür bəyaz şam.
General!
Sənə kar etmir ancaq
Bu yalvarış, bu məlal.

* * *

Uydun fitnə-fəsada
Onu da...
Özünü də
Nahaqdan verdin bada.
Düşdün Yaqo toruna
Düşdün yağı toruna
Güc verin qol zoruna
Gözünə qan sağıldı
Eh... bu qədim nağıldı.

* * *

Sən Kiprin sərkərdəsi
Səsin zor kişi səsi
Qara ərəb Otello!
Bugünkü Yaqolara
Yağdır qəzəb, Otello!
Gəl ki, Türkün  Kiprini
Qətiyyətinlə tanı
Belə qoyub getmişdin
Sən məyər bu adanı,
Sənin qoyub getdiyin
Ada hanı, bəs hanı?!

* * *

Litvalılar səslənsin,
Şeypurlar çəksin zilə,
Şanlı hərb gəmiləri
Yan alsınlar sahilə
Dezdemonanı boğmaq

Bu saat hünər deyil
Kafərləri boğmayan
İgid deyil, ər deyil.

* * *

Qəhrəman türk oğlunun
Bu gün Otellolara
Əşhəddi ehtiyacı,
Bu gün bir yumruqdadır
Müsəlmanın əlacı.
Bu gün bir vəhdətdədir
Müsəlmanın əlacı.
Bu gün bir qeyrətdədir.
Müsəlmanın əlacı.

* * *

Otello qalasının
Dərinliyində bu dəm.
Həm nərilti
Həm də ki,
İnilti eşidirəm.
Dezdemona and içir
Yox... Otello inanmır
Qara əllər içində
Bəyaz şam sönür, yanmır.

## PİŞİKLƏR

Kiprdə pişiklərin
Gözü adam gözüdür.
Neçin ki, gördükləri
Elə adam üzüdür.

Adamlarla pişiklər
Dilsiz danışır burda,
Adamlarla pişiklər
Dostdu-tanışdı burda.

Burda pişiklər şərik
Adamın boğazına.
İncitsən gedəcəksən
Caynağın güdazına.

Burda pişiklər dönür
Adamın uşağına
Bir də gördün qəflətən
Atıldı qucağına.

Ətirli xoş havada
Xumarlanır pişiklər.
Sığallanır pişiklər
Tumarlanır pişiklər.

"Dədəman otel"inin
Pişikləri rəngbərəng.
"Dədəman otel"inin
Pişikləri şir, pələng.

Adamın baxtı kimi
Pişiyin də bəxti var.
Kiprin pişiklərinə
Bəlkə də qibtə edir,
Bəxtiqara adamlar.

Pişiklər günə verir
Özünü saymazyana.
Bilmirlər ki, "əlvida" -
Deyirik Dədəmana.

## YEDƏKDƏ GƏLƏN QAYIQ

*Mingəçevir dəryaçasında bizi gəzdirən gəminin yedəyində bir qayıq gəlirdi.*

Suları sənmi yarırsan
Yoxsa, gəmi yarır, qayıq?!.
Sən üzür, sənmi varırsan,
Başına qaxıb tənəni
Gəmi dartır yoxsa səni,
Gəmi üzür varır, qayıq?!

Keyfimiz ala ulduzda,
Damağımız cağdı yaman.
Bu kef-damaq, sən qayığın
Sinəsində dağdı yaman.

Kaş dünyaya gəlməyəydin,
Ay yedəkdə gələn qayıq.
Nə adam kimi yaşayan,
Nə adamtək ölən qayıq.

Bir talesən küskün, acı
Qayıq şəklindəsən fəqət.
Asudə yelkən möhtacı,
Yedəksiz bir ömrə həsrət.

Sular gömgöy,
Səma mavi.
Ağzı köpüklü-köpüklü
Başı havalı-havalı.

Ədalarla üzür gəmi.
Boynu yedək kəndirində
Üzür qayıq.
İçi bomboş,
Gözü qan-yaş
Dili sözlü,
Bağrı közlü
Qismətinə dözür qayıq.

Gözüm yedək kəndirində
O dartılıb
Tarım-tarım.
Yetim Segah pərdəsində
Dilə gəlir
Könül tarım...

Gəlir qayıq
Gözüm onda,
Fikrim sayıq.
Bir kəndirlik arası var.
Nə irəli
Nə də geri.
Üzülmək də,
Qırılmaq da
Bilmir yedək kəndirləri.

Üzür yedək qayıqları
Qucağında ümmanların.
Allah çatsın imdadına
Yedəkdəki insanların.

*18 aprel, 1998*

## TEYMURLƏNGİN ŞƏRƏFİNƏ

*1960-cı ilin yanvarında Özbəkistanda keçirilən Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyündə olmuş əhvalat.*

Səmərqənddə sağlıq dedim,
Teymurləngin şərəfinə.
O zəhimli sərkərdənin,
O nəhəngin şərəfinə.

Səmərqəndi gəzə-gəzə
Gözlərimə inanmadım.
Bir daşa da soyuqqanlı
Baxa-baxa dayanmadım.

Abidələr əzəmətli,
Abidələr yaraşıqlı.
Səmərqənddə ulduzlar da
Qaranlıqda gur işıqlı.

Kitabələr qədim-qədim,
Minarələr ulu-ulu.
Muzey-şəhər sərgilərlə
Addımbaşı dolu-dolu.

Məscidlərin zümrüd tacı
Göz doymayan bir aləmdi.
Yarıuçuq sarayların
Özləri də möhtəşəmdi.

Teymurləngin şöhrət tacı
Qədim paytaxt... qədim şəhər.
Qılınca bax, həm fəth edib,
Həm yaradıb xarüqələr.

Özbək xalqı Teymurləngi
Milli vüqar hesab edir.
Bir vətəndaş, bir tacidar,
Bir iftixar hesab edir.

Mən bir cavan şair idim,
Bir hiss idim, həyəcandım.
Səmərqəndi gəzə-gəzə
Çalxalandım, dalğalandım.

Kişiliyin, əzəmətin
Tarixlərdən gəlir səsi.
Vahiməyə bürünmüşdür,
Teymurləngin məqbərəsi.

İşğalçılıq damğasıyla
Baş-beynimiz zədələndi.
Türkün ulu babaları,
Bax, beləcə ləkələndi.

Səmərqəndi dolaşdıqca,
Özüm də bir abidəyəm.
Əmir Teymurlar yoxdusa,
Bəs mən onda kiməm, nəyəm.

Mən bir cavan şair idim,
Həm sadəlövh, həm də kövrək.
Teymurləngin türbəsinə
Gözüm yaşı axdı seltək.

Bir gözünə qan sağılıb,
Bir gözündə zövqə bir bax!
Qırıb da o, qurub da o,
Qılınca bax, şövqə bir bax.

Teymurləngin şərəfinə
Səmərqənddə sağlıq dedim.
Həşir qopdu ziyafətdə,
Aman Allah, mən nə edim.

Kimi dartdı ətəyimi
Yağlı-yağlı əlləriylə.
Kimi sancdı ürəyimi
Hədə-qorxu dilləriylə.

Dürtmələdi biri məni
Camaatı dingildətdi...
Kəkələndi bir başqası,
Çəngəl-bıçaq cingildətdi...

Biri dedi: – Səni nahaq
Gətirmişik bu gün bura.
Nə "Teymurləng" başlamısan
Kommunistlər dura-dura.

Partiyanın rəhbərləri
Özbək xalqı qala-qala...
Yaxşı... Bakıya dönəndə
Göstərərik sənə, bala!

Teymurləng kommunistdir ki,
Sağlığına söz deyirsən!?
Mən də verdim cavabını:
– Bax, bu sözü düz deyirsən.

O, kommunist olsa idi,
Sağlığına içməz idim.
Lap dirilib gəlsə idi
Sağlığına içməz idim.

*24.02.1999*

## QABİLİN QARS SƏFƏRİ…

*1998-ci il dekabrın 2-də çox balaca bir dəstəylə, Naxçıvana Anarın 60 illik yubileyini keçirməyə getmişdik. Tədbirdən sonra – ertəsi günü səbəbkarın arzu və təşəbbüsüylə və əlbəttə ki, hamımızın ürəyincə bizi Türkiyənin İqdır və Qars şəhərlərinə gəzməyə apardılar. Əslində xudmani bir yubiley gecəsi Qarsda da oldu.*

Dostları çağırdı dimdik pillələr,
Mən Qars qalasının dibində qaldım.
Neynim, Allah mənə vermədi təpər,
Mən Qars qalasının dibində qaldım.
Dostları səslədi sərt pilləkənlər,
Qalxdı Fəttah, Fikrət[1], maşallah Anar.
Mən Qars qalasının dibində qaldım.
Qaldığım yerdəncə göyə ucaldım.
Qalanın dibində bir quş oldum mən,
Gələnə-gedənə yoldaş oldum mən.
Ürəyim söylədi:
Bu da bəsindir.
Bu yaşda nə hünər,
Nə həvəsindir?
Şükr elə ömrünün möhlətinə sən,
Şükr elə bəxtinin qismətinə sən,
Şükr elə Anarın ad gününə sən,
Şükr elə dostların şad gününə sən.

---

[1] Xalq şairi Fikrət Qoca, millət vəkili Fəttah Heydərov.

Eşq olsun Anara –
Təşəbbüskara.
Yoxsa ki, yoxsa ki, qaş-göz arası
Xəyala, yuxuya gəlməz Qars hara?
Dastanlar şəhəri,
Qanlar şəhəri.
Şərəflər şəhəri, şanlar şəhəri.
Qurbanlar şəhəri,
Fərəhdən, qürurdan köksü qabar Qars.
Türkün bayrağında,
Türkün torpağında,
Tarix yarpağında
Vüqar Qars!
Yol şərid,
Sağımız-solumuz qardı.
Nağıl: biri yoxdu,
Biri də vardı.
Anardan yadigar bu Qars səfəri
Görə bilərdimmi özbaşına mən,
Öz xoşuna mən.
Mənə nağıl kimi gələn yerləri?!
Koroğlu dolanıb gəzən yerləri?!
Qarsın sobaları yanır kömürlə,
Əzəldən sirdaşdır kömür dəmirlə.
Dəmirçi kürəsi kömürsüz yanmaz,
Qars odda bişməsə məğrur dayanmaz.
Beləcə baxanda adicə şəhər,
Adicə adamlar, adicə evlər.

Qadağan deyilən bir səddə görə
Quş da keçə bilməz sərhəddə görə.
Bizlərə
Adı çəkilməyi qadağan olan,

Bizlərçin
Əlçatmaz bir məkan olan.
“Olmaz” əmiriylə
Sehrli hər şey.
“Olmaz” möhürüylə
Möhürlü hər şey
Adicə halında tilsimə dönür.
İnsan xəyalında tilsimə dönür
Qars açıq dünənə baxanda.
Yol açıq dünənə baxanda.
Əl açıq,
Qol açıq,
Dil açıq,
Dünənə baxanda.
Bu açıq məqamın,
Bu açıq zamanın
Şükranla qədrini
Bil açıq,
Dünənə baxanda.
Bayram et,
Gül açıq
Dünənə baxanda...

*23.02.1999*

## ÖMRÜN BİRCƏ GÜNÜNƏ

Axıb dolsun qəlbimə
Fəsillərin havası;
Yazın, yayın, payızın,
Qışın əlvan şüası.
Bir tikinti meydanı,
Bir qaranquş yuvası,
Mənə daha əzizdir
Mərmər məqbərələrdən.
Ömrün bircə gününə
Dəyişmərəm mən qəti,
Təqvimləşən, daşlaşan
Donuq əbədiyyəti.

Görüşümə gələndə
Yanar bir kibrit gətir!
Yandır! Başımın üstə
Açılsın qızıl çətir.
Sevincimə şərik ol,
Kədərimə köks ötür,
Qəbrim üstə istəməz...
Ürəyimdə gül bitir.
Ömrün bircə gününə
Dəyişmərəm mən qəti,
Təqvimləşən, daşlaşan
Donuq əbədiyyəti.

Həyatın cəfasına,
Səfasına bağla bel!
Bu vəfasız dünyanın

Vəfasına bağla bel!
Yoxsa ki, heykəl olmaq
Sövdasına bağla bel?!
Ömrün bircə gününə
Dəyişmərəm mən qəti,
Təqvimləşən, daşlaşan
Donuq əbədiyyəti.

Qoy toz qonsun, razıyam,
Yamyaşıl yarpaqlara...
Göz yaşı tökülməsin
Saralmış varaqlara.
Gedək payi-piyada
Lap uzaq... uzaqlara,
Çiyinlərdə getməyək
Lap yaxın torpaqlara.
Ömrün bircə gününə
Dəyişmərəm mən qəti,
Təqvimləşən, daşlaşan
Donuq əbədiyyəti.

Əslində əbədiyyət –
Nəfəs almağımızdır.
Bir gözələ gözaltı
Nəzər salmağımızdır.
Xəyala getməyimiz,
Fikrə dalmağımızdır.
Nəvəli-nəticəli
Baba olmağımızdır.
Bizim ölməyimiz yox,
Bizim qalmağımızdır.
Ömrün bircə gününə
Dəyişmərəm mən qəti,

Təqvimləşən, daşlaşan
Donuq əbədiyyəti.

Qəbiristanda baxıram
Ucuz-baha daşlara,
Həm yaxşı nəqqaşlara,
Həm naşı nəqqaşlara,
Baxıram daşlardakı
O gözlərə-qaşlara,
Heç birisi daimi
Köçməyir yaddaşlara.
Ömrün bircə gününə
Dəyişmərəm mən qəti,
Təqvimləşən, daşlaşan
Donuq əbədiyyəti.

Ölməzlik – ölümdü də...
Başa düşək bir kərə!
Axı, nə əbədiyyət?
Çıxmadınsa səhərə.
Sükutla rəhmət oxu
Dünyadan gedənlərə,
Uğur vəsiqəsi ver
Dünyaya gələnlərə.
Gül ək, gül dər, kama çat,
Qol qoy kitab-dəftərə.
Bu sözümü qoy nə cür
İstəyir yozsun hərə.
Ömrün bircə gününə
Dəyişmərəm mən qəti,
Təqvimləşən, daşlaşan
Donuq əbədiyyəti.

*1987*

## İLAHİ QİSMƏTİ

Ömrün səfasından
Qoşa yarımaq,
Ömrün cəfasında
Qoşa qarımaq –
İlahi qisməti
Deyilsə nədir?
İlahi möhləti,
Deyilsə nədir?

* * *

Leyli-Məcnun ömrünə
Ömrü yoldaş olanlar, –
Vəslə macal tapmamış
Hicrə sirdaş olanlar;
Bir addımda əlləri
Bir-birinə çatmayan,
Ayrılığın odundan
Məzarda da yatmayan
Nakamın da taleyi
İlahi qərarıdır,
İlahi payızının
Xəzan yarpaqlarıdır.

* * *

Neçə eşq dastanı
Yazıb ulu şairlər;

Şairlər öz başına
Yazıb onları məyər?!
Füzulilər Allaha
Bir addım yaxın olub;
İlahinin oduyla
Bu dağları-daşları
Yandırıb-yaxan olub.

* * *

Ömrün yarı yolunda
Xırda-xırda tökülən;
Mirvaritək qırılıb
Yerə-yurda tökülən:
Yarımçıq arzu-kamlar,
Kövrək, titrək inamlar
İlahinin işidir –
İşinə qarışmayaq!
Sorğu-sual əbəsdir,
Heç bir şey soruşmayaq!

* * *

Dopdolu uzun ömrün
Qoşa-qoşa süqutu;
Kəm ömrün, məhzun ömrün
Qoşa-qoşa tabutu.
Bu təzadlar altında
Çiyinlərin sükutu...
Toy karvanıyla qoşa
Son mənzilin karvanı;
Bir çinar qamətiylə
Əyri belin karvanı –

Qoşa qarımaq üçün
Biri ilk addım atır,
Biri qoşa qarıyıb
Son mənzilə
Bəxtəvər,
Bəxtəvər
Qoşa çatır.

*3 fevral 2000*

## HÖRMƏTİMİZ

Diriyə hörmətimizdir ölüyə hörmətimiz,
Olmasın yasin onun ruhuna qoy minnətimiz.

Dirinin şə'ninədir məclisimiz-ehsanımız,
Dirinin şə'ninədir tapşırılan Qur'anımız.
Ölüdən yox, dirilərdən utanır vicdanımız,
Gözümüzdən özümüzçün tökülür leysanımız.
Diriyə hörmətimizdir ölüyə hörmətimiz,
Olmasın yasin onun ruhuna qoy minnətimiz.

Aparıb getdi başın, mərhuma – rəhmət – deyirik,
Beş qarış torpağa şükr ilə – kifayət – deyirik.
Kişi çiynində gedən tabuta – qismət – deyirik,
Dirilərçindir əsl həşri-qiyamət – deyirik.
Diriyə hörmətimizdir ölüyə hörmətimiz,
Olmasın yasin onun ruhuna qoy minnətimiz.

Kim gedir... kim də gəlir fatihənin izni ilə,
Sayılır yas yiyəsi məclisinin vəzni ilə...
Molla da əzmə münasib görünür əzmi ilə,
Bəzi insan elə lap fəxr eləyir hüznü ilə...
Diriyə hörmətimizdir ölüyə hörmətimiz,
Olmasın yasin onun ruhuna qoy minnətimiz.

Gəl qəbristanlığa heykəllərə bax, daşlara bax,
Qranitlərdə, naxışlarda uçan quşlara bax.
Əksə bax, surətə bax, hər cürə nəqqaşlara bax,

Ölü yoldaşa nə dəxli, diri yoldaşlara bax!
Diriyə hörmətimizdir ölüyə hörmətimiz,
Olmasın yasin onun ruhuna qoy minnətimiz.

Ölüdən hər nə qalıbdırsa, onu sağ aparır,
Onu borc verdi də, öz borcunu torpaq aparır.
Ölü heç bir şey aparmır, azacıq ağ aparır,
Ömrü sonsuzluğa əldən-ələ bayraq aparır.
Diriyə hörmətimizdir ölüyə hörmətimiz,
Olmasın yasin onun ruhuna qoy minnətimiz.

*01.08.1993*

## DEYİLƏM

Uca dağların qarıyam
Əriyib gedən deyiləm.
Vəfalı yarın yarıyam
Çevrilib, dönüb, dəyişib,
Yeriyib gedən deyiləm.
Mən vüs’ətə alışmışam,
Ayaqlarımı dalımca,
Sürüyüb gedən deyiləm.
Sizi,
Bizi,
Yolu-izi,
Ömrümüzün səfasını,
Xalqın abi-havasını
Gözə dolan tozanağa
Bürüyüb gedən deyiləm.
Can çürüyür,
Şan çürümür,
Çürüyüb gedən deyiləm.

*28.06.1999*

## ƏSLİNDƏ

Mənəm əndazəsiz, sonsuz
Sükuta qərq olan dərya.
Sükutum arxayın qoy salmasın
Sahildə məxluqi...
Coşarsa, heç üzün görmə,
Dəli tufandı əslində.

Dərin fikrimdə gizlənmiş,
Kəfən geymiş dərin məna.
Əgər şayəd açıqlansa
Bəraətsiz, filansız, keç,
Buyur, zindandı əslində.

Günahkarın cəzasın
Bir günahsız çəkməliykən bəs?!
Deməzlər? Gün-günorta
Diqqətə şayandı əslində?!

Nədir insaf, nədir mürvət?
Çaşıb qalmışdır idrakım.
Bütün bunlar qədim söhbət,
Qədim hədyandı əslində.

Səxavət sözdə asandır:
"Nə qulluq, hazıram, qardaş…" –
Bu hap-gopdu, bu, Hatəm naminə
Böhtandı əslində.

Gözüm oynaq, xəyalım quş,
Saçım çal, saqqalım çaldır.
Vücudum-ruhum ancaq ki,
Cavan oğlandı əslində.

Güzarandan düşür söhbət,
Gözəllər qeyb olur gözdən.
Könüldə eşqə yer yoxdur,
Könül virandı əslində.

Zəlil haqqın kəsən zalim,
Əlil haqqın kəsən zalim,
Ziyarətgaha can atma,
Can atma, xalqı aldatma!

İnansaq ki, o dünya var,
O cür dəhşətli səhra var.
Həmişə qır qazanında
Canın büryandı əslində.

Nə çox alim, nə çox tacir
Nə çox loğman olub peyda?!
Ay Allah, bu yarımçıqlar...
Cəmi nadandı əslində.
Əşşi, nadanlıq azmış ki,
Hələ şeytandı əslində.

Baxıb baş tapmıram heç cür
Bu millət acdı, ya toxdu...
Kimi çöpdü, kimi şişman,
Kimi bütdü...
Kimi lütdü.
Hamı üryandı əslində.

Nə qaçqın, ey gözüm-canım?!
Nə işğal, ey gözüm-canım?!
Nə yardım, ey gözüm-canım?!
Nə "verdim", ey gözüm-canım
Unutqanlıq, utanmazlıq
Açıq talandı əslində.

Nə rəhbər? Ey dili-qafil!
Nə rəhbər! Neynəsin rəhbər?
O azman rəhbərin dörd bir yanı
Cırtdandı əslində.

Ələkbər Sabirin gülmür üzü...
Gülməz də, gülməz də.
Yağışsız da vətənində
Şiddəti-borandı əslində.

Nə gün gördü böyük şair...
Yazıq qan uddu, qan qusdu,
Bu gün Sabirlərin bağrı
Həmənki qandı əslində.

Nə Leyli var, nə də Məcnun,
Nağıl açma uzun-uzun.
Hanı Nöfəl cəsarəti,
Zeydin ağlar sədaqəti?
Nə bir könül şişəsi var,
Nə Bisütun tişəsi var.
Nə Şirin var, nə də Fərhad,
Keyfxanalar çıxardıb ad.
Nə Vaqifin gözəlləri,
Nə Vahidin qəzəlləri.
Bütün bunlar açıq baldır...
Qısa tumandı əslində.

Məhəmməd Hadinin ruhu
Əyandı ruhuma billah;
Onun hali-pərişanı
Calandı ruhuma billah.
Gözüylə baxdım Hadinin
Cahan zindandı əslində.

Dilim: – Qurban olum, – söylər
Gözəl yara, əziz dosta.
Bu boş sözdü...
Bu xoş sözdü...
İlahidən –
Qoyun qurbandı əslində.

Cahana gəldiyim gündən
Ölüm xofu mənə aşkar.
Ölüm vəhmində sonsuzluq...
Ölüm bir andı əslində.

Yığışdır əl-ayağını
Bu söz, bu söhbətin, Qabil!
Uzatma mətləbi bunca
Sənə nöqsandı əslində.

*27 fevral, 1998*

## SONUNCU MOGİKAN

Ay sonuncu mogikan!
Ay son ümid, son iman.
Hardasan, gəl çıx görək,
Donuq bütləri,
Kirəc kütləri,
Mütrib lütləri
Qır-çat görək,
Yıx görək!

Namərd mərdi öldürür
Qabağını kəs görək.
Mələyi, məlakəni
Lağa qoyan meymunun
Qulağını kəs görək!
Hazırına dadanan
Hazırın nazirinin
Ayağını kəs görək!

Ay sonuncu mogikan,
Yatma, ayıl, ay azman!
Getmə div yuxusuna
Həşəratlar daraşıb
Millətin yaxasına.
Hayqır, boğulub getsin,
Üfür, dağılıb getsin.

Yoluq cüllüt göz verib,
İşıq vermir tərlana.
Söz keçmir, güc çatmayır

Qalırıq yana-yana.
Gəl, ayırd et bu işi
Gəl, sonuncu mogikan,
Gəl, ey sonuncu kişi.
Gəl, ey zəhmi ildırım,
Nəfəsi vulkan kişi,
Ey üstü-başı tozlu
Sadəcə dehqan kişi,
Ey qədim karivandan
Ayrılıb qalan kişi.
Köhnə mogikan kişi!..
Son nəfəsdədir abır,
Son nəfəsdədir həya.
Son nəfəsdədir zəka,
Son nəfəsdədir ziya.
Quyruq üstədi zülmət,
Quyruq üstədi riya,
Gəl, ey əli qabarlı,
Kitab-dəftərsiz alim.
Həm cüz`i ixtiyarlı,
Həm külli ixtiyarlı
Gəl, vətəndaş müəllim!
Halımız yaman olur
Düyünləndikcə tilsim.
Başımıza od yağır
Bu, yaxşıyla yamanın
Qarışdığı bir oddur.
Bu, dudayla dumanın
Qarışdığı bir oddur.
Bu, cins ilə nacinsin,
Bu, xılt ilə xalisin
Qarışdığı bir oddur.

Ey adi mogikanım,
Ey ali mogikanım,
Ümidsizlik içində
Xəyali mogikanım!
Evini tanıyıram,
Kəndini tanıyıram.
Bərəni tanıyıram,
Bəndini tanıyıram.
Dəbdən düşmüş dəyirmi
Kepkanda saman çöpü
Suda boğulanların
Sonuncu güman çöpü...
Əyər səhv etmirəmsə,
Əlisəhabdır adın.
Dəxli yox, Əlisəhab
Oldun, ya da olmadın.
Ya Hüseyn ol, ya Həsən
Mogikansan elə sən!
Yarpaqları tökülmüş
Ağaclar üryan-üryan.
Üryanlar arasınnan
Baxırsan giryan-giryan.
Üryan qaçqınlarına,
Üryan köçkünlərinə,
Üryan balalarının,
Viran obalarının
Ağrısı ürəyində,
Acısı ürəyində,
Neçə şəhid anası,
Bacısı ürəyində.

Sən elə adi fəhlə,
Elə adi daşyonan.

Gəl, sonuncu mogikan!
Gəl, səssiz xanəndəni
Götür, səhnədən apar!
Qələmi, söz bilməyən
Yazar əlinnən qopar!
Qoyma haram ziyarət
Yolunu ayaqlasın!
Qoyma qanmaz, Qur'anı
Götürüb varaqlasın!
Bəlkə sən bu ölkənin
Lap elə baş adamı?!
Bütün vətəndaşlara
Yaxın yoldaş adamı?!
Gəl sonuncu mogikan
Bu sellərin-suların
Önündə məğrur dayan!

Ey sonuncu mogikan,
Gözünün nəmində yox,
Gözünün qəmində yox,
Odunda yansın möhnət
Zülm, əzab, əziyyət.

Xəzri qopur, dalğalar
Şahə qalxır şəst ilə.
Xəzri sınağa çəkir,
Xalqı bu gün qəsd ilə.
Mərdəkan qalasının
Diş-diş bürcləri fəqət
Nə qopur, nə laxlayır.
Tufanlar sınağında
Onu Allah saxlayır.
Mogikan da Allahın

Kişilik əmanəti.
Böylə bir əmanətə
Xəyanət yoxdur qəti.
Mogikanlar nə ölməz,
Nə də qocala bilməz.
Mogikansız bir millət
Heç vaxt ucala bilməz.
Saymaq olmaz:
Birinci... onuncu mogikanlar
Həmişə birincidir
Sonuncu mogikanlar.

*1992*

## ÜÇ NÖQTƏ

Sözün, fikrin davamıdır üç nöqtə,
Üç sərçədir, telə qonub yellənir.
Kimin kimə eyhamıdır üç nöqtə,
Köks ötürüb ürəyində dillənir.

Arifə bir işarədir üç nöqtə,
Uzun-uzun mətləblərin qısası,
Üzr, ifşa, ibarədir üç nöqtə,
Hissin-ruhun qövr eləyən qisası.

Dayaz fikri dərin etməz üç nöqtə,
Hər üç nöqtə çaşdırmasın sizləri!
Acı şeyi şirin etməz üç nöqtə,
Qaynatmasın, daşdırmasın sizləri!

Aşiqanə məktubların ovqatı,
Üççə damcı həya təri – üç nöqtə.
Qarlı qışın, ilk baharın ovqatı
İsmət-qismət çiçəkləri üç nöqtə.

Söz tapmasan dada yetər üç nöqtə,
Əvəzində o danışar, o dinər.
Yersiz olsa boş şey, hədər üç nöqtə,
Mənalarla kədərlənər, sevinər.

İncə mətləb kodlarıdır üç nöqtə,
Hər biri bir qıfılbənddi, aç görək!
Lap bir məktəb açarıdır üç nöqtə,
Bu məktəbin təlimindən qaç görək!

Bir him-cimdir, bir qaş-gözdür üç nöqtə,
Qazdan ayıq xəbərdardı, ayıq ol!
Dilə gəlməz elə sözdü üç nöqtə,
Atalar da üçdən deyib, sayıq ol!

Ömür yolu göz önündən keçər hey,
Baxıb-baxıb dolan gözdü üç nöqtə.
Xatirələr bulağından içər hey,
Gözü yolda qalan gözdü üç nöqtə.

Mənaların açmasıdır üç nöqtə,
Açıldıqca şərhə qalmaz ehtiyac.
Təxəyyülün uçmasıdır üç nöqtə,
Simurqa da daha olmaz ehtiyac.

Etirafdır, xəyalətdir üç nöqtə.
Üzümüzdə üç şillənin yeridir.
Anlayana kifayətdir üç nöqtə,
Köksümüzdə üç güllənin yeridir.

*2 iyun,1997*

## CÜMƏ AXŞAMI

Kin-küdurət azalır,
Mehri-ülfət çoxalır,
Ürəyimiz yuxalır,
Biganəlik yox olur
Cümə axşamı.

Müdrik, zəkalı olur,
Ağzı dualı olur
Elə bil ki, camaat...
Elə bil bir-birinə
Xalq lütf edir iltifat
Cümə axşamı.

Ölülər elə bil ki,
Boylanıb yola baxır.
Gözlərdə göz yaşına,
Əllərdə gülə baxır.
Bu köhnə qəbristana
Hey təzə axın axır...
Cümə axşamı.

Səslər qulağa gəlir –
Əbədiyyətdən gəlir.
Ruhlar ocağa gəlir –
Əbədiyyətdən gəlir.
Belə təqvim təlqini
Hansı hikmətdən gəlir
Cümə axşamı?!

Hüzür məclislərində
Küsülülər barışır.
Ağızucu salamla
Ürəyində mərhumun
Ruhuna ehtiramla.
Adamlar adam kimi
Dolanırlar adamla...
Cümə axşamı.

Atıb vacib işini,
Atıb gedən yerini
Hüzrə dəvət eləyir
Kişilər bir-birini.
Arada nə olubsa
O gün heç kim anmayır.
Bütün borcu dananlar
Bircə borcu danmayır...
Cümə axşamı.

Mərhumun əzizinin
Gözü dörd olur, gəlin!
Dost-tanışın yoxluğu
Ona dərd olur, gəlin!
Toya gəl də, gəlmə də
Axtarmazlar heç kəsi,
Bitib-tükənməz fəqət
Gileylə umu-küsü
Cümə axşamı.

Tarzən cərrah Hacı.
Sonra ustad müəllim,
Müğənni gümrah Hacı.
Ana bülbülüm Şövkət,

Ceyran gözlü Nəzakət
Rübabə dərdli səslə,
Gülağa xoş nəfəslə
Ekranda qonağımız...
İslanır yanağımız...
Vird edir dodağımız...
Cümə axşamı.

Əbədiyyət soyuqdur
O üşüdür adamı –
Yandırın çıraqları,
Yandırın ocaqları,
Ruhlar isinsin barı
Cümə axşamı.

*19 iyul, 1997*

## MƏN GÖZ YAŞLARINA DÖZƏ BİLMİRƏM...

Mən göz yaşlarına dözə bilmirəm.
İllah da qocayla uşaq ağlasın.
Duzlu yağışlarda gəzə bilmirəm
Gözümün içində qaysaq bağlasın.

Mən göz yaşlarına dözə bilmirəm,
Gəlin ər evindən düşsə didərgin.
Xəcalət sığınıb ata-anaya –
Ruzgarına baxıb ərisə hər gün.

Mən göz yaşlarına dözə bilmirəm,
Yağanda Şəhidlər xiyabanına.
Bu ağlı-qaralı mərmər dastana
Bu gülləri məş'əl daş gülüstana,
Bu busə dadmayan neçə oğlana
Ağlama, döz görüm, daşsa da qəlbin
Ağla ibrətamiz bir ehtişama.

Mən göz yaşlarına dözə bilmirəm,
Analar saç yola məzar başında.
Yox, daha mərsiyə yaza bilmirəm,
Cavanlar qırılsa nakam yaşında.

Mən göz yaşlarına dözə bilmirəm,
Al-əlvan xonçalar qara boyansa.
Sözü ipə-sapa düzə bilmirəm
Neynim?! İpim-sapım od tutub yansa...

Mən göz yaşlarına dözə bilmirəm,
İlkisin məzara qoyanda gəlin.
Onu sərin-sərin süzə bilmirəm
Ağlar laylasını deyəndə gəlin.

Mən göz yaşlarına dözə bilmirəm,
Diriykən dəvəni pay-pay böləndə.
Dəvə duyğusunu yoza bilmirəm
İlahi! Mən lalam, susursan sən də...

Mən göz yaşlarına dözə bilmirəm,
Didərgin, – deyəndə, – qaçqın, – deyəndə.
Min çadırda bir nur sezə bilmirəm
Od tuturam xalqa – köçkün deyəndə.

Mən göz yaşlarına dözə bilmirəm,
Heç pəhləvanın da hıçqırığına.
Fəndgir güləşdə, namərd tutaşda
Onun hönkürtülü qışqırığına.

Mən göz yaşlarına dözə bilmirəm,
Vəfa, əhdi-peyman qayçılananda.
Lap öz ləyaqətim sanıram itir
Ləyaqət, şərəf-şan qamçılananda.

Mən göz yaşlarına dözə bilmirəm,
Əlləri qoynunda ağlasa aciz.
Pünhan qurbanını aşkar basdırıb
Qəbrinin üstündə ağlasa nacins.

Mən göz yaşlarını bağışlayıram,
Yağanda haqsız bir hökmün üstünə.

Mən göz yaşlarını alqışlayıram –
Sel olub gələndə zülmün üstünə.

Mən göz yaşlarına dözə bilmirəm,
Ümidin biryolluq qırılsa sapı.
Hayana fırlansan, hayana dönsən,
Hər yerdə üzünə bağlansa qapı.

Mən göz yaşlarına dözə bilmirəm,
İnsan ürəyində pünhan ağlasa.
Gözə görünməyən göz yaşlarıyla
Sonu görünməyən hicran ağlasa.

Göz yaşı büllurdu, göz yaşı safdır.
O bizi ayırır dəmirdən-daşdan.
O, uzun hekayət, son etirafdır,
Nələr gəlib keçir bəlalı başdan.

Səma bulud-bulud, yer insan-insan,
Yerdə də, göydə də ildırım çaxır.
Dəsmal gəzdirməyir cibində cahan,
Dəsmal gəzdirməyir külli Yaradan
Bəşərin göz yaşı silinmir, axır.

*22 iyun, 1997*

## İSTƏMİRƏM

Yeyib-içib gəzə-gəzə
Söz qoşuram təzə-təzə.
İstəmirəm çatam yüzə
Uzun ömrüm xalqı üzə.
İstəyirəm yaraşıqla
Yaşamağı dərk eləyim,
İstəmirəm bu dünyanı
Ölə-ölə tərk eləyim.

Yaman gözə inanmıram
Yaxşı gözlər olan yerdə.
Acı sözə inanmıram
Şirin sözlər olan yerdə.
Qaşqabağa inanmıram,
Gülər üzlər olan yerdə.
Qocalmağa inanmıram
Ceyran qızlar olan yerdə.
İstəmirəm ömrü başa
Vurum nəmli kəsafətlə,
İstəyirəm olan-qalan
Günüm keçsin təravətlə.

Vərdişimi dəyişmədim,
Neçə-neçə il içində.
Gərdişimi dəyişmədim
Nə tikan, nə gül içində.
Rəngdən-rəngə girə-girə
Buqələmun! Öl içində!

Nəyə gərək bu xislətin?
Niyə tökülməyir ətin?

Sığalladım sifətimi
Sifətimə şükür olsun,
Özgə sifət istəmirəm.
Qismətimə şükür olsun,
Özgə qismət istəmirəm.
Möhlətimə şükür olsun,
Artıq möhlət istəmirəm.

Paxılların, xəbislərin
Vallahi ki, vicdanı yox.
Nakəslərin, nacinslərin
Nə dini, nə imanı yox.
Başqa söz ki, birimizin
Nöqsanı az... nöqsanı çox...
Buyur da... qoy tərəziyə
Kimin yaxşı-yamanı çox...
Düz çək, pərsəng istəmirəm,
Tez eylə, ləng istəmirəm.

Səhralarda karvan gedir,
Axar sular rəvan gedir,
Uman yerə güman gedir
Gümanla bir... zaman gedir.
Hədər güman istəmirəm,
Hədər zaman istəmirəm.

*13 mart,1998*

## MƏHƏBBƏTDƏN SAVAYI

Vurçattasın, vurharay,
O xaniman, bu saray,
Bu gəlhagəl, bu dəstgah,
Lap Rast, lap Yetim segah
Əfsanədir, yalandır!
Yalnız sevgi-məhəbbət,
Bir şairanə xəlvət –
Eşq aləmi qalandır.
Yaddan çıxmaz səadət
Vüsal dəmi qalandır.

* * *

Ağlına hər nə gəlsə
Məhəbbətdən savayı,
Xoş ünsiyyətdən özgə.
Xoş ülfətdən savayı
Qismətlərin qisməti
O qismətdən savayı,
Adı çılğınlıq olan
Bir dəhşətdən savayı
Yerdə qalan nə varsa,
Yerdə bir şey qalarsa
Hər şey hədər, havayı.

* * *

Rütbə, vəzifə, mənsəb,
Xütbə, mədrəsə, məktəb,

Mükafatlar, təltiflər,
Gurultulu alqışlar,
Parıltılı təriflər,
Lap şahlıq, lap təxti-tac
Bağında qızıl alma
Gətirən yeddi ağac...
Bir nazın, bir ədanın
Yanında heç nə deyil...
Bir dəlicə sevdanın
Yanında heç nə deyil.

* * *

Hər xatirə əzizdir –
Tarixi var, adı var.
Hər bəhrə-bar ləzizdir
Ayrı-ayrı dadı var.
Məhəbbətin dadına
Cənnətin dadı çatmaz
Leyli-Məcnun oduna
Cəhənnəm odu çatmaz.

* * *

Sevirəm səyahəti
İqlimlər əlvan-əlvan
Eşqin səyahətində
Səyahətlər də yalan.
Güman gəlməz diyarda
İki ürək – iki can
Bir gül camal, gül nəfəs
Mənə dünyalarca bəs...
Sevgisiz dünya qəfəs,

Sevgisiz cahan zindan,
Sevgisiz cahan yalan.

* * *

Uyma dava-dərmana,
Uyma, yalandı dərman!
Uyma, lap heç loğmana
Uyma, yalandı loğman!
Min əlacdan irəli
Bir ceyran – dəli ceyran,
Meyli-məzəli ceyran
Bu sözlər milyon ildir
Deyilir zaman-zaman.
Elə hamıya bəsdir
Təkcə Füzuli yazan.
Kürrəmiz məhəbbətin
Məhvərindən bərqərar
Məhəbbətdən savayı
Hədər şeydir hər nə var!

*24 aprel 2000*

## ON SƏKKİZ YAŞINDA...

Çatır son mənzilə ömrün karvanı
Əlli il yol gəldik bu səhrada biz.
Baxtımıza düşən əhdi-vəfanı
Əmanət saxladıq bu dünyada biz.

Allahın işidir, mənzil söhbəti...
Allaha min şükür hələ ki, sağıq.
İlk eşqi, ilk andı, ilk məhəbbəti
Yenə isti-isti saxlayacağıq.

Mən tale hökmüylə dağlara gəldim
Sən dağlardan uçub şəhərə qondun.
İlk təbəssümünlə sevindim, güldüm
Gül kimi, tərtəmiz səhərə döndün.

Bu səhər açılır düz əlli ildir.
Bu səhər bənzəmir adi səhərə.
Eşqin atəşində biz, əlli ildir
Yanmaq öyrədirik pərvanələrə!

Deyingən olmuşuq bu gün, eybi yox
Təki bizim yaşda deyinsin hamı.
Əlli il axşamı – nə az, nə də çox
"Qızıl toy" paltarı geyinsin hamı.

Tale sınağa da çəkmədi bizi.
Çəkdi! Düz demirəm – övlad həsrəti,
Yetkin yaşımızda ev-eşiyimizi
Çirağban elədi Mahir qisməti...

Haqdan yanan çırağ çətin ki, sönə
Qocalır məhəbbət, soyumur ürək.
On səkkiz yaşında görünür mənə
Hacıbəyim xanım – ağ saçlı çiçək...

*2000*

## XATİRƏ YARPAQLARI

Təsəlli tapıram xatirələrdə
Xatirə sözündən üşənirəm həm.
Xatirə şərikdir kədərə, dərdə
Həm də gözümüzdə işıldayan nəm.

Çoxdan yarpaqları tökülüb gedib
Çoxdan gün-günorta lüt-üryan ağac.
Beli xəcalətdən bükülüb gedib
Nə ağac?! Əslində bir insan ağac.

Bəlkə heç olmayıb onun yarpağı
Bəlkə ilahidən beli göyərib?
Bəlkə heç olmayıb onun növrağı
Tacında nə qönçə, nə gül cücərib.

Quru budağında görür ki, birdən
Üç-dörd qırış-bürüş tənbəki yarpaq.
Deyir:
–Yox, yarpaqsız olmamışam mən
Məndən xatirədir məndəki yarpaq.

Xatirə yarpağı gəzirəm mən də,
Ömrün bu qupquru budaqlarında.
Xatirə yarpağı gəzirəm mən də
Ömrün bu sapsarı varaqlarında.

Üç-dörd sarı yarpaq dəyir gözümə
Quru budağımda yaşıldı onlar
Yaxşı ki... deyirəm özüm-özümə
Ömrümə xatirə yazıldı onlar.

*14 fevral 2000*

## TEREK QANLI FƏRAT OLUB...

İnanmıram sən bu qanı
Yerdə qoyasan.
Millətini lap ümidsiz
Darda qoyasan.
Yurdun-yuvan gözgörəsi
Yer ilə yeksan
Yerlə yeksan cəlalınla
Ay Allah, təksən.
Zəlzələlər zəlzələsi
Torpağın – daşın.
Qırılırsan tökülürsən
Əyilmir başın.
Axı səndən nə istəyir
Sarı əjdaha.
Tarixlərdə əli qanlı
Qarı əjdaha.
Harayına heç kim gəlmir
Bəlalı Çeçen.
Şeyx Şamilin,
Şeyx Mansurun
Xəyalı Çeçen.
Soyuqqanlı-soyuqqanlı
Nahaq baxırıq.
Baxa-baxa işləyirik
günah – baxırıq.
Arxayın ol, geci-tezi
Bizimçün də var,
Bu mərəkə, bu "toy büsat",
Bu qanlı mağar...
Qış fəslində imdad dilər
Bu saat Çeçen,

Bu saat qan dəryasında
Bathabat Çeçen...
Ümidini bağlayıbdır
Borana-qara,
Etibarlı səngərlərə –
Sirli dağlara.
Məmə deyən, –
Pəpə yeyən
Partizan olur.
Öz qanına boyandıqca
Nəsimi kimi –
Bir ovuc xalq qundağacan
Qəhrəman olur.
Şəhidliyin min səbəbi,
Bircə adı var.
Terek çayı Fərat çayı
Olubdur bu gün.
Şanlı Çeçen qardaşımın
Şəhidliyində,
Bu gün şəhid İmam Hüseyn
Etiqadı var.

*23 oktyabr 1999*

## BİRCƏ SAQQAL DARAGIMIZ

Hər şeyimiz qaydasında,
Hər işimiz düz.
Kimin şəkki-şübhəsi var?
Nə söhbət, nə söz?!
Yerbəyerdi, cabəcadı
Hər növrağımız,
Çatışmırdı
Bircə saqqal darağımız –
Ölüm hökmü ləğv edildi
Diyarımızda.
Bəli, bircə bu çatmırdı
Ruzgarımızda.
Yetimimiz-yesirimiz
Çadırlarda, vaqonlarda
Əsirdən pis əsirimiz...
Bunun dəxli yox özgəyə
Sözməsəli lap özgəyə...
Bəs necə biz insanpərvər
Millətik canım.
Toyda-vayda,
Sağlıq üstə,
Söz üstündə,
Sifarişli
Rəqs üstündə
Cəhənnəmə tökülsün qanım.
Ölüm hökmü vəhşilikdir
Əlbət ki, əlbət.
Sən özünü ən mədəni
Millətlərə qat.

Lap onunu tikə-tikə
Doğrasın biri
Dəxli yoxdur,
Arxayındır
Nə gülləsi, nə də kəndiri.
Avropanın Şurasında
Qərbin ora-burasında
Ucalaq təki,
BMT-nin gözlərində
Ucalaq təki,
Kitabında-dəftərində
Ucalaq təki.
Gör nə qədər ucu itmiş
Kələfimiz var.
Əlil-zəlil, çolma-çocuq
Xələfimiz var...
Gör nə qədər düyünümüz
Hələ açılmır.
Milyon qaçqın ürəyinə
Şəfəq saçılmır.
Aç əlini, aç qolunu
Neçə azğının.
Balasına həris oğraş –
Neçə qızğının
Ölüm hökmü nəyə lazım,
Hədərdi hədər.
Ölümsüz də, hökümsüz də
Artır canilər
Ayıb deyil,
Həm də bizə nə deyər bəşər?!
Deməzlər ki:
Əşşi, günün-günorta çağı
Boşlayınız:

Güllələyib, kəsib-asmağı!
Bas belinə beş il, on il –
Gedib uyusun,
Gedib yatıb
Beyni-başı bir az soyusun
Buraxılıb çıxsın cövlana,
Əllərini qoy təzədən
Batırsın qana.

Hər şeyimiz qaydasında,
Gözəl, yerbəyer.
Bir o qalıb
Qatillərə sən qol-qanad ver.
Adını qoy insanpərvər –
Kövrək bir ad ver.

*25 oktyabr 1999*

## DƏNİZİN CAZİBƏSİ

Bah atonnan! Dənizin sirrinə bax,
sehrinə bax,
Bu qədər məxluq ilə ülfətinə,
mehrinə bax!
Göydən od yağsa çatır imdada
sərin suları.
Baş aparsan... göz ağardır sənə
dərin suları...
Boş deyil nəğməli sahilləri
bir anda belə.
Başqa bir aləmi var, lap dəli
tufanda belə.
Qayğısız, kef-damağa sahilə
cütlər də gəlir,
Avara, cibləri boş, şübhəli
lütlər də gəlir.
Bəzəyib bir dəvəni, ovsarı
dartan da gəlir.
Nə ağrıdım başını, hoqqa
çıxardan da gəlir.
Gəlir ömründə dəniz görməyən
heyrətli qonaq.
Qorxudan qışqırığı ərşə çıxan
körpə uşaq.
Alaçiy qarğıdalı, qapraqa tum,
"kola" satan –
Çoxdur vallah, bu çimərlikdə
çimənlərdən inan.
Sözümün canı fəqət, heç bu
deyildir qardaş,

Keçmədim mətləbə bəs mən
nə üçün lap birbaş.
Dəb düşüb indi də sahildə
kliplər çəkilir,
Hər klipçin nə qədər istəsələr
xərc tökülür.
Operator yazığın çiyni qabar
kameradan
Nə qədər göz yorulur, göz yaşarır
kameradan.
Dirəyib barmağını gicgahına
bir avara
Fikr içində bir əda ilə baxır
göy sulara.
Millətin yox xəbəri bəli, bu da
şair imiş...
Aktyor, rəssam imiş, sair... və
sair imiş.
Kişinin durduğu yer olmalı
hökmən qayalıq
Dağınıq saçlarına, cüssəsinə
tən qayalıq.
Klipi seyr eləyən dahi bilər
onda onu,
Bu romantik, bu əsl cazibədar
fonda onu.
Allı-güllü bu mələkə nə gəzir
bəs burada?!
Oxuyandır... görünür yaxşı çıxır
səs burada.
Alı yoxdur, gülü yoxdur da
yarımlütdü bu qız
Yel qapır sözləri ağzından onun,
söz də nə söz.

Hansı sponsorun əl kuklasıdır
kimdi bilən...
İzinə kimdi düşən, kimdi güdən,
kimdi gələn...
Min əda ilə satır da dənizə
naz, oxuyur.
Yoxdu səs, yoxdu boğaz, yoxdu heç
avaz, oxuyur.
Tanımır xalq arasında inan, heç kəs
bu kəsi
Tanıda bəlkə onu xalqa dəniz
mənzərəsi.
Operator götürür gah yanakı,
gah çəpəki...
Qoy klip min cürə pəstah ilə
dolsun da təki
Operator götürür hər cürə
görkəmdə onu.
Yel vurur quş kimi əynindən
uçur qıssa donu,
Ləpələr də topuğunda elə bil
yallı gedir.
Bu dəniz gör nə qədər zay-vayı
xanəndə edir.
Burda hökmən kimi şair, kimi də
rəssam olur.
Dənizə aldanaraq ömrü-günü
axşam olur...
Oxuyur nəğməsini bəmdə Xəzər,
zildə Xəzər
Baxır öz çəkdiyi öz klipinə
sahildə Xəzər.

*9 sentyabr 2000*

## BORC

Var əl borcu;
Yüz aldın
Yüz qaytar.
Aldığını
Düz qaytar.

Var əməl borcu;
Əməli salehlərə,
Salehə valehlərə,
Ülvilərə,
Qüdsilərə,
Min oğuldan birinə,
Millətin şairinə
Heykəl borcu.

Var təməl borcu;
Təməlsiz olmusan
Məgər?
Şar kimi
Havayla dolmusan
Məgər?
Havadan asılıb qalmısan
Məgər?
Sənə təməl qoyublar,
Sən də boş-boş dayanma.
Sabahkı xələfinə
Təməl borcunu danma!
Var vəfa borcu;

Yoxdu eyş, işrət
Zövqü səfa borcu,
Var cəfa borcu,
Var sədaqət borcu,
Məhəbbət borcu.
Var dəli sevda borcu,
Ceyran gözlü
Güli-rəna borcu.
Leyli Məcnun borcu var
Hər gəncin ürəyində,
Arzusu-istəyində.

Xəyanət borcu yoxdur,
Rəzalət borcu yoxdur,
Cinayət borcu yoxdur,
Cəhalət borcu yoxdur,
Xəyanətə xəyanətlə,
Rəzalətə rəzalətlə,
Cinayətə cinayətlə,
Cəhalətə cəhalətlə,
Haçan cavab verilmiş,
Görülübmü böylə iş?!

Borc başqa,
Əvəz başqa.
Qərəzə qərəz başqa.
Borc halallıq söhbəti,
Halallıq haqq-hesabı.
Borc bir kişi sifəti,
Borc bir vicdan əzabı.

Ata-anaya xidmət,
Ana yurda sədaqət.

Borcun açıq qapısı
Sayılmalıdır əlbət.
Yetimə çörək,
Xəstəyə ürək
Əlif-beyidi borcun,
Adi şeyidi borcun.
Bir can borcumuz da var,
Gəlməlidir Əzrayıl,
Ayıqsansa da ayıl!
Bəli də, Əzrayılı
Heç cür görməmək olmaz.
Beşikdə yatmışıqsa,
Qəbrə girməmək olmaz.

Vicdan borcumuz da var,
Ödənib bitən deyil,
Gözdən yayınan deyil,
Hesabdan itən deyil.
Bəzən elə bilirik
Bu borcdan asudəyik.
Çünki öz-özümüzə
Yamanca aludəyik.
Adicə bir tərpəniş,
Adicə bir davranış,
Adi bir mülahizə
Düşür tərs-avandına,
Dönür vicdan borcuna.
Bir Allah şahid olur,
Bax, bu pünhan borcuna.

Asılılıq borcu var,
Hamı onun quludur.
Bu borc içində üzən,
Hara baxsan doludur.

Kürreyi-ərz Günəşin
Başına borc dolanır.
Dolandıqca, borcunun
Sonsuzuna inanır.

Ulduzlar Aya borclu,
Ay Günəşə borcludur.
Atəş suya borcludur,
Su atəşə borcludur.
Hava torpağa borclu,
Torpaq havasız ölü.
Bu vəhdətdə də borc var,
Müşgüldü ki, müşgüldü.

Millətlər qurban kəsir,
Qurban niyyət borcudur.
Dağlar vulkan püskürür,
Vulkan hiddət borcudur.
Borcun qızdırmasında
Alışıb yanırıq biz.
Nə borcu ödəyirik,
Nə borcu danırıq biz.

*11.10.1998*

## GÜLHÜSEYN

Həm mənzumdu, həm mənsurdu Gülhüseyn.
Həm məsumdu, həm məğrurdu Gülhüseyn.
Zindanların zülmətini əridən
Al şəfəqdi, qızıl nurdu Gülhüseyn.

Müəllimdir – alnıaçıq, üzüağ.
Ona yaddır başqa cürə yaşamaq.
Özü qıvraq, qayışbaldır, diribaş,
Şagirdinin saqqalı ağ, saçı ağ...

Mücrü onun mücrüsüdür – xəbərdar!
Mücrüsünə toxunmayın, lov salar.
Gülhüseynə tay tutmasın özünü
Mücrüsü boş, ürəyi boş lovğalar.

İstiqlalın ilk fırtına quşudur,
Onu şahin nəğmələri yaşadır.
Öz canından keçməyinə keçdi o,
Ölmədisə – bu Allahın işidir...

Müşfiq dağı sinəsində əbədi,
Müşfiq şe’ri – səcdəgahı, məbədi.
Əzabkeşin, cəfakeşin qisməti,
Ömür yolu, tale hökmü belədi.

Qəzəblənmə qəzəbinə, hirsinə,
Gülhüseyntək məşəqqətə gər sinə!
Ona dəyən dəysəydi qeyrisinə...
Başı-gözü çevrilərdi tərsinə.

Vətən! – deyib sinəsinə çırpmadı,
Hökm oxundu – gözünü də qırpmadı.
Sal qranit, gül yarpağı Gülhüseyn.
Mənsur şe'rin bağça-bağı Gülhüseyn.
Nakam Müşfiq pasibanı Gülhüseyn,
Mənsur şe'rin bağibanı Gülhüseyn.

Masallıdan o, qucaqda ayrılıb,
Qönçə ikən gül budaqda ayrılıb.
Gülhüseyni Bakı çəkib ovxara
O, qınından burda çıxıb sıyrılıb.

Əsəbinin səbəbi də birdimi?
Dirigözlü oda düşüb gəncliyi.
Hörmət elə, səcdə etmə, pirdimi?!
Ömrü uzun, ürəyi pak, gözü tox
İndi tapıb bir az qulaq dincliyi.

Kələyi yox, hiyləsi yox, toru yox.
Coşmağı var, daşmağı var, zoru yox.
Masallıda yırğalanıb beşiyi...
Azərbaycan torpağında yeri çox.

*2000*

## HƏLƏLİK

Hələlik dağların
Zirvəsində qar,
Elə ki, yaz gəldi –
Əriyəcəkdir.
Gül kimi, tül kimi
Bəyaz dumanlar
Yerləri-göyləri
Bürüyəcəkdir.

* * *

Hələlik yay gəldi
Bişəcək aləm
Günəşin
Qırmızı təndirlərində,
Bişib kömbə-kömbə
Şişəcək aləm.

* * *

Hələlik payızın
Qumral gözləri,
Tökəcək şıdırğı
Yağışlarını.
Bağlara uzanan
Ayaq izləri
Yığacaq Allahın
Bəhrə-barını.

* * *

Görəsən dünyada
Nədir əbədi?!
Məzar ki, deyirik
Məzar hələlik...
Bəzəkli-bəzəksiz
Daşlar hələlik.
Yerlə yeksanın da
Özü hələlik...
Yeddi möcüzədən
Qalan-qalmayan
Nami-nişanın da
Özü hələlik...

* * *

Ömür kitabının
Hər varağına
Tale möhür basıb
İmza atıbdır.
Uyma bu dünyanın
Təmtərağına.
Nə Nuhun gəmisi?!
Ay evi abad!
Qitələr, millətlər
İtib-batıbdır...

* * *

Hələlik sözünün
Fərqinə varma!
Məni dərinliyə
Çəkib aparma!

Yaman qorxuludur
Dərin dəryalar.
Yaman qorxuludur
Dərin mənalar.
Yaman qorxuludur
Dərin meşələr.
Yaman qorxuludur
Dərin kişilər.

* * *

Dərin kişilərdən
Soruşsan əgər
Onlar söyləyər:
Bir ağıl, bir kamal
Hələlik deyil.
İntizar,
İstiqbal
Hələlik deyil.
Sonsuz fikir-xəyal
Hələlik deyil.

Zülmətdə nur olub
Doğur – hələlik...
Ümidsizlikləri
Boğur hələlik.
Nəsillər hələlik
Bəşər əbədi.
Bəşər ki...
Hələlik
Yaşar əbədi.

*1996*

## İŞİN DÜŞƏNDƏ

Quzuya dönürsən işin düşəndə,
İşin ki, düzəldi quyruq üstəsən.
Əslində bir günah görmürəm səndə,
Sən də belə zəlil, belə xəstəsən.

Payəndaz olursan işin düşəndə
İşin düzələndə tərlan olursan.
İlıq yaz olursan işin düşəndə,
İşin düzələndə tufan olursan.

Quyruğun tələdən çıxdı, vəssalam!
Bax ki, bu üz mənim, bu sifət sənin.
İkrahdan, qəzəbdən, nifrətdən lalam,
Dönük sifətinə, ay lənət sənin.

Yaxşı, bəs qorxmursan, bir də ilişsən,
Sənə kömək əli uzanan deyil,
Sən ha dil tökübən, sən ha çalışsan,
Halına kimsə də bir yanan deyil.

Zəhər də, şəkər də yanaşı daim.
Hərəsi öz yeri... öz qədərində.
Eyni xasiyyətdə deyil ki, heç kim,
Hərə öz vərdişi, öz şakərində.

Fəqət, ölçüsü yox utanmazlığın,
Axı üz ətdəndir, dəmirdən deyil.

Bu naxələfliyin, bu qanmazlığın,
Silinməz qarası – kömürdən deyil.

Minnət götür bu gün, dal çevir sabah,
Sadəcə belə də adamlıq olar?
Kimə gətirəcək beləsi pənah,
Pənahı – gümanı olsa tarimar?

Qan yox, şərbət axar damarlarında
Duzsuz, şimşit olar dili-dodağı.
Əttökən bu yalvar-yaxarlarında,
Xəcalətdən ölər oğul-uşağı.

Qılığa bir dəfə girə bilərsən,
Bir dəfə üzünə qapı açılar.
Xoş rəftar bir dəfə görə bilərsən,
Biryol zülmətinə işıq saçılar.

Səndən yan keçərlər, sən yan keçəntək,
Qalar dik burnunda yumruq möhürü.
Kimə yaxınlaşsan işin düşəntək,
Sinəndən vurarlar, dönərsən geri...

Saman çöpü gəzər dəryada gözün,
Səndən saymazyana ötər gəmilər...
Səni sayanları saymadın özün –
Gözdən saymazyana itər gəmilər.

*9 may 1999*

## SAAT

Ömrümüzün zəmisini
Xırpaxırpla
Çalır saat.
Dəryazla ot biçinini
Yaman yada salır saat...
Dəryaz ağzı daşa dəyir,
Öz-özünə ya korşalır.
Saatınsa əqrəbləri
Ömrümüzü biçə-biçə,
Ömür billah
İti qalır.

*7 may 1999*

## ƏBƏSDİR

Qanmazı qandırmaq
Əbəsdir.
Yananı yandırmaq
Əbəsdir.
Sönəni söndürmək
Əbəsdir.
Dönəni döndərmək
Əbəsdir.
Güləni güldürmək
Əbəsdir.
Öləni öldürmək
Əbəsdir.

# İSTƏYİRƏM

Sinəmin yanğısı var, yay günü
Qar istəyirəm.
Bu hədər istəyimi aləmə
Car istəyirəm.
Süzüb addım başı, əndamı açıq
huriləri
Payıza qalsada da çox,
Gülöyşə nar istəyirəm.
İstəyirəm əlimi iynələsin
Qara tikan,
Qönçəni hifz eləyən nizəli
Xar istəyirəm.
Az qala gözlərimi cilvələriylə
Kor edən,
Kor edən,
Həm nur edən
Cadu-xumar istəyirəm.
Yaş ötüb, baş ağarıb,
Qaş ağarıb,
Huş quş olub...
Nə xəzan? Qışdı gələn,
Qışdı kəsən kandarımı
Mən də arsızca durub
Fəsli bahar istəyirəm.
Bir-bir Allah nə veribdirsə
Alır.
Almalıdır.
Qəbrəcən almamalı –
Bircə vüqar istəyirəm.
Çeynə ha, çeynədədir

Saqqıza dönmüş Qarabağ.
Nə qədər "gün o gün olsun ki,.."
Deyərlər, bəsdir!
Qeyrətə, əqlə, kamala
Bu da bu cür qəsddir.

Vətən uğrunda hücum!
Qət`i qərar istəyirəm,
Millətə idrakımın,
Saflığımın rəmzi kimi
Bir Anar[1] azdı, canım,
Cümlə Anar istəyirəm.
Çox da ki, bağlamayıb
Çəkməmin atdım bağını
Bağ yox ey... külli baxımsızlı
Diyar istəyirəm.
Ömrümün yolları yox,
İstəyirəm olsun hamar
Ölkəmin yollarını
Ancaq hamar istəyirəm.
Gəlməsin məclisimə
Ağlıma gəlməz ötəri
Nabələd kəsləri hər yerdə
Kənar istəyirəm.
Nə qədər tərif edirsən
Elə hop musiqini.
Zövqümə qurban olum –
Rast, Qatar istəyirəm.
Hər qüsura dözərəm,
Kütbeyinə yox, Qabil!
Xalqımı başdan-ayağa
Huşiyar istəyirəm.

*12 iyun 1999*

[1] Xalq yazıçısı Anar

# BİLMİRƏM

Başımda bir şıdırğı var,
Toydu-mağardı, bilmirəm.

Gözümdə yer-göy qarışır,
Borandı-qardı bilmirəm.

Bir xanıma qonub quşum,
Sinə uyardı? Bilmirəm.

Bir yol da gəlsin arxa su,
Cadar-cadardı. Bilmirəm?!

Kim nədə istəyir, çalır
Tardı-dütardı, bilmirəm.

Lap xalqımın da ruzgarı
Nə ruzigardı, bilmirəm.

Qoyun qanı su yerinə
Ax ki axardı. Bilmirəm.

Hansı ulduzum parlayıb?
Rəmmal tapardı. Bilmirəm!

Satqınlar verdi saranı?
Sellər apardı? Bilmirəm!

Sözüm-sovum çoxdu hələ
Ömür qurtardı? Bilmirəm!

Taleyim ağlar-güləyən
Qışdı-bahardı, bilmirəm.

Uşaq-muşaq şüar deyir
Bu nə şüardı? Bilmirəm.

Bu gün hamı bəydi, soydu
Türkdü, tatardı – bilmirəm!

Yamanın enlidir yolu
Yaxşının dardı?! Bilmirəm!

Heç kim eşitmir haqq sözü
Cümləsi kardı?! Bilmirəm.

Dərməyə çatmırsa əlim
Heyvadı-nardı, bilmirəm.

Paytaxtımızdırmı Bakı
Yoxsa bazardı?! Bilmirəm.

Vağzalımız – vay halımız...
Rusca  "kaşmar"dı? Bilmirəm.

Fikir doğur qafiyədən
Ya boş axardı? Bilmirəm.

Qabil hey-hey yazıb-tökdü
Bir şey başardı?! Bilmirəm.

*14 iyun 1999*

## BAYRAĞIMIZ

Bir gün haqdan yanan çıraq,
Nahaqdan da sönə bilər.
Bir dəfə yüksələn bayraq,
Nahaqdan da enə bilər.

Nə sönməyi, nə enməyi
Göstərməsin bizə Allah.
Qonşuya şam istəməyə,
Göndərməsin bizi Allah.

Bayrağımız qoy qalmasın,
Boş-boş şüar ümidinə.
Enən deyil, əgər qalsa,
Qeyrət, vüqar ümidinə.

Zülmətləri çıraqlarla
Yara-yara gedir millət.
Sabahlara bayraqlarla,
Vara-vara gedir millət.

*1999*

## MÜSTƏQİLLİK

Sən toxuna bilərdin
Leninin heykəlinə?
Moskva dağ basardı
Xalqımızın əlinə.

Dağüstü parkda azca...
Laxladılsaydı Kirov.
Bütün Azərbaycanı
Götürərdilər girov.

Özbaşına hünərin,
Deyildi bu iş, əməl.
Yiyəsinin əliylə
Uçuldu büt-büt heykəl.

Zamanın hökmü açdı,
Əl-qolunu millətin.
Çoxlarıtək nə idi,
Yoxsa sənin cür'ətin!

Qırmızı zəncirləri,
Qırdılar halqa-halqa.
Müstəqillik bizə də
Yetişdi dalğa-dalğa.

Qırmızı zəncirləri,
Qırmızı özü qırdı,
Müstəqilliyi bizə,
Tarixin özü verdi.

*9 fevral 1999.*

## QORU ÖZÜNÜ!..

Fələk özü bilər neynəyər sənə,
Hiylədən, kələkdən qoru özünü!
Səndə nə işi var pələngin, şirin,
Hünüdən, milçəkdən qoru özünü!

* * *

Böyük adamların işi başqadır,
Xırda adamlardan qoru özünü!
Açığın-aşkarın işi başqadır,
Örtülü bazardan qoru özünü!

* * *

Eybi yox, kükrəsin qasırğa, tufan.
Oğrun yeldöyəndən qoru özünü!
Xoşun gəlməsə də qaraqabaqdan,
Dili "can" deyəndən qoru özünü!

* * *

"Qul xətasız olmaz, ağa kərəmsiz"
Xəta heç. Günahdan qoru özünü!
Nəfsin vicdanında qoy salmasın iz.
Kəmşirin tamahdan qoru özünü!

* * *

Elə hey deyirsən: "Şeytana lənət!"
Özünə lənətdən qoru özünü!
Özünə xəyanət – dəhşət xəyanət.
Dəhşət xəyanətdən qoru özünü!

* * *

Möcüzə peyğəmbər şəninə şayan,
Yerişin itəndə qoru özünü!
Elə ki, sallandın dalay-dalaydan,
Söz-sovun bitəndə qoru özünü!

* * *

Qürurun əlçatmaz zirvəsi aləm.
Sən oxlov udandan qoru özünü!
Qaydadır aşığa dəmkeş tutar dəm.
Şaha dəm tutandan qoru özünü!

* * *

Ovqatın gülüdür gülüb danışmaq,
Şit-şit irişənnən qoru özünü!
Üzdə şapalağı unudan uşaq,
Dalda goreşəndən qoru özünü!

* * *

Gözəldir arılı, şehli tər çiçək,
Dərmanlı çiçəkdən qoru özünü!
Dönüb ruzun olar hər daş, hər kəsək,
Minnətli çörəkdən qoru özünü!

* * *

Səma yeddi rəngdə, yeddi çalarda.
Rəngi qarışanda qoru özünü!
Yer-göy bir hamarda, bir ixtiyarda.
Üzü qırışanda qoru özünü!

* * *

Ay hələ... hələ ki, yaşıl yarpağım,
Sarı yarpaqlardan qoru özünü!
Qızılbaş köhnəsi – ay qürub çağım,
Qoru! Qorxaqlardan qoru özünü!

* * *

Ehtiyat igidin yaraşığıdır.
Sən də yaraşıqla qoru özünü!
Ömür Ay işığı, gün işığıdır,
Bu qoşa işıqla qoru özünü!

*25 iyul 1995*

## PƏRDƏ

Pərdə lazımdırsa,
Alın pərdəni.
Günəş
Aynabəndə od
Yağdıranda
Salın pərdəni!
Yoxsa ki,
Elə-belə
Pərdə nəyə gərək?
Qoy göz işlədikcə
Hər tərəfi,
Hər yanı,
Bu işıqlı dünyanı
Yaxşı-yaxşı görək.
Evini-eşiyini,
Çox dəlmə-deşiyini
Kənar gözdən, nəzərdən,
Küçədən keçənlərdən
Gizlətmək istəyirsənsə
Hökmən pərdə gərəkdir!
Pərdə tut,
Pərdə çəkdir!
Gözü qamaşdıran işıq
Ziyandır.
Bir də o şey ki
Pünhandır.
Pərdəsini götürmə,
Amandır!

Səhnə pərdəsi də var,
Açılmağını intizarla,
Qapanmağını
Alqışlarla
Qarşılayır
Tamaşaçılar.
Bu məxmər pərdələrlə,
Bu kətan pərdələrlə,
Bu saya pərdələrlə,
Bu əlvan pərdələrlə
Birgə...
Bir pərdə də
Tanıyır hamı.
Tale özü saxlasın
Bu pərdəni tanımayan
Adamı.
Tanımamaq
Dərd yarıdır yenə;
Bu pərdəni
Gözgörəsi
Dartıb,
Yırtıb,
Yığıb,
Büküb-bürmələyib
Bir qırağa
Tullayandan
Deyim sənə.
Üz pərdəsi,
Sifət pərdəsi,
İsmət pərdəsi,
Abır-həya,
Nur-ziya pərdəsi,
Rəftar pərdəsi,

Namus-ar pərdəsi.
Qulağın da pərdəsi var,
Yoxsa karsan.
Gözün də pərdəsi var,
Yoxsa korsan.
Bəs gözdən asılan
Pərdə necə?
Bacarırsansa
Gözdən asılan pərdəni
Alma vecə.
Ləyaqət pərdəsi var,
Yoxsa...
Sarı köpüksən.
Şəxsiyyət pərdəsi var
Yoxsa...
Qara qəpiksən.
Beynimizin hər kürrəsi,
Hər kürrənin hər zərrəsi
Pərdədədir.
Bütün vücudumuz,
İllah da ki...
Ürəyimiz
Arakəsmə-arakəsmə
Pərdədədir.
Pərdə,
Pərdə,
Pərdə.
Yoxsa...
Aləm biri-birinə
Qarışıb gedər də...
Ana-bala pərdəsi,
Ata-bala pərdəsi.
Bacı-qardaş pərdəsi,

Yaş fərqi,
Yaş pərdəsi.
Tarın pərdələri var –
Zövq-səfa pərdəsi.
Narın pərdələri var –
Nemət-qida pərdəsi.
Pərdələrdən ehtiyat!
Çılpaqlaşmasın həyat!
Bu pərdələr
Nazilsə,
Süzülsə,
Üzülsə
Xudahafiz...
Pərdəsiz
Nə insanıq biz?!
Götürülməsin
Xətir-hörmət –
Pərdə.
Mərdi qova-qova
Döndərməyək namərdə.
Üzümüzdə qalmasın
Dırnaq yeri,
Cırmaq yarası...
Pərdəli olsun
Arasından su
Keçməyənlərin də
Arası.

## BİRİNİ ELƏ,
## BİRİNİ BELƏ...

Birinin başın deşirik,
Deş ki, deşəsən, deşəsən...
Birinin gorun eşirik,
Eş ki, eşəsən, eşəsən...

Birinə yaxırıq qara,
Yax ki, yaxasan, yaxasan...
Birini sıxırıq divara
Sıx ki, sıxasan, sıxasan...

Biri gözümçıxdıdadır,
Gözünü ov ki, ovasan...
Birinin bağrın çatdadır,
Atdöşü qov ki, qovasan...

Birinin yaxşı sözünü
Yamana yoz ki, yozasan...
Birinin tamam özünü
Hər yerdən poz ki, pozasan...

Birini də dağ başına
Ha qaldır ki, qaldırasan,
Gövhər deyib çay daşına,
Satdırasan, aldırasan.

Birini də döndəririk
Övliyaya, övliyaya.
Tanımırıq nə mən, nə sən
Onu guya, onu guya?!

Niyə gözə dürtə-dürtə,
Gözdən salırıq birini?!
Təriflərlə sürtə-sürtə
Üzdən salırıq birini?!

Birini döndərib şara
Üfürə-üfürə partdadırıq.
Birini salıb azara
Çərrədirik, çatdadırıq.
O da zülüm, bu da zülüm,
O da ölüm, bu da ölüm.

Tərəzidir ağıl, kamal,
Çəki daşı – insafla, haqq.
Tez-tez özündən xəbər al,
Ki... nədir haqq, nədir nahaq?

*noyabr, 1996*

## MƏNİM ÜRƏYİMDƏ SİRLƏR YATIR

Mənim ürəyimdə
Sirrlər yatır...
Sahilə danışsam
Dərya biləcək.
Qabilə danışsam
Dünya biləcək...

Mənim ürəyimdə
Sirrlər yatır...
Şehə pıçıldasam
Çiçək biləcək.
Mehə pıçıldasam
Külək biləcək.

Yaxşı saydığımın
Sirrini açsam
Yaxşı öləcək...
Yaxşı yaman imiş
Hamı biləcək.

Mənim ürəyimdə
Sirrlər yatır.
Necə açım deyim?
Aça bilmirəm.
Açsam – yerim yoxdu
Qaça bilmirəm.
Üzü gülənlərin
İçi qan ağlar.

İçimdə lal olmuş
Bir vicdan ağlar...

Çöldə səxavəti
Göz qamaşdıran,
Çöldə nəcabəti
İz dolaşdıran,
Çöldə hərarəti
Qazan daşdıran,
Evdə rəzaləti,
Xırdaçılığı
Fikir dumanladan,
Ağıl çaşdıran
Xəsisin sirrini,
Nacinsin sirrini
Necə açım mən?

Mənim ürəyimdə
Sirrlər yatır...
Günə pıçıldasam
Gün saralacaq.
Aya pıçıldasam
Ay qaralacaq.
Namussuz namuslu
Bilir özünü,
Onun nə cür'ətlə,
Nə ixtiyarla
Nə dəlil-sübutla
Açım gözünü?

Mənim ürəyimdə
Sirrlər yatır...
Ərə pıçıldasam
Arvad yanacaq...

Arvada söyləsəm,
Ər odlanacaq.

Müqəddəs sirr də
Düyündür axı...
Müqəddəs bir sirri
Necə açım bəs?
Açsam allah haqqı
İnanmaz heç kəs.

Mənim ürəyimdə
Sirrlər yatır...
Gizli satqınlığa
Bəs necə dözüm?
Bu sirlə nə sayaq
Dolanım – gəzim.

Mənim ürəyimdə
Sirrlər yatır...
Açsam neçə evdə
Zəlzələ qopar.
Onsuz da ömrün də
Axıra çatır,
Şair, sirrləri
Özünlə apar!..

Mənim ürəyimdə
Sirrlər yatır...
Sısqaca bir çaya
Danışsam əgər –
Çay selə dönər.
Vallah, tab gətirməz
Nəhəng körpülər.

Sirli yaxşılığı,
Sirli pisliyi,
Lal xeyirxahlığı,
Lal xəbisliyi
Neyniyim, heç kimə
Danışmaq olmaz.
Mənim ürəyimdə
Sirrlər yatır...
Qovrul cızhacızla,
Yan, korun-korun.
Aşkar tüstülənib
Alışmaq olmaz.

Mənim ürəyimdə
Sirrlər yatır...
Açarı qırxıncı
Otaqda qalır.
Yox, ordan götürüb
Göyə atmışam.
Kəhkəşan yolunda
Uzaqda qalır.

*24 aprel, 1996*

## NAŞİRLƏR

A naşirlər, insafa, mürvətə gəliniz bir!
Görün xalqın şairi bu gün sizə nə deyir:
Cızmaqaraçıların çevrilməyin quluna!
Şirnikməyin onların halal-haram puluna.
Boğazından kəsənin qeydinə qalın barı,
Cəfəngiyat eşqinə ac qalır uşaqları.
İndiyəcən hardaymış bəs bu yazı yazanlar?
Həm gülməli, həm də ki ağlamalı bir azar.
Millət başdan-ayağa kitab yazan olubdur;
Kitab selləməsiylə, əşşi, aləm dolubdur.
Camaat düçar olub əcaib bir  mərəzə, –
Kitab yazmaq çevrilib qoz-fındığa, çərəzə.
Hamının yeri-yurdu "övliya", "ocaq" imiş,
Hamı "vunderkind" imiş, "vergili" uşaq imiş,
Cızmaqara kitablar şəkillərlə doludur,
Müəllifin "əcdadı", "şəcərəsi", "uludur".
Kitablar nəfis-nəfis, kitablar qalın-qalın;
Oxuyun "dərs" götürün, oxuyun "ləzzət" alın.
Şit-şit avtoqraflar, hay-küylü təqdimatlar,
Yığılsın qoy bu matah, bağlansın qoy bu bazar.
Sovetlər ittifaqı yaxşı ki, oldu bərbad,
Üzə çıxa bilərdi heç bu qədər "istedad"?..
Naşirlər! Bu milləti, xalqı axmaq sanmayın.
Qrafoman puluna, siz allah, aldanmayın!
Əsl yazıçı gəzir qoltuğunda əsəri,
Elə hey sığallayır saralmış vərəqləri.
Ucdantutma ağlına gələni yazır hamı,
İçindən tüstülənir əsl qələm adamı.

Azadlığın bəhrəsi-barı budur, yeyiniz...
Əşşi, bu günümüzə hələ şükür deyiniz,
Kitablar yaraşıqlı, kitablar zərli-zərli,
Söz deməzdim bircəsi əyər olsaydı fərqli.
Heç nəyimiz yoxsa da, söz ustadlarımız var;
Vallah, narahat edir bizi narahat ruhlar.
Amanın bir günüdür, saf-çürüyə başlayın!
Malı mala qatmağı birdəfəlik boşlayın!
İnci ilə muncuğu seçməyəndədir günah,
Nəfsini tapdalayıb keçməyəndədir günah.
Kitabın pisi məlum, rədd elə babatını!
Qov getsin, üfür getsin sözün həşəratını!
Ay naşirlər! İnsafa-mürvətə gəliniz bir!
Görün xalqın şairi bu gün sizə nə deyir.

## HƏSRƏTİN

Saralmış çiçəklərim,
Soyumuş küləklərim,
Zay olmuş diləklərim –
Sənin həsrətin...

Gözümdə quruyan yaş,
Könlümdə donan təlaş,
Sinəmdən asılan daş –
Sənin həsrətin...

Fikrimi tərk etməyən,
Xəyalımdan getməyən
Ötməyən ki... ötməyən –
Sənin həsrətin...

*1975*

## KƏFƏN

Qalaq-qalaq,
Bəyaz-bəyaz
Kağızlarım;
Varaq-varaq,
Bəyaz-bəyaz
Kağızlarım.
Sözə həsrət
Qalıb çoxdan
Qolum sınıb...
Qələm sınıb...
Sözüm ölüb.
Mənim ölü sözlərimə
Bəyaz-bəyaz kağızlarım
Bəyaz kəfən olub çoxdan.

*16 fevral 2000*

## TELEFONUM

Mənim bülbül telefonum –
Cəh-cəhin qiyamətdir,
Mənim könlümü açan
Fərəhin qiyamətdir.
Neçə dost səsi dolur
Otağıma telinlə.
Əzizlərim nə yaxşı
Yadına salır məni?!
Zəng çalır, sükunətin
Əlindən alır məni.
Telefonda qəlbimə
Kövrək bir həsrət gəlir;
Qayğı-məhəbbət gəlir.
Qayğı deyil də nədir
Xəstənin də dərmanı?!
Sükuta bürünməyir,
Lal-dinməz görünməyir
Telefonumun bir anı.
Mənim canlı telefonum,
Elə sahibi kimi
Həyəcanlı telefonum.
Elə öyrəşmişəm ki,
Tanıyıram zənginnən,
Səsinin ahənginnən,
Bu, Nəbi Xəzri olar,
Bu, Balasadıqdı var.
Bu, Yusif Həsənbəydir,
Məsləhətləri aləm.

Bu da Fikrət Sadıqdır, –
Yox, yanıla bilmərəm.
Hüseyn Abbaszadəyə
O qədər yaxınıq biz
Deyir: – Əşşi, nə zəng ey,
Eşidilirik zəngsiz.
Ayaz Vəfalı təzə
Şe’rim üçün zəng çalır;
Qolu sınıq şairin
Tez-tez qeydinə qalır.
Telefonum qədimdir,
Yoxdur nömrə yazanı.
– Qabil, salam! – Bəs necə?
Anarı göydə tanı.
Hələ qohum-qardaşı
Mən qoyuram bir yana.
Eşq olsun öz səsiylə
Məni yada salana!
Əli Səmədli zəng çalır,
Səsi uzaqdan gəlir.
Sanki Mərdəkandan yox,
Uzaq Qazaxdan gəlir.
Mənim canlı telefonum,
Elə sahibi kimi
Həyəcanlı telefonum.
Mənim səs qonaqlarım!
Zəng çalın, zənginizin
Cəh-cəhi kəsilməsin,
Nə tel qırılsın, nə də
Ünsiyyət əskilməsin.
Zəng çalın – zənginizlə
Gülür üz, əriyir don;
Yoxsa nəyimə lazım
Küncdə ölü telefon...

*20 fevral 2000*

## ZARAFAT EYLƏMƏ

Toxucu olmaq istəsən –
Millə zarafat eyləmə,
Millə zarafat eyləmə!
Yazıçı olmaq istəsən,
Dillə zarafat eyləmə,
Dillə zarafat eyləmə!

Əkizlərin oxşarı var –
Oxşarı oxşardan ayır!
Atın cilovu-yüyəni,
Dəvəninsə ovsarı var,
Cilovu ovsardan ayır!
Yumağın şara oxşarı var,
Gəl, yumağı şardan ayır!
Pambıq da ağdı, qar da ağ
Gəl, pambığı qardan ayır!
Sən hər cunaya tül deyib -
Tüllə zarafat eyləmə,
Tüllə zarafat eyləmə!

Zahiri durğunluğu yox,
Batini durğunluğu gör!
Zahiri vurğunluğu yox,
Batini vurğunluğu gör!
Zahiri yorğunluğu yox,
Batini yorğunluğu gör!
Yoğunu da, naziyi də –
Tapançasız nə beldi bel?

Baş aparıb tapançalı
Bellə zarafat eyləmə,
Bellə zarafat eyləmə!

Sözün sözə bənzəri var –
Bənzərə zahir deginən.
Rədd elə ləntəranini,
Mətləbə dair deginən.
Rabitəsiz qafiyə fıs...
Zəncirə mahir deginən.
Hər sözün öz gövhəri var,
Sərrafa şair deginən.
Yeldi hədər fülənsə söz...
Yellə zarafat eyləmə,
Yellə zarafat eyləmə!

Bağça-bağın bağbanı var,
Danışmağın loğmanı var.
Sözün-sovun da köntöyü,
Əttökəni, şırdanı var.
Dil dediyin sirri-xuda –
Min sözaltı pünhanı var.
Nitqi də yoldan azdıran
İblisi var, şeytanı var...
Ürək qırıldı, vəssalam!
Nə var ki... bircə anın var...
Şeytanı qoyma tel qıra –
Tellə zarafat eyləmə,
Tellə zarafat eyləmə!

Qaynamasa yazar yazan,
Od üstə qaynayar qazan?!
Söz də dodaqda qaynayar,
Gözdə, yanaqda qaynayar.

Əlim qələm tutursa da
Bəyaz varaqda qaynayar,
Haqqına din, gərəkdisə...
Dinmə dilin gödəkdisə...
Yoxsa ki, söndürüb odu
Küllə zarafat eyləmə,
Küllə zarafat eyləmə!

Yoxdu dağın-daşın dili,
Qoçun dili, quşun dili.
Pələnglə aslanın dili,
Bəbirlə qaplanın dili,
Qarışqanın, filin dili.
Şəlalənin, gölün dili
Verilməyib axı hədər
Bu dil sənə, cümlə bəşər!
Hər şeyə qadirim mənim!
Ən ali nadirim mənim!
Bülbülü heyran eylə də,
Xalqı canhacan eylə də,
Qan salana qan eylə də.
Körpələrə layla da çal,
Başında kərgədanların
Bir dəli tufan eylə də.
Sıyır sözün qılıncını
Əllə zarafat eyləmə,
Əllə zarafat eyləmə!

Tərəzini taraz eylə,
Haqqa nəzir-niyaz eylə.
Nəfsini də lap az eylə,
Yaşa arzu-muraz ilə.
Səsin yoxsa zora salıb
Azan vermə avaz ilə.

Çıxma dərin dəryalara,
Dəlmə-deşik kolaz ilə.
Gücünə bax, yekə daşa
Güc eyləmə, dəmsaz ilə.
Coşa-coşa, daşa-daşa
Qoşuluban alabaşa
Fillə zarafat eyləmə,
Fillə zarafat eyləmə!

Araz Kürə qovuşsa da,
Qovuşsa da, qarışsa da,
Damarımda çağlasa da,
Vüqarımda çağlasa da,
Nazik sudur Nil yanında
Zümzümədir zil yanında.
Nilə baş vurub üzməmiş
Vəsiyyətin bəyan gərək.
Bu, sən görən deyil, baba,
Bu, sən girən deyil, baba,
Timsah üzür şırım açır,
Su qaynayır köpük-köpük,
Hənirtisi ölüm saçır
Timsah üzür kötük-kötük
Nillə zarafat eyləmə!
Nillə zarafat eyləmə!

Allah bilən məsləhətdir:
Ceyranı da o xəlq edir,
Xortdanı da o xəlq edir,
Gözəlliyi o bəxş edir,
Hüsnü surət o nəqş edir.
Şikəsti var, zəlili var,
Kor peşiman əlili var.

Çattaq qabı daşa çaxma,
Əlilliyi başa qaxma,
Şillə zarafat eyləmə,
Şillə zarafat eyləmə!

Xanəndə olmaq istəsən
Əlinə alginən dəfi.
Aldatmasın fəqət səni –
Dəfin bəzəkli sədəfi...
İş qalıb barmaqlarına
Çırtmanı vurmaqlarına...
Ancaq səsin yoxsa əgər
Dəf başına nə kül tökər!
Xanəndəlik etmək olmaz
Xırxır boğaz, cır səs ilə.
Meydana çıx çiniləri
Cingildədən zor səs ilə.
Təkcə pəslə baş girriyib
Zillə zarafat eyləmə,
Zillə zarafat eyləmə!

Ədvəcatın sirri dərin
Dərmanıdır çox dərdlərin
Özü təbib, hökmü mütləq
Ürəkdə tab, gözdə şəfəq
Ərdəbilin sarıkökü.
İstiotu alov təki
Kifayətdi... bir çimdik al
Hildən bir tum ağzına sal.
Hillə zarafat eyləmə,
Hillə zarafat eyləmə!

Tezi-geci ölüm gələr
Lap yüzə də çatsan əgər.

Qönçə-qönçə solmaq olmaz...
Cavan-cavan ölmək olmaz!
Fələk eşitmir “olmaz”ı
Alnımızda labüd yazı...
Köçməmişdən axirətə
Bir fayda ver bu millətə.
Çay aparıb gedir bizi
Bu çay, o çay deyil, baba
Çayla zarafat eyləmə!
Günlə zarafat eyləmə!
Ayla zarafat eyləmə!
İllə zarafat eyləmə!
İllə zarafat eyləmə!

*1 avqust 1993*

## XƏSTƏLİK

Xəstəlik adamı uşaq eyləyir,
Xəstəlik adamı şıltaq eyləyir.
Sözdən söz çıxarıb şübhəyə düşən,
Yelçəkən eləyir, ufaq eləyir.

Aləm qulluğunda dayansın gərək,
Gecəli-gündüzlü nazını çəksin;
Çovğunlu qış günü şehli çiyələk...
Könlün nə istəsə gətirib töksün.

Xəstəlik ürəyi kövrək eləyər,
Titrək yarpaq kimi titrək eləyər;
Yadına düşməyən gərəksizi də
Axtarıb özünə gərək eləyər.

Xəstəlik telefon həsrətindədir,
Neçin çalınmayır qapının zəngi?..
Xəstəlik dost-tanış xiffətindədir,
Dost-tanış görəndə durulur rəngi.

Xəstəlik adamı əldən salsa da,
Qayğılar xəstəyə qınaq olmayır.
Sağlamlıq ən gözəl nemət olsa da,
Bərk-boşa çevrilib sınaq olmayır.

Həkim ətəyində xəstənin əli;
Dava da, dərman da demə nahaqdır.
Ancaq həkim dili xoş söz deyəli
Xəstənin gülləri açılacaqdır.

Xəstəlik sınağa çəkir adamı,
Ruhdan düşən də var, düşməyən də var;
Əridib qəlibə tökür adamı, –
Qəlibdə bişən də, bişməyən də var.

Nə qədər yamanlıq, fənalıq ki, var
Yaddaş lövhəsindən silir xəstəlik;
Ağlayır ağlamaq bilməz adamlar, –
Başını bulayır gülür xəstəlik.

Xəstəlik bəladır – canından uzaq,
Ağırı-yüngülü andıra qalsın;
Həm sağlam, həm də ki, təmiz yaşamaq
Qoy elə hamının qisməti olsun.

Qara tikan batsın yaman gözlərə,
Yaxşı adamlara göz dəyməsin qoy.
Ömür möhlətiylə yol gedir hərə,–
Ayağımız daşa tez dəyməsin qoy.

Allah yüngül etsin yorğanımızı,
Üzərrik gözündən keçirsin bizi:
Elə naziltsin ki, vicdanımızı –
İynənin gözündən keçirsin bizi...

*25 fevral 2000*

## VAHİMƏ

Niyə qorxur adamlar
Qəbristandan gecələr?
Sükutu buza dönmüş
Lal məkandan gecələr?!

Lap xəyalən qorxulu
Gecə orda görünmək;
Vahimədən titrəyib
Ruhu xofa bürünmək.

Gül-çiçəkli qəbirlər,
Bər-bəzəkli qəbirlər;
Ehtişamlı qəbirlər,
Ehtiramlı qəbirlər
Zülmətdə qara devdir,
Ay işığında ağ dev.

Hesabsız başdaşları,
Hədər suallarıma
Cavabsız başdaşları
Əyilib düzəlirlər;
Elə bil addım-addım
Üstümüzə gəlirlər...

Burda bir xışıltıdan
Ağlın çıxır başından;
Lap əzizinin belə
Qorxursan başdaşından.

Xəyalında yarılır
Qırmızı, qara mərmər;
Yerlə yeksan qəbirlər,
Unudulan qəbirlər.

Kəfənlər qanad çalır
Bəyaz qağayılar tək;
Dünya dolub-boşalır,
Dolanır çərxi-fələk.

Ayağının altından
Bir daş qaçdı – vahimə.
Qaranlıqda
İşıldaböcək
Uçdu – vahimə.

Yel titrətdi bir kolu, –
Bir ağacı – vahimə.
Əlinlə dəfn etdiyin
Qardaş-bacı – vahimə...

Laylayla dəfn etdiyin
Körpə uşaq – vahimə.
Şanlı şəhid – vahimə;
Cəsur, qorxaq – vahimə.

Ölülər gözümüzə
Görsənir diri-diri;
Yox, yox, daş səltənəti
Zənn etmirik bu yeri.

Niyə qorxur adamlar
Axır mənzillərindən?

Burda qorxulu nə var
Düşünsələr dərindən.

Düşündün-düşünmədin
Dəxli yox zərrə qədər;
Qəbristan vahiməli,
Qorxuludur gecələr...

*27 fevral 2000*

## BİZİM OTAQ

*Yazıçılar birliyinin məşhur məsləhətçilər otağı*

Bura bizim doğma əziz otağımızdır,
Ustadların yadigarı ocağımızdır.
Burda Osman Sarıvəlli məsləhət verib,
Bu otaqda Rahim bizə zəmanət verib.
Mehdi Hüseyn, Səməd Vurğun, Süleyman Rüstəm...
Köks ötürüb... yad edirəm gözlərimdə qəm...
Bu gün bizik bu otağın sakinləri – biz.
Bu gün biz də qocalmışıq, cavan deyiliz.
Bu otağın bir azadlıq ən'ənəsi var...
Mübahisə, hay-küy, şadlıq ən'ənəsi var...
Bura elə çoxdan-çoxdan qaynar qazandır,
Çax-çuxuna öyrəşdiyim bir dəyirmandır.
Bura mühit otağıdır – ədəbi mühit,
Mənə elə gəlir ki, lap əbədi mühit.
Bura bizim hərarətli, isti yuvamız,
Hərdən oğrun ziyafətli isti yuvamız.
Bura abi-havamızdır, ovqatımızdır.
Bir-birimizə təzə şe'r sovqatımızdır.
Sözü olan, olmayan da bura baş çəkir,
Üzü olan, olmayan da bura baş çəkir.
Bu otağa azmı girib cızmaqaraçı?
Özün şair hesab edən sırtıq qaraçı.
Bir köntöydən acı tənə yemişik də biz.
Bir qanmaza "bas bayıra!" demişik də biz.
Azəroğlu suallara qərq olur burda.

Böyük-kiçik məqamında fərq olur burda.
Bu otaqda sevinc ilə kədər yanaşı.
Bəzən elə qarışır ki, Efesin[1] başı.
Balasadıq nə soruşur,  "bilmirəm!" deyir.
Abbas[2] deyir "Bir bura gəl". "Gəlmirəm!" deyir.
Qasanbekin[3] ədasına burda döz görüm.
Ört qapını, aç şüşəni, yüz-yüz süz görüm!
Umu-küsü bu otaqda qaş-göz arası.
Daha bunun umu-küsü oldu harası?
Allah bizim tərəfdədir, bilir işini,
Çəkir bizə ilişənin çəkir vişini,
Çəkir bizə qıcırdanın çəkir dişini.
Bu otaqda dil söhbəti, əsər söhbəti,
Xatirələr... ötüb keçən illər söhbəti,
Heç kim burda sala bilməz hədər söhbəti,
İşarədən söz qananıq – deyilik naşı...
Yox, korşalmaz aqillərin fəhmi-yaddaşı.
Bu otaqda kim daş atsa bostanımıza,
Hünəri var gəlib girsin meydanımıza...
İşiq sönsə, otağımız nurludur yenə,
Otağımız boyanıbdır şe'rin eşqinə.
Şe'rin şamı burda daim yanıb, yanacaq.
Bəli, belə bir otaqdır bizim bu otaq,
Belə idi, həmişə də belə qalacaq!

*27.10.1998*

[1] Efes – Qabil şair Fikrət Sadıqı qısaca bu cür çağırırdı.
[2] Abbas Abdulla.
[3] Yusif Həsənbəy.

## FƏRMAN ƏLİNDƏDİR

Sahildən aparmış məni əl boyda bir qayıq,
Sahildən uzaqda qayıq ümman əlindədir.

Əslən, o qayıq taleyimin rəmzidir bu gün,
Rəmzim, həqiqətim dəli tufan əlindədir.

Şayəd bəla yazıbsa mənim alnıma Allah,
Zənn etmə əlacım dava-dərman əlindədir.

Ölsəm də və qalsam da vüqardır ki, vüqarım,
Şəxsin vüqarı gül kimi vicdan əlindədir.

Şair qocalıb, hay-hayı heç... vay-vayı qalmış
Ancaq yenə doymaz gözü reyhan əlindədir

Yoxdur bu sözümdə şəbədə, məsxərə zad yox,
Xasiyyətin iç aləmi pünhan əlindədir.

Yatsın köpü meydan sulayan hikkəlinin qoy,
İstiqbalımız sanma ki, meydan əlindədir.

Hap-gopla, vur-həşirlə düzəlməz də bu işlər,
Qət`i hücumla – bir qana, min qan əlindədir.

Xanəndə gərək dərk eləsin ki, səsi var, yox,
Bəs tar-kamanla, zurna-balaban əlindədir?

Düşdünsə də öldür özünü yolda dumana,
Həşdad fanar as, cümləsi əlvan əlindədir.

Hər aşığın və aşiqin öz dövranı beş gün,
Dövran da oyuncaq kimi fərman əlindədir.

Sabirlərin, Füzulilərin yoxdu zamanı,
Möhlətləri göylərdəki sübhan əlindədir.

Qabil, bu yazın da nə qəzəldir, nə qəsidə
Söz qiyməti, söz sərrafı oğlan əlindədir.

*08.09.1998*

## PİŞİK

Sən bir zaman nəhəng idin, ay pişik!
Qorxunc, xallı pələng idin, ay pişik!
Cütçü baba oyun açdı başına:
Hiylə qurub qoşdu səni xışına.
Vıyhavıyla vıyıldadı qamçılar,
Qamçıların uclarında damcılar...
Damcıların nar giləsi hər biri...
Nə qanlıymış o cütçünün tədbiri.
Babam deyir: – Boş, havayı sözdü bu.
Cütçü baba itirmişdi ağlını?
İncidəydi əli-qolu bağlını?
Kişi olmuş bizim kişi babalar,
Görməzdilər belə işi babalar.
İgid olub, pələng olub nəslimiz,
Pələnglərə qurmamışıq tələ biz.
Quyruğunu basmamışam bircə yol...
Yerin isti, sür-sümüksüz ətin bol.
Mənimlə bir multfilmə baxırsan,
Baxmayanda qaçıb çölə çıxırsan,
Özün üçün gərnəşirsən tox, pişik,
Bir dəyənin-dolaşanın yox, pişik!
Ayağıma sürtə-sürtə üzünü,
Gah yumursan, gah açırsan gözünü;
Gah qıvrılıb xorul-xorul yatırsan,
Gah aləmi bir-birinə qatırsan,
Bir zamanlar pələngdinsə əgər sən,
Dönüb pişik olmuşdunsa zülmdən,
Qayıt yenə pələngə dön, ay məstan!
Nə deyirsən, bir danış, din, a məstan!
– Piş-pişş!
– Miauu, miauu...

*1980*

# XAL

Yarpaqlara xal düşür
Xəzan gələndə.
Üfüqlərə xal düşür
Tufan gələndə.
Meyvələrə xal düşür
Vaxtı ötəndə.
Ürəklərə xal düşür
Səksəkələrdən;
Ehtimaldan,
Şübhədən,
Təhlükələrdən.
Etiqada xal düşür,
Qol-qanada xal düşür.
Neçə inam sahibi,
Neçə zorlu pəhləvan
Bu xaldan
Bihal düşür.
Sədaqətə xal düşür,
Dəyanətə xal düşür.
Damcı daşı dələntək
Polad əzmi dəlir xal,
Etibara xal düşür,
Arzulara xal düşür.
Nurlu ümid üstünə
Zülmət olub
Gəlir xal.
Uduzmağın öz xalı
Udmağın da yüz xalı...

Xal,
Xal,
Xal.
Birinin heçi-puçu,
Birinin cah-cəlalı.
Xal da söz kimi şeydir:
Öz yerində qiyamət,
Yanaqlarda tamaşa...
Burunlarda xəcalət.
Xal üstündə az qala
Qada düşüb, qan düşüb;
Qılınclar qından çıxıb,
Şahlar taxtından düşüb.
Xal üstündə
Günahsız adamlar
Gedib bada.
Düşüb böhtana,
Oda.
Şairlər
Daşıb-coşub.
Nəğmə qoşub, söz qoşub
Vəsf eləyiblər xalı
Xallı mahi-cəmalı.
Xal tələyə qoyulmuş
Dən olanda ayıq ol!
Tələdəki dən ilə...
Tən olanda ayıq ol!
Ömrün,
Bəxtin,
Qismətin,
Ağlın,
Zövqün,
İsmətin

Lövhəsinə düzülmüş
İşarələrdi xallar
Ulduz qədərdi xallar.
Xal,
Xal,
Xal...

*1985*

## HİND OKEANI

– Hara belə?
– Uzaq sahilə.
– Yəni hara?
– Əşşi, uzaqlara,
Lap uzaqlara...
– Məsələn?
– Yaxşı, eləysə
Bunu bir mən bilim,
Bir də sən.
Gedirəm
Hind okeanına.
– Hind okeanında
Nə var?
Yazığın gəlsin
Canına.
– Elə canımdan
Bezdiyimə görə,
Əlimi hər şeydən
Üzdüyümə görə,
Bu qədər
Gəl ha gələ,
Gül ha gülə,
Çal ha çala,
Tərif gürşadlarına,
Dünyanın ən fəxri
Adlarına,
Şahənşahlığa –
Nə şahənşahlıq –
Lap allahlığa
Dözdüyümə görə.

Bir sözümün
Heç vaxt,
Heç yerdə
İki olmadığından,
"Bir" rəqəmindən başqa
Ayrı say
Yaddaşımda qalmadığından
Zinhara gəldiyimçün.
Sucuq qəsidələrdən,
Muncuq qəsidələrdən
Lap zara gəldiyimçün
Hələ ki, lap
Bütləşmədiyimçün
Kütləşmədiyimçün
Gedirəm
Hind okeanına.
– Elə isə ora niyə?
Ora nəyə?
– Gedirəm
Özümü öldürməyə.
– Anlamadım.
– Anla!
Gedirəm qovuşmağa
Okeanla.
İstəyirəm
Hind okeanında
Boğulam.
Bəs demirsiz ki,
Mən nadir oğulam.
Gedirəm
Külü Qanqa sovrulmuş
Qandilərin,
Nehruların

Ruhundan
Külündən
Səməndər kimi
Təzədən doğulam.
– İncimə!
Bakılılar demişkən:
Xərifləmisən?
Camaatı
Hərifləmisən?
Qulağının dibindəcə,
Öz doğma elindəcə
İxtiyarı əlindəcə
Bu boyda Xəzər
Sənə boy verməz
Məyər?
Get Xəzərə
Atıl də.
Atıl sonsuz xəzinə
Göy sulara
Qatıl də...
Mehriban ana Xəzər?
Sənə dayazlıq elər?
Boğulmaq söhbətində
Yarım vanna da bəsdir.
Hind okeanına təşrifin
Gülməlidir,
Əbəsdir.
Su ki, boğaza çıxdı
Qurtardı getdi də,
İşin bitdi də.
Hind okeanı...
Yox bir Şimal buzlu... –
Baxdı mənə

Güldü acı-acı
Dedi:
– Sən bilmirsən
Nədir şöhrət möhtacı.
Nədir şöhrət mərəzi
Çəpik tiryəki
"Urra!" bihuşdarı.
Yoxsa kim atıb gedər
Doğma, şıltaq suları;
Yoxsa kim tutub gedər
Qorxunc, uzaq suları?
Kaş adi balıqçıtək
Qovuşaydım Xəzərə
Barəmdə əlli zurna
Füləməyəydi hərə.
Hind okeanı uzaqdır,
Hind okeanı dərindir.
Dərdim Allah əlacı
Başımda şöhrət tacı
Çox səfərlərə çıxdım
Bu da bir səfərimdir.
Min bir səfər içində
Bir nadir səfərimdir.
Hind okeanı vahimə
Burulğanları dəhşət
Bu da bir cürə söhbət...
Candan şirin nə var ki
Cəhənnəm olsun şöhrət.

*29 yanvar 1999*

## GÖYLƏRİN ÜRƏYİ

Göylərin ürəyi nə yaman dolub,
Tökür sinəmizə göz yaşlarını.
Fələklər, mələklər uşaqmı olub,
Yoxsa unudublar öz yaşlarını?

Nə yaman kövrəlib ulduzlar-aylar,
Nə yaman yuxalıb ərşin ürəyi.
Yoxsa yerdən qopan bu ahu-vaylar,
Pərişan eyləyib çərxi-fələyi?

Allah dərgahına uzanan əllər,
Yağış istəməyir, nicat istəyir,
Başını itirmiş obalar, ellər,
Adicə güzəran, həyat istəyir.

Nə yaman çatılıb göylərin qaşı,
Xalqımın çatılmış qaşına bənzər.
Dərgahın selləmə axan göz yaşı,
Qaçqın gözlərinin yaşına bənzər.

Daşıbdır göylərin səbir kasası,
İstiqlal yolusa deyildir rahat.
Ruhumla həmahəng yağış havası,
Yağış gözümdən də yağır bu saat.

*20 noyabr 1998*

## MƏNİ QORU

Gündə bir saat
Barmaqlıqdan görünən
Fəzaya,
Ömürlük cəzaya
Dözərəm.
Ey ulu Qüdrət,
Fəqət,
Məni sakındır
Bir cinayətdən.
Bu cinayət –
Xəcalətdir.
Məni qoru
Ömürlük xəcalətdən.
Ürəyim qübar eyləsə,
Gücüm heç nəyə çatmasa
Sözüm heç ağıla batmasa
Qan udaram,
Qan qusaram.
Haqq önündə
Dilim qısa
Lal olubar
Mən susaram.
Sözüm olsa onu üzə
Mərd deyərəm.
Yox, kobud yox,
Sərt deyərəm.
Fəqət,
Ulu Qüdrət,

Qoyma məni
Zəhər tuluğu olam
Onnan da pis
Şərbət qılığı olam.
Qoru məni
Yan-yörəmi
Gicitkəntək dalamaqdan,
Daladığım sir-sifəti
Sonra gedib
Sulu-sulu yalamaqdan...

* * *

Bir gün yağlı yeyərəm,
Bir gün yavana qallam.
Bir gün tavakababa,
Bir gün havakababa,
Bir gün də
Ağzımı göyə açıb
Gümana qallam...
Ey ulu Qüdrət,
Fəqət,
Məni qoru
Dost-düşmən yanında
Acı-acı ağlamaqdan,
Lap gül kimi,
İpək kimi ürəkləri də,
Lap daş kimi,
Kəsək kimi ürəkləri də
Acı-acı dağlamaqdan.

* * *

Yaxşılığı itirmək
Günahdır.
Öz-özünü qətlə yetirmək
Allah üzünə ağdır.
Ey ulu Qüdrət,
Fəqət,
Qoru məni
Qaxıncdan,
Dalı da,
Qabağı da
Kəsən qılıncdan.
Qoru məni
Yersiz qol-qanaddan,
Qoru məni
Yersiz ehtiyatdan.
Qoru məni
Unutqanlıqdan.
Dəliqanlıqdan.

* * *

Beşindən qorxmasam da
İkisindən qorxaram,
Günəşin altında mən
Daş deyiləm ki,
Qaram.
Günahımı boynuma
Kişi kimi alaram
Bu millətin önündə

Ey ulu Qüdrət,
Fəqət,

Qoyma sınam, yalvaram
Müxənnətin önündə.

* * *

Hər məqamda
Zərif olmaq olmaz.
Heç məqamda
Hərif olmaq olmaz.
İnsan
Nəzakətlə qəbahətin
Arasındadır hər an.
Ey ulu Qüdrət,
Fəqət,
Məni qoru
Boynu dönə bilməyən
Kərgədandan,
Nəzakət qrimli
Nadandan.
Qorxmuram
Məyus andan.
Məni qoru
Ümidsiz,
Məlul andan.
Bir də,
Bir də
Ömürlük hicrandan.

*6 mart 1998*

## AVTOPORTRET

Qibləgahım – həqiqət.
Səcdəgahım – sədaqət.
Daş-tərəzim – ədalət.
Qətiyyətim – cəsarət.
Riyadan-xəyanətdən
Uzağam yeddi iqlim,
Əyilləm haqq önündə,
Bilsəm ki, nahaqam mən.

Gücüm çatmayan daşı
Heç vədə götürmədim.
Yalan satıb, sonradan
Özümü itirmədim.
Dost əhdi-peymanına
Bir xətər yetirmədim.
Udub köntöy bir sözü –
Köksümü ötürmədim.
Söz yarasından şükür,
Şükür ki, uzağam mən.

Bilirəm ki, uyuşmur
Xasiyyətim yaşımla,
Barışmır ki, barışmır.
Yazım qarlı qışımla...
Qiyamət ərməğandır
Baxtımın ərməğanı:
Qəzəbim yaz şimşəyi,

Kinim bahar leysanı.
Sadəyəm – sanma fəqət,
Sadəlövh uşağam mən.
Ovqat pərdələrim var
Tarın pərdələritək.
Nə əhvalım bozumtul,
Nə təranəm yeknəsəq.
Ancaq, bir vurğudadır,
Bir ahəngdədir ürək.
Qabağına qatmayıb
Məni hərcayi külək...
Nə ilahi qismətmiş
Cövhəri dəyişməmək!
Bax ki, yeddi cilvəli
Əlvan təmtərağam mən.

Ürəyimlə dilimin
Arasında çəpər yox.
Bəzən sözüm acıdır –
Acısında zəhər yox.
Lap o tərs damarımda
Bir kimsəyə zərər yox,
Lap elə hay-küyümlə
Dostlara toxdağam mən.

Nə tamarzı qalmışam,
Nə harın boy atmışam,
Yeddi dəryanı üzüb...
Yetmiş yaşa çatmışam.
Nə irəli can atıb,
Nə qəflətdə yatmışam.
Şe`r qılınclarının
Şimşək parıltısında

Mən də öz qılıncımı
Götürüb oynatmışam.
Parıltılar içində
Nuram mən, çırağam mən.

*01.02.1996*

## MƏNİM BƏSTƏKARLARIM

Mənim şe`rlərimə
Fələklər nəğmə yazır.
Fələklər pərdəsində
Mələklər nəğmə yazır.

Mənim şe`rlərimə
Gilavar nəğmə yazır.
Gilavar məxməriyi,
Xəzri coşğunluğuyla,
Xəzər daşqınlığıyla
Abşeronun dəlibaş
Hava çaşqınlığıyla.

Mənim şe`rlərimə
Ulduzlar nəğmə yazır.
Mənə göz vura-vura
Lap ovcumun içində,
Lap gözümün içində
Hey çağlaya-çağlaya,
Ayın gümüş sərvindən
Saz bağlaya-bağlaya.

Mənim ş`erlərimə
Meşələr nəğmə yazır
Yaşıl yarpaqlarıyla.
İlk “ana” sözü deyən
Körpələr nəğmə yazır
Südlü dodaqlarıyla.

Mənim şe`rlərimə
Çinarlar nəğmə yazır
Aydın pıçıltısıyla,
Narin xışıltısıyla.

Mənim şe`rlərimə
Yağışlar nəğmə yazır.
Ürəkdən qopub gələn
Alqışlar nəğmə yazır.

Mənim şe`rlərimə
Nəğmə yazır sərçələr.
Dünyada sərçə kimi
Vəfalı quş var məgər?

Mənim şe`rlərimə
Nəğmə yazır bülbüllər.
Dünyada bülbül kimi
Bəstəkar varmı məgər?
Nəğməkar varmı məgər?

Mənim şe`rlərimə
Nəğmə yazır şəlalə.
Ətirsiz taleyindən
Sinəsi dağlı lalə.

Mənim şe`rlərimə
Nəğmə yazır torpağım.
Nəğmə yazır çadırda
Qocam, gəncim, uşağım.

Mənim şe`rlərimə
Gözəllər nəğmə yazır

Xumar baxışlarıyla.
Mənim şe`rlərimə
Xəzəllər nəğmə yazır
Ömrün son payızında
Xəzan yağışlarıyla.

*05.11.2003*

## ŞAHİ-ŞƏHİDAN

Şəhidlərin şahı İmam Hüseyndir,
Şahi-şəhidan deyilir adına.
Ərşə çıxan ahı İmam Hüseyndir,
Ahının tufan deyilir adına.
Etiqadın odur əsl qurbanı,
Zəruri qurban deyilir adına.
Amma ki, qurbanla şəhid başqadır,
Şəhidin qəhrəman deyilir adına.
Əldə silah döyüşlərdə həlakın –
Qanına qəltan deyilir adına.
Şəhid qanı uğuldayır dəryatək,
Qırmızı ümman deyilir adına.
Qanlı kəfən qırmızı yelkən olur,
Ruhun qızıl dan deyilir adına.
Vahimədən ulduz axır, ay batır,
Şami-qəriban deyilir adına.
Qeyri-bərabər döyüşün dəhşəti
Dəhşətli dastan deyilir adına.
Bu müqəddəs cahaddı, imtahandı,
Qanlı imtahan deyilir adına.
Təsadüfi bir səbəbdən ölərsək,
Təsadüfi an deyilir adına.
Qalx, çağırır şanlı döyüş meydanı,
Canda yanhayan deyilir adına.
Kimin ki meydanıdı yorğan-döşək,
Səliqə-səhman deyilir adına.
Təbiətin qırğınıdır zəlzələ,
Bax, bunun qurban deyilir adına.

Bircə anda, bircə sanda hər şeyin –
Yer ilə yeksan deyilir adına.
Ruhu, yaşa şəhid Cavad xanların,
Xalqa şərəf-şan deyilir adına.
Şəhidlərin şahı İmam Hüseyndir,
Şahi-şəhidan deyilir adına.
Kərbəladır şanlı şəhid meydanı,
Birinci meydan deyilir adına.
Solmur şəhid qəbrindəki çiçəklər,
Solmaz gülüstan deyilir adına.
Haqq yolunda kəfən geyib bir ölkə,
Azəribaycan deyilir adına!

*12.01.2004*

## ÇAL, QABOY!

*Ölməz Heydər Əliyevin matəmində*

Çalma demişdim sənə mən,
Çal, qaboy!
Matəm içindədir Vətən,
Çal, qaboy!
Yumdu gözün millətimin rəhbəri,
Azərbaycanın Atatürk öndəri.
Ümidimiz qalmışikən qürbətə,
Dözək necə həmişəlik həsrətə?
Söndü mayaklar mayakı dəryada,
Bağrımızı parcalayan fəryada –
Sən də qoşul, nalə qopar,
Çal, qaboy!
İtkiləri bir də yada
Sal, qaboy!
Itkilərin itkisidir
Bu itki.
Xalqın ağır itkisidir
Bi itki.
Xalqın dərin itkisidir
Bu itki.
Sən ki onu yüz ildə bir yaratdın,
Ay Allah!
Bəs nə üçün bağrımızı qanatdın,
Ay Allah?!
O, Vətəni yer üzünə tanıtdı,
Səni, məni yer üzünə tanıtdı.

Ölkəmizi o çatdırdı şöhrətə,
Millətimi o mindirdi qiymətə.
İmzamızı imzalara qatdı o,
Hamımızın imdadına çatdı o.
Əməlləri bir sərgidir önümdə,
Bu matəm, bu mərsiyəli günümdə
Çal, qaboy!
Çal, qalmadı camaatda
Hal, qaboy!
Yox, bu matəm sığmaz
Üçə, yeddiyə.
Yox, bu matəm sığmaz
İlə... illərə.
Yox, bu matəm sığmaz
Ümman güllərə.
Yox, bu itki ayrı bəla,
Ayrı dərd.
Çal, qaboy!
Bu müsibət namərdi də
Edər mərd,
Çal, qaboy!
Qərənfillər qızıl xalı-xalçadır,
Göz yaşları büllur-büllur dolçadır.
Əsl Allah adamıykən rəhbərim,
Allah! Sənə rəvamıdır kədərim?!
Şamlar yanır döngə-döngə, tinbətin,
Bu şam deyil, ürəyidir millətin.
Bu tarixi bir amandır, bir ahdır,
Ağla, xalqım, ağlamamaq günahdır.
Ümidimiz qalmış idi qürbətə,
Necə dözək bəs əbədi həsrətə?
Ümidimiz ümidsizlik deyildir,
Neynək... ölüm sizlik, bizlik deyildir.

Ümidimiz Varisədir – şükürlər,
Nəsli-əsli xalisədir, şükürlər.
Çalma demişdim sənə mən,
Çal, qaboy!
Matəm içindədir Vətən,
Çal, qaboy!

*14.12.2003*

## KÖHNƏ QALA

Qalalar... qalalar
Torpağımda,
Tariximdə
Köhnə kişilərdən
Yadigar qalalar.

Köhnə qalalar
Möhtəşəmlik,
Əzəmət.
Nəsildən-nəsilə
Əmanət.
Köhnə kişi
Köhnə qala.
Milli idrak
Milli vüqar,
Milli iftixar.

Köhnə qala
Adicə
Daş,
Torpaq,
Gil
Deyil.
Ad kimi,
Ünvan kimi,
Nam-nişan kimi
Hər yetənə
Şamil deyil...

*22.11.2003*

## TƏZƏ

Mənim aləmimdə
Nə xoş gəlirsə gözə,
Təzədir-təzə.
Nə yatırsa ürəyə,
Nə yatırsa cana,
Təzədir-təzə.
Baxmır vaxta, zamana,
Təzə deyil təkrar!
Hər il təzədən gəlir
İlk bahar.
Hər il təzə düşür
Birinci qar.
Hər il təzədən gülür
Çiçəklər, otlar.
Təzədir qədim
Laylalar.
Təzədir həyat
Köhnə adət-ənənəsiylə.
Təzədir
Zülm-istibdad
Köhnə şəkilli,
Təzə məngənəsiylə.
Təzədir min ilin
Ömər Xəyyamı.
Təzədir Spartakın
Qələbə qiyamı.
Təzədir toy,
Təzədir vay,

Təzədir
Adəmin-Həvvanın
Cənnət buğdası.
Təzədir
Ağsaqqal,
Ağbirçək duası,
Allah rizası.
Qoca tarzən
Təzə xallar vurur
Pərdələrdə gəzə-gəzə.
Təzənin
Nə əvvəli-nə axırı.
Təzənin
Yoxdu, olmur
Hisi, pası, paxırı.

*07.12.2003*

## İKİ QIRX

İki tarix, iki qırx
Bir qoşa təqvim varağı.
Biri gəlmək sorağı,
Digəri getmək sorağı.
Biri sədanın qırxı,
Biri vidanın qırxı.
İki qırxın biri
Qardan da bəyaz qundaqda.
İki qırxın biri
Sapsarı xəzantək ağda.
İki qırxın biri
İlk muştuluq,
İlk müjdə
Və ön xərc...
Iki qırxın biri
Son ehtiram ilə
Və son borc ilə
Son xərc...
İki qırxın biri
Son nöqtədi, son sözdü ki:
Rəhmət.
İki qırxın biri
Tale... yazı...
Dəhşətli müəmma
Dolu hikmət.
Qırxın biri
Allah amanında – Amin!
Qırxın biri

Qur`an lisanında – Amin!
Düşmə iki qırxın
Əmmasına sən gəl.
Varma iki qırxın
Mənasına sən gəl.
Qırxın biri axır,
Qırxın biri əvvəl.

*09.12.2003*

## İKİ DAĞ

Bir dağ dağlar dağımdır,
Zirvəsi ərşi-əlada.
Bir dağ daşım-torpağımdır
Hər rəmzdə, hər mənada.

Bir dağ dilimin əzbəri
Hər nağılda, hər dastanda.
Aşıqların şah əsəri,
Saz səsləri asimanda.

Bir dağ igidlər timsalı,
İgidlər bir dağ vüqarı.
Bir dağ əzəmət cəlalı,
Bir dağ qartal oylaqları.

Bir dağ da dağı sinəmin,
Qeyrət günahımdı mənim.
Sönməz ocağı sinəmin,
Tüstüsü ahımdı mənim.

Bir dağ ana-bacı dağım,
Ürəyimdə çalın-çarpaz.
İşğal altında torpağım,
Gözüm baxar, əlim çatmaz.

Bir dağ yadlara ümidim,
Özgələrə əl açmağım.
Gülsüz bahara ümidim,
Dibçəklərdə gül açmağım.

Bir dağ ulu Sabir dağı,
Sağalan deyildir o dağ.
Unudub vətəndaş olmağı,
Rəqs eləyir oğul-uşaq.

Hey şüar de, hey zurna çal.
O dağ sinədə qalası.
O dağ İlahidən zaval,
O dağ Allahın bəlası.

Dağlar dağım hayqırır: – Sus!
Tərifləđin məni, yetər!
Sinə dağım yersiz-yurdsuz,
Didərginlər... didərginlər.

Qorxuram ki, sinə dağım
Əridə dağlar dağımı.
Sözdə Koroğlu olmağım
Kiridə dağlar dağımı.

Mənim ana torpağımdan
İtilməyincə son yağı.
Danışma dağlar dağımdan,
Qan verir sinəmin dağı.

*10.12.2003*

## DÜŞÜNCƏ

*"Mən dənizi düşünürəm".*
*Nəbi Xəzri*

Nə dənizi, nə gölü,
Nə çəməni, nə çölü,
Nə şəlaləni, nə çayı,
Nə ulduzu, nə Ayı,
Heç nəyi, heç şeyi,
Nə dibsiz yeri,
Nə sonsuz göyü...
Əsla düşünmürəm.
Aləmi düşünüb
Yaradanda
Yaradan...
Məndə Tanrı düşüncəsi
Haradan?!

Gülürsüz gülün
Qəşş eləyincə,
Gözünüzün yaşını silin.
Məni düşündürür
Mənasız bir sual.
Yox, mənasız heç nə olmur,
Xəyala get,
Fikrə dal.
Ölülər üşümür ki,
Yağışda, qarda.
Tir-tir

Məzarda?
İstidən bişmir ki,
Qızmarda
Təndir məzarda?

*11.12.2003*

## AÇIĞINI DEYİM Kİ...

Filankəs yaxşı kişidir.
Filankəsin pişiyi dişidir.
Payızdır,
Yarpaqlar saralır.
Axşam düşür,
Hava qaralır.
Bunun nə açığı, ay canım!
Ay açığını deməkdən qorxanım!
Açığını deyim ki,
Üfüqdə dan sökülür,
Volqa Xəzərə tökülür,
Balina okeanındır,
Bir qız bir oğlanındır.
Füzuli dahidir,
Kainatı xəlq edən
İlahidir.

Açığını deyənlər –
Acı həqiqət deyənlərdir.
Dilindən, canından keçib
Kəfən geyənlərdir.
Açığını deyim ki,
Gözünün içinə
Qızıl-qırmızı deyim ki,
Filankəsin oğlu,
Filankəsin qızı
Pisdir,
İblisdir,

Xəbisdir,
Nacinsdir.
Bu fikir
Həm yanlış,
Həm baş-ayaqdır.
Bu alim balqabaqdır,
Bu qəsdən təhrif,
Bu pəsdən tərif,
Bu görən kor,
Bu eşidən kar,
Bu çörək itirən
Nankor.
Budur açığını demək.
Yoxsa
Yersiz hünər,
Gülünc, yaltaq cəsarət.
Açıq qapını döymək
Kimə, nəyə gərək?!

*16.12.2003*

## ƏN

Hamı "ən"dir,
Hamı özünü
"Ən" biləndir.
Ən yaxşı şair,
Ən yaxşı nazir,
Ən yaxşı həkim,
Ən yaxşı alim,
Ən yaxşı hakim,
Ən yaxşı dost,
Dost şərəfinə
Ən yaxşı tost.
Hamımız ən,
Bu – "ən",
O – "ən",
Mən – "ən",
Sən – "ən".
Hünərin var
Birinə de:
– Sən də "ən"?
Başına daş yağdırar
Göydən.
"Ən" – qiymət zirvəsidir
Dünya yaranan gündən.
Şərəfsizin də var
"Ən"i.
O da qiymətdir
Mən biləni.
Ən nacins,

Ən naqis,
Ən xəbis,
Ən xəsis,
Ən pis,
Ən alçaq,
Ən qorxaq,
Ən yaltaq.
“Ən”nən “ən”
Yanaşı –
Hər ikisi
Məhək daşı.
“Ən”nən ”ən”
Mənfi-müsbət.
İki kəsişməyən
Düz xətt.

*15.04.2004*

## AD

Ad addı də,
Biri Məryəm,
Biri Muraddı də.
Biri doğrudan da
Müqəddəsdi, məsumdu
Məryəm anatək.
Birinin doğrudan da
Arzusu-muradı
Nurlu, yüksək.

Ancaq çoxu, lap çoxu
Öz adına yaraşmır.
Daşdəmir adından,
Şahanəlik adından
Kar aşmır.
Aslan dovşan olur,
Loğman nadan olur,
Həcər – eybəcər,
Gülyanaq – qaşqabaq.
Sədaqət xəyanət,
Mərdan cırtdan olur.
Şahin cüllüt,
Dövlətşah lüt,
Akif kif olur,
Arif hərif olur,
Aqil cahil olur,
Qorxmaz qorxaq olur.

Günahkar sayılmır,
Söyülüb döyülmür
Ad verən, ad qoyan.
Ad verən
Bu ada
Yaraşan
Bir övlad diləyib
Tanrıdan.
Bələkdə-beşikdə
Qol-qanad diləyib
Tanrıdan.
İnsana yaraşan
Əsl ad diləyib
Tanrıdan.
Fələyin saydığı
Başqa iş, başqa şey
Yazıdan,
Qismətdən,
Taledən nə giley.

*06.11.2004*

## NƏ ÜRƏYƏ YATDILAR ,
## NƏ AĞILA BATDILAR

*"Kiçicik bir sudur yer üzündə Kür,*
*Baxsan bu dünyanın xəritəsinə.*
*Bəs niyə qəlbimdə ümman döyünür*
*Mən qulaq asdıqca Kürün səsinə?!"*
*Səməd Vurğun*

Ha yazdılar, pozdular,
Yan-yana da düzdülər,
Üst-üstə də düzdülər,
Hamar sətri qırdılar,
Əlli hoqqa qurdular.
Zövqə ağız büzdülər,
Şövqə ağız büzdülər.
Alt-alta da düzdülər
Dədə-baba yazarı
Həqarətlə süzdülər.
Baxtın nərdtaxtasında
Hey şeş-qoşa atdılar,
Nə ürəyə yatdılar,
Nə ağıla batdılar.
Nəyə çatdı-çatmadı
Durub əl uzatdılar,
Dinənin bostanına
Tappadan daş atdılar.
Azca qımıldayanın
Axırına çatdılar.
Sözlərini az qala
Qur`an elan etdilər.
İlahi vergisinə

Üsyan elan etdilər.
Ağılsız deyildilər,
Qəsdən elan etdilər.
Görəndə ki, ağ oldu,
Pəsdən elan etdilər.
Yazmağına yazdılar,
Yazdılar-yaratdılar.
Ancaq... dəhşətli ancaq,
Nə ürəyə yatdılar,
Nə ağıla batdılar.
Onlar qafiyəpərdaz,
Onlar olmayıb naşı,
Qrafomanla olmaz
Əsla qoymaq yanaşı
Onları!
Onların
Öz meyarı,
Bu meyar ilə fəqət
Allah versə də möhlət
Nə ürəyə yatdılar,
Nə ağıla batdılar.
Bu nöqtədə –
Nə qınaq?
Nə danlaq?
Nə sınaq?
Nə ummaq?
Belə olub hər zaman,
Belədir həm bu saat.
Belə də olacaqdır
Nə qədər ki, var həyat.
Ürəyə yatan yaşar
Ürəyə yatmayanla.
Ağıla batan yaşar
Ağıla batmayanla.

*11.01.2004*

## QƏRƏZ

*"Biqərəz insan olur görmək fəqət tabutidə"*
*Səməd Mənsur*

Neynəyirəm tabutdakı biqərəzi,
Mərəzindən canı rahat bimərəzi.
O dünyaya kəfəndə get – bu adətdir,
Haqq yolunda kəfən geymək fəxarətdir.
Niyə axı aydan arı, sudan duru deyil adam?
Yox, inkar da bir qərəzdir, buna yadam,
Niyə axı qaralayıb güdməliyik kimisə biz?
Heç olmasa fikrimizdə didməliyik kimisə biz?
Axı niyə qəlbimizdə yatsın  buğum-buğum qurd?
Bu qurddan da yaxasını qurtarmasın millət, yurd?
Ulu Adəm babamızdan qərəz üzü bəridir,
Qərəz İblisin deyil, bəşərin şakəridir.
Niyə əldən tutmuruq, ayaqdan dartırıq biz?
Qərəzlə çoxalırıq, qərəzlə artırıq biz?
Yaradanda yaradır Allah bizi gül kimi,
Qılçıqsız, sütül-sütül, dən dolu sünbül kimi.
Bəs sonradan nə üçün qurd daraşır taxıla?
Nə ovsunla dönürük şərəfsizə, paxıla?
Daim nə pıçıldayır dodaqları qərəzin?
Açılmaz ey... tıxanıb qulaqları qərəzin.
Nəsihətin, töhmətin,
Hikmətin və hiddətin qərəzə dəxli yoxdur,
Qərəz adlı əlacsız mərəzə dəxli yoxdur.
İnsanla təbiətin mövcudsa da vəhdəti,
Niyə Allah qərəzsiz yaradıb təbiəti?

Niyə Allah qərəzli yaradıb lap Alini?
Dilim-ağzım qurusun, lap Aliəbalını?
Axı niyə qərəzsiz yaratmayıb heç kəsi?
Sualıma cavab ver, kimsəsizlər kimsəsi!

*09.01.2004*

# ƏQİDƏ

*Qələm dostum A. A. üçün*

Əqidəyə toxunma,
Əqidə müqəddəsdir.
Mənliyi təsdiq üçün
Təkcə əqidə bəsdir.

Əqidənin naminə
Qana boyanan olub,
Tonqalda yanan olub.
General Karbışevin
Buz heykəli ərimez
Səhrayi-kəbirdə də.
Əqidə sahibləri
Ölməzdir qəbirdə də.

Ancaq əqidənin də
Öz hüdudu-həddi var.
İnadla əqidənin
Səddi var, sərhəddi var.

Əqidə zahidliyin
Timsalı ola bilməz.
Hər dönəmdə kişilik
Misalı ola bilməz.

Əqidə düşüncədir,
Ağılsız söhbət deyil.
Əqidə gözə girən
Şan deyil, şöhrət deyil.

Xoşa gəlmək-gəlməmək
Haqq-hesabı deyil o.
Ölü ehkam, tərs damar
İntixabı deyil o.

Əqidə amal demək,
Amal faydalı gərək.
Əşşi, nə edirsən et,
Qanun-qaydalı gərək.

Əqidə edəcəksə
Hər şeydən məhrum səni.
Bir məğmun, məzlum səni
Xalqın eynində əgər,
Əli qoynunda əgər,
Yox! O, əqidə deyil.

Əqidə edəcəksə
Külfətini narazı,
Arzunu-istəyini,
Niyyətini tamarzı,
Yox! O, əqidə deyil.

Əqidə soxacaqsa
Səni qoz qabığına,
Zəhmət çək papağını
Onda qoy qabağına.

Əqidə güzəranı
Döndərirsə zəhərə.
Ay canım, ay ciyərim,
Sənin bu əqidənin
Nə dəxli ev-eşiyə.
Nə dəxli qönçə-qönçə
Şəbnəmli körpələrə?

Əqidə məna demək,
Əqidə sima demək.
"Kimsə məndən inciyər"
Sözü yoxdu bu yerdə.
Elin lap o tərəzi
Gözü yoxdu bu yerdə.
Çürük kəndirlə quyu
Dibinə sallanma, dur!
Amandır, aldanma, dur!

Tərs damarla dəlibaş
Əqidə deyil, qardaş.
Əqidə sahibləri
Sultan olub, şah olub.
Dönməz əqidəsində
Nəsimi allah olub.

Səni də bənzədirəm
Sultana mən, şaha mən.
Yox, qılığına girib
Batmıram günaha mən.

*11.11.2003*

## GÖZÜM SULANIR

Gözüm sulanır sulansın,
Təki ağzım sulanmasın.
Gözüm bulanır bulansın,
Təki ağlım bulanmasın.

Gözüm sulandı – əlac var,
Paşa Qəlbinur[1] sağ olsun!
Ağzı sulanan adamlar
Qoy tamahdan uzaq olsun!

Gözün sulandı, dəsmal al,
Ağzın sulandı, ərimə.
Tamah suyunu ehmal al,
Nəfsə qul olub yerimə.

Tozun-yelin xətasından
Gözün sulansa, eybi yox.
Əgər nəfsin bəlasından
Ağzın sulansa, eybi çox.

Gözün sulanmağı əngəl,
Nəfsin sulanmağı fəna.
Birini dərd etmə sən gəl,
Biri dərddi, biri bəla.

[1] Oftolmoloq, şair

Göz sulanar, göz dolar da,
Göz ac qalar, göz doyar da.
Ağzım sulanmasın, yarəb!
Arzum sulanmasın, yarəb!

Arzum gül açsın, solmasın,
Keçdi-keçmədi ömür şən.
Gözümə yaş dolsun, su dolmasın
Ya ələmdən, ya nəş`ədən.

Gözüm suyundan su içsin
Mənim bu nurlu ürəyim.
Lap gözümdən sellər keçsin,
Şair Qəlbinur köməyim.

*01.10.2003*

## HİCRAN-VÜSAL

Hicran-vüsal
Qoşa qanad.
Ayrı-ayrı hal-əhval –
Biri şad, biri naşad.

Hicran qəminə yanmadın – heç nə,
Vüsal dəminə boyanmadın – heç nə.
Ayrılıq məqamları
Gözün dolmadı – heç nə.
Görüş anları
Üzün gülmədi – heç nə.
Elə-belə, qupquru qaldın – heç nə.
Bilinmədi ki,
Yetişmişdin, kaldın – heç nə.

Yol gözləməkdən qarışmaz
Gözün qarası-ağı.
Yollarda qalan gözə
Nur saçır ümid çırağı.
Yolunu gözləyənin olmadı – heç nə.
Gözün uzaqlarda...
Gözün intizarda qalmadı – heç nə.
Hicranda vüsal ümidi var,
Ümid – bütün qıfıllara düşən açar.

Bəzən ölüm ayağında,
Tabut qabağında

Birləşir vüsal-hicran.
Bir gözdən hicran yaşı,
Bir gözdən vüsal yaşı
Tökülür rəvan-rəvan.

Toyda da yana-yana
Əriyir şam.
Vayda da yana-yana
Əriyir şam.

Vallah, şam
Adamdır, adam,
Hicranıyla-vüsalıyla,
Sevinciylə-məlalıyla.
Hicransız-vüsalsız,
Bəd əhvalsız,
Xoş əhvalsız,
O minvalsız,
Bu minvalsız
Ömür-gün zay,
Büsbütün zay.
Ömür – axmaz su,
Quru çay...

*20.12.2003*

## SƏNƏ YAZIĞIM GƏLİR

Sənə yazığım gəlir,
Ay iki üzlü,
Ay iki sözlü,
Ay iki başlı.
Bir başı qapazlı,
Bir başı daşlı.

Sənə yazığım gəlir,
Ay köntöy, kobud,
Ay içi irin,
Ay ürəyi qurd.
Ay qarnında buynuzu,
Ay kəmfürsət "quzu".

Sənə yazığım gəlir,
Hər şeyi ola-ola,
Heç nəyi olmayan.
Az qala qurdnan
Qiyamətə qala-qala,
Üzü gülməyən,
Gözü doymayan,
Hamıdan giley-güzar.
Əhh..
Zəhərə dönsün
Belə ruzigar.

Sənə yazığım gəlir,
Ay xəsis,

Ay xəbis,
Ay yaltaq,
Ay qorxaq.
Ay yalan tərif yeyən,
Ay yavan tərif yeyən.
Ay bir dəfə
Gözü güzgüyə sataşmayan
Əntər!
Haçan ayılacaqsan?
Belə ömür
Hədərdi, hədər.

Sənə yazığım gəlir,
Sürünən canlı cəsəd.
Sənə hörmət qoyana,
Sənə qiymət qoyana
Bunca zəhərli həsəd?

Muncuq sətirlərinlə
Göz qamaşdıran yazar!
Eh... bu yaşda bu başla
Xalqı çaşdıran yazar.

Bacarsaydın, vallahi,
Sən də yeyib-içərdin.
Bir az da budu sancın,
Bir az da budu dərdin.

Harda qaldı çox şirin
Xatirəli dünən bəs?!
Heç bir şeydən, heç nədən
Cin atına minən kəs!
İtirdin illər boyu

Qələm havadarını,
Ürəyi büllur kimi
Aləm havadarını,
Yeganə himayəni,
Ağ buludlu sayəni...
Sənə yazığım gəlir.

## İTİRMƏ

Hər nə itirsən də itir,
Eybi yox.
Hər nə itirsən pul itirmə,
Dadaş!
Çün para qeyb eyləməyin
Eybi çox,
Öz-özünü qətlə yetirmə,
Dadaş!

Pul itirsən olar da halın
Xərab.
Dostlar ilə şux həsbi-halın
Xərab.
Arzu-kamın, fikrin-xəyalın
Xərab.
Xoş sifətin, ağlın-kəmalın
Xərab.
Hər nə itirsən də itir,
Eybi yox.
Hər nə itirsən pul itirmə,
Dadaş!
Çün para qeyb eyləməyin
Eybi çox.
Öz-özünü qətlə yetirmə,
Dadaş!

Gündə əlli yol başını
Sal, itir.

Baş başa onsuz da
Bəladır, kişi!
Amma, amandır, məbadə
Pul itir.
İlləti-infarktı
Fənadır, kişi!

Heç nə itirmə
Ona qalsa əgər.
Lap Abşeron
Xəzərlə dolsa əgər.
Lap İsrafil
Surunu çalsa əgər.
Əşşi, itkin
Lap qəpik olsa əgər.
Göz-qulaq ol lap
Qəpiyindən sarı.
Dərdə düşüb,
Dərdə salma dostları.

Eh... pulun aludəsi sənsənmi tək
Guya sən?
Ərkimizlə aramızda
Sən düşmüsən küyə sən.
Peşəmizdir qaralamaq
Kimsəni.
Əlqissə ki,
İstəyirsə kim səni,
Desin:
– Hər nə itirsən də
Eybi yox.
Hər nə itirsən pul itirmə,
Dadaş!

Çün para qeyb eyləməyin
Eybi çox.
Öz-özünü qətlə yetirmə,
Dadaş!

İtki pisdi, ya xəzinə,
Ya qəpik.
Adam var ki, itkisinə
Bir təpik.
İtkisini dərd eləməz özünə.
Adam var ki, ömrü-günü
Olar zay.
Pul itirsən,
Eləsinə olma tay.
Pul əl zoru, əl qabarı,
Müdrikim!
Kimə qalıb dünya varı,
Müdrikim!
Gəl sahilə, aç sinəni, aç cibini
Xəzərə,
Hatəm kimi adın düşsün
Dillərə.

*11.06.2004*

## ÖMÜR GEDİR, SƏMTİ DƏYİŞ

Relsin üstündə gəzir
Qatar-tramvay, kişi.
Sən qatarsan, ya tramvay,
De görüm, ay kişi?!
Göydə çatdı görürəm ki,
Sözümün canı sənə.
Kim tramvay eləyibdir
Bu güzəranı sənə?
Bağlayıb hansı səbəb
Relsə ayağını, kişi?
Öldürüb xeyrə-şərə
Cümlə marağını, kişi?
Diri ikən diri olmaq
Yaraşır insana.
Yoxsa illət və ətalət
Və kəsafət daraşır insana.
Sağa dön, həm sola dön,
Həm geri get, həm irəli.
Əlvan-əlvan yuxu gör,
Əlli cürə vaqiəli.
Bəsdi çərrətdi səni
Bir ucu ev, bir ucu iş.
Ayıl, ey piri-muğan,
Ömür gedir, səmti dəyiş.
Səmtini restorana, meyxanaya,
Keyfə yönəlt.
Xərcliyin vardı bir az,
Mən demirəm
Seyfə yönəlt.

Nə qədər bəs yeyəcəksən,
A kişi, eyni yemək.
Nə əcəb, bezməyir iştah,
Nə əcəb bezmir ürək?
Süstə can atma, baba,
Süst gələcək onsuz da.
Xatirə lövhəsi,
Heykəl,
Büst gələcək onsuz da.
Bir də gördün səni
Bir qartala döndərdi
Xuda.
Onda məhdudiyyətin əngəlinə
Söylə:
– Vida!
Evə yox, şorbaya yox,
Şur ilə hər yana şığı.
Sürünmə iş yerinə,
Şığı –
Kəhkəşana şığı.

*16.06.2004*

## VƏSİYYƏT YÜNGÜLLÜK OLSA DA

*Yazıçı dostum Əli Səmədli bir hüzr*
*məclisində mənə bir zərf verdi.*
*Evdə açıb oxudum.*

Lilsiz sular, gilsiz sular
Durudur, bulanmır.
Əzrail də vədəsiz
Həndəvərdə dolanmır.
Geci-tezi hamımız
Kül olub gedəsiyik.
Bircə Səməndər quşu
Odda-alovda yanmır.
Gün dənizdən boylanır,
Həqiqətdə boylanmır.
İnsan öləcəyinə
Hər saat inansa da,
Heç vaxt, heç vaxt
İnanmır.
Ürək bir mühərrik ki,
Hər ağrıdan
Dayanmır.
Vəsiyyət yüngüllük olsa da,
Bəli!
Məni vəsiyyətin kövrəltdi,
Əli!
Bu nə yır-yığışdır?
Bu nə əl-ayaq?
Xəbər almaq olmur,

Adam sorammır.
Ramiq Muxtar
Qalmır zarafatından.
Bir quş da
Cik-cik
Çalammır,
Tələs...
Uşaqların gözü yoldadır,
Kitabxanaları nura
Boyanmır.
Vəsiyyət yüngüllük olsa da,
Qardaş,
Vallah, bu yüngüllük
Suya düşən
Daş.
Ştanq qaldıran da
Bu ağır daşı
Yerindən tərpədib,
Qaldıra bilmir.
Ay Əli Səmədli,
Öləndən sonra
Nə İsgəndər,
Nə Əli...
Öləndən sonra
Nə Ağsu,
Nə Göyçay...
Bağından
Bir topa nərgiz gətir
Qabilə pay.

Mənim də sənə
Vəsiyyətim var.
Oxuyur türk qardaşlar,

Çal, oyna, qardaşım!
Coş, qayna, qardaşım!
Ye, iç, çal, qardaşım!
Qəlbi şən,
Xoş əhval, qardaşım!

*09.02.2004*

## BAHAR...

*Yazıçı xanım B. B. üçün.*

Baharda hər yanda bahar,
Baği-gülüstanda bahar.
Yaylaqda-aranda bahar,
Hiss-həyəcanda bahar.
Lap damarda – qanda bahar.

Şərt odur qışda olasan
Bərri-biyabanda Bahar.
Yeri-göyü qarışdıran
Çovğunda-boranda Bahar.
Yaz dumanı bəmbəyazdır,
Qapqara dumanda Bahar.
Səhər göz-gözü görməyən
Selləmə leysanda, Bahar.
Kağız-qələmlə həsbi-hal
Soyuq aşiyanda Bahar.
Tənhalıq tale işidir,
İş yazı yazanda Bahar.
Bəs kişilik-harayçılıq
Qalıbdı hayanda, Bahar?
Bir şəhərçikküncündə bəs
Birovuz məkanda, Bahar?
Bir rahatlıq ümidiylə
Həsrətdə-hicranda, Bahar.
Niyə bahar bənövşəsi
Dözməlidir fırtınaya?

Xəzrinin at oynatdığı
Düzəngah meydanda, Bahar.
Qaçqını azmış ki hələ,
Köçkünü azmış ki hələ,
Azəribaycanda, Bahar.

*10.02.2004*

## GƏL GEDƏK

Gəl çıxaq uca dağlara,
Ucalıq Allaha yaxın.
Gəl çıxaq qoca dağlara,
Qocalıq Allaha yaxın.

Gəl qoşaq gənclik dalınca,
Cavanlıq qartal qanadı.
Zəka çevrilsin qılınca,
Kəssin dəlibaş inadı.

Gəl gedək bağça-bağlara,
Bağça-bağ bağbana yaxın.
Qoşulaq təzə çağlara,
Dayanaq zamana yaxın.

Gəl gedək ümidə sarı,
Qalaq baxtın ümidinə.
Qoyaq kasıb-kusubları
Taci-taxtın ümidinə.

Gəl gedək duru sulara,
Bataqlıqdan uzaqlaşaq.
Müdrikliyə vara-vara,
Uşaqlıqdan uzaqlaşaq.

Gəl gedək dost qapısına,
Dost qapısı açılmalı.
Açılmayan qapı sına,
Açılmazdan qaçılmalı.

Gəl gedək, övliyalara
Bir buğda nəzir aparaq.
Nəzir hara, “nədir?” hara,
Əhdə müntəzir aparaq.

Gəl gedək mavi dənizə,
Ürəyimiz dəniz olsun.
Mavilik boyansın bizə,
Vücudumuz təmiz olsun.

Gəl gedək zərgər yanına,
Məhəkə çəksin bizi qoy.
Gedək kişilər yanına,
Tərk eləyək nacinsi qoy.

Gəl gedək sərraf yanına,
Ləkəliyik, yoxsa xalis?
Bax etiraf elanına,
Ömür-gün xoş, yoxsa xalis.

Gəl gedək kitab evinə,
O hər evdən təməllidir.
Səvabdan səvab evinə
Ünvanı Haqdan bəllidir.

Gəl gedək nura, gəl gedək,
Nur şüurdu, şüur da nur.
Əsl zühura gəl gedək,
Şüurdadır əsl zühur.

Gəl gedək sövda dəminə,
Sövdasız hər söhbət hədər.
Leyli-Məcnun aləminə
Varmayıb hansı dahilər?

*27.01.2004*

## ŞƏR

– Gecənin xeyrindən
Gündüzün şəri –
Qızıl kimi olsa da
Ataların sözləri.
Nə axşam, nə səhər
Gərək deyil şər.
Gərək oldu-olmadı,
Şər əlindən
Göz aça bilmir
Bəşər övladı.
Sifarişli deyil
Nə xeyir, nə şər.
Sifarişli deyil
Talelər.
Şər tüldə gəlir,
Gəlin şəklində.
Qaraqabaq,
Ağırayaq
Gəlir.
Bir evi yıxmağa,
Bir nəslin
Axırına çıxmağa.
Şər güldə gəlir
İynəli-sancaqlı
Əqrəblə,
Neştəri zəhərli
Əqrəblə.
Şər necə istəyirsən,
Gəlir.

Gündüz istəyirsən,
Gəlir.
Gecə istəyirsən,
Gəlir.
Nədə istəyirsən,
Gəlir.
Xofda, vahimədə
Gəlir.
Zəhər heç...
Şər
Şəkərdə gəlir.
Yalan xəbərdə
Gəlir.
Nələr yazmayıb
Şərə dair
Böyük şair,
Kiçik şair.
Say ki, sayasan,
Yaz ki, yazasan.
Sığmaz kitaba-dəftərə,
Belə gəlib,
Belə gedəcək.
Baş qoşma şərə,
Xeyir də intəhasızdır
Şər kimi.
Xeyirlə şər
Biri-birinin
Tərsinə fırlanan
Dişli təkər.
Diş dişə ilişməsə
Həyat nə həyat?
Saat nə saat?

*29.01.2004*

## BACIM RAİSƏ XANIM

*Ömür yoldaşım Bəyim xanımın*
*bacısına ithaf olunur.*

Gözə gəlmək söhbəti
Səndən ötrü hədər şey.
Baxtına yazılandan
Amandı, etmə giley!
Cansağlığından özgə
Hər şey gəldi-gedər şey.
Allahdır sənə loğman,
Bacım Raisə xanım.
Səbri-qərarı ümman,
Bacım Raisə xanım.

Bir üzlü, bir sifətli,
Səmimi xasiyyətli.
Mülayim, yaraşıqlı,
Üzü-gözü işıqlı,
İncə şair zövqlü,
Pünhan şe`r şövqlü,
Bacım Raisə xanım.
Bəzəyi ay-ulduzlu
Tacım, Raisə xanım.

Mən şe`r oxuyuram,
Gedir xəyala gözü.
Bir leytenant ovladı
Dağlarda alagözü.

Döndərdi leytenantı
Bir generala gözü.
Möcüzəçi, sehrkar
Bacım Raisə xanım.
Nağıl sehri aşikar
Bacım Raisə xanım.

Beş qardaşın bacısı,
Abbasəlinin yarı.
Allah saxlasın sizin
Bir balanız Anarı.
Anar üçün məktəbdir
Anasının öyüdü,
Atasının vüqarı.
Bir yaxşı min bir olar,
Bacım Raisə xanım,
Bir Anar min bir Anar,
Bacım Raisə xanım.

Əzraillə gizlənqaç
Oynaya-oynaya sən.
Ölməz Kaşşeyi yüz yol
Şahmatda mat etmisən.
Sən qayada gül-çiçək,
Bacım Raisə xanım.
Həmişə gözəl-göyçək
Bacım Raisə xanım.

"Maşallah"la "inşallah"
Əsl Allah kəlamı.
Bədnəzərdən qorusun
Təki Allah adamı.
Yaxşının hər axşamı –
Elə bayram axşamı.

Axşama nə bişirib
Bacım Raisə xanım.
Nə bişirib-düşürüb
Bacım Raisə xanım?

*21.04.2004*

## OLSA DA, OLMASA DA

Yanımda yoxdusa dost-aşna,
Təkəm-tənhayam.
Dövrəmə cümlə-cahan
Cəm olsa da, olmasa da.

Adamın gülməz üzü,
Könlü şad olmazsa əgər.
Toyda-məclisdə içib,
Dəm olsa da, olmasa da.

Kişi kövrəlsə də lap
Çənli payız göyləritək.
Səssiz ağlar, gözü lap
Nəm olsa da, olmasa da.

Könlü toxlar ola bilməz
Qulu nəfsin-filanın.
Süfrədə mey-məzəsi
Kəm olsa da, olmasa da.

Biz ürəkdən gələn
Avaz ilə pərvazlanırıq.
Sarı sim dillənəcək
Bəm olsa da, olmasa da.

Mənəviyyat təki
Şahanə qala, şahanə.
Gödəniyyət əyilib
Xəm olsa da, olmasa da.

Məsləkin, eşqin, inamın
Ulu pərvanələri
Yanacaq daima,
Zülmətləri nurlandıracaq.
Yanacaq öz oduna,
Şəm olsa da, olmasa da.

Qabilin ruhu
Ümid yelkənidir
Dəryada.
Gözündə gözgörəsi
Qəm olsa da, olmasa da.
Dəxli yoxdur,
Mən ölüm,
Həm olsa da, olmasa da.

## ŞAİR TƏBİƏTİ

*Məmməd Faiqə*

Alnın qırış-qırış
Qırışdı getdi
İllər içində.
Yaşadın yurdundan,
Yuvandan uzaq –
Bir doğma, möhtəşəm
Şəhər içində.
Fəqət, ana dilin təslim olmadı
Ən böyük bir dilə
Dillər içində.
Qıvrım saçlarının şəvəsi itdi
Bu qarlı meşələr,
Çöllər içində.
Yel kimi hər yana əsə bilərsən,
Quş kimi hər yana uça bilərsən.
Külək kimi azad,
Quş kimi azad –
Sən hər bir dəqiqə, sən hər bir saat.
Fəqət:
Sərhədsiz də sərhəd var demək.
Yazı lövhəsində sənin ömrünün
Gözə görünməyən bir sədd var demək.
Getmirəm dərinə,
Vermirəm sual.
Hər şeyin dibinə daş atmaq olmaz.
Qal,

Öz qismətinlə, taleyinlə qal!..
Onsuz da azacıq himə bənd olan
Şair gözlərini yaşartmaq olmaz.
Peredelkinoda – qarlı meşədə
Yığcam bir otağa yığılmışıq biz.
Azalır-azalmır... içki şüşədə
Ancaq ki, doludur ürəklərimiz.
“Mühacir” deyirsən özün-özünə...
Söz tapdın,
Mən ölüm, “mühacir”ə bax!
Bu yarızarafat, kövrək sözünə
Biz haqq da veririk – şairanə haqq...
Şair təbiəti,
Eşq olsun sənə!
Eşq olsun, eşq olsun qoy dönə-dönə.
Şair təbiəti!
Kimdə ki, varsan
O şəxsi –
Necə var, nə xilqətdə var,
Həmin şəkildə də sən saxlayarsan.
İstər harda gəzsin,
Harda dolansın,
İstər harda donsun,
Harada yansın,
Yüz il danışmasın ana dilində,
Yüz il dolaşmasın doğma elində.
Şair təbiəti!
Kimdə ki, varsan
O şəxsi elə bir termos içində
Mühitdən mühitə
Sən qoruyarsan,
İqlimdən iqlimə
Sən saxlayarsan:

İstisi,
Soyuğu,
Dadı-tamıyla,
Öz Vətən havası,
Öz ilhamıyla...
Könüllü-könülsüz həsrətiylə də...
Şuxluğa bürünmüş xiffətiylə də...
Peredelkinoda – qarlı meşədə
Yığcam bir otağa yığışmışıq biz.
Azalır-azalmır içki şüşədə,
Ancaq ki, doludur ürəklərimiz.
Nəğmə oxuyuruq, keçir gecədən,
Nəğmə oxuyuruq,
Solistimiz sən:
"Sən Müşfiqin yanında
Qalginən, sənə qurban!
İstəsən bu canımı
Alginən, sənə qurban!"

## TELEFONÇU QIZLAR

*Horadiz qəsəbəsindəki telefon*
*qovşağının telefonçu qızlarına*

Füzulili, Horadizli,
Ala, qumral, qaragözlü,
Xoş ləhcəli, şirin sözlü,
Gül çöhrəli, gülər üzlü
Telefonçu qızlar.

Teli telə calayırlar,
Dili dilə calayırlar,
Ürəkdə od qalayırlar,
Lap adam da dolayırlar
Telefonçu qızlar.

Kimi xalsız, kimi xallı,
Ay camallı, gül camallı,
Xoş niyyətli, xoş xəyallı,
Xoş qılıqlı, xoş əhvallı
Telefonçu qızlar.

Başımızın tacısınız,
Xalqa ana-bacısınız,
Şe`r-sənət acısınız,
Kövrəksiniz, ucasınız
Telefonçu qızlar.

Bu iki qış, iki yazı,
Əsgər balam sizdən razı,
Qovuşdurun tez-tez bizi,
Gözləyirik zənginizi
Telefonçu qızlar.

Dərdi-qəmdən uzaq olun,
Hər evdə bir çıraq olun,
Mahir mayda qayıdanda,
Siz də bizə qonaq olun,
Telefonçu qızlar.

*1986*

## NƏZİHƏ BACIM

*Söz çələngi*

Mənim səadət tacım,
Vəfa – dəyanət tacım,
İsmət, ləyaqət tacım,
Ey müqəddəs ümidim,
Ey həkimsiz əlacım,
Nəzihə bacım!

Hardan yadımda düşdün
Bu gecənin yarısı?
Ay Baba qardaşımın
Xəzan geymiş qarısı.
Heç kimin yox, Qabilin
Peyğəmbəri, tanrısı
Ruhi qüvvətim – gücüm,
Nəzihə bacım!

Öpürəm əllərini
Ürəyimin oduyla.
Çağırıram adını
Körpəcə nəvələrim
Suquşumun adıyla,
Bəyişimin adıyla.
Uçuram Şamaxıya,
Baba xatiratının
Mükəddər ovqatıyla,
Ağlar-gülər dadıyla,
Ey dəymədüşər, nəcim,
Nəzihə bacım!

Vallahi darıxmışam
Giley-güzarın üçün.
O incik havasatın,
Sərin rəftarın üçün.
Dudkeşi valaylayan
Ağ somavarın üçün.
Çayı pürrəngim–acım,
Nəzihə bacım!

Gözümün qabağına
Gətirərəm hamını.
Bütün yer kürəsinin
Beş milyard adamını.
Heç kim əvəz eyləməz
Sənin ülviyyətini,
Sənin ehtişamını
Belədir qənaətim,
Belədir izdivacım,
Nəzihə bacım!

Yox, yox, yata bilmədim,
Yuxum ərşə çəkildi.
Könül rişəm qırıldı,
Könül mülküm söküldü.
Bu hövüllü şe`rimə
Göz yaşlarım töküldü,
Qəfil görüşə qaldı
Sübh tezdən əlacım,
Nəzihə bacım!

– Mərəzədə dumandır,
Qəza olar – dedilər.
– Bu yersiz darıxmağın,
Cəza olar – dedilər.

– Özgələrinə olmaz
bizə olar – dedilər.
– Ehtiyat təkərin yox
Birdən yolda ilişsən,
Məzə olar – dedilər.
Ehtiyatım Allahdan
Onadır ehtiyacım,
Nəzihə bacım!

Axıra çatır ömür...
Axıra çatmır amal.
Ocaq tədricən sönür,
Sönməyir fikir-xəyal.
Haradan tapdı məni,
Bu gecə bu hal-əhval.
Şərəfinə parlayır,
Bu gecə bu çilçıraq.
Şərəfinə ərməğan
Şe`rimdəki cah-cəlal.
Ziqiymət gövhərtacım...
Nəzihə bacım!

Neçin mənim bu gecə
Narahatdır ürəyim?
Çıxacaqdır ürəyim,
Batabatdır ürəyim
Ürəyimə nə damıb?
Nə olub, ağbirçəyim?!
Ay soyum, ay soyadım,
Ay nəslim, gələcəyim!
Ay rişəli, şaxəli,
Qol-budaqlı ağacım,
Nəzihə bacım!

Nəvəmin ad günündə,
Səni yada salmadım.
Hamı adam olmaz ki,
Mən də adam olmadım.
Bilmədiyimi bildim...
Bildiyimi bilmədim.
Səndən üzr istəyirəm,
Yeganədir məqsədim.
Türklər demişkən
Budur, budur ancaq
Amacım...
Nəzihə bacım!

Gəlmişəm əllərini
Öpüm, qayıdım geri.
Kövrək hissiyyatımı
Kövrək hissiyyatına
Səpim, qayıdım geri.
Gözlərimin yaşını
Gözlərinin yaşına
Qatım, qayıdım geri.
Düzəlsin ruhumdakı
Bütün əyri-qıyğacım,
Nəzihə bacım!

Bəyim də səni öpür,
Bacı bacını öpər.
Bacı-qardaş öpüşü
Fəqət şe`rə bərabər.
Mahir, Sevinc unudub
Ay Anam, səni məgər?
Ey bizlərin, ey mənim
Məkkəsiz, hacsız hacım,
Nəzihə bacım!

Gedək Baba qağamın
Qəbrini ziyarətə.
O əbədi heykəldir
Dostluğa-sədaqətə.
Onu yaddan çıxarmaq,
Səni yaddan çıxarmaq
Bərabər cinayətə.
Gəlmişəm baş əyməyə,
Bu qırılmaz ülfətə.
Bu son gəlişdi bəlkə,
Bəlkə ömür qırıldı.
Əcəl üçün nə var ki,
Bir anlıq xəyanətə...
Fikr etdim acı-acı,
Düşündüm acı-acı,
Ah çəkdim acı-acı
Salam, Nəzihə bacı,
Sağ ol, Nəzihə bacı.

*1992*

## QASIM VƏ BƏXTİYARA

*Bilirdim ki, nə üçünsə, təəssüf ki, bu köhnə dostların – Qasım Qasımzadə və Bəxiyar Vahabzadənin – arası sərindi. Qasım müəllimin anadan olmasının 60 illiyi günlərində xoş fürsətdən istifadə edib, hər ikisinə bu sətirlərlə müraciət etdim. Nəticəsi çox yaxşı oldu. Ziyafətdə dostlar yanaşı oturub qımışa-qımışa mənə baxırdılar.*

Ömrün xəzanında üşüyür ürək, –
Ona sərinlik yox, hərarət gərək.
Köhnə xatirələr qoy düşsün yada, –
Ömrə vəfa varmı, deyin dünyada?!

Bu yaşda "gizlən-qaç" zarafat deyil,
Görün nə söyləyir sizlərə Qabil:
Sındırın şeytanın belini bu gün,
Ay Qasım, Bəxtiyar, gəlin öpüşün!

Köhnə can-ciyərlər, verin əl-ələ!
Kövrək kitabıma siz qulaq asın!
Küsünün müddəti bu gündən belə,
Bircə saniyə də uzadılmasın!

*24.06.1983*

## ABBASƏLİ

*SSRİ-nin Əlaçı çekisti, Əməkdar hüquqşünas, polkovnik, əziz dostum, bacanağım Abbasəli Ramazan oğlu Novruzovun əlli yaşının tamamı münasibətilə. Abbasəli sonralar general-mayor rütbəsində sərhəd qoşunlarımızın komandanı oldu.*

Otuz il əzm ilə sərhəddə duran Abbasəli,
Vətən eşqilə hər an qəlbi vuran Abbasəli.

Ömrün ulduzlu səmasından üç ulduz qaldı,
Ləkəsiz, zərli paqonlarda nişan Abbasəli.

Həmən ulduzlar hələ sayrışacaqdır hey hey...
İstefa verməyini etmə güman Abbasəli.

Kişinin zinəti qeyrət və təvazö və həyat –
Sənə bəxş etmiş üçün də Yaradan... Abbasəli.

Neçə rəis və komandirlərin olmuşsa da bil,
Hamısı Rəisədən başqa yalan, Abbasəli.

Min bir əsgər yetiribsən, atalıq tacınısa
Anarındır başına indi qoyan, Abbasəli.

Tək oğlul bəxş eləyibdir bizə tale, nə olar,
Bu da bir yaxşı naxış, yaxşı nişan, Abbasəli.

Sən nağıllardakı Simurq quşusan bizlər üçün,
Bizlər üçün teli yox, qəlbi yanan, Abbasəli.

Çox böyük şərtdi qohumluq, buna yoxdur sözümüz,
Qanacaqla bilinir yaxşı-yaman, Abbasəli.

Aramız pərdəlidir, pərdə də gül yarpağıdır,
Bu gülü soldura bilməz də xəzan, Abbasəli.

Gör nə naziksən, əşi, pərdədədir hirsin də,
Baxsa yad, görməz alıb dağı duman, Abbasəli.

Başladın ki, “Qadası, qurban olum” söyləməyə,
Bu qeyz dalğasıdır ki, ay aman, Abbasəli.

İşin haqq, vərsişin haqq, qulluğun ədliyyə işi,
Haqqa möhtacdı bugün cümlə-cahan, Abbasəli.

Əlli il də, qadası, ən azı ömr et, hələlik,
Can sağ olsun, düzələr yerdə qalan, Abbasəli.

*24.05.1987*

## TƏLƏS, QARDAŞIM!

*"Hörmətli oxucular! Respublikamızın Xalq şairi Qabil Lənkərana hər gələndə mənimlə görüşməmiş və yeni kitabını avtoqrafla verməmiş Bakıya getməz. Mən buna görə həmişə iftixar etmişəm. Bunu da deyim ki, Qabil bizim lənkəranlımızdır. Bilməyənlər qoy bilsinlər, çünki böyüklərimiz deyib: "Kim hardan evlənmişsə, oralıdır". Afaq qıpçaq qızı olduğu üçün, çox vaxt Orta Asiya xalqları "Nizami bizim şairdir" deyirlər. 1991-ci ilin yanvar ayının 6-da Qabil bizdə idi. Ötən ilin yanvar qırğını barədə çox söhbət etdikdən sonra şair məndən bir dəftər istədi və bir şer yazdı. Kommunist partiyasının başımızın üstündə qılınc oynatdığı bir dövrdə cəsarətlə və çəkinmədən yazdığı həmin şeir mənim arxivimdədir və heç yerdə dərc olunmamışdır. Şairin öz razılığı ilə şeri "Söz" jurnalında verməyi münasib hesab edirəm".*

*Hacı Mirhaşım Talışlı*

Mirhaşım müəllim, bu öz işindir,
Demə: "Qabil, sənin göstərişindir!"
Bütün məscidləri sökən partiya,
Xalqının qanını tökən partiya,
Bütün inamları qıran partiya,
Damarlarımızı soran partiya,
Mirhaşım müəllim, nəyinə gərək?
Nə verdi o sənə, ürək, ya çörək?
Erməni qan tökür Qarabağımda,
O Naxçıvanımda, bu Qazağımda.
Buna fitva verir Qarbaçov hər an,
Belə baş katibin bu partiyası

Nəyinə lazımdır, ey Piri-Muğan!
Peyğəmbər övladı, Seyyid övladı.
Adına ləkədir Kommunist adı.

Üzvülük haqqını əlillərə ver,
Şəhidlər qəbrində əklillərə ver.
Əşşi, bu partiya nəyinə lazım,
Yetmiş iki ildir baharım, yazım
Kağız güllər ilə bəzənib ancaq.
Saxta çiçəklərdən uzaq ol, uzaq,
Məsləhət sənindir yenə, ustadım!
Qoy mənim əqidəm, mənim inadım
Səninçin bir qanun-filan olmasın,
Əzizim, zorakı fərman olmasın.
Ya cədda! Onsuz da az zorlanmadıq,
Zorlana-zorlana az korlanmadıq.
Mirhaşım müəllim, partiyadan çıx,
Haqqın, həqiqətin əllərini sıx!
Yaman gecikmisən, tələs, qardaşım!
Ürəyimdən qopur bu səs, qardaşım!

*Lənkəran, 06.01.1991*

## GÜLAS YARPAĞI

*Mirhaşım Talışlıya*

Mirhaşım müəllim,
Cəddinə qurban!
Hər seyid qayıdıb
Mir ola bilməz.
Qüruba əyilən
Qəddinə qurban.
Hər saçı ağarmış
Pir ola bilməz.
Sən zəif deyilsən;
Zərifsən, zərif!
Kişi zərifliyi!
Özgə nə tərif?!
Təəssüf edirəm
Bir şeyə ancaq,
Sən bu zəmanədə
Doğuldun nahaq!
Ya yüz il əvvəldə
Qalaydı ömrün,
Ya da yüz il sonra
Gələydi ömrün...
Mirhaşım müəllim,
Cəddinə qurban!
Paklıq aləminin
Dövrəsindəki
Sərhəddinə qurban,
Səddinə qurban!

Ruhuna fənalıq
Buraxmayacaq
Hökmünə, əzminə,
Əhdinə qurban!
Gözün tox, könlün tox,
Başın aşağı,
Qəlbin?! Qəlbin də ki,
Gülas yarpağı.
Yazmağın, pozmağın
Səssiz-səmirsiz,
Mənəm-mənəmlikdən
Nə söhbət, nə söz?!
Səbirli zəhmətin
Köhnə dəyirman;
Xırhaxır fırlanır,
Dayanmır bir an;
Bura dən gətirir
Külli Lənkəran,
Mirhaşım müəllim,
Cəddinə qurban!
Sən büllur içində
Bircə içim su;
Paylan gilə-gilə,
Tutiyadır bu!
Səndə həyat eşqi,
Yaşamaq eşqi;
Hamıya inanan
Bir uşaq eşqi,
Xalqına xidmətə
aludə Ağa,
Hər növ təmənnadan
asudə Ağa!
Qədim şe`rimizin

Canlı kasseti...
Nəsimi, Füzuli,
Sabir, Məhsəti...
Şərhi bəyaniylə
Dilində əzbər,
Axar rəvaniylə
Dilində əzbər.
Üstəlik öz şe`rin,
Bir az da qəliz;
Bir az qəlizi də
Bilməliyik biz.
Mirhaşım müəllim,
Cəddinə qurban!
Müəllim şərəfinin
Həddinə qurban!
Sənin yetirdiyin
Neçə qız-oğlan,
Sənin canlı-canlı
Heykəllərindir,
Sənin şanlı-şanlı
Əməllərindir.
Lənkəran tarixi
Dilində əzbər,
O da bir varağı
Azərbaycanın.
Var olsun sənintək
Çıraq kişilər!
Nur olsun torpağı
Azərbaycanın,
Mirhaşım müəllim,
Cəddinə qurban!
Talış mahalının
Səhifəsində

O pozulmaz dəsti –
Xəttinə qurban!
Gülas xatirəli
Dəftərini sən
Hey varaqlayırsan
Xiffət içində;
Gəzirsən gülasa
Söz qoşub gedən
O əziz dostları
Həsrət içində...
O güllü-çiçəkli
Yaşıl həyətin
Bir gün də
Qabilsiz qalacaq, aman...
Fələkin çərxini
Döndərmək çətin,
Gülas töküləcək,
Gülas bitəcək...
Dünya belə gəlib,
Belə gedəcək,
Mirhaşım müəllim,
Cəddinə qurban!..

**REDAKTORDAN:** Gülas Lənkəranda, eləcə də Mirhaşım müəllimin həyətində bitən zərif, ətirli çiçəkdir. Müəllimin qonağı olan bütün qələm sahibləri "Gülas" adlı xatirə dəftərinə şeir yazıblar.

## İSTANBULUN MİNARƏSİ...

*Məs`ud Əlioğlunun xatirəsinə*

Bir Məs`ud Əlioğlumuz vardı
Bir meyli-məzəli oğlumuz vardı.
Çoxaldıqca Bakıya
İstanbulun axını
Burda qoyub yaxını
Uzağı yada saldım,
Anasıyçın kövrələn
Uşağı yada saldım.
Əlində
Büllur piyalə,
Dilində
Ayrılıqlardan şikayət,
Ahu-nalə,
Dilində:
... İstanbulun minarəsi...
Qulağımdadır
Məsudun o məlahətli,
O yanıqlı səsi.
Vallahi ki... ağzında
O, bir tar çalardı ki...
Zəngulәsiylә qəlbə
Bir yanğı salardı ki:
... İstanbulun minarəsi mərcandan,
Sən doldur ver, bən içəyim fincandan
Adalar qızı!
Bir Məs`ud Əlioğlumuz vardı.

Bir meyli-məzəli oğlumuz vardı.
Bir alim, tənqidçi,
Bir qələm əhli,
Keyf-damaq üstündə
Bir aləm əhli.
Çölü özgəni yandıran Məs`ud.
İçi özünü donduran Məs`ud.
Hamı coşub-daşmayanda,
Daşan,
Hamıya ərk edən,
Hamıyla zarafatlaşan
Kefli İsgəndərimiz...
Onsuz keçinməzdi xeyrimiz-şərimiz
Elə bil.
Elə bil onsuz
Düzəlməzdi işlərimiz.
Şəhriyar dəlisi,
Vahid aşiqi.
Hadi divanəsi,
Cavid aşiqi,
Əbdülhəq Hamidçin gedib özündən,
"Məqbər" dastanını əzbər oxuyan,
Osmanlı şe`rindən çələng toxuyan,
Füzuli ahının odunda yanan,
Yandıqca bir qızıl nura boyanan
Bir Məs`ud Əlioğlumuz vardı,
Bir meyli-məzəli oğlumuz vardı.
... İstanbulun minarəsi mərcandan,
Sən doldur ver, bən içəyim fincandan,
Adalar qızı!
İstanbul həsrətiylə
Yana-yana gəzərdi.
Sinədəftər diliylə

Məclisləri bəzərdi.
Onda hələ əlçatmaz
Kəhkəşandı İstanbul...
Onda hələ ünyetməz
Asimandı İstanbul.
Uzaqda qaldı həsrət,
Uzaqda qaldı möhnət,
Uzaqda qaldı xiffət,
Uzaqda qaldı Məsud...
Əlində boşalmaq bilməyən
Büllur piyalə,
Göz yaşlarıyla dolu
Nur piyalə.
Dilində:
...İstanbulun minarəsi mərcandan,
Sən doldur ver, bən içəyim fincandan
Adalar qızı!
Onda bir Məs`ud Əlioğlumuz vardı,
Onda bir meyli-məzəli oğlumuz vardı.
Bu türkünü,
Bu mahnını
Elə hey
Yana-yana oxuyardı:
...İstanbulun minarəsi...

*03.07.1992*

## MÜBARƏK

*Eşitdim ki, Xalq şairimiz Balaş Azəroğlu 45 illik ayrılıqdan sonra İrana gedir... bir aylığa...*

Eşitdim Vətənə
Gedirsən, Balaş!
Vətəndən vətənə
Yolun mübarək.
Yoldaşın olaydı
Gülgünün də kaş...
Xəzana çevrilmiş
Gülün mübarək!..
Gözlərin həm gülür,
Həm də ağlayır...
İçini yandıran
Pünhan göz yaşın
Gülüşü zahiri...
Çölün mübarək!
Gənclik illərindən
Bizlərə tez-tez
Xatirə söyləyən,
Hekayət deyən
Vüsal ləbteşnəsi
Dilin mübarək!
Taleyin hökmüylə
Kəbin-təlağı
Fələkdən pozulan
Gəlin mübarək!..
Bakılı qardaşla

Tehranlı bacı –
Bu kövrək görüşdən
Hövlün mübarək!..
Ağla, qoy ürəyin
Asudələşsin.
Asudə çağlayan
Selin mübarək!
Sığalla nəvənin
İpək telini.
Nəvədən-nəvəyə
Salam gətirən
Titrək, tel ətirli
Əlin mübarək!..
Dolan, o yerləri,
Gəz, o yerləri
Xəyalən səninlə
Birgə gəzdiyim
Elatın mübarək,
Elin mübarək!
Sinən çalın-çarpaz
Düyünlü-dağlı –
Hicran müddətinin
Vaxtı-vədəsi
Əlli ilə çatan
İlin mübarək!..
Gözünə həsrətli
Gözlər müntəzir,
Üzünə həsrətli
Üzlər müntəzir
Şəninə qazanlar
Asılacaqdır,
Şəninə süfrələr
Açılacaqdır.

Ağzın dad biləcək
Damağın məzə –
Mixəyin mübarək,
Hilin mübarək!
Yolunu gözləyir
Urmiya gölü.
Qoy o uzaq olsun
Qanlı gölümdən.
Qanlı yanvarımdan –
Şanlı gölümdən.
Dupduru, şor dadan
Gölün mübarək!
Əymişdi qəddini
Hicran, şairim!
Vüsal təbibimə
Qurban şairim!
Səfər sevdasıyla
Rüstəmi Zaltək
O əlif qamətin,
Belin mübarək!
O taylı-bu taylı
Xalq şairimiz
O taylı-bu taylı
Azəroğlumuz!
Bu taydan-o taya
Yolun mübarək!
Tez qayıt – bilirsən
Nə demək hicran.
O taydan-bu taya
Yolun mübarək!
Yolun mübarək!

*09.09.1992*

## QƏNDABIM

*Xalq artisti, müğənni Qəndab xanım Quliyeva üçün*

Sənə heyran olmuşam
Vallahi, mən, Qəndabım!
İlin dörd fəslində də
Hüsnü gülşən, Qəndabım!

Tamaşadır qamətin
Doymaq olmur, Qəndabım!
Sənin yaraşığını
Öymək olmur, Qəndabım!

Astara sərvləri
Boyuna mat, Qəndabım!
Talış çal-çağırları
Xoş xatirat, Qəndabım!

Avazın bülbülləri
Utandırıb, Qəndabım!
Qışda qızıl qönçəni
Oyandırıb, Qəndabım!

Şirinsən, bal deyilsən
Lətafətin ayrıdır.
İş naz-qəmzədədir ki?!
Məlahətin ayrıdır.

Səhnəmin yaraşığı.
Leylilərin Leylisi!
Sənə qibtə eləyir
Əslilərin xeylisi.

Əli Kərim demişkən:
Oxu, ucalsın səsin.
Səsinin bir telinə
Zərrə zədə gəlməsin.

Ay ətrim, ay rayihəm,
Ay gülüm, ay gülabım.
Od düşsün şirin cana
Oxu, oxu, Qəndabım!

Saxta əzmə-büzməylə
Yox mənim haqq-hesabım.
Yol kəsib qan-qan deyən,
Ərəbzəngi Qəndabım!

Guşə-guşə gəzdikcə
Yanhayandı kababım...
Tarın pərdələrinin
Pərvanəsi Qəndabım!

Novruz xonçalarında
Şamım, iydəm, innabım.
Gəl, novruzgülü düzüm
Saçlarına, Qəndabım!

Qələbəyə inamım,
Möhnətə çoxdu tabım.
O gün olsun xalqımın
Üzü gülsün, Qəndabım!

Gəl, İsa bulağına,
Ovuclarım su qabım...
Mən üstünə su atım
Sən də diksin, Qəndabım!..

Qoy bağlanır bağlansın
Sonra dəftər-kitabım.
Qarabağın maralı,
Ceyrangözlü Qəndabım!

*24.03.1993*

## BİR MÜXTƏSƏR RAFİQNAMƏ

*Rafiq qaynım, dostum, əzizimdir.*

Simurq quşudur Rafiq –
Yandır lələyin, gəlsin.
Hatəm kişidir Rafiq –
İstə ürəyin, versin.

Ruhunda qürur çoxdur,
Rəftarı fəqət sadə.
Zövqündə qüsur yoxdur,
Hər barədə, mənada.

Hər yerdə ucaldar baş –
Gəz dünyanı birlikdə.
Olsun ona oxşar kaş
Dörd oğlanı birlikdə.

Hər bir işi sahmanlı
Sahmansız olan yerdə.
Lap görsənər imkanlı
İmkansız olan yerdə.

Bərbər və müəllimdir,
Aşbazlığı lap dəsgah.
Həm sərt və mülayimdir,
Həm quldu və həm padşah.

Həm dərzidir, həm evdar,
Həm yolluğu aləmdir.
Süzsən neçə yüz, “tullar”,
Heç kim də deməz dəmdi.

Düzdür ürəyi, safdır,
Zənn etmə dayazdır, yox!
Çaşmaz! Gözü sərrafdır,
Çaşmağı çox azdır, çox.

Zənn etmə ki, məşhurluq
İnsanlığa meyardır.
Gəl gör, papaq altında
Rafiqlərimiz vardır.

Söz – güzgüsüdür şəxsin,
Yersiz sözə yad Rafiq.
Bu güzgüdə öz əksin
Gördükcə də şad Rafiq.

Gəl qorxmayaq illərdən,
Qorxmaq da nahaq, Rafiq.
Lap səksənə çatsan sən,
Qabilçin uşaq Rafiq!

Qismətdədi hər müddət,
Vaxtın qərarıynandır.
Bu mehrilə bu ülfət,
Baxtın qərarıynandır.

*28.05.1994*

## GƏRƏKDİR MƏNƏ

*Şairə Kəmalənin "Nəyinə gərək" rədifli qoşmasını oxuyarkən*

Uca zirvələrdə tərtəmizdi qar, –
İz düşməmiş qarın gərəkdir mənə;
İlham çeşməsindən təravət içən
Şeir yarpaqların gərəkdir mənə.

Gözəllik solmayan əbədiyyətdir, –
Bu solmaz şuxluğun gərəkdir mənə;
Gəlinlər içində, qızlar içində
Münəvvər şahlığın gərəkdir mənə.

Nəmli yanağında şehdi göz yaşı, –
Gül üstə şəbnəmin gərəkdir mənə;
Qar altından çıxan bənövşə kimi
Boynubükük qəmin gərəkdir mənə.

Zəriflik zəiflik deyildir əsla,
Zərif heysiyyətin gərəkdir mənə;
Mirvari düzümlü söz incilərin,
Axar şeyriyyətin gərəkdir mənə.

Bəxtindən gileysiz şairmi olar?
Gileyin-güzarın gərəkdir mənə;
Gah həzin, gah oynaq pərdələriylə
Nəğməli gülzarın gərəkdir mənə.

Qəlbin söz də istər, şəfqət də istər, –
Bu aydın istəyin gərəkdir mənə;
Həsrətlə, möhnətlə, xiffətlə dolu
Yupyuxa ürəyin gərəkdir mənə.

Qışda Naxçıvandan, yazda Bakıdan
Köçəri uçmağın gərəkdir mənə;
Elə uça-uça ana diyarın
Qəlbinə köçməyin gərəkdir mənə.

Alın yazısına inanıram mən, –
Şairlik qismətin gərəkdir mənə;
Buta yadigarı Natəvanların
Kəmalə ismətin gərəkdir mənə.

Gözlərin sözümdən dolur deyəsən, –
Kövrək buludların gərəkdir mənə;
İlk baharlığında qaldı ilk bahar, –
Bu gün son baharın gərəkdir mənə.

Duvaq içindədir Əlincə dağı, –
Əlçatmaz duvağın gərəkdir mənə;
Heç vədə pozulmaz şe`rin növrağı, –
Pozulmaz növrağın gərəkdir mənə.

*07.01.1998*

## SƏRLÖVHƏSİZ...

*Qohumum, köhnə cəbhəçi Ağababa*
*Məmmədovun xatirəsinə*

Səliqə-sahmanla
Geyindi kişi.
Mən sənə
Səliqə-sahman
Deyirəm,
Təəccüb deyirəm,
Heyran deyirəm.
Kişini tərpədib
Hansı bir güman,
Olmaya möcüzə
Baş verib, aman?!
Güzgü qabağında
Gəlib dayandı.
Qırış-qırış üzü
Nura boyandı.
Bəyaz saçlarında
Əli sürüşdü.
Görüşə gedirdi –
Bu nə görüşdü?!
Təbəssüm oynadı
Çal bığlarında.
Bu nə cür ovqatdı
Ömrün qarında?!
Bir dəstə gül aldı

Yolda bazardan.
Qoy qurtarım sizi
Bu intizardan.
Kişi tələsirdi
Xəstəxanaya.
Ürəyi əsirdi
Xəstəxanaya...
Gedirdi baş çəkə
Kor arvadına...
Bir cüt ala gözü
Salıb yadına,
Gedirdi baş çəkə
Kor arvadına.

*20.01.1997*

## ANAR

*Yazıçı Anara*

Şəfəqlərə bürünməyi
Sevməyən Anar –
Bir ziyadır şəfəqləri
Yeddi cilvədə.
Zirvələrdə görünməyi
Sevməyən Anar –
Bir zəkadır qərar tutub
Uca zirvədə.

Ziyalılar nəsil-nəsil
Gəlib gediblər.
Öz ömrünü öz xalqına
Fəda ediblər.
Aydınların başdaşına
Baş əyirəm mən.
Millətimin yaddaşına
Baş əyirəm mən.
Əyildikcə həm də
Göyə ucalır başım,
Bugünkü baş ucalığım –
Anar qardaşım.

Fikri aydın, sözü bütöv,
Əsil-nəsilli.
Təbiəttək özü bütöv,
Çahar fəsilli.

Nəcabəti
Xəcalətli eylər adamı.
Nəzakəti
Nəzakətli eylər adamı.

Neçə Anar mışıl-mışıl
Beşikdə yatır.
Yatır Anar şərəfinə,
Anar şəninə.
Neçə Anar təzə-təzə
Ərsəyə çatır.
Çatır Anar şərəfinə,
Anar şəninə.

Qoy eşidib bilsin ancaq
Cəmi Anarlar:
İlk Anara layiqləri
Anar sanarlar.
Yalnız Anar şərəfinə
Anar şəninə!
Bizim Odlar diyarının
Od sərrafları
Tüstüləri göz yaşardan
Kösövləri yox,
Qızıl-qızıl alovları
Yanar sanarlar.
Yanar Anar şərəfinə,
Anar şəninə!..

Aya-Günə, ulduzlara
Apar Anarı.
Apar, arxayın!
Lap cazibə qüvvəsindən

Qopar Anarı,
Qopar arxayın.
Uca-uca kürsülərə
Çıxar Anarı,
Çıxar arxayın!
Cavabdehəm:
Sən arxayın,
Mən arxayın,
Anar arxayın.

Çeşməyində qayğılara,
Dumanlara bax!
Barəsində haqlı-haqsız
Gümanlara bax!
Uman yerdən –
Onnan ümid umanlara bax!
Anar ilə üzbəsurət
Beş-altı kəlmə –
Kəlmə kəsib yaxşılaşan
Yamanlara bax!

Ziyalılar xələfidir
Mənim xələfim.
Sələflərim göz önümə
Gəldi bu saat.
İftixarla qayıt
Keçmiş zamanlara bax!
Yazar çoxdu...
Mən də varam,
Başqası da var.
Xalqım üçün təkcə
Yazar deyil ki, Anar!
Ömrün müdrik pilləsində
Tutubdur qərar.

Həm mehriban,
Həm ədalı,
Həm təvazökar.
Ürəyində Ata-Ana eşqi
Bərqərar,
İlhamını eldən alan
Vətəndaş yazar.
Sinəsində çadır-çadır
Müdhiş yaralar.
Ulu, ölməz Mirzələrdən
Yarpaq yadigar –
Anar!
Anar kimi varis olsun
Bütün Anarlar!
Anar kimi xalis olsun
Bütün Anarlar!

*18.01.1998*

## MƏN SƏNİ XATIRLARAM

*Şair Nəbi Xəzrinin "Kim məni*
*xatırlasa" şeirini oxuyarkən*

Mən səni xatırlaram
Xəzərin dalğaları
Qalxanda-alçalanda.
Külək qoşa çinarı
Tərpədib aram-aram
Həzin layla çalanda,
Mən səni xatırlaram.

Mən səni xatırlaram
Ellərdə, obalarda
Körpələr dil açanda.
İlk qarda, ilk baharda
Neçə-neçə arzu-kam
Qönçətək gül açanda,
Mən səni xatırlaram.

Mən səni xatırlaram
Zirvələri aşanda,
Yaratmaq atəşilə
Qaynayanda, daşanda.
Hər qızıl telli səhər,
Hər gümüş telli axşam,
Mən səni xatırlaram.

Mən səni xatırlaram
Kürün sakit səsində,

Burulğanlı Arazın
Üsyankar nəğməsində
Qəlbinin vurğusunu
Hiss edərəm, duyaram,
Mən səni xatırlaram.

Mən səni xatırlaram
Durna keçəndə göydən,
Quzular mələşəndə,
Göz yaşaranda neydən.
Gəlib çoban qardaşın
Boynuna qol salaram,
Mən səni xatırlaram.

Mən səni xatırlaram
Desən də, deməsən də…
Şe`rin dilimdə əzbər.
Elləri vəsf edəni
Haçan unudub ellər?
Vətən məhəbbətinə
Qəlbimdə sonsuz inam
Mən səni xatırlaram.

Mən səni xatırlaram
Yaşıllıqlar içində
Sarı yarpaq kimi yox,
Gözdən uzaq kimi yox.
İlham çiçəklərinə,
Ümman diləklərinə
Ürəyimdə ehtiram,
Mən səni xatırlaram.

*1963*

## KÖRPƏ MƏLƏKLƏR

Səhnədə çalırdılar,
Atılıb-düşürdülər.
Hazırcavab oğlanlar
Şit-şit gülüşürdülər.

Dostum Nəbi Xəzriylə
Yanaşıydıq zalda biz.
Tamaşaya baxırdıq
Mülayim əhvalda biz.

Birdən elə bil şeytan
Yaddaşımı tərpətdi.
Çox yersiz, çox nagəhan
Yaddaşımı tərpətdi.

Bilmirəm neçin, niyə
Bu şıdırğı içində
Sual verdim Nəbiyə:
– Ələkbərin qalsaydı,
Neçə yaşı olardı?
Bəs kəpənək Laləni
Yel nə yaşda apardı?

Şair baxdı üzümə
Rəngi ayazımışdı.
Qışamı saldım onu,
Yay günü bu nə qışdı?

Dedi: – Yadına hardan
Axı düşdü bu söhbət?
Qəfil suallarına
Hərçənd etmişik adət.

Lalə iki yaşında,
Ələkbər dörd yaşında.
Qəbirləri qoşadır
Ürəyimin başında.

Göz yaşı tökdü şe`rim
Çökdü... diz çökdü şe`rim.

Yox-yox, məzara sığmaz
Mələklər, məlakələr,
Uçub, həyətimizdə
Çinar ağaclarına,
Ərik ağaclarına
Qonur onlar hər səhər.

Ağaclar ucalırlar,
Ağaclar qocalırlar.
Mələklər, məlakələr
Daim körpə qalırlar.

Mələklər yetim deyil
Kainat xəlq olalı...
Ələkbər də, Lalə də
Allahın dərgahında,
Xırdalan torpağında
Analıdır, analı.

Gülarə layla çalır,
Dipdiridir göz yaşı.

Laylayla yırğalanır
İki beşik yanaşı.

Eh... yer tapdı, vaxt tapdı
Mənim də bu sualım.
Baxdım Nəbi Xəzriyə,
Pərişan oldu halım...

*15.07.1999*

## XATİRƏ ÜMİDİNƏ...

*1963-cü ildə Nəbi Xəzrinin "Kim məni xatırlasa" şeirinə "Mən səni xatırlaram" adlı cavab yazmışdım.*

Hər mətləb öz yerində,
Hər söz yerində, Nəbi!
Mən səni xatırlaram –
Bu öz yerində, Nəbi!

Bəlkə elə sən oldun
Məni xatırlayası...
Amandı... Allah dosta
Göstərməsin dost yası!

Xatirədən savayı
Ayrılığa əlac yox.
Hələ ki, xatirəyə
Şükür ki, ehtiyac yox.

Xatirəni sevirəm
Göz-gözə, üzbəüzə.
Xatirəni sevmirəm
Kirpiyə muncuq düzə...

"Mən səni xatırlaram!"
Bu haçanın şe`ridir.
Doluxsunmuş ovqatın,
Kövrək anın şe`ridir.

O uzaq kövrək anın
Uzanan ömrüyük Biz
İyirmi birinci əsrə
Calanan ömrüyük Biz.

Ocağın özü gərək,
Nəyimə lazım yeri.
Öləndən sonra sevək,
Ya sevməyək şairi.

O zaman elə bildik
Çətin çataq bu yaşa.
Çatdıq həsrət qaldıqca
Neçə dosta-yoldaşa...

Biz bu yaşa çatdıq ki,
Günü günə satmadıq.
Günü günə qatdıq ki,
Yazdıq ki, yaratdıq ki –

Peyğəmbər kamalına,
Peyğəmbər camalına,
Nəsimi amalına,
Nəsimi iqbalına
Dastanlar qoşa bilək.
Ustadlar mehrabının
Önünə qoşa gələk.

Xatırlamaq asandır,
Yaşamaq çətin, Nəbi!
Allah amanındasan
Çoxdu möhlətin, Nəbi!

Xatirəyə tələsmə,
Hələ ömür axırsa.
Fikrin asimanında
İldırımlar çaxırsa.

Nəbi Xəzri şe`rinin
Əlvandı üfüqləri.
Kim deyir nəslimizin
Dumandı üfüqləri?!

Mən səni xatırlaram
Çiyin-çiyinə fəqət.
Nə gözlərimdə büllur,
Nə ürəyimdə həsrət.

Yada salmaq başqadır,
Yadıma sallam səni.
Zəng eləyib özündən
Lap xəbər allam səni.

Xatirə-bənövşədir
Bir kitab arasında.
Dost yaşar gözlərimin
Ağında-qarasında.

Mən səni xatırlaram
Üzbəsurət, hər sabah.
Xatirə ümidinə
Qoymasın bizi Allah!

*1999*

## TOFİQ MAHMUDA

*"Ulduz" jurnalının 1990-cı ilin 1-ci nömrəsində dostum və qələm yoldaşım Tofiq Mahmudun "Şair Qabilə məktub" adlı şe`irinə cavab. Mən Tofiqin qabağında "şair" sözünü yazmadım, gərək o da Qabilin yanında "şair" sözünü yazmayaydı. Bu ada özümüz-özümüzü yox, camaat layiq görməlidir. Onu da deyim ki, belə şe`rləşmələr, canlı, şirin, səmimi, haqlı-haqsız deyişmələr, mükalimələr ədəbi mühitdə, şe`r-sənət aləmində əyyami-qədimdən ta indiyədək olub, var və olacaq. Hər yazışma, hər mübahisə müxtəlif xarakterin, fikrin-düşüncənin, qənaətin, zövqün təcəssümüdür.*

Qızıl elə qızıldır,
Zamana dəxli yoxdur.
Zamanın da yaxşıya,
Yamana dəxli yoxdur.
Min ilin də yaxşısı,
Bu günün də pisi var.
Min ilin də qızılı,
Bu günün də misi var.

Səndən bir az böyüyə
Xətir-hörmətçin sağ ol!
Babat yazı-pozuma
Qədir-qiymətçin sağ ol!
Nə xıltın var, nə ləkən,
Nə qorxun, nə səksəkən.

İsmətin, şəxsiyyətin,
Gül kimi təbiətin
Özü elə əsərdir,
Özü ə`la əsərdir.
Adam adam deyilsə,
Yazdığı da hədərdir.

Sənə ərkim var ancaq,
Danışma uşaq-uşaq.
Biri axtarar tapar,
Biri axtarar tapmaz.
Biri o saat yapar,
Biri əlləşər yapmaz.
Allah vermədiyini
Bəs necə versin bəndə?!
Biri qondarmadırsa,
Nə günah var ki, məndə?!

Məni məzəmmət etmə,
Bu meydan, bu da şeytan!
Tofiq, dəyişir zaman,
Qabil, dəyişmir saman.
Hansı namərd dünyada
Ağa söyləyər qara?!
Əşşi, bu canım fəda
Əsil istedadlara.
Mən istedad boğanam?!
Mən istedad dananam?!
Ya səndən az qananam?!
Dildə-ağızda gəzən
Hansı şe`ri danmışam?
Mən söz pərvanəsiyəm,
Söz oduna yanmışam.

Ağabəyim ağanın
İkicə sətri qalır.
Şair miyançıyla yox,
Kəlamıyla ucalır.
“Əfsus ki, yarım gecə gəldi, gecə getdi,
Heç bilmədim ömrüm necə gəldi,
necə getdi...”
“İki sevgi” şe`rini
Əli Kərimdi yazan.
Dəxli yoxdur, dəyişsin,
Ya dəyişməsin zaman.
Nöqtə, nöqtə və nöqtə...
Yatıb, yatıb durmusan:
“Məmmədlərimiz bizim,
Fikrətlərimiz bizim,
Vaqiflərimiz bizim,
Ramizlərimiz bizim.”
Nə məhkəmə qurmusan?
Kim onlara yad deyir?
Danışma hədər-hədər,
De görüm, ay can-ciyər,
Şair də
Şairi
Şairdən
Belə qoruyar məgər?!

Tək bircə bu barədə
Razıyam ki, özümdən,
Mənim zəif gözümdən
Yayınmır işartı da,
Çiyələk ləkindəki
Birinci qızartı da...

Təvazö yaraşıqdır
Hər adama, hər kəsə.
Qoy yaraşıqsız olum
Mən də bir dəfə... nəsə...
Mənim poeziyamı
Qorumaq asan işdir,
Heç kimdən yox minnəti.
Olmayana "var!" demək
Haqsız iş, yaman işdir,
Məsləhət deyil qət`i!

*04.06.1990*

# POEMALAR

# MEHPARƏ

**(poema)**

## AYNA QABAĞINDA

Səhər...
Qalxıb yatağından qız yuyundu, darandı;
Sonra isə pəncərəni gəldi açdı taybatay.
Yanaqları dan yerinin şəfəqinə boyandı.
Hava gözəl, göy buludsuz, dəniz mavi, dəniz xay.
Miz üstündə zəngli saat vurdu yeddi tamamı,
(Sabah-sabah tez oyanmaq gümrah edər adamı),
İşə saldı radionu. Kremlin zəng səsləri
Xoş ahənglə salamladı qızıl saçlı səhəri.
Divardakı cədvəlinə bir də baxdı ötəri,
Bu gün dərsdə lazım olan neçə kitab-dəftəri
Varaqlaya-varaqlaya çantasına düzdü qız.
Bir şe`ri də təkrar-təkrar əzbər deyib gəzdi qız.
Öz-özünə sual verdi təbiətdən, cəbrdən.
"Sinifdə də elə, belə danışaydım kaş ki, mən.
Bəlkə bu gün məndən heç kəs soruşmadı tərs kimi,
Elə çıxır, onda nahaq öyrənmişəm dərsimi.
Əcəb gülünc söz danışdım, uşağammış elə bil.
Qiymət üçün dərs oxumaq mənə layiq iş deyil."
Bu on ildə, axı, elə gün olmamış bir kərə
Evdən dərsə qorxa-qorxa çıxıb getsin Mehparə. –
Tər tökərək müəllimin qabağında utansın,
Gözlərini döşəməyə zilləyərək dayansın.
Ata-ana böyütməmiş onu şıltaq, ərköyün,
Bədbəxt olar – demiş onlar – olsa uşaq ərköyün.

“Al” deməmiş, “ver” deməmiş ev düşəndə çətinə,
Al görməmiş, şal görməmiş, öyrənmişdir sətinə.
Kiçik, sadə ailənin sevincidir Mehparə,
Sərraf əli toxunmamış bir incidir Mehparə.
Deyirlər ki, qış gecəsi uzun olur, çox uzun, –
Lakin onu bədnam etmiş hörükləri bu qızın.
Dağ çiçəyi öz ətrilə bühuş edər hər kəsi, –
Ondan daha ətirlidir Mehparənin nəfəsi.
Vüsal, həsrət duyğusundan, hər möhnətdən uzaqdır,
Hələ onun bakir qəlbi yazılmamış varaqdır.

Yan otaqdan bir stəkan çay gətirir anası.
– Ana, niyə zəhmət çəkdin?
– Eybi yoxdur, balası!
– Özüm gəlib süzərdim də...
– Çayını iç, a şeytan!
Qucaqlayıb Mehparəni ana çıxır otaqdan.
Osa yenə kitabından, dəftərindən ayrılmır,
Dərslərindən ayrılmır.
Birdən dönüb o, saata nəzər salır bu zaman:
– Səkkiz oldu, ay aman!
“Səkkiz oldu” deyə-deyə öz-özünə deyinir.
Qəşəng məktəb formasını tez-tələsik geyinir.
Qəhvəyi don, qara önlük, naxışlı ağ yaxalıq
Mehparənin görkəminə verir özgə yaraşıq.
Soyuq çaydan azca içib çantasını alıb o,
Bədənnüma daş aynaya bir an nəzər salır o.
Heç bilməzdi bu otaqda ayna vardır, ya da yox,
Öz-özünü seyr etməyi xoşlamazdı, düzü, çox.
Bir pəncərə şüşəsi də Mehparəyə bəs idi,
O, aynadan çəkilmədi geciksə də dərsinə.
Ürəyində baş qaldıran nə duyğuydu bəs indi,
Ki, aynadan çəkilmədi öz adəti tərsinə!

Elə bil ki, ilk dəfəydi o görürdü özünü –
Qamətini, qaşlarını, gözlərini, üzünü.
Alıb qoşa hörüyünü sinəsinə aşırdı,
Elə bil ki, öz camalı onu bu dəm çaşırdı.
Mənasını hiss etmədən gülümsədi körpətək...
Ürəyindən bir səs gəldi:
“ Nə yaxşıyam, nə qəşəng!”

Gəlib ayna qabağında gördü onu anası:
– Axı vaxtdır, axı dərsə yubanırsan, balası!
Uşaq kimi öz-özünlə əylənirsən, bu nədir?
Yoxsa ayna təzə gəlmiş evimizə, söylə bir?
Qız səssizcə çevrilərək uzaqlaşdı aynadan
Görəsən bu məzəmmətçin incidimi anadan?

## HEYDƏR

Mehparəgilin həyətlərində
Ev kirayələmiş cavan bir oğlan.
Birinci ildir, ali təhsilə
Gəlmiş Bakıya uzaq rayondan.
Həkim olmaqdır onun niyyəti,
Çoxdan sevibdir o, bu sənəti.
Heydər böyümüş dağlar qoynunda,
Coşğun sellərin gücü var onda.
Kotana getmiş, odun da yarmış,
Qoyuna getmiş, mal da otarmış.
Meşə yolunda düşəndə qara
Aman verməmiş canavarlara.
Enlikürəkli oğlandır Heydər.
Görən deyər ki, bir lay divardır
Uşaq ürəkli oğlandır Heydər,

Baxma, iyirmi bir yaşı vardır.
Könül açmamış kimsəyə hələ,
Qızla gəzməmiş bir addım belə.
Nə vədə vermiş, nə vədə almış,
Nə bir yol gözü saatda qalmış.
Bağışla məni, bağışla, qardaş.
Ağzımda dilim quruyaydı kaş.
Həvəsin də var, həyəcanın da,
Damarlarında coşur qanın da.
Xoşuna gələn bir qız görəndə,
Üfüqün rəngi əks olur səndə.
Ancaq neyləyim, məharətin yox,
Ürək acmağa cəsarətin yox!
Məktəbdə keçmiş günün həmişə.
Bikar olanda – dəyirman, meşə –
Gəzib gördüyün bu olmuş ancaq.
Odun çatılmış tənbəl bir ulaq
Lap boğazına yığmış canını,
Az qaraltmamış sənin qanını.
Solunda bir qız, sağında bir qız
Nə təntənəli məclislərdə sən
Əlində badə sağlıq demisən.
Bir də onlardan olmuşdur uzaq
Sizin balaca, uzaq kəndiniz,
Axar-baxarlı o dağ kəndiniz.
Belə keçibdir dünənə qədər
Sənin kənddəki həyatın, Heydər.
Dərsə gedəndə hər gün, hər səhər,
Dərsdən dönəndə evə hər axşam,
Mehparə ilə rastlaşır Heydər,
Sakit ürəyi vurur biaram.
O, qonşu qıza həsrətlə baxır,
Artır bu həsrət, artır günbəgün.

O, qonşu qıza şəfqətlə baxır
Artır bu şəfqət, artır günbəgün.
O, salam verir, qız salam alır
Onu daha çox əzaba salır
İncə səsilə, məlahətilə,
Təbəssümüylə, nəzakətiylə.
Yol getsələr də bəzən bərabər –
Aça bilməyir yenə də Heydər,
Aça bilməyir qəlbini ona,
Yazıq az qalır od tutub yana.
O hündür boyu, uca qaməti
Qızı görəndə kiçilir necə.
Artır qüssəsi, artır xiffəti,
Onu düşünür hər sübh, hər gecə.
Başına girmir nə kitab, nə dərs,
Bir gün gözündən yayınanda qız.
Ey ilk məhəbbət, olma üzü tərs,
Olma amansız, olma amansız!

Bir bəhanə ilə Heydər arabir
Utana-utana qızgilə gəlir.
Döyür aynabəndi o asta-asta,
Gözü dəhlizdədir, qulağı səsdə:
“Görəsən qapıya kim qaçacaqdır –
Görəsən atası, yoxsa özümü?
Görəsən cəftəni kim açacaqdır –
Görəsən anası, yoxsa qızımı?
Görəsən qəlbini nə yandıracaq,
Görəsən alovu, yoxsa közümü?
Önündə bərq vurub alışan çıraq
Görəsən yanağı, yoxsa üzümü?
Görəsən Heydəri nədir öldürən,
Görəsən işvəsi, yoxsa nazımı?

Kimi duyacaqsan, Mehparəcan, sən
Görəsən özgəni, yoxsa bizimi?
Deyəsən qapıya özüdür gələn,
Səhv etmirəm mən”.
Bəli, onunkudur bu ayaq səsi.
Qızın şən gözləri, gülər çöhrəsi
Uzun hörükləri görünür bu an –
Görünür Heydərə şüşə dalından.
Mehparə qapını açır hörmətlə,
Heydərə: Gəl, – deyir bir nəzakətlə.
– Salam, xoş görmüşük, necəsən, Heydər?
– Niyə, birtəhər...
Bürüyür oğlanı həyəcan təri,
Dilinin ucundan uçur sözləri.
Silir dəsmal ilə üzünü bu an.
– Məktub alırsanmı ata-anandan?
– Alıram, sizə də salamları var,
Sizi yada salır həmişə onlar.
– Bizdən də salam yaz, yaxşımı, Heydər!
– Baş üstə.
Mehparə, evdən bu səhər
Sovqat gətirmişdir kəndlimiz Hilal.
Bir az dağ pendiri, bir az da yağ, bal.
Sizə öz payımdan pay gətirmişəm. –
Deyərək bu dəm
Qıza bir bağlama uzadır Heydər.
– Yox, bu nə zəhmətdir?
– Qaytarsan əgər...
Qız alır bəxşişi – çox sağ ol – deyə.
Oğlanın
Sevinci sığmayır heç yerə-göyə.
Nə olsun fəqət,
Qəlbində dustaqdır hələ məhəbbət.

Mehparə duyurmu, duyurmu onu,
Duyurmu Heydərin vurulduğunu?!
Əfsus, bu aləmdən hələ uzaqdır,
Hələ onun könlü bir ağ varaqdır.
Xeyr, hiss etməyir o, zərrə qədər –
Eşqin bəlasından nə çəkir Heydər.
– Mehparə, hələlik, gedim daha mən
Sağ ol!
– Sən də sağ ol! – O çıxır evdən.
Ayağı getsə də, qəlbi getməyir.
Yox, yox, Mehparəni o tərk etməyir.

## MƏKTUB

Heydər otağında yalqızdır yenə.
Şəhər yuxudadır, gecə yarıdır.
Lakin bu yalqızlıq gəlmir eyninə,
Həmdəmi təbabət kitablarıdır.
Çətin yadda qalır sümük adları,
(Qonşudan gəlməyib, evdə bişməyib.)
Tükənir oğlanın səbri, qərarı.
Hövsələsiz adam olarmı təbib?
O, dəftər-kitabı atır bir yana,
Baxır qarşıdakı qonşu eyvana,
İstər asan olsun, istərsə çətin
Başına girməyir nə dərs, nə kitab.
Əsiri olalı ilk məhəbbətin
Heydərin qəlbini didir iztirab.
“Odur, işıq gəlir Mehparəgildən.
Əzizim qonşu qız, oyaqsanmı sən?
Bir bax, görürsənmi, mən də oyağam,
Bu gecə sübhəcən yatmayacağam.

Mən yazıram sənə sevgi məktubu,
Dərdli bir aşiqin sözləridir bu:
Ürəyimin ən dərin güşəsində gizlənən
Bir mətləbi açmağa icazə ver mənə sən.
Bir həyətdə qapıbir qonşu olandan bəri,
Ömrümə yazmayıram sənsiz keçən günləri.
Elə bil körpəlikdən bərabər boy atmışıq,
Elə bil, birgə gəlib biz bu yaşa çatmışıq!
Mehparə, gözlərimə xoş göründün niyə sən,
Hər saat, hər dəqiqə, hətta hər saniyə sən.
Niyə soyuq baxmadın üzümə heç bir zaman
Neçin göründün mənə belə əziz, mehriban?
Elə isə qəlbimin səsini dinlə, ay qız,
Qaraltmasın qanını bu bir parçacıq kağız.
Sənsən ilk məhəbbətim, ilk arzum, ilk diləyim,
Mehparə, ay Mehparə, daha dözmür ürəyim.
Şirin xəyallarımla gecə oyaq qalınca,
Bəzən gözümün yaşı ləkə salır balınca.
Mən bunları üzünə deyə bilmirdim, bəli,
Səni görcək olurdum, cəsarətsiz, gülməli.
Özüm yenə dinmirəm, lal eyləmiş məni qəm.
Ürəyimin sirrini sənə nəql etdi qələm.
Mümkün olsa cavab yaz, hələliyə bu qədər.
Qapıqonşunuz – Heydər!”

## QIŞDA GÜNƏŞ DOĞAR – İSTİSİ OLMAZ

Təqaüd aldı Heydər institutdan bu gün
Oğlanın gözlərinə işıq gəldi, elə bil.
Səbirsiz gözlənilir həmişə, inan, bu gün.
Evə pullu qayıtmaq, xeyr, zarafat deyil.
O, heç bazar-dükana eyləməzdi tamaşa,

Bilməzdi kimdir alan, bilməzdi kimdir satan.
Həmişə düz gələrdi mənzilinə birbaşa,
Ayın neçə gününü pulsuz olardı, inan.
Bu gün onun pulu var, açıb qol-qanad gedir,
Gözü orda-burdadır, xeyli narahat gedir,
Yüz götür-qoy eləyir, əlli yol ölçüb-biçir,
Dükanların yanından cəsarət ilə keçir.
Bu, şirni mağazası, bu, paltar dükanıdır,
Bu, çiçək mağazası, bu, zərgər dükanıdır.
Mehparəyə bir çiçək hədiyyə gəzir Heydər,
Qonşu qız – sevdiyi qız qəbul etməzmi məgər?
Qəbul etməzmi onun balaca töhfəsini,
Eşitmək istəməzmi ürəyinin səsini.
Niyə istəmir, niyə, elə qız deyildir o,
Bəs nə bəyənsin alsın, indi söyləyin bir, o?
Ətriyyat dükanının önündə durur bir an,
"Ətir alsam nə olar" – deyə düşünür oğlan.

Alıb hədiyyəsini dükandan çıxdı Heydər.
"Bəs bu şanlı məktubum necə olsun, görəsən?
Eh, verə bilməmişəm indiyədək onu mən.
Bəzən fürsət olmayıb,
Bəzən də fürsət olub, amma cür`ət olmayıb"
Başında bu fikirlər, könlündə bu diləklər,
Bir kinoteatrın yanından keçir Heydər.
Baxır qol-qola girmiş qızlara-oğlanlara.
Onlar axışır bura.
Bu axının içində yalqızdır Heydər, fəqət,
Anır Mehparəni o, anır qəlbində həsrət:
"Bəs mən kimdən əskiyəm, bəs mən niyə tək gəzim,
Halı pərişan gəzim, ürəyi kövrək gəzim?
Təklif etsəm bu axşam kinoya gəlməzmi o?
Mənim bu niyyətimə lağ edib gülməzmi o?

Qoy gedim bilet alım, bu gün pulum da çoxdur,
Gələr, yenə sağ olsun, gəlməz, yenə sağ olsun.
Gülər, yenə sağ olsun, gülməz, yenə sağ olsun".
İndicə girdi Heydər darısqal otağına,
Elə pallı-paltarlı sərildi yatağına.
Elə yorulmuşdu ki, heç olmadı narahat,
Şirin bir yuxu qondu gözlərinə o saat,
Boynu əyilmiş qaldı, balışdan başı düşdü,
Şabalıdı saçları gicgahına sürüşdü.
Yarıaçıq qapını kim isə döydü: taq-taq.
Ah, bu ki, Mehparədir, "kimsə" neçin dedim mən?
(Heydər! Qonağın gəlib niyə deyilsən oyaq
Nə biləydin. Bilsəydin, mürgüləyərdinmi sən).
O çağırır Heydəri, bir ağız, iki ağız.
Qonşu qız, mehriban qız.
Lakin cavab gəlməyir, eşidilmir səs-səmir.
"Qoy içəri baxım bir!
Bəlkə heç yoxdur adam".
Mehparə aram-aram,
Bir uşaq marağilə içəriyə boylanır,
Heydəri yatmış görüb, gülümsəyir, dayanır.
"Bu nə vaxtın yuxusu, nə vaxtın yatmağıdır!
Qaş təzəcə qaralır, hələ axşam çağıdır.
Yox, yox, ona sözüm var.
O, mənimlə məktəbə getməlidir bərabər.
Əyilmişdir boynu da, yaman narahat yatıb,
Bəlkə təzə yuxlayıb, bəlkə bir saat yatıb.
Qoy oyadım, deyim ki, dur təzədən yat, Heydər!
İnciməz ki, bəlkə heç sevmir zarafat Heydər!"
Oğlanın biləyindən bir göyərçin əl tutur,
Həsrətini çəkdiyi sevdiyi gözəl tutur.
(Niyə oyanmayırsan, niyə bərk yatmısan sən?
Niyə ballı-şəkərli yuxuya batmısan sən?

Dodaqlarında gəzən o təbəssüm nədir bəs?
Səni dindirmir heç kim, səni güldürmür heç kəs.
Yoxsa yuxu görürsən – şirin bir yuxu – bu an,
Mehparəylə gülürsən, danışırsan röyada?
Yuxun çindir, ay oğlan,
Aç gözünü, çin yuxu az-az olur dünyada!)
Qız darıxıb ucadan çağırır: Heydər! Heydər!..
Mehparənin səsinə o ayılır bu səfər.
Dik atılıb yerindən, ovuşdurur gözünü,
Qızı yanında görcək lap itirir özünü:
– Mehparə, sən nə əcəb? Mehparə, xoş gəlmisən!
Sən mənə gərək idin, – bunu nədən bilmisən?
– Yox, sən mənə gərəksən, indi sən mənə, Heydər,
Söylə bizim məktəbə mənim ilə bərabər
Gedərsənmi bu saat?
Bu təklifdən, elə bil Heydər açdı qol-qanad.
– Təntənəli gecə var məktəbimizdə bu gün –
Bu il orta təhsili başa vuranlar üçün...
Gedərsənmi?
– Gedərəm, hara desən gedərəm,
Təntənə yox, səninlə ölümə mən gedərəm.
– Məni ələ salırsan, sağ ol, çox sağ ol, Heydər!
– Yox, bu nə sözdür, ay qız, inciyirsənmi məgər?
Hirslənmə nahaq yerə,
Təklifinlə sən məni qabaqladın, Mehparə!
Mən istəyirdim səni kinoya dəvət edəm.
Bax, bilet də almışam cırıb ataram, nə qəm.
Təki bir yerdə olaq, mənimçin fərqi varmı,
Sənin bu təklifini rədd eləmək olarmı?
– Di dur, yubanma gedək, sən allah, tez ol, Heydər,
Tutular yaxşı yerlər.
Saçlarımı təzədən darayıb hörənəcən,
Yubanma bizə gəl sən. –

Getdim.
– Mehparə, dayan:
(Heydər hədiyyəsini yadına salır bu an)
– Mehparə, sənin üçün
Bəxşiş almışam bu gün.
Ətir şüşəsini o, qıza göstərir:
– Budur!
Rica eləyirəm al, bir az saçlarına vur.
Gör xoşuna gəlirmi?
– Ah... bu ki, "Ayrılıq"dır, bu ki, lap qiyamətdir
Ancaq nahaq almısan, sənə böyük zəhmətdir.
Bilsəydi söz qoşmağı – Heydərin nəydi dərdi,
Məhparəyə o, bəlkə belə cavab verərdi:

"Qoy yüz yol dolanım, dönüm başına;
Çəkdir – yalvarıram – yüz möhnət mənə.
Xoşdur səndən gəlsə, xoşdur, əzizim,
Yüz məzəmmət mənə, yüz töhmət mənə.

Əzazil şahım ol, rəhmkarım ol,
Boranlı qışım ol, xoş baharım ol,
Uzaq ol, yaxın ol – təki yarım ol.
Bəsdir bu səadət, bu şöhrət mənə.

İstər ərit məni, istər üz məni,
İstər on yol sına, istər yüz məni.
İstər alov məni, istər köz məni
Yandırmaz – vermisən dəyanət mənə.

Nolar, ətir çilə qara telə, qız,
Öldür, dirilt məni gülə-gülə, qız".
Qolum kəmər olsun incə belə, qız! –
Xoşdur ömrüm boyu bu zəhmət mənə".

Onlar cüt gedir məktəbə doğru.
– Həqiqətmi bu?
Heydərin qolundan tutur o, bəzən –
Nişanlı kimi.
“Demək o da duyur, bəxtiyaram mən –
Duyur qəlbimi.
Demək o da sevir, heç şübhə varmı?
Sevməsə əgər –
Mənimlə bir qarış addım atarmı
Mehparə məgər?
Demək o da sevir, könlünü ancaq
Açmır – utanır.
Ruhunda bir məş`əl, bir odlu çıraq
Alışır, yanır.
Demək, o da sevir, qurban olum, qız,
Səntək gözələ.
Daha nəyə gərək yazdığım kağız –
Qoy qalsın hələ.
Axı, hər mətləbin öz məqamı var,
Tələsməyim çox!
Onsuz da üzümə gülmüş arzular,
Tələsməyim, yox!”
Əfsus, sevgi deyil, məhəbbət deyil –
Hər mehribanlıq;
Hər sevinc, hər şadlıq səadət deyil –
Düşün bir anlıq.
Qışda günəş doğar istisi olmaz
Gəlməyincə yaz.
Közün kül altında tüstüsü olmaz,
Qaralar, yanmaz.
Hələ oyanmayıb bu qızın, Heydər,
Sevgi duyğusu.

Arxı tullanmamış sevinmə hədər,
Nəyə gərək bu?
Onun ürəyinə eşq odu salan
Kim olar, görən?
Bəlkə də sən oldun, ya qeyri oğlan,
Nə bilim ki, mən!
Gedir iki qonşu mehriban qoşa
Məktəbə sarı,
Kaş qoşa vursunlar ömrü də qoşa
Gənclik dostları!

## BAHAR GƏLDİ, PƏNCƏRƏLƏR AÇILDI

Çıxdı mart küləklə, çıxdı yağışla,
(Sanki üstümüzdən dağ götürüldü.)
Həyat vidalaşdı soyuqla, qışla,
Yer güldü, göy güldü, üzümüz güldü.

Bağlı pəncərələr açıldı yenə
Atıldı bir yana qalın pərdələr.
Bayırın səsinə, çölün səsinə
Adamlar yuxudan tez durdu səhər.

Deyin görək sinifdə hansı yer yaxşı yerdir?
Əlbəttə ki, sizinçin indi hamısı birdir.
Yer üstündə sözünüz çəp gələn anlar hanı?
Yer üstündə davanız düşən zamanlar hanı?
Nə tez uzaqlaşdınız məktəb illərinizdən?
Bəs necə qınamayım, qınamayım sizi mən!

İkinci mərtəbədə geniş sinif otağı, –
Qoynuna almışdır o, neçə-neçə uşağı.

Küncdəki son partada oturmuşdur bu oğlan,
Kəl də qoşsanız onu qopara bilməz ordan.
“Müəllimin gözünə az görünüm” – deyə – mən, –
O seçmişdir bu yeri lap ilin əvvəlindən.
Ondan xəbər alsanız: ən yaxşı yer haradır?
Söyləyəcək: buradır!
Müəllimi, lövhəni yaxşı görək – deyə – biz, –
Qabaqdakı partanı tutubdur bu iki qız.
Bax bu oğlan özünü peçin yanına vermiş,
Gözə görünməməkçin sanki qınına girmiş.
Öz sevimli yeri var bu sinifdə hərənin,
Mehparəsə əyləşir yanında pəncərənin.

Dolur sinfə təzə ətri ilk baharın,
Pəncərədən yel əsdikcə – narın-narın
Tellər düşür üzərinə yanaqların;
Tellər qara, tellər ipək, tellər gözəl!
Bu telləri kənar edən əllər gözəl!

## MƏHARƏT

Gəldi idarəyə Məharət səhər,
Ancaq ki, gec gəldi bu gün bir qədər.
Cavan jurnalistdir keçər, eybi yox,
Bir də ki, sən deyən yubanmamış çox.
Yuxudan kal durub, gec yatmış gecə,
Dünən kefdə olmuş, damaqda olmuş.
Görmürsən gözləri qızarıb necə,
Görmürsən sust olub, necə yorulmuş?!
Açdı pəncərəni xəfifcə külək
Daranmış saçını tökdü üzünə,
Stol arxasına sonra keçərək

Zümzümə eylədi o, öz-özünə.
Təzə qəzetlərə baxdısa xeyli,
O bir şey oxuyub çıxmadı başa.
"Hım. Bu məqalənin babətdir dili
Ancaq bu "padvalı" yazan qardaşa
Aldığı qonorar lap haram olsun.
Məncə, keyf əhlinə, işrət əhlinə –
Adamda gərəkdir ehtiram olsun."
Dünən başladığı baş məqalənin
Bu gün ma`bədini yazır Məharət:
"...Bizim ölkəmizdə həyat, məişət..."
Telefon zənginin cingiltisindən,
Elə bil diksinir Məharət birdən.
"Bəli də, qoymazlar işləyək bir az".
– Allo, eşidirəm. Yallah, a Şahbaz!
Səsini eşidək , üzünü görək.
Əyə, görükmürsən!
Nə? Vaxtın yoxdur?
Əşşi, get mən ölüm, kələksən, kələk.
Bir yol ağız açdım ömrümdə sənə,
Söz verdin mənə.
Sonra birdən-birə yox olub getdin,
Maşının da itdi, özün də itdin.
Harda? Rayondaydın?
Aha, belə de.
Sağ olmuş, sağ olsun taksinin canı,
Qatarla getməyə heç qoyardım ki,
Burdan Mərdəkana o sayaq canı!..
Daha onun ilə görüşmürəm mən.
İylənər bir yerdə çox dayansa su.
Hə, hə, canın üçün, sırağa gündən
Birtəhər başımdan elədim onu...
Boş niyə qalıram, elə o axşam

Bir özgə afətlə tanış olmuşam.
Kimdir?
Nə borcuna... allah bəndəsi! –
Təzə, təravətli bir gül dəstəsi!
Yox, yox, ehtiyatı verməram əldən.
Bu işdə oğulam, bilirsən ki, sən.

Yavaşca açılır qapı bu ara,
Kimsə mane olur bizim dostlara.

## OYANAN DUYĞULAR

Günəşli may günləri bir-birinə calanır.
Həftə həftə dalınca dövrə vurub dolanır.
Şəhəri allı-güllü yaşıl bağlar bəzəyir
Qızları, gəlinləri ipək paltar bəzəyir.
Bahar duyğularıyla ürəklər açır qanad.
İnsana daha şirin, daha xoş gəlir həyat.
Yaz buludundan yerə töküldükcə ilk yağış,
Yaşıl, körpəcə otlar boy atır qarış-qarış.
Elə bil, Mehparə də boy atır onlarla tən.
Qızaran yanaqları seçilməyir lalədən,
Baharla bir oyanan ilk gənclik həvəsindən,
Gənclik həyəcanından qəlbi olmayır rahat.
Nələr təlqin etməyir pıçıltıyla bu qıza –
May paltarı geyinmiş bahar, təbiət, həyat...
Qarşıda imtahanlar, qarşıda ali məktəb.
Ürəkdə neçə arzu, ürəkdə neçə mətləb...
Gündüz şirin xəyallar, gecə şirin yuxular...
Ey ilk gənclik, ilk gənclik, qəribə aləmin var!

Məharətin otağına Mehparə
Dərsarası yüz çevrilir, yüz baxır!
İki açıq, iki geniş pəncərə,
Gör nə yaxşı bir-birinə düz baxır!

Aralıqdan küçə keçir çay kimi,
Mərtəbələr bir-birinə tuş gəlir.
Seyr eləmək qarşıdakı otağı –
Bu son günlər qıza yaman xoş gəlir.

Baxır, baxır, nəzərini çəkməyir –
Tənha yolçu qaraltıya baxantək.
Neçin onun zəhləsini tökməyir
Gözlərini bir nöqtəyə zilləmək?

Qayğı bilməz həyat dolu o gözlər!
Qarşı evdə nə arayır görəsən?
Pəncərədən Məharəti hər səhər
Görən kimi niyə olur qəlbi şən?

Bəlkə qıza rast gəlmişdir bu oğlan
Bir yerdə, bir yığıncaqda ötəri,
Xatirində nəqş olunmuş o vaxtdan
Gənc müxbirin boyu, üzü, gözləri?

“Bəlkələri” bir-birinə düzməklə,
Oxucu dost, aram yoxdur, doğrusu.
Yorularıq buna səbəb gəzməklə
Həyat özü söylər bizə nədir bu?

Ötüb kecən ani halmı, bilmirəm...
Hər düyünün öz açılan vaxtı var.
Bir sevdamı, bir xəyalmı, bilmirəm!
Ancaq aşıq gördüyünü çağırar.

Aralıqdan küçə keçir çay kimi,
Mərtəbələr bir-birinə tuş gəlir.
Seyr eləmək qarşıdakı otağı
Gündən-günə qıza yaman xoş gəlir.

## MƏKTƏBƏ SARI

Məktəbə sarı baxır Məharət,
Qəlbində alov, gözündə həsrət.
Ehtiras onu yandırır-yaxır,
Ac qurd quzuya baxantək baxır
Biri-birindən qəşəng qızlara,
Təmiz qızlara, göyçək qızlara.

Bircə ulduzu qaralayır o
Saysız-hesabsız ulduz içində.
Tək bircə qızı qaralayır o –
Tək Mehparəni yüz qız içində.
"Deyəsən, qız da bura çox baxır.
Görək bu işdən nə çıxar axır?"

Sinifin içi ovuc içitək
Görünür onun pəncərəsindən.
"İşim də düşmür bir yol özümü
Girəvə tapıb ora salım mən".
Katibə qızın səsi bu zaman
Ayırır onu öz xəyalından:
–Yoldaş Məharət!
– Hə, buyursunlar.
– Redaktor deyir:
Bura gəlsin bir.
– Yaxşı, baş üstdə.

(Görən yenə də döyəcək məni
Hansı iş üstdə?)

Baxıb gah soluna, gah sağına o.
Keçir redaktorun otağına o.
– Məharət, sənə bir tapşırığım var:
Vacib, təcili.
Üç günə qurtarır axı, dərs ili,
İmtahan başlanır – özün bilirsən,
Onuncu sinifin şagirdlərilə
Yaxından tanış ol, bir söhbət elə.
Gör onlar həyata hansı diləklə,
Gör hansı həvəslə, hansı ürəklə
Atılmaq istəyir; günü sabahdan
Başa çatan kimi bu son imtahan,
Kim harda alacaq ali təhsili
Üzümüzə gələn təzə dərs ili.
Bax, belə, get yaxşı bir məqalə yaz.
Lap günü bu gündən, yubanmaq olmaz!
– Başüstə, yazaram – deyərək bu an
Məharət sevinclə çıxır otaqdan.

## İLK TANIŞLIQ

Budur, onuncuların içindədir Məharət,
Yanındasa direktor, bir də sinif rəhbəri.
Gözləri Mehparəni seyr edir xəlvət-xəlvət,
Bir an ondan çəkilmir qızın da nəzərləri.
Hələ başqalarıyla söhbət edir o ancaq,
Fakt yazır aram-aram kiçik bloknotuna.
Özünü ağır tutur – axı, deyildir uşaq...
Direktor Mehparəni göstərib bu dəm ona

Deyir: – Bu qız qaçmasın nəzərinizdən sizin,
Ən ağıllı, ən gözəl şagirdimizdir bizim.
Soyuqqanlıqla o deyir: – Yaxşı, başüstə!
Ürəyində söyləyir: "Gəldik əsl iş üstə.
Deməк, Mehparə imiş bu mehparənin adı.
Bayramındır, Məharət, vallah, heç pis olmadı".
– Ay qız, sizin adınız, familiyanız nədir?
– Mehparə Eldarova.
Bloknotuna baxıb Məharət təkrar edir:
– Mehparə Eldarova!
Bu təzə dərs iliyçin sizin nədir fikriniz?
Hansı ali məktəbi seçib-bəyənmişsiniz?
Həvəsiniz, meyliniz çoxdur hansı sənətə? –
Rəngdən-rəngə girərək qız baxır Məharətə.
Oyanan duyğuları gizlətsə də dərində,
Qəlbinin həyəcanı oxunur gözlərində.
Qız deyir Məharətə:
– Memar olacağam mən.
– Demək, xoşunuz gəlir bu işdən, bu sənətdən.
– Bəli!
– Arzunuz çox gözəldir, gözəl sənət seçmisiz.
... Məharət nəsə yazır yenə bloknotuna.
Gah bu onu seyr edir, gah da o baxır buna.
Biri öz aləmində sevgili yara baxır,
Biri öz aləmində təzə şikara baxır.
– Yoldaş direktor, daha qurtardım işimi mən
Kömək etdiyinizçün çox-çox razıyam sizdən.
Sonra biri-birinin onlar əlini sıxır,
Uşaqlarla bərabər hamı sinifdən çıxır.

Bu axının içində, oxucum, seyr elə bir,
Mehparəylə Məharət birləşib qoşa gedir.
– Mehparə!

– Buyurunuz.
– Əgər mümkün olsa siz,
Axşam saat səkkizdə idarəyə gəliniz.
Qız diksinəntək olur bu təklifdən elə bil.
Söyləyir: – Mümkün deyil.
Məharətin üzünə, lakin sevincək baxır,
O ürkək-ürkək baxır.
– Axı, tələsik oldu sinifdə söhbətimiz.
Gəlin, orda arxayın oturub danışaq biz.
Mənim sizə bir neçə sualım da var hələ.
Deyirəm ki, qoy bir az yaxşı çıxsın məqalə.
Qız: – Gələrəm, – söyləyir  yavaş səslə bu ara.
Məharətdən ayrılıb qarışır uşaqlara...

## QIZ GÖRÜŞƏ TƏLƏSİR

Dağüstü parkının arxasında gün
Yenə qürub edir öz adətilə.
İşdən qayıdaraq dincəlmək üçün
Eyvana yığılmış kiçik ailə.
Başında həşyəsi qara kəlağay
Ana çay gətirir – təzə dəmli çay.
Mehparə tələsik əl atır çaya;
– Aman, qabar oldu dilim a... a... a...
İtirib özünü bu an Mehparə,
Dolu stəkanı buraxır yerə.
– Qızım, nə xəbərdir, nə olub sənə?
Qaçaqaç deyil ki, bir səbr etsənə.
İskan cəhənnəmə.
– Yaxşı, a Zinnət,
Nə olub, uşağı etmə məzəmmət.
Dünya qopmadı ki, təzə çay gətir.

Bəlkə bir işi var, uşaq tələsir.
– Bir az tələsirəm, düzü, ay ata!
(Mehparə gözucu baxır saata).
Çünki bu axşam
Mən redaksiyaya çağırılmışam.
– Ay qızım, nə işdir, nə olub axır?
– Sabah haqqımızda məqalə çıxır.
Söhbət edəcəklər mənimlə bir az.
– Onda tələs, qızım, yubanmaq olmaz.
Qız qalxıb eyvandan keçir otağa,
Keçir – getmək üçün – hazırlaşmağa.

Bədənnüma daş aynanın səthi hamar, tərtəmiz –
Mehparənin alnı kimi, qəlbi kimi ləkəsiz.
İndi özgə bir fərəhlə saçlarını hörür o,
Elə bil ki, yol gözləyən Məharəti görür o.
Qürur ilə bu güzgünün qabağında dayanır,
Sevda dolu ürəyində xoş xəyallar oyanır.
Qəhvəyi don, qara önlük, naxışlı ağ yaxalıq
Bu gün onun görkəminə verir özgə yaraşıq.
Saat səsi diksindirir Mehparəni bu zaman:
– Səkkiz oldu, gör nə qədər yubanmışam, ay aman!

## REDAKSİYADA

Camaat dağılmış redaksiyadan,
İş günü qurtarmış bayaqdan bəri.
Bir katib, bir də ki, növbətçi oğlan
Qalmış sahmanlaya bəzi işləri.
Bir azdan gələcək yaş səhifələr
Yüz yol oxunacaq, qaralanacaq.
Yüz əldən keçəcək sabaha qədər.

Neçə göz qalacaq sübhəcən oyaq.
Açıqdır otağı Məharətin də,
Qalmış idarədə o da bu axşam.
“Arzular” başlıqlı məqaləsinin
Son sətirlərini eyləyir tamam
Çəkən olmasa da dostum arabir,
İşləyə-işləyə tüstüləndirir.
“Bəli, işimizi qurtardıq daha,
Özü də, deyəsən, heç pis deyil ha.”
Məmnun təbəssümlə gülür Məharət.
Azca mürəkkəbə batmış əlini
Bir vasvasılıqla silir Məharət.
“Qız niyə gəlmədi, vaxt ki çatıbdır.
Yoxsa, bu oğula yalan satıbdır?
O həzin səslə ki, o dedi: “gəlləm”
O cür ki, o satdı mənə işvə-naz...
Yox, yox, dünyasında gəlməmiş olmaz.”
– Tıq-tıq...
– Buyurunuz!
Qapı açıldı.
Elə bil, otağa şəfəq saçıldı.
Məharət ayağa qalxdı bu ara,
Stol arxasından çıxdı kənara.
Bilmədi ilk dəfə başlasın nədən.
Bu mahir oğlanın, bu dilavərin
Bir qıfıl asıldı sanki dilindən:
– Çox şadam, yaxşı ki, axır gəldiniz.
Dedim vədinizi unutdunuz siz.
– Üzr istəyirəm, yəqin məni siz
Çox gözləmişsiz.
– Xoşdur, Mehparə!
Onsuz da getmədi vaxtım boş yerə.
Məqalə hazırdır!

– Oxuyun bir az!
– Yox, bu yaramaz.
Bu, redaksiyanın sirridir hələ.
Bəlkə işıq üzü görməyəcəkdir
Heç bu məqalə.
Olmaya, olmaya incidin, ay qız!
Zarafat edirdim sizinlə yalnız.
Sizdən nə gizlədim, nə sirr sizdən?
Sizə özüm kimi inanıram mən.
Mehparə başını salır aşağı,
Qızarır onsuz da lalə yanağı...
– Çox tez deyildirmi belə etimad?
– Mən yanılmayıram fikrimdə heç vaxt.
Şəxsən sizə aid parçaya ancaq
Asınız qulaq!
Bir gözü yazıda, bir gözü qızda
Oxuyur titrəyir əlində kağız.
Sevinə-sevinə qulaq asır qız.
Yığılır üstünə varağın varaq,
Ötdükcə hər an.
Bircə nöqtədə də dayanmayaraq,
Bütün məqaləni oxuyur oğlan.
Dayanır, alnının silir tərini.
O çevirir qıza nəzərlərini:
– Necə, babətdirmi, yoldaş oxucu?
– Əlbəttə, əlbəttə, çox yaxşıdır bu.
Unutduz ancaq,
Sirri özgə şəxsə yaramaz açmaq –
Deyə təbəssümlə gülür Mehparə.
“Sirri açmaq olmaz” – deyən oğlana
İncə bir eyhamla edir işarə.
– Sizdən nə gizlədim, nə sirr sizdən?
Sizə özüm kimi inanıram mən.

– Mənə sualınız yoxdursa əgər,
İzn verin gedim, anam gözləyər.
– Yox, yox tələsməyin, dayanın bir az
Evdə heç kim sizdən nigaran olmaz.
Hələ çox ertədir, doqquzdur saat,
Neçin olursunuz belə narahat?
Eh, mən istərdim ki, istərdim ki, siz
Yanımdan bir daha getməyəydiniz.
Qoşa sevinəydik, qoşa güləydik,
Qoşa qarıyaydıq, qoşa öləydik.
Üzr istəyirəm, bəlkə bu sözlər,
Göydəndüşmə gəlir sizə bir qədər.
Axı, ürəyimi gizlədim necə?
Mən sizi anıram hər sübh, hər gecə.
Mən sizi sevirəm, yox buna çarə;
Tək sizi sevirəm, sizi, Mehparə!
Çəkin imtahana etibarımı,
Gözümdə qoymayın arzularımı.
Qız alov içində yanır, elə bil:
– Yox, bu mümkün deyil, bu mümkün deyil.
Biz ki, tanımırıq bir-birimizi,
Axı, nə siz məni, nə də mən sizi.
Bircə yol sinifdə görməklə məgər
Adam bir-birinə öz ürəyini
Etibar edər?
– Çoxdan tanıyıram axı, mən sizi,
Sizin partanızı, sinifinizi.
Tanışdır bu qaşlar, bu gözlər mənə,
Onlar qanad verir hər səhər mənə.
Mart çıxıb yaz fəsli gələndən bəri,
Biz ki görüşürük, Mehparə, hər gün.
Bəlkə də ilk bahar pəncərələri
Uğurlu əlilə açmış bizimçün.

Qız sükut içində durur lal kimi.
Durur boynubükük bir maral kimi.
Sanki səbr et – deyir – ay oğlan, bir az –
Sevda yollarında tələsmək olmaz.
– Salamat qalınız, gedim daha mən.
Yoxsa ki, dalımca gələrlər evdən
Budur, onu vurur saat divarda.
– Bəs nə cür görüşək, nə zaman, harda?
– İstəsən ver mənə telefon nömrəni.
Özüm zəng eləyib çağırram səni.
Qız gedir. Məharət otaqda təkdir.
Düşünür: görəsən, Mehparə haçan,
Axı, haçan mənə zəng edəcəkdir?..

## ETİBAR

Alovlu cəbhələr, odlu cəbhələr
“ – Məni qorxutmamış” – kim desə – əgər.
Qəlbimi zərrəcə bürüməz heyrət;
Çünki insan ilə əkiz doğulmuş
Hünər, cəsarət.
Güc də, cəsarət də, hünər də mənəm –
Yenə də qoy buna inansın aləm.
Məktəb illərini gətirib yada,
Ancaq kim döşünə döysə dünyada,
Desə: qorxutmamış imtahan məni,
İnandıra bilməz heç zaman məni,
O hansı oğlandır, o hansı qızdır –
İmtahan gecəsi uyumuş rahat?
O hansı oğlandır, o hansı qızdır –
Sübhü gözləməmiş saatbasaat.
Hansı əlaçının bilet çəkəndə

İnam dolu qəlbi əsməmiş bir az?
Əsmisiniz siz də, əsmişəm mən də,
Bu müqəddəs hissi unutmaq olmaz.

Uşaq təbəssümüylə gülür üfüqdə səhər.
Şirin yaz yuxusundan oyanmış böyük şəhər.
Məktəbin həyətinə iynə düşsə əlindən.
Onu yerdə gəzmə sən.
Hələ düz bir saat var imtahana, bir saat.
Burdakı izdihamın ürəyisə çırpınır
Həyəcanla, narahat.

Bax, budur, onuncular; gördüm Mehparəni mən,
Seçdim, tanıdım onu uzun hörüklərindən.
Gör necə də yaraşır çəhrayı paltar ona.
Eh çəhrayı nədir ki, hər rəng yaraşar ona.
Deyəsən, qaməti də iki gündə ucalmış;
Söz köhnə şairindir: sərvdən xərac almış.
Onuncular dayanmış həyətin gur yerində.
Bir həyəcan, bir sevinc oxunur üzlərində.
Onlara baxa-baxa neçə qız, neçə oğlan
Qibtəylə deyir bu an:
– Sizdən bəxtəvər hanı?
Gün gəlsin, biz də verək sonuncu imtahanı.
Məktəbdən ayrılmağa, dostlar, tələsməyiniz
Çünki həmin illərin şirin xatirəsilə
Yaşayacaqsınız siz, qocalacaqsınız siz.
Mehparəylə danışır yoldaşı İsfəndiyar:
– Ey, ay qız, sənə nə var;
Qızıl medal elə bil ovcundadır indidən.
– Peyğəmbərlik etmə sən.
Bəlkə elə birinci bu yazıdan kəsildim.
Çayı üzüb keçməmiş lovğalanmasın heç kim.

Bu vaxt girir həyətə Gündüz ilə Gülbahar,
Deyirlər: – Ay uşaqlar, gəlin, təzə xəbər var!
Müxbir göyə qaldırır məqaləsində bizi,
Yaman tərif eləyir bizim sinifimizi.
Hər sözü, hər cümləsi ürəkdən verir xəbər.
Bu vaxt qəzetə doğru uzanır bütün əllər.
Bir oğlan həyacanla çığırır: – Hanı, hanı?
– Balam, niyə başına götürmüsən dünyanı?
Qoy baxaq növbə ilə, burda bir sənsən məgər?
(Canım, kimə deyirsən, havayıdır bu sözlər).
Sən bir bu hay-küyə bax, özgə ləzzətdir, ləzzət.
Sanki indi yüz yerə parçalanacaq qəzet.
Mehparənin adını çəkməsəm də burda mən,
Əlbəttə uzaq deyil o da bu mərəkədən.
Baxın biri də odur elə şuluq salanın:
– Qoyun əvvəl mən baxım, siz balaca dayanın.
Çox nigaran deyildir məqalədən o fəqət.
Çünki redaksiyanın "sirrini" çoxdan açmış –
Öz ürəyilə birgə ona bizim Məharət.
Həyəcanlı hay-küyü kəsmək üçün bu ara,
Gündüz belə söyləyir, üz tutub uşaqlara:
– Gəliniz, sakit olaq.
Mən oxuyum ucadan, hamınız asın qulaq.
– Oxu! Oxu! – söylədi bir ağızdan neçə səs?
Sükut çökdü araya, gör kəsildi necə səs?
Fərəhlənir eşitcək öz adını hər uşaq.
Mehparənin sevinci ayrı sevincdir ancaq.
Axı, bunu o yazıb – onun sevdiyi oğlan.
Çiçək Əlimərdana pıçıldayır bu zaman:
– Dönə-dönə danışır Mehparədən gör nə çox.
– Danışanda nə olar, qoy danışsın, eybi yox.
Fərəhlənir eşitcək öz adını hər uşaq,
Mehparənin sevinci ayrı sevincdir ancaq.

O bu gündən daha çox inanır Məharətə.
Eşqinə qanad verir daha böyük etibar.
Peşman deyil qəlbində oyanan məhəbbətə,
Onun belə inama, əlbəttə ki, haqqı var.

Məktəb zənginin səsi yayılır hər bir yana;
Çağırır uşaqları birinci imtahana.

## TELEFON SÖHBƏTİ

Bir qəzet qırığını əlində əzə-əzə,
Füzuli küçəsilə kimdir aşağı enən?
Bu yeriş, bu hörüklər yoxsa yad gəlir sizə?
Tapa bilməzsinizmi, adını çəkməsəm mən?
Nə gəzir, nə axtarır o gözlər, qara gözlər?
Aparır sahibini o gözlər hara, gözlər?
Qız yeriyir arxadan izlənən adam kimi,
Qatardan təzə düşmüş gəlmə kimi, xam kimi.
Neçin həyəcanlıdır, neçin dalğındır belə –
Mehparə danışacaq əziz sevgilisiylə.
Ona xəbər verəcək telefonla qəlbi şən,
Birinci imatahanı "əla"yla verdiyindən.
Sonrasa eyham ilə deyəcək ki, "Bu axşam
Daha bir az bikaram".
Avtomatdan səs gəlir:
– Quuu... quuu... quuu...
" – Görünür danışan var, işin tərsliyidir bu."
Qoy Mehparə gözləsin, qoy ötsün dəqiqələr.
Ey möhtərəm oxucu, onda izn ver, səni
Aparım ayrı yana, ayrı yerə bu səhər.
Qabağında cürbəcür məqalələr, yazılar,
Stolun arxasında oturmuşdur Məharət.

Yazıların çoxunun üstündə haşiyə var:
"Cavab yaz", "Arxivə ver", "Yoxla", "İşlə", "Təhqiq et"
Qulağında trubka, əlindəsə karandaş,
Telefonla danışır Məharət yavaş-yavaş:
– Sudabə, gözləyirəm, axşam gəlin, görüşək.
Görüşək qəşəng-qəşəng.
Bu gün gələ bilməzsən? Eh, bu nə oldu daha?
Yaxşı, qalsın sabaha.
Məharət trubkanı qoyub düşündü belə:
"O qədər bənd olmadım mən özüm bilə-bilə.
Bir qızla da üç dəfə – canım, görüşmək olar?
Sonra da dönsün olsun ayaqlarıma çidar. –
Bu yandan da itirim Mehparətək balanı.
Deyin, onuntək şirin şəkər hanı, bal hanı?
Gəzməyə çıxmasam da hələ indiyə qədər,
Xəyalımdan getməyir o surət axşam-səhər.
Eh, o da düşəcəkdir gözümdən Südabətək.
Onunçun da, doğrusu, razıyam gec görüşək.
Yox, yox, fövtə vermərəm bir an belə fürsəti."
Telefon düşüncədən ayırır Məharəti.
O eşitcək sevinir Mehparənin səsini.
Duyur, duyur, o, qızın ürək döyünməsini.
Bu döyüntü onun da qəlbində buraxır iz:
– Şadam ki, unutmayıb mənə zəng elədiniz.
Elə dünəndən bəri qulağım səsdə idi,
Gözlərim intizarda, könlüm qəfəsdə idi.
– Mənsə darıxmayırdım, çıxarmışdı yadımdan
Hər şeyi bu imtahan.
– Hə, hə necə oldu bəs?
– "Beş" almışam yazıdan.
– Təbrik edirəm səni, Mehparə, gözün aydın.
Əllərini sıxardım, kaş yanımda olaydın.
– Tez olardı hələ bu.

Hələ qabaqda qalmış imtahanların çoxu.
– Yaxşı, sən deyən olsun, əllərini sıxmaram.
Beş dəqiqə görüşə nə sözün var bu axşam?
Gecə-gündüz oturub oxumaq da yaramaz.
İmtahandan çıxmısan, gəz bir az, dincəl bir az. –
Sükut... cavab gəlmədi, sanki naməlum bir əl
Telefonun xəttini tutub kəsdi əlbəəl.
Sükut var "yox" deməkdir; sükut var "hə" deməkdir.
İndi özünüz bilin bu sükut nə deməkdir!

## DƏNİZDƏ

Qaş qaralır, şəhər yenə axır bulvara,
Xoşa gələn bir meh əsir açıq dənizdən.
Qonur sahil şəfəqləri mavi sulara,
Sular da şən, sahil də şən, adamlar da şən
Nəzərimi cəlb eləyir üzən qayıqlar,
Durna kimi qanad açıb süzən qayıqlar.
Bax, o qayıq, o balaca avarlı qayıq,
Şəfəqləri suda çimən fanarlı qayıq
Ağır-ağır üzüb gedir mayaka sarı,
Gedir gəmi siqlətilə, yarır suları!
İki cavan oturmuşdur orda üzbəüz –
Boy-buxunlu, yaraşıqlı bir oğlan, bir qız.
Oğlan qıza baxa-baxa çəkdikcə avar,
Köpüklənir avarların altında sular.
Qız salaraq sağ əlini suya bu zaman:
– Uy! Diksindim, gör necə də soyuqdur, aman!
Daha bəsdir, geri dönək, qayığı qaytar.
Alır göyü topa-topa qara buludlar.
Qorxuram ki, külək qopa,
Geri dönək biz.

– Qorxma, gülüm, bizi peşman eyləməz dəniz...
– Qolların ki, yorulmuşdur – buna sözün nə?
– Qollarıma qüvvət gəlir baxdıqca sənə!
İstəyirsən dövrə vuraq bütün Xəzəri,
Əgər yorulsa –
Mən kəsərəm bu qolları, bu bilələri...
Budur mayak – yanır-sönür qırmızı işıq.
Kəsik-kəsik al şəfəqlər çimir sularda,
Ancaq yenə irəliyə şütüyür qayıq –
Görən, hardan qayıdacaq, dönəcək hardan?
Daha dəymir avarlara oğlanın əli,
Lakin qayıq öz-özünə axır irəli.
– Mehparəcan, ah, nə qədər şadam, bu saat
Ki, sən indi mənimləsən, mənimlə ancaq,
Mənə eşqin, məhəbbətin verir qol-qanad,
Bizim birgə həyatımız xoşbəxt olacaq.
– Birgə həyat! Tez deyilmi sənin bu hökmün?
Biz ki, yaxşı tanımırıq bir-birimizi?
"Birgə həyat" demək üçün azdır beş-üç gün.
Bərkə-boşa çəkməmişik heç bircə yolda –
Axı, hələ nə siz məni, nə də mən sizi.
Bu sözləri soyuqqanlı söyləsə də qız,
Ürəyində məhəbbətin ulduzu yanır.
Naz eləyir, yüksək tutur özünü yalnız,
Ancaq könül verdiyinə çoxdan inanır.
– Mehparəcan, qəlbimizə, gəlin, inanaq,
Qoy dəniz də şahid olsun peymanımıza!
Təmiz eşqin keşiyində birgə dayanaq.
Gəl müqəddəs bir and içək vicdanımıza...
Qız sükutla cavab verir oğlana yenə,
Bürünc pulu qəbul edir qızıl yerinə;
Onun saxta parıltıdan qamaşır gözü,
Tonqal bilir zəif-zəif közərən közü,

Dəniz üstdə əsir xəfif axşam küləyi,
Beşik kimi yırğalanır qayıq sularda,
Geri baxcaq, xofə düşür qızın ürəyi:
– Aman, sahil görünməyir, hardayıq, harda?!
Axşam dərin, göy buludlu, dörd bir tərəf su...
Oğlanı da üşəndirir qorxu duyğusu
Ancaq qıza ürək verib o gülə-gülə,
Avarları suya salır, üzür sahilə.
– Hə, Mehparə, məqaləmi gördünmü barı?
Unudaraq qəlbindəki qorxu hissini.
– Gördüm, – deyə qaçır qızın gül dodaqları –
Oxuduq da, hamımızın xoşuna gəldi.
Yaman gözəldi.
– Arzulardan ürəksiz də danışmaq olar?
Axı, hansı jurnalistin buna haqqı var?
Axı, onda ürəyimi açırdım sənə,
Mən hər sözdə, hər cümlədə hey dönə-dönə,
Axı onda həsrətinlə, gülüm, yanırdım.
Hər dəqiqə görüşünə qanadlanırdım.
– Yaxın günlər nə tez belə xatirə oldu!
Bir-birinə nə tez düzdün "onda"ları sən!
Elə bil ki Mehparənin gözləri doldu.
Soyuq bir yel əsdi, keçdi gənc ürəyindən.
O incimiş baxışları duydu Məharət,
Ürəyində ani təlaş, üzündə heyrət.
– Niyə küsdün, günahımın nədir ki, adı?
Hər sözü də söz edərlər? Eh bu olmadı!..
"Dünən" nədir, "onda" nədir, xatirə nədir?
Qəlbimizə indi-indi yol tapırıq biz.
Susma, danış, bu nigaran könlümü dindir.
Gül, mən gülüm, dəniz gülsün, gülsün eşqimiz,
Gəl barışaq.
– Barışmıram, küsmüşəm məgər?

Mehparənin dodaqları xəfifcə qaçdı.
Oğlanısa tərk eylədi təəccüb, kədər.
Sevincindən, lap deyəsən, dili dolaşdı.
– Mən... Mən səni ömrüm boyu, ömrüm uzunu,
Bir atəşlə sevəcəyəm, unutma bunu.
Elə bu dəm öz yerindən qalxır Məharət.
Qucaqlayır Mehparəni qolları açıq.
Qucaqlayır öpür onu, gözündə şəhvət.
O dartınır, az qalır ki, çevrilsin qayıq...
Bir hörüyü suya düşür, biri üzünə,
İstəyir ki, kənar etsin onu özündən
Qız vüqarı güc gəlsə də bacarmır ancaq.
Ürək təslim olan yerdə neyləsin dodaq!..
Elə bil ki, dəniz dönüb qaynar qazana
Gurultuyla təpəsinə çevrilir qızın.
Gözlərində göy bürünür çənə-dumana,
Xoş nəfəsi buza dönür ətirli yazın.
Atası da, anası da durub yan-yana,
Elə bil ki, həqarətlə baxırlar ona.
Elə bil ki, bütün Bakı uzadıb barmaq
Təkcə onu – Mehparəni göstərir ancaq.
"Bundan sonra alnıaçıq gəzmə sən" – deyir.
"Bundan sonra daha nəyə gərəksən" – deyir.
Yanır qızın od içində çöhrəsi, yanır
Onun başı gicəllənir, qayıq çalxanır.
Budur yenə çıxarılır avarlar sudan,
Nəvazişlə sıxır qızı köksünə oğlan;
Yaş hörükdən suya dönür onun köynəyi,
Yavaş-yavaş sakitləşir qızın ürəyi.
– Söylə gülüm, incidinmi, küsdünmü məndən?
Məgər mənim məhəbbətim deyilmisən sən?
Məgər bizim ilqarımız göydən düşmədir?
Əgər sən də sevirsənsə, onda bu nədir?

Bu sözlərdə görüb ümid, tapıb təsəlli,
Mehparənin həyəcanla açılır dili,
Pıçıldayır dənizdəki ləpələr kimi:
– Mən də çoxdan bəxş etmişəm sənə qəlbimi...
Çırpınaraq suya düşmür hörüklər artıq,
Sakit-sakit üzüb gəlir sahilə qayıq.

## ƏZAB İÇİNDƏ

Günlər keçdikcə artır iztirabı Heydərin,
Əlli olur, yüz olur bir əzabı Heydərin.
Xoş sifət göstərməyir qız ona əvvəlkitək,
Bircə quru salamla sovuşur yan keçərək.
Aynabənd eyvanda da az görünür, az gəzir.
Əvvəlkitək gəzməyir, satır işvə-naz, gəzir.
Təbəssümlə hər səhər əl verərdi Heydərə;
Yox, Bakı havasıtək dəyişmişdir Mehparə.
Ağızucu soruşur qonşusunun halını;
Birovuz xəbər alır keyfini, əhvalını.
Xeyr, əsər qalmayıb əvvəlki Mehparədən.
Yox, yox, deyildir daha uşaq kimi gülər, şən.
Mehparə şəndir yenə, şəndir özgəylə, fəqət,
Heydər, zavallı Heydər bunu bilməyir əlbət.
Ağır oturur-durur, yaman utancaq olmuş.
Bu göyərçin qanadlı sanki dönüb dağ olmuş.
Heydər, əzizim Heydər, göyərçindir o yenə;
Əfsus, bundan sənə nə!
Dostum, qızın könlünü özgəsi çalmış daha –
Duyğuları oyadan bahar gələndən bəri.
Öz fikrindən o səni çıxarıb silmiş daha,
İndi Məharətdədir Mehparənin gözləri.
Sən onun ürəyində bəs əvvəl vardınmı? Yox!

Məhəbbətdən, sevgidən xəbərsizdi o, hələ.
Sən ona sirdaşmıdın, sən ona yardınmı? Yox!
Heyhat! Versəydiniz də gündə yüz yol əl-ələ!
O, heç kimə təfavüt qoymayırdı  o zaman,
Fərqi yoxdur, ya sən ol, ya da başqa bir oğlan!
Atılardı-düşərdi, danışardı-gülərdi,
Uşaq kimi hamını özünə dost bilərdi.
Sənsə xəyal edirdin: o da vurulmuş sənə,
Özlüyündə düşündün: heç şübhə də olarmı?
Qat kəsmiş məktubunu köçürdün dönə-dönə,
Lakin vermədin. Dedin: “Buna ehtiyac varmı?”
Ürəyini açmağa cəsarətin olmadı,
(Həyat tapdayıb keçir dilsizi, ağızsızı)
Özünü sevdirməyə məharətin olmadı,
Özgəsi min dil ilə yoldan çıxardı qızı.
Mehparədə oyanan ilk sevgi duyğuları
Məharətin gözündən qığılcım aldı yandı.
Tale haram eylədi sənə bu ilk baharı,
Rəqibininsə üzü al şəfəqə boyandı.

Yox, Heydər bunları duymadı, heyhat!
Ona qüvvət verdi şirin bir dilək.
Yenə də ümidlə açdı qol-qanad,
Deyin, soyuyarmı yanan bir ürək!
“Qoy verim, oxusun şanlı məktubu,
Yazmışam hər şeyi orda aşikar.
Qoy verim oxusun – pis ki, deyil bu!
Aləmmi dağılar, dünyamı qopar?!”
Yetirir məktubu Mehparəyə o,
Təzəcə aldığı kitab içində.
Əgər vaxtın olsa, bu romanı sən –
Ay qız, oxu – deyir  əzab içində.

## MƏHARƏTİN QƏRARI

Gün-günə calandı, ay gəldi keçdi,
Yenə ömrümüzün boyu qısaldı,
Alovlu-bürkülü yay gəldi keçdi,
Payız da günəşin odunu aldı.

Bakıdan çıxmadı osa kənara;
Bir yana getmədi istirahətə.
Mehparə çalışdı imtahanlara –
Həm istiyə dözdü, həm əziyyətə.

Atanın-ananın inadına o –
Hər nə etdilərsə – baxmadı bu il.
Dedi – ölmərəm ki, şəhərdə qalsam –
Qəbul imtahanı zarafat deyil.

Bir gölün adını unutduğundan
Medalsız bitirdi onilliyi qız.
Həvəsdən düşsə də, olsa da peşman,
Yenə biliyinə güvəndi yalnız.

Qız qəbul olundu ali məktəbə.
Lap iynə gözündən keçdi elə bil,
(Bəli, bundan sonra tələbə olmaq,
Qardaş, o qədər də asan iş deyil.)

Mehparə sınıxdı bir yay içində,
Dolğun çöhrəsi də soldu bir qədər.
İmtahan o yana, üç ay içində
Üzdü ürəyini gizli görüşlər.

Evdən hər çıxanda, evə dönəndə,
Çərəsi kəsildi – yalan danışdı.
Camaat yatanda, işıq sönəndə,
Gecə öz-özüylə pünhan danışdı.

Gözü qabağında gəldi dayandı
Bütün varlığilə Məharət hər an.
Çox götür-qoy etdi, çox qurcalandı,
Ancaq yenə onda tapmadı nöqsan.

Bütün görüşləri saldı yadına:
– Hansı soyuq keçib bu görüşlərin?
Şübhə yol tapmadı etimadına,
Qız öz duyğusuna inandı dərin.

Bəzən yuxusuna girdi dalbadal
Elçi get-gəlişi, nişan, toy-büsat.
Əbədi bir vüsal, açıq bir vüsal
Bu sadədil qıza verdi qol-qanad.

"O, beş il dözərmi, nişanlı qalsaq,
Gözlərmi bitirim institutu mən?"
Bu fikir-xəyalla çox qaldı oyaq –
Mənim qəhrəmanım gecə sübhəcən.

Sirrini heç kimə aça bilmədi,
Evdə ehtiyatla gəzdi-dolandı.
Eşqin bəlasından qaca bilmədi,
Özü öz oduna alışdı-yandı.

Gəzdi oğlanın da yanında məğrur,
Araya salmadı toy-nişan sözü.
"Mən niyə deyim ki, – əgər sevirsə,
Heydər yazan kimi... qoy desin özü!"

***

Bu günlər içində, aylar içində
Sanki Məharət də dəyişdi tamam.
Bir gün görməyəndə Mehparəni o,
Nədənsə ürəyi olmadı aram.

“Yoxsa, daş qayaya rast gəlib daha,
Çox su aparacaq bu xəmir hələ?
Demək, son ovumdur Mehparə, aha,
Demək, öz-özümü saldım cəncələ.

Bəlkə Xan Əsliyə Kərəm olmuşam,
Yandıracaq məni ovsunlu köynək?
Eşqin əzabından vərəm olmuşam?
Yox? Bu macəraya son qoyam gərək”.

## DALĞALAR QAYAYA DƏYƏR, QAYIDAR...

– Ay qızım, Mehparə, mənə söylə bir,
Heydər neçin bizə daha az gəlir?
– Nə bilim, ay ana.
– Yalan deyirsən!
Gözümün içinə əməlli bax sən!
– Axı, hardan bilim, mən qız, o oğlan;
Mənə yaraşarmı soruşum ondan:
Neçin az gəlirsən bizə, a Heydər?
– Soruşsan qiyamət qopacaq məgər?
Nə olar, ay qızım, burada nə var,
Qohumdan yaxındır yaxşı qonşular.
Sən ora, o bura gələrdi tez-tez,
Mehparə, olmaya küsmüsünüz siz.

Qəribdir, fağırdır, o təkdir, qızım,
Özü də ürəyi kövrəkdir, qızım,
– Bilmirəm, ay ana, bu sözləri sən
Bayaqdan nə üçün mənə deyirsən?
Heydər istər yaxşı, istər pis olsun,
İstər qəlbi sadə, ya xəbis olsun,
Mənə nə dəxli var, ana, ay ana!
Ancaq təmiz oğlan, bir qonşu kimi
Həmişə ehtiram edirəm ona.
Bizə az gəlirsə – demək işi var,
Bəlkə yorğun olur. Axı hər dərsi
Bir xəstəxanada keçirlər onlar.
Sırağagün səhər görüşdük yenə,
Bax, bu kitabı da o verdi mənə.
Dedi hökmən oxu sən bu əsəri.
İndi aparıram qaytaram geri.
Lakin bildirmədi anasına qız
Kitabın içində vardır bir kağız.
Əfsus, yanan qəlbin qızıl şöləsi
Onun ürəyinə bir od salmadı.
Utancaq bir eşqin şikayət səsi
Qızı bu kağızla ələ almadı.
Yenə həmin məktub, yenə o kitab
Gəldiyi sayaq da qayıdır dala.
Qız ona vermədi bir kəlmə cavab,
Ah, necə dözəcək Heydər bu hala!..
Nə bir acı kəlmə, nə bir şirin söz,
Nə bir işıq ucu, nə bir qaranlıq.
“Nə məndən əl götür”, nə də ki, bir “döz” –
Bu daha yamandır, düşün bir anlıq:
Dalğalar qayaya dəyər, qayıdar,
Qaya sal qalar!
Dalğalar sahili döyər, qayıdar,
Sahil lal qalar!

## LOVĞALIQ VƏ İFTİXAR

Yavaş-yavaş pərdə enir, işıqlar yanır,
Zal boşalır, geniş foye dolur adamla.
Kimi tək-tək, kimi cüt-cüt gəzir dolanır
Zal boşalır, geniş foye dolur adamla.
Bu axının içindədir dostlarım mənim –
Mehparəylə teatra gəlib Məharət.
Sən onların yaxasından yapış, qələmim,
Yaddan çıxıb soyumasın bu söz, bu söhbət.
Budur, onlar yavaş-yavaş gəzirlər qoşa,
Qız oğlandan yaraşıqlı, oğlansa qızdan.
Həsəd ilə bu gənclərə edib tamaşa,
Foye çəkmir gözlərini onlardan bir an.
Qız bu axşam paltar geyib mavi ipəkdən,
Saçlarına heyran qoyub bütün dünyanı.
Zənn edirsən: iki qara bulud parçası
Səhər-səhər gəlib tutub mavi səmanı.
Oğlanın da görkəmində yox bircə nöqsan,
Qara qıvrım saçlarını daramış dala.
Təzə dəbdə kostyum geymiş, əla parçadan,
Çəkmələri öz-özünə gedir az qala.
Ara-sıra rast gəldikcə tanış-bilişə,
Məharətlə qaş-gözünü o salır işə;
Rast gəldiyi yoldaşına, dostuna bir-bir
Mehparəni him-cim ilə göstərir keçir.
Qız duymayır bu xəlvəti işarələri,
O, heç bir şey hiss etməyir bayaqdan bəri
Gəzir rahat, gəzir sakit, gəzir aramla.
Gəzmir oğrun, gəzir açıq, gəzir inamla.
Daha qorxmur bir tanışa rast gəlməyindən
"Qoy bilsinlər: bu oğlanla görüşürəm mən.

Qoy bilsinlər lap evdə də – daha neyləyim,
Qoy bilsinlər bağlanmışdır ona ürəyim”.
Məharətin qolunda o gəzir vüqarla,
Gəzir zərif bir naz ilə, bir iftixarla.
Onlar söhbət edə-edə dolanır qoşa,
Qız oğlandan yaraşıqlı, oğlansa qızdan.
Həsəd ilə bu gənclərə edib tamaşa,
Foye çəkmir gözlərini onlardan bir an.
Foye bilmir Məharətin qəlbində nə var,
Mehparənin romanından yoxdur xəbəri.
Elə isə neçin baxır? Sönün, işıqlar!
Çalın, ey zəng, qoy camaat dolsun içəri.

## QOŞA GƏLDİ, TƏK QAYITDI

Fil xortumlu, div gövdəli nəhəng kranlar
Son qoymuşdur hədər axan alın tərinə.
Əssin külək, qopsun tufan, yağsın yağış, qar –
Neyləyəcək əsrin polad biləklərinə.

Qaldırdıqca bu kranlar kərpici, daşı,
Mərtəbələr çin-çin olur bir an içində.
Bəli, daha görməyirik bənna qardaşı
Ağır-ağır yük altında, qan-tər içində.

Yan-yörədən söküldükcə taxta körpülər.
Qızıl günəş əlvan edir aynabəndləri.
Bu gün yastı Şubanının döşünə qədər
Uzanaraq gəlib çıxır Bakı şəhəri.

Bu cəbhədə seçilməyir mühəndis, fəhlə,
Bir əlləşir, bir vuruşur şagirdlə usta.

Aşağıdan qoca memar baxır fərəhlə,
Cavan nəqqaş naxış açır həşyələr üstə.

Tikintiyə neçə-neçə institutdan
Tələbələr köməkliyə gəlmişlər bu gün.
Bəli, görüb-götürməklə öyrənir insan –
Bura zəhmət məktəbidir cavanlar üçün.

Lap yanaşı dayanmışdır Mehparə, Heydər;
Çiyinləri bir-birinə toxunur hərdən.
Qəlbləri də belə yaxın olsaydı əgər,
Sevinərdi bu gəncləri tanıyan, bilən.

Heydər baxır Mehparəyə üzü gülümsər,
Deyir: dağlı məhəlləsi dəyişir tamam.
Silindikcə yastı damlar, balaca evlər,
Doymayacaq bu ətrafın seyrindən adam.

Qız söyləyir: sən Bakıya gələnə qədər
Başdan-başa açıqlıqdı, bozdu bu yerlər.
Bir balaca xəzri qanad çalsaydı əgər,
Göz çıxaran, nəfəs tutan tozdu bu yerlər.

– Onda belə görünür ki, xoşqədəmmişəm,
Uğurludur Abşerona gəlişim mənim.
Qoy həmişə belə olsun, Mehparə, nə qəm,
Kaş ki, yaxşı gətirəydi hər işim mənim.

– Eh, niyə də gətirməsin, dayan bir hələ,
Qəlbimizdə gül açacaq neçə xoş dilək.
Heydər, yaxşı diqqət elə sən bu təmələ –
Sabah onun üzərində ev yüksələcək.

Yüksələcək gəncliyimiz yüksələn kimi.
Ona təməl deyilmidir şən həyatımız?!
Mən sabahın bir memarı, sən bir həkimi,
Bu duyğuyla qoy açılsın qol-qanadımız.

Gözlərini Mehparədən çəkməyir Heydər,
Sanki ona "danış yenə, danış sən" deyir,
"Könlüm sənin söhbətini, sözünü istər
Xəyalımdan keçənlərlə tanışsan" – deyir.

Tələbələr dayanmayır bir an boş-bikar,
Fəhlələrə qarışırlar oğlanlar, qızlar.
İndi dağı dağ üstünə qoysa da maşın,
Baxın yenə kar aşmayır belsiz, xərəksiz.
Əli çoxdan qabar bilməz bənna qardaşın
O daşyonan baltası da deyil gərəksiz.

Hər tələbə bir iş görür bacardığından.
Heydər ilə Mehparə də səki düzəldir.
– Yox, bu daşı elə qoyma, Heydər, bir dayan.
– Bəs nə təhər?
– Mən biləni, belə gözəldir!

Qız istəyir qaldıraraq çevirsin daşı.
Tezcə onun biləyindən yapışır Heydər.
Mehparənin sinəsinə toxunur başı,
Deyir: ay qız, ayıb deyil? Ölmüşəm məgər?!

Oğlan günəş hərarəti duyur canında,
Qollarına dağ qaldıran bir qüvvət gəlir.
Aşıb-daşan gənclik eşqi axır qanında.
Ürəyinə hünər gəlir, cəsarət gəlir.

Mehparəyə gör necə də yaxındır bu an.
Axı, niyə açılmasın, gülməsin ürək.
Yəqin indi öz-özünə danışır oğlan:
“Kaş ki, hər gün tikintiyə gəzməyə gələk.”

Lap boynuna dolaşmışdı uzun saçları.
Heydər gülmüş, qız onları eyləmiş kənar.
Arzu etmiş, – olmazdımı biryolluq, barı
Nəfəsimi kəsəydiniz, saçlar, a saçlar!
Göstərərək ayrı cürə qoyduğu daşı,
Heydər deyir: – Hə, Mehparə necədir belə?
İndi təmin eləyirmi memar yoldaşı?
Razılıqla baş endirir qız gülə-gülə.

Bu gülüşlə gülümsədi bəxti Heydərin.
Qız da bunu yaxşı duydu, nə olsun fəqət!
Ürəyinə xoş duyğular axdı Heydərin,
Səssiz süzdü Mehparəni, gözündə həsrət.

Dolandıqca dəqiqələr, ötdükcə saat,
Artır maraq, artır həvəs – qızışır meydan.
Burda daha vüs`ət ilə açır qol-qanad
Mehparətək, Heydər kimi yüz qız, yüz oğlan.

Təzə taxta hasarların arasında siz,
İşə baxın, gücə baxın, əmələ baxın,
Toz-torpaqdan çəkinməyib yaxın gəliniz,
Özül qoyan, divar hörən min ələ baxın.

Bəs o kimdir bu arada gəzir, dolanır,
Sağ çiynindən asılmışdır fotoaparat?
Dəstələrin qabağında gəlir dayanır;
Hərəkəti, baxışları xeyli narahat.

Əlindəki bloknotu açıb arabir,
Söhbət edir fəhlələrlə, tələbələrlə.
Çox işgüzar görkəm ilə nəsə qeyd edir,
Ətrafına göz gəzdirir şaşqın nəzərlə.

Üç adamı, beş adamı əyləyib bəzən,
Şəkil çəkir... "qəzet üçün – deyir – gərəkdir."
Tanıyarsız bu oğlanı, deməsəm də mən –
Məharətdir, məharətdə özü də təkdir.

"Yox, Mehparə bu gün burda olmamış olmaz.
Nə olaydı, rast gələydim indi ona kaş.
Çox gəzmişəm, qoy yenə də hərlənim bir az".
Bu fikirlə var-gəl edir o yavaş-yavaş.

Taxta-şalban yığımının üstündən aşır,
Tez-tez batır çəkmələri torpağa, toza.
Yox, yox, artıq o səbirsiz gəzir dolaşır.
Tərsliyə bax, rast gəlməyir, gəlməyir qıza
Deyən, daha qıçlarında qalmayır taqət.
Ona kürkdən ağır gəlir əynində palto.
– Bura da gəl, bizdən də yaz, barı, Məharət.
Bu xitabı eşidincə heyrət edir o.
Mehparəylə qarşılaşır yana baxantək,
Gəlir iri addımlarla tez ona sarı.
Gəlmək nədir, pərvazlanıb uçardı quştək,
Bircə anlıq qanadları olsaydı barı.
– Salam, salam, ay Mehparə!
– Salam, Məharət!
Ürəyimə dammışdı ki, burda olarsan.
Heydər baxır Mehparəyə üzündə heyrət,
Üstünün toz-torpağını çırparaq bu an.

– Bilirdim ki, sizin qəzet yazmamış olmaz
Bizim bu gün tikintiyə gəlməyimizdən.
Axı, burda min uşaq var – nə çox, nə də az.
Qız bu sözü iftixarla deyir qəlbi şən.
Öz-özünə sual verib düşündü Heydər:
"Neçin ərklə salamlaşdı qızla bu müxbir?
Yəni onlar belə yaxın tanışdır məgər?!
"Ürəyimə dammışdı ki" sözləri nədir?.."
– Mən də səni axtarırdım bayaqdan elə
Bilirdim ki, buradadır institutunuz,
Memarlıqda oxumanı demirəm hələ. –
Demirəm ki, bu gələcək işindir, ay qız,
Bu görkəmdə görməmişdim səni bir kərə,
Saçlarına qonan tozun ayrı hüsnü var.
Hörüyünü çırpa-çırpa gülür Mehparə.
– Yəqin indi əllərin də bağlamış qabar.
– Yox, Məharət!
– İnanmıram.
– Bu əlim, hanı?
Mehparənin əlini öz ovcuna alır;
Heydərin lap boğazına yığılır canı
Pərtliyindən gah qızarır, gah da bozarır:
– Bunlar keçər, yorulmusan, çəkilək yana.
Mehparənin biləyindən tutur Məharət,
Bu hərəkət ağır gəlir qonşu oğlana.
Məharətə tərs-tərs baxır üzündə hiddət.
Qızın indi-indi düşür yadına Heydər.
Unutmuşdu, Məharəti görüncə onu.
Bir belə də adam laqeyd olarmı məgər,
İndi nəylə ovundursun incik ruhunu?!
– Canım üçün, özgə deyil, Heydər, bu oğlan
Biz ki, çoxdan tanıyırıq bir-birimizi.
Ay Məharət, qonşumuzdur bu Heydər, inan.

Tanış olun, gəlin tanış eyləyim sizi.
– Bu tanışlıq əsla gərək deyildir mənə
Bəli, gözdən pərdə asmaq hədərdir, hədər –
Bağışla ki, mane oldum ona, həm sənə.
Belə deyib tikintidən ayrılır Heydər.
O ayrılır, ürəyindən qara qan gedir.
Daxilində cəngə girir sevgiylə nifrət
Bu sevdaya düşdüyünə peşiman gedir.
Lakin yenə qalib gəlir ümid, məhəbbət,
"Axı, burda nə oldu ki, çıxdım özümdən? –
İnsaf ilə, nə dedi ki, qıza o müxbir?
Görüşdülər – görüşsünlər, eh uşağam mən!
Bəlkə kişi doğrudan da özgə deyildir?
Ona nahaq tərs-tərs baxdım. Yox, əcəb etdim!
Baş-gözünü yaxşı-yaxşı əzəydim gərək.
Bəlkə qızı yoldan edib, kim bilsin ki, kim?
Sifətindən tülkü kimi yağırdı kələk".

– Heydər, dayan, mən də gəlim, gedək bərabər
Biz ki, evdən qoşa çıxdıq, qoşa da dönək.
Əfsus... daldan atılan daş topuğa dəyər.
Mehparənin səsi gəlir – "Heydər, getmə tək!"

## QAPIYADƏK

Saat beş olsa da, günəş saralır,
Martın əvvəlinə yaz demək olmaz.
Xəzri qanad çalır, göylər qaralır,
Təəccüb eyləyib söz demək olmaz.

Artıq tikintidən ayrılır hamı,
Çıxır darvazadan ikibir, üçbir.

Alnıaçıq edir zəhmət, adamı,
O, yol gedəndə də vüqarla gedir.

Buludu dağıda bilməyir külək.
Hava xarablaşdı – deyir uşaqlar,
Damcılar toxunur üzlərə tək-tək,
Bilmirsən yağışdır, yoxsa sulu qar.

Qədim Hüseynbala açıqlığından
Camaat tələsik enir şəhərə,
Könlündə iztirab, üzündə həycan,
Budur, Məharətlə gedir Mehparə.

Gedirlər hamıdan xeyli aralı,
Küləyə, yağışa məhəl qoymadan.
Boynuna sürüşüb qızın yun şalı.
Şövq ilə qoluna giribdir oğlan.

Məharət duyur ki, dala qalır qız
Qoşa gəlsələr də, gəlir ürəksiz,
Yerimək xətrinə yeriyir yalnız.
– Bəlkə yorulmusan, maşın tutaq biz?

Bəlkə üşüyürsən? – deyə Məharət,
Bu dəm qucaqlayır qızın belini.
Mehparə qəlbində ani bir nifrət,
Dartınıb rədd edir onun əlini.

– Ürəyim sıxılır, Məharət, burax,
Pərtlikdən oğlanın halı dolanır,
Acıqlı dillənir: – Ay qız, bura bax!
Sonra qabağında keçib dayanır.

Lakin, ixtiyarsız yumşalır səsi,
Tutqun sifətinə qonur təbəssüm.
Tez qorxudur onu qızın küsməsi.
– Axı, nə olmuşdur sənə, ay gülüm?!
– Özüm də bilmirəm, heç nə, Məharət,
Evə tələsirəm, dayanma, gedək.
– Yox, kimsə qəlbinə toxunmuş əlbət.
Yoxsa o, qanını qaraltdı, nədir?
Bununçun dəyərmi soyuq olaq biz?
Uşaq ki, deyilsən, özün düşün bir,
Məndənmi, ondanmı küsdün, bilmirəm,
Mənəmi acıdın, onamı yandın?
Nədir üzündəki bu qüssə, bu qəm?
Mənimi, onumu günahkar sandın?
– Məharət, sən onu qınama əbəs,
O bizi mehriban görüncə yandı,
Sanırdı mənimlə görüşmür heç kəs.
Yazığın başına dünya dolandı.
– Bəlkə də elədir, sən deyən olsun.
Bəs indi neyləyək sevinsin Heydər?
İstərdim hamının qəlbi şən olsun,
Həyat istəyimlə dövr edir məgər?
Sovet küçəsinə yetişir onlar,
Tramvay xəttini addayıb keçir.
Külək ara verir, yağır sulu qar,
Yer nə tez ağarır, fikir verin bir.
Bir qapı yanında durur Məharət,
Qızın da qolundan tutub saxlayır.
– Gör, bu qar necə də eləyir şiddət.
– Yəqin üşüyürsən, soyuqdur bayır.
– Dayansaq, əlbəttə, yubanma di gəl.
– Bura bizim evdir!

– Sizindir?
– Bəli!
Gedək bir az qızış, balaca dincəl.
Qız gülür.
– Nə var ki, burda gülməli?
– Məharət, çox sağ ol təklifin üçün.
Gecdir. Yeri düşər, gəlləm ayrı gün.
– Ad günüm olacaq on-on beş günə.
– Hə, onda baxarıq.
– Qorxuram, ay qız,
Bir bəhanə tapıb gəlməzsən yenə,
Yüz adam gəlsə də, qalaram yalqız.
– Di, salamat ol!

## BAYRAM AXŞAMI

Bahar gəlir... bu gün bahar bayramıdır,
Bu gün Novruz bayramının axşamıdır.
Qollarını çirmələyib dirsəyədək
Ana deyir:
– Pis çıxmasın aşım gərək.
Sən hələ gəl o süfrəyə yetir nəzər,
Göy zəmini xatırladır səmənilər.
Dolu-dolu boşqabların arasında
Əlvan-əlvan, xırda-xırda şamlar yanır.
Şamlar yanır – şölələri yırğalanır..
İsmayıl da bu gün evə tez gəlmişdir.
Divan üstdə bir balaca dincəlmişdir.
– Hə, nə oldu, Zinət, başa gəlmədi aş?
– Kişi, yavaş!
Qoy uşaq da gəlib çıxsın, döz bir qədər,
Saata bax, harda olsa indi gələr.

Yoxsa, onsuz haram olar bayram mənə –
Bu əziz gün, bu mübarək axşam mənə,
Ay İsmayıl, Heydərə də dedim ki, mən
Axşam dərsdən çıxan kimi bizə gəl sən.
– Sağ ol, Zinət!
Lap cənnətlik etmiş səni bu səxavət. –
– Sən deyəndir, əlbəttə ki, gəlsin uşaq.
Vaxt ötüşür... əsər yoxdur qızdan ancaq.
Boşqabların dövrəsində şamlar yanır.
Zərif-zərif şölələri yırğalanır.
Kimsə döyür elə bu an qapını, bax!
– Arvad, dur aç, arvad, tez ol, gəldi uşaq.
Tez qapını sevinc ilə açır ana.
Mehparə yox, salam verir Heydər ona!
– Buyur, oğul, xoş gəlmisən, buyur, buyur.
Heydərinsə... sevən qəlbi tez-tez vurur.
– Mehparə də evdədirmi?
– İndi gələr.
Gənc qəlbini çulğalayır ani kədər.

## HİYLƏ

Əlində uzunsov xətkeş var onun,
Bir də lülələnmiş cizgi kağızı.
Çoxdur ürəyində arzular onun,
Görüm xoşbəxt olsun bu cavan qızı.
Bir belə adamın içində, baxın,
Gör nə tez tanıyır Mehparəni o.
Gəlir ağır-ağır Məharət yaxın,
Elə bil sınayır Mehparəni o.
Ona salam verir qız gülə-gülə.
O isə salamı çox soyuq alır.

– Məharət, nə olub, nə var ki, belə?
Qızın sualları cavabsız qalır...
– Bir saat gözləmək olarmı, canım!
Qapıya baxmaqdan gözüm qaraldı,
İnsaf yaxşı şeydir, Mehparə xanım!
Səninsə insafın bəs harda qaldı?
– Vaxtında gələydin, saatın ki, var.
Dərsdən də yarımçıq heç çıxmaq olar?
Bu an Məharətin qaçır dodağı,
Qonur üz-gözünə sün`i təbəssüm.
– Dəqiqə nədir ki, saat nədir ki,
Sən bütün ömrümə dəyərsən, gülüm!
Zarafat edirdim, incidin məgər?
– Zarafat edirdin!
Zarafatla da
Deyilir çox zaman
Tikanlı sözlər.
– Əfsus, tanımırsan, görünür, məni –
Səni öz canından artıq sevəni.
Mehparə, düz burdan gedirik bizə.
– Sizə?
– Bəli, bizə!
– Yox, yox, Məharət!
Qızın üz-gözündə təəccüb, heyrət,
Qəlbində qorxu:
– Yox, olan iş deyil, mümkün deyil bu,
Nə deyər eşidən, nə deyər görən?
Birbaş evimizə getməliyəm mən.
İndi nigarandır atamla-anam,
Bayram axşamıdır axı bu axşam.
– Səni ad günümə çağırıram mən,
Niyə çəkinirsən bizə gəlməkdən?
Mən səni öz yaxın adamım kimi,

Bəli, öz ciyərim, öz canım kimi,
Bu gün ad günümə çağırıram mən, –
Niyə çəkinirsən bizə gəlməkdən?
– Yaxşı, elə isə, bəs neçin dünən
Mənə bu barədə söyləmədin sən?
İndisə əliboş, evdən izinsiz...
– Əliboş, əliboş!
Özgəyikmi biz?
Razılıq duyulur qızın səsində...
Bakı Sovetinin şiş qülləsində
Saat onu vurur. Qaynayır şəhər.
Axşamın gündüzdən təfavütü yox,
Yox zərrə qədər.
Mehparə getsə də Məharət ilə
Gedən ayağıdır, ürəyi deyil.
Getmir alnıaçıq, cəsarət ilə,
Nəsə ovsunlamış onu elə bil.
Məharət bərk tutmuş qızın qolundan.
Sanır ki, bu saat o qaçacaqdır.
Bir tini keçəndə qız deyir:
– Dayan!
Yox, mənim getməyim sizə nahaqdır.
Geri qayıdıram!
– Bu, nə oldu bəs?
(Maşın siqnalından diksinir onlar...)
Maharət dil tökür almadan nəfəs,
Uc-uca calanır yüz yalvar-yaxar.
(İlanı yuvadan çıxarar xoş dil)
Bir qızı aldatmaq çətin iş deyil.
Yox, bu igidliksə, hünərsə əgər –
Onda Don-Juanla fəxr etsin bəşər.

## AD GÜNÜ

Üstü dolu bir stolun başında onlar
Tək otaqda əyləşmişlər bayaqdan bəri.
Nə qapını taqqıldadan, nə də açan var,
Nigaranlıq içindədir qızın gözləri.
– Bizdən başqa burda heç kim olmayacaq bəs?
Bir saatdır əyləşmişik, görünmür heç kəs.
– Ay qız, necə olmayacaq, hələ dayan sən,
Başımız da itəcəkdir adam əlindən.
Otağım da görürsən ki, bapbalacadır...
– Ay Məharət, doğrudan da lap balacadır...
Eh, ürəyin geniş olsun, canın sağ olsun,
Elə təki qoy dar olan bu otaq olsun.
Açıb çizgi kağızını Mehparə həmən
Məharətə söyləyir ki:
– Bir bura bax sən,
Bu bir evin nəqşəsidir, çəkmişik bu gün,
Memarlığı yaxşı-yaxşı öyrənmək üçün –
İndi bizə müəllimlər etsə də kömək,
Dörd il sonra bundan gərək özümüz çəkək.
– Mehparəcan, çox gözəldir, elə bil ki, sən
Çoxdan bəri bu işdəsən, bu sənətdəsən.
Daha bizim nə dərdimiz, nə sərimiz var.
Lahiyənlə tikiləcək gözəl binalar
Bizə də öz qapısını açıb gəl – deyər.
Gen-bol, güşad otaqlarda gəl dincəl – deyər.
Qız sevinir Məharətin bu sözlərindən,
Tumarlayır onun ipək saçını oğlan.
– Əvvəl evi camaata tikəcəyəm mən.
Xəyal onu gələcəyə aparır bu an.
Doğma Bakı – bu alovlu, bu odlu şəhər,

Böyümüşdür, dəyişmişdir baxın nə qədər!
Dar küçələr, dar döngələr görünmür gözə
Beş mərtəbə binaların cərgəsi təzə.
Bu evlərin neçəsini Mehparə tikmiş,
Nəqşəsini öz sənətkar əlilə çəkmiş.
Ona daim qanad vermiş sabahı xalqın,
Daha gözəl güzəranı, rifahı xalqın.
Özünün də günə baxan üç otağı var,
Məharətlə gözəl həyat keçirir onlar!
Ayrılaraq xoş arzudan, şirin xəyaldan,
Məharətdən xəbər alır Mehparə bu an:
– Vaxt ötüşür, niyə heç kim girmir qapıdan.
Axı, sənin qonaqların harda qaldı bəs?
Saata bax, on bir oldu, görünmür heç kəs?..
– Harda olsa indi gələr, darıxma, ay qız.
Onlar gəlib çıxanacan yeyib-içək biz.
(Stol üstə nə yoxdur ki, eh, nə sayım mən,
"İnturist"dən gətirdilmiş hər nə istəsən.)
Açır şampan şüşəsinin ağzını oğlan,
O süzdükcə şərab geri qaçır bakaldan.
Köpüklənir, qəzəblənir dili var kimi,
Qaçır namərd bir əməldən qaçanlar kimi,
Yerdə qalan boş bakallar ağara qalmış;
İşsiz-gücsüz adam kimi avara qalmış.
– Bunu sənin sağlığına içirəm, gülüm!
Var olasan, bilməyəsən kədər-qəm, gülüm!
Götür!
– Mən yox, mən içmirəm.
– Bir az içərsən.
– Yox, dilimə vurmamışam bu vaxtacan mən,
De, heç qız da şərab içər?
Yox, yox, Məharət,
Atam, anam bilsə məni öldürər əlbət.

– Atan, anan nə biləcək, götür iç bir az,
Bircə bakal! Canım üçün, heç bir şey olmaz.
Şampan zərif  bir içkidir – şərbətə bənzər.
Heç limonad içməmisən ömründə məgər?
– Yox, Məharət, dilə tutma məni bu qədər.
– Bir azacıq sevirsənsə sən məni əgər,
Ad günümdür, al bunu iç!
– Yox, yox!
– Mehparə!
Tərsliyinlə ürəyimə vurursan yara.
–  Sevgimizi gəl bağlama sən bu şəraba,
Sevgimizçin mən dözərəm hər cür əzaba.
Boşalt bunu, zəhər ilə doldur ver mənə.
– Elə bil ki, bu zəhərdir, verirəm sənə.
Qız dinməyir... cingildəyir büllur bakallar.
Nə qapını taqqıldadan, nə də açan var...
Qız dinməyir cingildəyir büllur bakallar,
Cingiltilər bu otaqda tutmayır qərar;
Deşib bağlı bir qapını yayılır çölə.
Dönür odlu ildırıma, hayqıran yelə.
Mehparənin anasını ilantək çalır,
Gəlir qoca neftçini də heyrətə salır.
Bu cingilti Mehparənin eşqilə yanan
Ona könül açmaq üçün qorxan, utanan
Gənc Heydərin ürəyinə sancılır oxtək.
Bu cingilti pıçıldayır yatan qızlara,
Gecəyarı gül yastığa batan qızlara,
Pıçıldayır, yana-yana söyləyir belə:
“Aman, qızlar, inamayın hər yağlı dilə.”
Bu cingilti dövrə vurub qayıdır geri,
Kilidlənmiş bu qapıdan girir içəri;
Mehparəni üşütmətək silkələyir bax,
Deyir:

"Burax bu bakalı əlindən, burax!
Buraxma, yox, sifətinə çırp Məharətin!
Qız olanda nə olar ki, hanı qüdrətin?"
Daşa dəyib geri dönür, ah, bu nidalar,
Otaq sakit... oğlan kefli...
Qız da ki, xumar...

## AY EV YİYƏSİ

Körpə səmənilər, göy səmənilər! –
Niyə saraldınız, niyə soldunuz?
Ay xırdaca şamlar, zərif şölələr,
Haçan əridiniz, necə oldunuz?
Heç belə olarmı bayram süfrəsi?
Hanı aş çəkilmiş boşqablar, hanı?
Hardasan, hardasan, ay ev yiyəsi?
Ağzı açılmamış plov qazanı
Nə üçün peşiman qalmış eləcə?
Bu mübarək axşam, bu əziz gecə
Sizə haram oldu, ay ev yiyəsi!
Bu nə bayram oldu, ay ev yiyəsi?!
Ah, niyə pozuldu növrağınız bəs?
Deyin, necə oldu qonağınız bəs?..
O öz taleyindən küsdü getdimi?
Qəlbində soyuq yel əsdi getdimi?
Heydər xoş diləklə bu evə gəldi,
Qızın vüsalilə sevindi, güldü.
Ancaq bu qapıdan çıxdı peşiman,
Ürəyi nigaran, fikri pərişan.
İlan vuran yatdı, yatmadı Heydər,
Gəzdi Mehparəni sabaha qədər.
Qızın atasilə o, qoşa gəzdi,
Şəhəri dolaşa-dolaşa gəzdi.

## NİGARANLIQ

Kimdir küçə qapısının qabağında dayanan,
İntizarlı baxışlarla sağa-sola boylanan? –
Tək-tək addım səslərinə belə qulaq kəsilən,
Bu qadını unutmusan – tanımırsan yoxsa sən?
Haçandır ki, küçələrdən çəkilmişdir əl-ayaq
(Nə olsun ki, çəkilmişdir, çəkilməyir o ancaq).
Qınamayın Mehparənin anasını – Zinəti,
Oxuyunuz o böyümüş gözlərdəki dəhşəti,
O böyümüş gözlərdəki min cavabsız sualı.
Nəyə qonmur, harda gəzmir onun fikri-xəyalı:
"Səbrimi-qərarımı aldı, gəlib çıxmadı,
Bəlkə tramvay altda qaldı, gəlib çıxmadı.
Bəlkə yolunu kəsən, ona sataşan oldu?
Bəlkə də qolundakı saata qurban oldu?
Bəlkə maşın toxundu... başına bəla gəldi?
Şəhər böyük... Nə bilim, nədən zavala gəldi?"

Boz dənizin sinəsindən əsir soyuq bir külək,
Tezdən çölə çıxanları kəsir-tökür qılınctək.
Qaranlıq öz karvanını çəkib gedir şəhərdən,
Zavodların ilk fit səsi xəbər verir səhərdən.
Dərin səma, uzaq üfüq kül rənginə boyanır,
Bakı yorğun nəhəng kimi yuxusundan oyanır.
Ana baxır sağa-sola gözlərində intizar,
Ürəyində bircə həsrət, dodağında bircə ad.
– Yaxşı, bunlar harda qaldı?
Deyəsən bir gələn var!
Yaxınlaşıb səssiz süzür bir-birini ər-arvad.
Heydərə bax, gör necə də qızarmışdır sifəti,
Yuxu yağır gözlərindən, kəsilmişdir taqəti.
Bıçaq vursan qanı çıxmaz qəzəbindən, kinindən,
"Axı, bu qız harda qaldı, baş açmıram – deyir – mən."

## ANA NİFRƏTİ

Dumanlı, çiskinli bir mart səhəri,
Qış geri qayıtmış deyəsən yenə.
Taybatay açılmış pəncərələri
Camaat bağlayır bu gündən yenə.
Quşbaşı qar yağır – sulu qar yağır,
Adamın qanına işləyir külək.
Havadan yenə də zəhrimar yağır,
Qoy yağsın, yaz gəlmiş, o neyləyəcək.
Artıq Mehparənin anası Zinət
Oturduğu  yerdə yuxuya getmiş.
Bu dumanlı səhər, tutqun təbiət
Arvadı daha da ümidsiz etmiş.
Ata çıxdı evdən qəlbində tufan,
“Axır bu yiyəsiz gələcək” – dedi.
Getdi həm qəzəbli, həm də nigaran;
“Bəs nə çarə qılaq, neyləyək” – dedi.

Təkcə o getmədi burdan bir yana,
Bayram axşamına cağrılmış qonaq –
Qaldı bu mənzildə bir o, bir ana,
Heydərin ümidi sönmədi ancaq.

Qəlbinə düşsə də yüz ləkə, yüz xal,
Yenə əl üzmədi Mehparədən o.
Heydəri sarsa da yüz fikir, xəyal,
Daim rahat oldu bir barədən o...

“Bəs bu qız hardadır, bu qız hardadır?
Bəs onun yerini kim söyləsin, kim?
Bəlkə çətindədir, bəlkə dardadır,
Bəlkə yetim qalıb ilk məhəbbətim.

Deyin, yaraşırmı bu əzab mənə,
Nə "hə", nə "yox" deyən bir qız ucundan.
Deyin, o vermişmi bir cavab mənə,
Cavab verməsə də sevirəm, inan..."

Əynində yaz paltosu, soyuqdan əsə-əsə,
Mehparə ağır-ağır çıxır pilləkanları
O qalxardı yuxarı həmişə birnəfəsə,
İndi isə elə bil ömrü olubdur yarı.
Başındakı yaylığı tamam sürüşüb onun –
Boynuna düşüb onun.
Saçını çəngə-çəngə dağıdıb töküb külək,
Birçəyinə düzülüb quşbaşı qar ulduztək.
Yanaqları alışır düzlərin laləsitək.
Şəfəq piyaləsitək.
O üşüyür, bu odsa sonsuz əzab odudur –
Bir həyəcan, bir təlaş, bir iztirab odudur.
Oxucum, hər pilləni o qalxdıqca yuxarı,
Elə bil yaxınlaşır dibsiz yarğana sarı.
Gah uzadır əlini, gah da çəkir qapıdan,
Dəmir dəstək, elə bil, qızarmışdır pul kimi,
Öz evinə gəlməkdən, deyin, qorxarmı insan?
Min yol ayaq basdığı astananın önündə
Titrəyərmi qul kimi?
Şübhəli anasını bəs necə aldatsın o?
Qəzəbli atasına necə yalan satsın o?
Axı, özünü sudan quru çıxarsın necə,
Soruşsalar nə desin, haradaydı bu gecə?
Həqiqəti desinmi?
Məharətdən danışıb, ziyafəti desinmi?
Sanki bir yuxu imiş dünən olub-keçənlər,
Onun üzündə təlaş, onun səsində qəhər,
Dodağını dişləyib, açır qapını bu dəm,

Heydəri görən kimi, Mehparənin başına
Fırlanır bütün aləm.
– Ana, Mehparə gəldi, inanmırsız – baxın siz,
Silkələyib Zinəti Heydər səsləyir bu an.
Ana görüb qızını çığırır: – Ay yiyəsiz! –
Hardasan bu vaxtacan?
Balasını önündə salamat görən ana,
Ürəklənir daha da, hirsi dönür tufana.
– Atanmı verdi izn, məndənmi rüsxət aldın,
Danış, bu əziz gündə gedib harada qaldın?
Mehparə anasını qucaqlayır, yalvarır,
İkrahla kənar edir öz övladını ana.
Qız hıçqırır yalvarır, qız ağlayır yalvarır.
Göz yaşları içində belə söyləyir ona:
– Ana, sakit ol, ana, hanı səbrin, hövsələn?
Qoy hər şeyi danışım, başa salım səni mən.
(Heydərin baxışıyla toqquşur baxışları –
Mehparənin bu zaman.)
– Heydər, sən dinlə barı,
Barı sən mənə inan.
Heydər mülayim baxır üzünə Mehparənin,
Qulaq asır, inanır sözünə Mehparənin,
Qız deyir: dünən axşam tez qurtardı dərsimiz,
Ancaq iclasa qaldıq saat on birə qədər
Tənəffüs etməyə də heç macal tapmadıq biz,
Bir-birinə calandı çıxışlar, məruzələr.
Sonra kinoya getdik, zorla apardı Reyhan,
Ha yalvardım getmirəm, anam qalar nigaran,
Dedi: “Bəri gəl, görək,
İclas öldürdü bizi, gedək bir az dincələk”.
(Mehparə min rəng alır: qızarır, saralır o,
Dara çəkilmiş kimi göyərir, qaralır o.
Anasının üzünə baxa bilmir, utanır,

Heydərin qabağında yanır, tüstüsüz yanır.
Lakin danışmalıdır yalanı axıradək,
Yox, yox, o, həqiqəti heç kimə deməyəcək!)
– Qızım, sonra nə oldu, qurtarmadı kino bəs?
Axı səhərə çəkən kino görməyib heç kəs?
İstehza ilə dolu bu hər sual elə bil
Qızın üzünə dəyən şillədir, sual deyil.
– Birdən-birə dəyişdi Reyhanın halı, ana,
Kinonu haram etdi özünə də, mənə də.
Qəflətən xəstələndi. Kömək etməkçin ona,
Neyləyim, rəfiqəmlə birgə oldum yenə də.
Qolundan tuta-tuta evlərinə gətirdim,
Öz yoldaşlıq borcumu mən yerinə yetirdim.
– Yaxşı, hələ de görüm, Reyhan öldü, ya qaldı?
(Bu sual Mehparəni ildırım kimi çaldı.)
– Qızdırmanın içində çapaladı sübhəcən,
Səhər yuxuya gedib sakit oldu birtəhər.
– Onlarda qalmış idin deməli bu gecə sən?
– Bəli, ana!
– Çox gözəl, öyrənib billəm xəbər.
Gözümün qabağından indisə rədd ol çölə,
Gəldiyin yerə qayıt, Reyhangildə qal hələ.
Oğlum, Heydər, sən də get, gecə oyaq qalmısan,
Nə bir mürgü vurmusan, nə də kirpik çalmısan.
Al, bu da plov payın, sən Allah, apar, oğlum,
Keçməz boğazımızdan, ürəyim qopar, oğlum!

Mehparə Heydərlə durub yanaşı,
Söykənib eyvanın məhəccərinə.
Qar yağır yenə də yağır quşbaşı,
Əsir, vıyıldayır xəzri də yenə.

Qızın əynindəki ipək paltarı
Külək az qalır ki, yırta, dağıda.

İsladır saçını qışın son qarı,
Titrəyir, üşüyür əl-ayağı da.

Ah, nə dəhşətlidir ana nifrəti,
Ana soyudanı isitməz aləm. –
Ay kimi, gün kimi bu həqiqəti
Hər adam bilsəydi, bilsəydi nə qəm!

Nimdaş pencəyini çıxarır oğlan,
Söyləyir: al bunu, al, çiyninə at.
Qız geymir, yalvarır, yaxarır oğlan,
– Onda bizə gedək əyləş bir saat.

Göylər, ulu göylər kəsməyir qarı –
Mehparə Heydərlə durub yanaşı;
Papaqsız, örtüksüz bu cavanları –
Seyr elə, necə də ağarıb başı.

## İŞIQ ÇOXALDIQCA KÖLGƏ AZALAR

Nədir üzündəki bu qəm, bu kədər,
Əzizim Heydər?
Elə bilirsən ki, duymamışam mən
Nələr çəkdiyini indiyə kimi?
Eşqin bəlasından, eşqin felindən
Xəbərsiz zənn etmə mənim qəlbimi.
Dəvət olunmamış qonaq kimi sən
Onun görüşünə yenə gəlmisən.
Quş kimi çırpınır qəlbin qəfəsdə,
Gözün saatdadır, qulağın səsdə.
Vaxtdır, zəng olacaq bu saat çölə,
Bayıra çıxacaq qız gülə-gülə,

Səni şirin-şirin dindirəcəkdir,
Ömrünü bahara döndərəcəkdir.
Daha qoymayacaq cavabsız səni,
Daha qoymayacaq o, yalqız səni.
Şirin xəyalların, xoş arzuların
Daha Mehparəni inandıracaq:
Düz əhd-peymanın, doğru ilqarın
Onun ürəyində od yandıracaq.
Nişanlın olacaq bu şəhər qızı,
Dağlar gözləyəcək sonrasa sizi –
Uzaq rayonunuz, ana kəndiniz,
Xoşbəxt olacaqsız bu dünyada siz.
Nə fayda, arzular sərab da olur,
Ömürdə sevinc də, əzab da olur.
Quş kimi çırpınır qəlbin qəfəsdə.
Gözün saatdadır, qulağın səsdə...

Çölə çıxır tələbələr
Kimi cüt-cüt, kimi tək-tək.
Kimi tutqun, kimi gülər,
Al yanaqlar çiçək-çiçək.
Cavanların içində mən
Axtarıram onu yalnız.
Nigaranam Mehparədən,
Hamı ötür, hanı bu qız?
Budur, yavaş addımlarla
O deyilmi susqun gəlir?
Hamıdan tez çıxan bu qız
Lap axırda tutqun gəlir?
Səhv edirəm bəlkə də mən.
Yaxşı seçən gözüm hanı?
Səhv olaydı kaş mən deyən,
Şad görəydim hər insanı.

Mehparə:
“Heydər yenə gəlmiş, aman,
Fağır oğlan, yazıq oğlan.
Heç Məharət indiyətək
Baxmamışdır mənə belə.
Belə qəmli, belə kövrək
Görməmişəm onu hələ”.
Heydər Mehparəni görüb şadlanır,
Sevincdən quş kimi lap qanadlanır.
– Salam, Mehparəcan, axşamın xeyir.
– Salam!
Niyə gəldin yenə söylə bir?
Bilirəm: ürəyin safdır, təmizdir,
Bilirəm: xatirim sənə əzizdir.
Bilirəm hər şeyi, əzizim Heydər.
Sənə hörmətim var yerlə göy qədər.
Sən məndən yüksəksən, ucasan, bəli,
Sənə zərrə qədər layiq deyiləm.
Ürəyim partlayır, ah, neyləməli,
Səni düşündükcə, duyduqca hər dəm.
– Evəmi gedirsən? – Xəbər alır qız.
– Sən hara istəsən ora, əzizim!
Mən ki, yaşayıram səninlə yalnız,
Qəlbinin içində döyünür qəlbim.
– Bilirəm arzunu, niyyətini mən,
Yox, yox, bu barədə danışma nahaq.
Əl çək bu fikirdən, dön bu fikirdən,
Biz qonşu olmuşuq, qonşu da qalaq.

Gedir yavaş-yavaş Mehparə, Heydər.
Sükuta qərq olur ikisi də bu an.
Kölgətək sürünüb lakin bir nəfər
Onların ardınca gəlir bayaqdan.

İzləyir onları xəfiyyə kimi.
– Nə üçün?
Şübhələr sarır qəlbimi.
– Axı, neçin dönüm mən bu fikirdən?
Neçin əridirsən ürəyimi sən?
Qız cavab axtarır, qız cavab gəzir,
Üzündə-gözündə iztirab gəzir...
"Nişanlıyam" desinmi?
Hanı nişan üzüyü? –
Kim olmuş barmağına
Gəlib taxan üzüyü?
"Gəlinəm"mi söyləsin? –
Haçan oldu toyu bəs?
Bu necə toy idi ki,
Xəbər tutmadı heç kəs?
Desinmi ki, "bilmirəm
Nədir sevda, məhəbbət".
Bəs onda necə olsun
O gecə, o ziyafət?!
Ağız dolusu necə
Söyləsin: "Sevgilim var".
Qıfıllayır dilini
Şübhə dolu xəyallar.
– Mehparə!
– Buyurun!
– "Yox" demə mənə.
İnsaf et, qulaq as könlüm deyənə.
– Mənim də qəlbimin səsi var, Heydər!
Sən də onu dinlə, mümkünsə əgər!
O deyir: bu sevda nahaqdır, nahaq.
Biz qonşu olmuşuq, qonşu da qalaq.
Gedirlər yanaşı səssiz-səmirsiz.
Lakin bu kölgəyə fikir verin siz;
Yayınmır onların izindən bir an,

İçinə çəkərək öz nəfəsini,
Dinləyir onların hər kəlməsini.
Bu ki, Məharətdir, oxucum, dayan,
Onların ardınca daban-dabana
Daha da, daha da sür`ətlə gəlir.
Baxın, o, hirsindən az qalır yana,
Qısqanclıq neştəri bağrını dəlir.
Hirslənib əlindən o Mehparənin;
Boğur, boğur onu sonsuz qəzəb, kin.
“Dayan, sancmalıyam, bilə-bilə mən
Miskin rəqibimi lap ürəyindən”.
Gedir, saymazyana gedir Məharət,
Ötür Mehparəylə Heydəri bir az
Onun ürəyində saxta cəsarət
Deyir: “uzaqlaşmaq çox da yaramaz”.
Guya tanımadan iki nəfəri
Məharət geriyə çevrilir, baxır.
Ona sataşantək qızın gözləri.
Elə bil, başında ildırım çaxır.
– Salam, a Mehparə, təbrik edirəm,
Bəs belə, bəs belə – canın sağ olsun!
İndi də bununla gəzirsən? Nə qəm!
Təki yer üzündə kef-damaq olsun!
Köhnə “dost”, səni də tanıyıram mən,
Tamam arxayın ol, söz yoxdur qıza,
Dayanma, lap günü səhərdən evlən,
Uğurlu bir həyat diləRəm sizə.
Bu sözlər Heydərə dəyir güllətək,
Qan vurur beyninə, pörtür sifəti.
Tutub yaxasından silkələyərək,
Dirəyir divara o, Məharəti.
– Bu saat de görüm, nə haqq ilə sən
Yolla gedənləri təhqir edirsən?
– Yolla gedənləri, yolla, ha... ha... ha...

Bu yolu mən çoxdan keçmişəm daha.
Sənsə tazə gedir, tazə gəlirsən,
Hələ Mehparəylə duza gedirsən...
Ha... ha... ha...
Heydərin dözümü tükənir daha;
Gürz boyda yumruğu qalxır havaya,
Çul kimi sərilir Məharət bu an,
Mehparə çığırıb girir araya!
– Heydər, nə edirsən, Heydər, bir dayan!
O isə ölümdən xilas olantək
Tez qaçır, Heydəri hədəyələrək
Qızın gözlərində böyüyür Heydər
Dünyalar qədər.
– Üzr istəyirəm, Mehparə, səndən,
Dözə bilməz idim bu təhqirə mən.
Heydər barmağını dişləyib bu dəm,
Dərin fikrə gedir gözlərində qəm.
Onu bir anlığa aparır xəyal,
Durur qabağında böyük bir sual:
O gecə Mehparə hardaydı görən?
Bəlkə nahaq vurdum bu oğlanı mən?

## BİR ATIM BARIT

Yaxşı yol arzuladı işçilər Məharətə,
Hamıyla əl tutaraq vudalaşdı o tək-tək.
Çünki, dostum bu axşam gedir ezamiyyətə,
Bu səfəri bəlkə də xeyli uzun çəkəcək.

Yox, onun sevincinin görünməyir hüdudu,
Səfər həyəcanından böyükdür bu həyəcan.
Axşam yola düşəcək – lap yerinə düşdü bu,
Mehparədən yayınıb “təmiz” çıxır aradan.

"Bir nöqtə qoymayımmı yenə bu əhvalata,
Qıza xəbər verməyib görüşsüzmü gedim mən?
Bəs o, nigaran qalıb törətməzmi bir xata,
Məni soraqlamazmı? Neçin belə edim mən?!

Yox, mənim ürəyimə damır bu fikir ancaq
Sevən qəlbin inanma olsun belə niyyəti.
O, sadəlövh bir gözəl, saf duyğulu bir uşaq,
Bilirəm, mənə qarşı böyükdür məhəbbəti.
Gözləyəcək o məni ürəyində bir inam,
Əgər ayrı cür etsə, özü olmazmı bədnam?
Mən onun ürəyinə od salmadımmı məgər
O məni gördü yandı, yandı gözündə həsrət".
Könlündə bu duyğular, başında bu fikirlər
Redaksiyadan çıxıb evə gedir Məharət.
Mehparəylə küçədə qarşılaşır o bu dəm.
Qızmar odun üstünə elə bil su tökülür...
Qızın üzündə kölgə, qızın baxışında qəm;
Oğlanınsa gözləri bir istehzayla gülür.

– Salam!
– Salam!
– Necəsən?
– Niyə, sən soruşanı...
– Ay qız, yenə kinayən zəhərləyir dünyanı.
Heç bir həftə keçməyib axırıncı görüşdən.
Mehparə, hafizəni bir az tənbeh eylə sən.
– Məharət, de nə verdi mənə bu görüşlərin?
Əsir oldum əlində xəcalətin, kədərin.
– İstəyirsən sabahdan görüşməyək bir daha,
Nə sən dərdə düçar ol, nə mən batım günaha.
Fikrindən birdəfəlik çıxar məni, sil məni.
İstəsən ürəyində lap get ölmüş bil məni.

Üzünü Mehparədən döndərib yana oğlan,
İstəyir söz-söhbətsiz ayrılıb gedə ondan.
Nə bir “sağ ol” kəlməsi qopub gələ dilindən.
Nə son dəfə yapışa qızın titrək əlindən.
– Məharət, dayan bir az!
Sonra yenə gedərsən, yolunu kəsən olmaz.
Mənə nələr deyirdin ilk məhəbbət adından;
Odlu-alovlu sözlər nə tez çıxdı yadından?
Susdu qız, susdu oğlan,
Gözlər gözlərə baxdı.
Elə bil ki, indi də gözlər danışacaqdı –
Riya dolu bir qəlbin qara xəyanətindən
Sevda dolu bir qəlbin yara məhəbbətindən.
– Mehparə, daha bəsdir.
Bu söhbətlər əbəsdir!
– Eh Məharət, Məharət!
Bir atım barıt imiş səndəki bu məhəbbət,
Onun ani alovu məni kor etdi, heyhat!
Görünür, hər insanın üzünə gülmür həyat.

## XAİN XOFLU OLAR, OĞRU ŞÜBHƏLİ

Asiman röyada, düzlər röyada;
Göz-gözü görməyir – gecə tən yarı.
Qızıl böcəklərtək uçur havada
Qızmar paravozun qığılcımları.

Fəqət yatmamışdır Məharət hələ,
Kupenin içində özü də təkdir.
Gözünü yummayır bircə an belə,
Gecəni yuxusuz keçirəcəkdir!

Açıq pəncərədən dolur içəri
Yorğun təkərlərin yeknəsəq səsi.
Sərin yel əssə də bayaqdan bəri,
Elə bil tutulur onun nəfəsi.

Açır qovluğunu onuncu kərə,
Bir daha oxuyur həmin məktubu.
Baxır gözə girən iti sözlərə, –
Rayonun mərkəzə siqnalıdır bu.

Bu məktub deyir ki: dükançı İmran
Hər həftə bir qızı aldadır, atır
Utanıb çəkinmir eldən obadan.
Gördüyün çağırır, bildiyin çalır.

Bir gün ilim-ilim itirrik onu;
Redaktor, boğaza gəlmiş canımız!
Əkərik, təzədən bitirrik onu –
Gəlməsə hökmünüz, sərəncamınız...”

Onsuz da dar kupe ona dar gəlir,
Məharət boğulur qəfəs içində.
Pörtmüş üz-gözünə soyuq tər gəlir,
Özünü hiss edir məhbəs içində.

Məktubun küncündə bir haşiyə var,
“Məharət, tez bunu təhqiq ediniz!”
Gözünə dəydikcə həmin dərkənar
Qabarır başının tükləri biz-biz...

“Mən hara gedirəm, Məharət, hara,
Kimdən yazacağam bu felyetonu?
Düşdümmü tələyə, düşdümmü tora? –
Daha bitəcəkmi hər şeyin sonu?

Özüm deyiləmmi dükançı İmran!
Özüm də başıma güllə çaxımmı?
Öz əməllərimi çıxarıb yaddan,
Gedib özgəsinə qara yaxımmı?

Qəsdənmi göndərdi məni bu işə
Hər şeyi yaxşıca bilən redaktor?
Qəsdənmi göndərdi məni bu işə
Arxamca hirsindən gülən redaktor".

(Yox, səni sınamır bir kimsə qəsdən,
Xain xoflu olar, oğru şübhəli.
Bu bir təsadüfdür – rast gəlmisən sən,
Vurnux səksəkəli, qal səksəkəli!

Yox, səni tanımır redaktor hələ,
Zahirin görkəmli, qələmin rəvan.
Qəlbinə düşməsin çox da vəlvələ,
Təkcə mən bələdəm sənə yaxından.)

Açıq pəncərədən dolur içəri
Yorğun təkərlərin yeknəsəq səsi.
Sərin yel əssə də bayaqdan bəri,
Elə bil tutulur onun nəfəsi.

O baxır naxışlı mavi divara,
Gözünə dükançı İmran görünür.
İmran iblisvari soruşur "hara?"
Divarda əcayib kölgə sürünür.

Kölgə ona sarı yeriyir bu dəm,
Əlləri bənzəyir qorxunc caynağa.
Məharət diksinmiş, Məharət sərsəm,
Kupedən atılıb, çıxır qırağa.

“Sən həqiqət deyil, boş bir xəyalsan,
Bəs niyə diksindim uşaq kimi mən?
Ötəri kölgəsən – soyuqsan, lalsan,
Bəs niyə diksindim qorxaq kimi mən?..

Yox, sən yaşayırsan, dükançı İmran,
Sənin də mənimtək otuz yaşın var.
Rayonunuz filan, küçəniz filan,
Sənin də mənimtək çox “sirdaşın” var.

Görünür, nöqsan yox sir-sifətində,
Yaxşıdır geyimin, şirindir dilin.
Məndən az deyildir məharətin də,
Ömründə neçə əl sıxmışdır əlin.

Bax indi uyuyur bu el, bu ölkə,
Sən də uyuyursan öz yatağında.
Halal xoşun olsun – deyirəm bəlkə
Bir ürkək ceyran da var qucağında.

Sinən qalxır, enir hey aram-aram,
Yat, yat, yox heç nədən xəbərin sənin.
Mənsə öz yuxuma qatmışam haram
Ki, uğursuz olsun səhərin sənin.

Rüsvay edəcəkdir cahanda səni
Mənim felyetonum, mənim qələmim.
Barmaqla göstərib hər yanda səni –
Səssiz ötməyəcək yanından heç kim.

Yox, əlacım nədir, mən yazım gərək,
Bu təzə bir şöhrət gətirər mənə.
Deyərlər düz adam yoxdur mənimtək,
Neyləyim, yaxındır köynək bədənə”.

## ETİRAF

Mehparənin gündən-günə çöhrəsi soldu,
Soldu payız günəşinin şəfəqləritək.
Bir an fikrə gedən kimi gözləri doldu,
Öz-özünə nifrət etdi qəhərlənərək.
O, zor ilə məşğul oldu dərslə, kitabla,
İmtahana hazırlaşdı böyük əzabla.
Oxusa da bir cümləni on dəfə bəzən,
Pərişandı, tez çıxırdı onun fikrindən.
Bir nöqtədə dayanmadı xəyalı onun –
Çoxaldıqca iztirabı, məlalı onun.
Qız əridi gilə-gilə göz qabağında
Gənc ömrünün çiçəklənən bahar çağında.
Onu rahat buraxmadı bir saat, bir an
Anasına, atasına satdığı yalan,
Onu rahat buraxmadı müdhiş fikirlər,
Onu rahat buraxmadı Məharət, Heydər...
Onu rahat buraxmadı qara bir ləkə,
Buraxmadı, ürək gərək bu dərdi çəkə...
Ana qəlbi tab emədi artıq bu hala,
Təkid etdi: de, nə olmuş sənə, ay bala?!
Qız dərdini anasına danışar axı,
Öz dərdini anasına danışar axı.
Sən də danış, sən də dillən, başına dönüm,
Qadan-balan mənə gəlsin, ay ömrüm-günüm!
Qucaqladı anasını Mehparə bu an,
Qəhərlənib boğularaq göz yaşlarından,
Hər bir şeyi acı-acı etiraf edir. –
Sifətini əllərilə örtərək gedir.
Səndələyib üzüqoylu düşür yatağa,
Ana baxır... qanad gərir sükut otağa...

## DƏHŞƏTLİ FİKİR

İyun axşamıdır... sərin bir axşam,
Nura qərq olmuşdur şəhərim mənim.
Cilvələnir asta, səslənir aram
Üstündən meh əsən Xəzərim mənim.

İyun axşamıdır... gözəl bir axşam,
Bakı işdən sonra dincəlir yenə.
Evdə oturmağı istəmir adam,
Ürəklər tələsir axşam seyrinə.

Görüşə can atır görüş verənlər,
Kinoya yollanır bilet alanlar.
Nə bilim, saymaqla qurtarar məgər?–
Hər evdən çıxanın bir məqsədi var.

Buludsuz səmada bədirlənib Ay,
Sayrışır, göz vurur qədərsiz ulduz.
Nə qədər gəlməyib od nəfəsli yay –
Mülayim günləri tutmayaq ucuz.

Yoxuşa dirənən Park küçəsindən,
İndi ayaq səsi kəsilmir bir an.
Gənclər – ürəyi şən, gənclər – qəlbi şən,
Dağüstü parkına gedir bayaqdan.

Bağçalar səslənir, bağlar səslənir,
Rəqs meydanları dolur anbaan.
Bütün ürəklərdə bahar səslənir. –
Evdə oturmağa darıxır insan.

Lakin adam da var – bu şənlik, büsat
Onun aləmində bir heçə dönmüş.

Bu Ay, bu ulduzlar, bu qaynar həyat
Onun gözlərində qaralıb sönmüş.

Döyünən bir qəlbin neçə sirri var,
Səbəbsiz gülənə sarsaq deyərlər!
Əbəs dəyişməyir hisslər, duyğular,
Yersiz ağlayana uşaq deyərlər!

Mehparə eyvanda dayanmışdır tək.
Əlləri qoynunda şəhərə baxır.
Xəyala qərq olub, fikrə gedərək,
Sahili çıraqban Xəzərə baxır.

Qara bir məxmərə oxşayır dəniz,
Fanarlı qayıqlar ötür dalbadal.
Qız baxır uzaqdan səssiz-səmirsiz,
Baxır gözündə yaş, üzündə məlal.

Şirin bir xatirə düşür yadına:
“Qayıqda əyləşib Məharətlə o,
Sevda almış onu öz qanadına,
Baxır Məharətə məhəbbətlə o.

Baxıb, gülümsəyir gözlərə gözlər,
Qayıq yırğalanır, dəniz çalxanır.
Arabir toxunur üzlərə üzlər,
Dodaqlar quruyur, yanaqlar yanır.

İncə nəvazişlər, şirin vədələr
Hər sözün başında bir “gülüm”, bir “can...”
Qız baxır dənizə üzündə kədər,
Həmin xatirəni anır bayaqdan.

Birdən acı-acı gülür Mehparə,
Deyir xoş günləri salıram yada.
Ömrün şən çağları bir an, bir kərə
Adamın yadından çıxmır dünyada.

Hardadır Məharət, hanı Məharət?
Ona neçin daha rast gəlmirəm mən.
Bilmir ki, yoluna qalmışam həsrət?
Gəlsin qoşa çıxaq gəzməyə evdən.

Gəlsin, qoşa çıxaq, qiyamət olar?
Bizi yaxşı-yaxşı tanısın şəhər.
Küsmüşük, barışdıq – burada nə var;
Arsızın buynuzu olurmu məgər?!

Cavanlar, qocalar, yoldan ötənlər
Qoy məni barmaqla göstərsin müdam.
Qoy qəhqəhə çəksin üstümə Heydər,
Alsın intiqam.

Heydər, əziz Heydər, mehriban Heydər, –
Qəlbinin səsinə lal-kar kəsildim.
Bu çıxmaz yadımdan heç zaman, Heydər,
Özümə, həm sənə əğyar kəsildim.

Bağışla, bağışla məni, əzizim,
Yoxsa məhəbbətin sönübdür daha.
Burax, qoy əzabsız dolanım-gəzim,
Yoxsa... yoxsa üzün dönübdür daha.

Bax, bu ağzı bağlı ətir şüşəsi,
İlk və son hədiyyən olmuşdur mənə.

Qoymaram azalsın bircə qətrəsi,
Durur, o sayaq da duracaq yenə.

Köçdün bu həyətdən yataqxanaya,
İndi mənzilində özgəsi qalır.
Ora hər baxanda səni anıram,
Xatirən könlümü əzaba salır.

Bizə az gəlirsən, seyrək gəlirsən –
Məndən ümidini üzəndən bəri.
Bizə az gəlirsən, tək-tək gəlirsən,
Gəl dağıt başımdan bəd fikirləri.

Səndən gen gəzmərəm indən belə mən,
Gəl qoşa qarıyaq, gəl qoşa ölək.
Vurulaq təzədən, sevək təzədən,
Gəl, gəl dünyaya da təzədən gələk.
Yox, yaxın qoymaram mən səni bir dəm,
Mən belə... sən isə təmiz bir oğlan!
Görünür qismətim bu imiş, nə qəm,
Dünyada bəxtiyar olmur hər insan.

Yaxşı yadımdadır – üç-dörd il əvvəl
Odladı özünü qonşumuz Əsmər.
Camaat tökülüb gəldi əlbəəl,
Palazla söndürdü qızı birtəhər.

Ölsəydi eybini örtərdi torpaq –
Heyf ki, gəlmədi o da əlindən.
Sağ qalıb dillərdə söz-söhbət olmaq!..
Belə ağılsızlıq eyləmərəm mən.

Mən belə etmərəm, eyibdir, eyib,
Nə üçün haraya axışsın dam-daş;

Bircə xəlvət otaq, bircə qulac ip, –
Qaral yavaş-yavaş, sön yavaş-yavaş".

Bu dəhşətli fikir qızın başından
Keçdi elektrik cərəyanıtək.
Kim onun üzünə baxsaydı bu an
"Mehparə boğulur" – deyərdi gerçək.

Payız səmasıtək rəngi qaralır,
Necə də böyüyür qara gözləri.
Elə bil doğrudan əl-ayaq çalır
Qız dar ağacında bayaqdan bəri.

İstəyir ucadan "ana" çağıra,
Fəqət xırıltıya çevrilir səsi.
İstəyir dartınıb "kəndiri" qıra,
(Peşiman olmuşdur) çatmır qüvvəsi!

Mahnı səsi gəlir, parkdan, dənizdən.
Min ürək oxuyur, min ürək çalır.
Ancaq bircə ürək deyil gülər, şən,
Min ulduz sayrışır, biri saralır.

## ANA TƏSƏLLƏSİ

Qız on gün qızdırma içində yandı.
Ölüm təhlükəsi çökdü üstünə.
Lakin ağır böhran keçdi dolandı;
O, şəfa taparaq sağaldı yenə.

Hər çovutma güllə dəyməz adama,
Hər yolçu yol azmaz dumanda, çəndə.

Qəm-qüssə çevrildi toya, bayrama –
Mehparə yatağı tərk eyləyəndə.
Sevincdən titrədi ananın səsi,
Dedi: – Azar səndən qoy uzaq olsun!
Solub saralmışdı qızın çöhrəsi,
Təsəllim qəlbinə bir dayaq olsun!
Yarpaq da saralır, yarpaq da solur –
Budaq saf olanda – bunun eybi yox,
Yenə yaz gələndə yamyaşıl olur.
Qızım, bu barədə xiffət etmə çox.
– Bəs budaq zədəli olsa, anacan,
Bəs onda nə əlac, onda nə çarə?
Gərək bıçağını çıxarıb bağban
Kəssin o budağı, tullasın yerə.
– Bu düzdür. Ay bala, ancaq de mənə,
Zədəli budağın sənə dəxli nə?
Ana – həssas ana, səbirli ana,
Ana – arif ana, tədbirli ana
Olub-keçənlərdən xəbərsiz kimi,
Özünü o yola qoymadı bu an;
Közü qoparmadı köhnə yaradan.
– Qızım, keç eyvana, dəniz havası
Ürəyini açar, eynini açar.
– İstəməz, ay ana.
– Niyə balası?
– Eyvanda nə var?
“Mənəmi yaraşar eyvana çıxmaq
Alnıaçıq kimi, bəxtəvər kimi.
Deyiləm ağılsız, deyiləm uşaq,
Heç nə təskin etməz daha qəlbimi.
Torpaqdan savayı nəyə gərəyəm”.
Ana yaxşı duyur qızın ruhunu –
Üzündə iztirab, gözlərində qəm

Titrək nəzərlərlə seyr edir onu...
Sən bizim canımız-ciyərimizsən –
Qızımız da sənsən, oğlumuz da sən.
Ayımız, günümüz, ülkərimizsən. –
Sənə göz dikmişik həm atan, həm mən.
Ali məktəbini – gün o gün olsun.
Qızım, yaxşı-yaxşı vurasan başa.
Əsl həyatına, güzəranına
Biz də iftixarla edək tamaşa.
Ana təsəllisi səhər yelitək
Qızın kədərini qovur, aparır.
Sükuta qərq olur o dinləyərək,
Qəlbini şəfəqli bir ümid sarır.
Bu ümid əks edir gözündə qızın,
Düşünür: "Gərəksiz deyiləm, demək,
Anam söyləmişkən, o vicdansızın
Qurbanı olummu bir ağılsıztək?"
Oxucum, bəlkə də inanmadın sən
Onun bu fikrinə, bu qərarına.
Mehparə nə tez də dəyişdi birdən,
Son qoydu kədərli duyğularına?
Axı o, dünyadan əl üzmüşdü, əl.
Sönmüşdü qəlbində həyat həvəsi,
Yenə də ruhunda yandırdı məş`əl –
Ana təsəllisi, ana nəfəsi.
Mehparə yeridi eyvana sarı
Qapını açaraq həyətə keçdi.
Seyr etdi dənizi, ağ buludları,
Səhər havasını su kimi içdi.
Narın yel saçında gəzdirdi daraq,
Üfüq yanağına qızartı saldı.
Təzə arzularla qanadlanaraq,
Mehparə şirin bir xəyala daldı.

Qəmgin romanına nöqtə qoydu qız.
Yaşarmadı gözü, əsmədi əli.
Özündə təzə bir inam duydu qız,
O bu inamla da baxdı irəli.

## BİR DƏSTƏ GÜL

Bu gün Mehparə də tezdən oyandı;
Getdi instituta zəngdən də qabaq.
Özünü necə də bəxtiyar sandı,
Getdi sevinərək, qanadlanaraq,
İlk görüş, ilk salam, ilk mühazirə,
İlk zəng, ilk tənəffüs, ilk söz, ilk söhbət...
Yenə də yığıldı dostlar bir yerə,
Ayrılıq ayları ötdü nəhayət.
Küsülülər belə, barışdı bu gün,
Hamı gəzdi qoşa, dolandı qoşa.
Təəssüf etdilər: axı nə üçün
Birinci dərsimiz tez çatdı başa?
Çıxıb bir tərəfə dağıldı hərə,
Hər kəs bir döngədə yox oldu gözdən.
Yenə evlərinə gəldi Mehparə,
Gəldi həyəcanlı, gəldi qəlbi şən.
Elə bil hiss etdi evə çatantək
Kimsə, kimsə ona müjdə verəcək;
O, sövgi-təbii buna inandı.
Gizli bir həsrətlə ürəyi yandı,
Kimdən ola bilər bu müjdə fəqət,
Varmı maraqlanan onunla məgər? –
Artıq son sözünü demiş Məharət...
Cavabsız eşqindən əl üzmüş Heydər...
(Nədir ürəyindən qopub gələn səs;
Sən ki, romanını çoxdan bağladın.

Niyə yad edirsən onları əbəs?
Onsuz da, əzizim, sən çox ağladın.
Olub keçənləri təzədən anmaq,
Təzədən kövrəlmək, təzədən yanmaq;
Yox, yox, gərək deyil, ay Mehparə, sən
Axı gülə-gülə dərsdən gəlirsən.
Axı söz vermişdin özünə, daha –
Qəlbin həmdən olmaz amana, aha!)
– Qızım, gəlib çıxdın?
– Bəli, anacan!
– Elə qapıdaydı gözüm bayaqdan.
De görüm, nə sayaq keçdi dərsiniz?
– Lap yaxşı, lap gözəl, heç bilmədik biz
Necə gəldi-getdi bu səkkiz saat.
Şadlıqdan açmışdı hamı qol-qanad
Sualın-cavabın yox idi sonu.
O bunu dindirir , bu isə onu –
Söhbəti kəsmirdi dərsdə də bəzən,
Hamı söz açırdı yay tətilindən;
Mən isə ancaq
Bu sorğu-sualdan qaçırdım uzaq...
Burda bir anlığa susdu Mehparə,
Susdu gözlərini dikərək yerə.
Bu ani sükutdan ana da çaşdı.
– Atam gəlməyib ki?
– Gəlməyib hələ.
Birdən Mehparənin gözü sataşdı
Stolun üstündə bir dəstə gülə.
Qəzetə bükülmüş bu əlvan dəmət
Saçmışdı otağa ətir, təravət.
Qız sordu bu an:
– Gülü kim gətirmiş bizə, anacan?
– Heç kim. Mən almışam, bəyənməyirsən?

Ana baxdı qıza gülümsəyərək.
– İnana bilmirəm, düzünü de sən,
Mağaza çiçəyi deyil bu çiçək.
– Düzünü deyimmi?
– Sən Allah, ana!
– Heydər gətirmişdir bu gülü sənə.
– Heydər gətirmişdir?
– Bəli, Mehparə!
Təəccüb eyləmə sən nahaq yerə.
– O ki bu həyətdən çoxdandır, gedib.
Heç mənim əqlimə gəlməzdi belə...
Nə əcəb bizləri yenə yad edib?..
Qız baxır stolun üstündə gülə...
Sanki yuxu görür, şirin bir yuxu.
Yox, yox həqiqətdir, yuxu deyil bu.
– Axı niyə gəlib buraya Heydər?
Onun bu ünvanda kimi var məgər?
– Gələni qapıdan qovmazlar, qızım.
Axı bir qayda var, adət var, qızım,
Elə sən çıxınca girdi içəri,
Duydum səni gəzir onun gözləri,
Səni axtarırdı.
– Mənimi?
– Bəli!
Qız gülür.
– Nə var ki, burda gülməli?
– Mən onun nəyinə lazımam, ana?
– Qızım, bu sualı özün ver ona.
Səni xəbər aldı evə girəntək.
Dedim ki, dərsdədir, axşam gələcək.
Dedim görükmürsən bəs niyə çoxdan?
– İndicə gəlmişəm – dedi– rayondan.
Onun yel-havadan yanmışdı üzü,

Hələ üstündəydi yolların tozu...
Dağdan gətirmişdir bu gülü sənə,
Di yaxına gedib bir iyləsənə,
Mehparə götürür bu dəm çiçəyi
Bütün varlığını bir sevinc sarır.
Vurur, həyəcanla vurur ürəyi,
Özü hiss etmədən gözü yaşarır.
Mehparə ağlamır, ağlamır ancaq,
Ona belə deyir qəlbinin səsi:
– Yox, yox! Solmayacaq, saralmayacaq
Sənin əlindəki bu gül dəstəsi.

*1954-1957*

# DOSTLAR

*(poema)*

Peterburq şəhəri. Bahar axşamı,
Şimal günəşinin solur camalı.
Axşamlar şəhərin bu ehtişamı
Uçurur göylərə fikri, xəyalı.

Neva sakit-sakit baş alıb gedir,
Sanki çəpik çalır xırda ləpələr.
Tunc atlı sahildən yenə seyr edir,
Görür "Avrora"nı alnında zəfər.

Neva prospekti... Sahil küçəsi...
Hava qaralınca çıraqlar yanır.
Kilsə zənglərinin yeknəsəq səsi.
Yenə eşidilir. Bu an dayanır
Bir qoca dilənçi öz əsasına
Xaç vurub başlayır tez duasına...

İti addımlarla gedir bir nəfər
Geniş prospektlə, gedir irəli.
O bir rus gəncidir, məğrur, hünərvər,
Üzündə oxunur qəlbi, əməli.
Bəs o hardan gəlir bu axşam çağı?
Vətənsevərlərin yığıncağından.
Gizli çağırılmış bu yığıncağı
Hələ çıxarmamış yaddan o cavan.
O getmiş oraya könlündə maraq,
Görüşmüş vətənin övladlarıyla.

Onun da xəyalı qanadlanaraq
Qovuşmuş yurdunun ilk baharıyla.
Orda el fikrinin, el sənətinin
Görmüş vicdanını, görmüş qəlbini.
Böyük rus xalqına saf məhəbbətin
Görmüş timsalını – Belinskini.

Görmüş: o, ümidlə baxır irəli
Ayların, illərin qaranlığından.
Deyir: "Min doqquz yüz qırxıncı ili,
Xoşbəxtdir Rusiyada keçirən insan!.."

Prospekt boyunca gedən o cavan
Deyir öz-özünə, deyir astadan:
"Deyirlər parlaqdır bizim gələcək,
Dünyaya Rusiyadan işıq düşəcək!.."

– Axşamınız xeyir!
– Sizinlə belə!..
– Hardan gəlirsiniz?
– Kitabxanadan.
Dedim ki, qoy bir az çıxım sahilə,
Çağlayan Nevanı seyr eləyim mən
– Dostum! Sözləriniz şairanədir.
Yaxşı, oxuduğun, bir söylə, nədir?
Görürəm, gözlərin qızarıb tamam,
De, hansı kitabdan almısan ilham?
"Kapitan qızı"nı oxudum bu gün,
Alışdı könlümdə əsarətə kin!
İgid Puqaçovu, o mərd kazakı,
Sevdim varlığımla. O doyub cana,
Kəndlini, muzduru, bir də burlakı
Üsyana qaldırmış, bəli, üsyana!

Bir ordu yaratmış yoxsul kəndlidən,
Onunla fəxr etsin anamız vətən!

Puşkin sənətinin geniş aləmi,
Əvəzsiz ilhamı, mahir qələmi
Yaratmış nə qədər canlı lövhələr!
De, kim xatirindən onları silər?–
Sahil küçəsilə gedir durmadan
İki gülərüzlü, vüqarlı cavan.

Neva prospekti... göz işlədikcə
İnsan dalğasıdır baxsan hər yana.
Bəzən də yollanıb buradan gecə
Kimi bala gedir, kimi şantana.

Zərif tül pərdəli pəncərələrdən
Yayılır ətrafa gülüş, qəhqəhə.
Sağlıq səsləri də eşidirəm mən
Hardasa dəydikcə qədəh-qədəhə.

Neva prospekti... Məğrur ağalar,
Ədalı xanımlar keçir tələsik.
Qoca dilənçisə könlündə qubar
Əl açıb dilənir hey kəsik-kəsik.
Kareta sürənin "xəbərdar" sözü
Pənahsız qocanı çaşdırır bu dəm.
Zülmət gecə kimi qaralır üzü,
Ulduztək parlayır gözlərində nəm.
Neva prospekti... girib qol-qola
Budur, iki nəfər tələsir bala.
– Yubandıq bu axşam deyəsən bir az
Dəvət aldığımız böyük məclisə.
Yəqin rəqs başlanıb. Məncə yaraşmaz
Gecikmək bizə.

– Tələsmə, əziz Natalya!
Onsuz da, onsuz da bezdirmiş məni
Bu dəvətnamələr... O qocaya bax!
Yəqin dilənçidir. Qoca, al!
– Səni,
Allah hifz eyləsin, o böyük Allah!..
“Gözüm də seçməyir, bu pul nə puldur?
Cənab əta etdi, bəlkə qızıldır,
Ağadan qızıl pul? Bu nə səxavət?!
Görünür sərxoşdur, səhv edib əlbət”.
Baxır pul verənin sonra dalınca
Tanıyıb Puşkini söyləyir qoca:
– Yox, o nə səhv etmiş... nə də ki, içmiş,
Onun şair qəlbi genişdir, geniş!
O qızıl, Puşkinin səxavətidir,
Onun yoxsullara məhəbbətidir.
Bəlkə pulsuz qalıb bu gecə özü,
Dedi: “İşıqlansın qocanın gözü”.

***

Neva prospekti... Böyük bir saray,
Lakeylər dayanmış müt`i, müntəzir.
Onlar qapıları açır taybatay,
Qonaqlar saraya girir birbəbir.
Salon dəbdəbəli, salon bəzəkli,
Şəfəqlər süzülür avizələrdən.
Yaxası qaş-daşlı, əli çiçəkli,
İşvəli xanımlar gülüşür hərdən.

– Rəqs başlanmayıb deyəsən hələ,
Gəl, gəzək salonu bir az, əzizim!
Gəl, gəl, Aleksandr! Baxaq o şəklə,
Neçin pərişansan?

– Sıxılır qəlbim...
Bəli o sıxılır. Onun varlığı
Kübar cəmiyyətdə çəkilir dara.
Sönür gözlərində bəxtiyarlığı
Gəlincə, çırağban dar salonlara.
O bilir: parlayan hər üzük qaşı
Volqa burlakının tər damlasıdır.
Burda hər xanımın yaltaq oynaşı
Milyon təhkimçinin bir ağasıdır.

Onlar bir tablonun seyrinə dalır,
Rəfael sənəti... Müqəddəs Ana,
Bir yanda İuda çarmıxa çalır,
İşgəncələr verir xristiana.
Musiqi çalınır, dillənir royal,
Bəzən gitaralar inləyib ötür.
– Rəqs edək, əzizim! Başlanıbdır bal.
Onlar qoşa-qoşa rəqs edir, ötür...
Olqa rəqs eləyir, (ona bax bir an!)
Qızıl epoletli bir cənab ilə.
– Olqa? Qayıtmışmı de, Varşavadan? –
Deyə təəccüblə o gəlir dilə.
– Onunla rəqs edən bəs kimdir görən?
Rusiyada elə şəxs görməmişəm mən.
– Şərqlidir. Görünür belə məclisə
İlk dəfə deyildir gəldiyi onun.
Gözəl rəqs eləyir. Söyləyər bizə
Olqa, barəsində bu Şərq oğlunun.

Kiçik bir fasilə... hamı dincəlir,
Oyun ara verir, musiqi susur;
Görüb qardaşını salama gəlir
Olqa zər poqonlu cənabla, budur ,
Əl-ələ tutuşub onlar görüşür.

Bacı-qardaşın da var öz ülfəti,
Ortaya incə bir zarafat düşür.
– Bacının tapılmış yəqin qisməti, –
Deyə Nataliya gülərək bu an
Mehriban ərinə deyir astadan.
– Əlbət, Varşavada dost olub onlar –
Duyub bu sözləri Olqa qızarır.
Şərqlinin çiynində zərli poqonlar
Yandıqca ətrafı parıltı sarır.
– Gəlin, tanış olun!
İki millətin
Övladı əl tutur: Puşkinlə Qüdsi
Burada dostlaşır, həmin ülfətin
İndi də oxunur ölməz nəğməsi.
Olqa qardaşına söyləyir bir-bir
Onlar görüşmüşlər ilk dəfə harda.
Deyir: "O, alimdir, həm də ki, şair,
Doğulub boy atmış Odlu diyarda.

Varşava şəhrində biz görüşürkən
Biri-birimizin sıxdıq əlini.
Dedi: – "Bir arzum var, heç olmasa mən
Görəydim, görəydim böyük Puşkini..."

Dedim: "Rusiyaya gedək bərabər,
Orda, evimizdə, görərsən onu".
Bu sözdən arzusu açdı çiçəklər,
Pərvazlanan gördüm onun ruhunu.

Görüşüb ilk dəfə danışanda biz,
Dedim: – "Qüdsi sözü nədir, de görək?!
Dedi: Qüdsi "pakdır, təmizdir, təmiz".
Doğrudan təmizdir ondakı ürək!

O təqdim etdikcə müsahibini
Tükənmək bilməyir şirin sözləri.
Gah Qüdsiyə baxır, gah da Puşkini
Süzür məhəbbətlə mavi gözləri.

Elə bil bu sözlər sıxır Qüdsini.
Qardaşın kiçiyi utancaq olar.
Önündə görüncə böyük Puşkini
Xalqının adından edir iftixar.

– Mən xeyli məmnunam, sizinlə burda
İndi görüşməkdən, əzizim, inan.
Böyük Rusiyaya, bu doğma yurda
Siz xoş gəlmişsiniz uzaq diyardan!
Qafqaz! O əsrarlı, sevimli diyar
Vətənim kimidir, mənə yad deyil.
O gözəl yerlərin mən neçə bahar
Qonağı olmuşam, bilin, neçə il!..

Gözəl təbiəti, suyu, havası,
Zirvəsi çalmalı uca dağları,
Yaşıl çəmənləri, zövqü-səfası,
Qorxunc qayaları, gur bulaqları
İlhama gətirmiş mənim qəlbimi,
Sevirəm oranı mən sizin kimi.
Qafqaz ellərində yaşayanların
Süfrəsi açıqdır, ürəyi gendir,
Qonağın, yoldaşın, vəfalı yarın
Yolunda mərdliklə candan keçəndir!
Lakin əsarətin qanlı pəncəsi
Batırır orda da “haqq” deyən səsi.
Gizli pıçıltılar gəzir salonda,
Baxışlar rişxəndlə onları süzür.

Qüdsini göstərib kimsə bu anda:
"Tatar, tatar!" deyə ağzını büzür,
Bu sözlər qəlbinə böyük şairin
Toxunur... köksünü ötürür dərin.

– Baxınız, bunlardır "kübar cəmiyyət",
Bunlardır ağacı kökündən yeyən!
Bunlarda nə qəlb var, nə də məhəbbət!
Bunlardır sizlərə "tatarin" deyən.
Hər xalqa bir cürə damğa vuraraq,
Dostluq tellərini çəkib qıraraq
Birinə "ağ" deyən, birinə qara!..
Kübar cəmiyyətdir, baxın onlara!..

Yenə rəqs başlanır, fleyta ötür,
Quştək qalxır enir musiqi hərdən.
Külək xanımların saçını öpür
Salona girdikcə pəncərələrdən.

Saat biri vurur... Sona çatır bal,
Atlar çəkib gedir karetaları.
Neva sahilində yoxdur həsbihal.
Prospekt kimsəsiz, gecə tən yarı...

Şairin mənzili... Aydın bir səhər...
Dostlar əyləşibdir masa dalında.
Natalya çay süzür, üzü gülümsər.
Onun bu mehriban, gül camalında
İkinci bir səhər açılır, gülür.
Ala gözlərindən şəfəq süzülür.
Ah!.. Onun bu hüsnü bənzərkən Aya
Az qara etməmiş ruzigarını...
Az düçar etməmiş dərdə, bəlaya
Böyük bir ölkənin sənətkarını.

Qüdsi təvazölə gələrək dilə,
Sənətkar dostuna söyləyir belə.
– Sizin hər şe`riniz, hər kəlamınız,
Ustad qələminiz, rəvan təbiniz
Dillərdə dolaşan böyük namınız
Xalqımçın, mənimçin, əzizdir, əziz!
Gecələr sübhədək oyaq qaldığı
Bir rus anasının layla çaldığı
Bu şirin lisanı ilk gəncliyimdən
Bir məktəb görmədən öyrənmişəm mən.

Mən Qafqaz oğluyam, yurdum Gündoğan,
Sən gəldin dünyaya soyuq Şimaldan.
İsindirdi səni böyük millətin,
Yaxşı dərk edirəm, bilirəm bunu.
Xalqın yaxşı duyur nə olduğunu
Sənin şe`rindəki böyük niyyətin.
Dostum, o niyyətin böyük məramı
Günəşli, gündüzlü, aydın səhərdir.
Böyük rus xalqının arzusu, kamı
Əsarətə qarşı qəti zəfərdir.
Sənin gür səsini qarlı Sibirdən
Onlar yaxşı duyur, yaxşı eşidir.
Onlar gözü bağlı nadan deyildir.
Şərəfli, namuslu dekabristləri
Üsyana qaldıran əş`arınızdır.
Dostum! Mən bilirəm əzəldən bəri
Azadlıq, səadət şüarınızdır!
Bir rus mujikinin uçuq daxması,
Qabarlı əlləri, bükülmüş beli,
Günəşsiz, ulduzsuz tutqun səması,
Tapdalanmış haqqı, kəsilmiş dili –
Coşdurmuş kinini zülmə, zillətə,
Lənət yağdırmısan mütləqiyyətə!

Xatiri yanında hamıdan əziz
Böyük millətinin mərd oğulları
Səsinə səs verib, o cəllad çarı
İstəmiş yer ilə yeksan eyləsin,
Zülmə, istibdada üsyan eyləsin.
Lakin dondurucu bir səhər çağı
Quruldu cərgəylə beş dar ağacı.
Şəhid oğullarçün vətən torpağı
Yas tutub ağladı hey acı-acı.
Yox, yox, nə söylədim, yanılıram mən.
Rusiya yas tutdusa, heç ağlamadı.
Onların edamı tamam kökündən
Titrətdi sarayı, qanlı cəlladı.
Rus xalqı "intiqam, intiqam!" deyə
Zülmün yuvasını saldı lərzəyə.
Yenə sən özünü xoşbəxt san, ey dost!
Çünki vətənində duyan var səni,
Yüksəl səmalara, qanadlan, ey dost!
Ucalt haqq səsini, yarat nəğməni!
Dostum, öz elimdə mən arxasızam,
Yoxdur bir həmdəmim, təkəm, yalqızam,
Hər yanda zülm var, hər yanda zillət,
Hər yanda haqsızlıq, korluq, cəhalət...
Sizdə azad fikir, böyük şüur var,
Mən səcdə edirəm ona hörmətlə.
Vətənin ümidi olan cavanlar
Gəlir arxanızca bir cəsarətlə.
Bizdəsə fələqqə, mollaxana var.
– "Fələqqə" söylədin, o nədir, görən?
– Onda döyüldükcə bizim uşaqlar
Öz şirin dilini unudur erkən.
Bir həsir üstündə büküb belini,
Onlar əzbərləyir farsın dilini.

– Bizdə də elədir, yüksək zümrələr
Fransız dilində deyər, danışar...
Lakin bilməyirlər, bir zaman gələr,
Onları nifrətlə tarix damğalar.
Ah... yüksək zümrələr! Sizin nəsliniz,
Sizin cövhəriniz, sizin əsliniz
Susamış özgənin alın tərinə!
Nələr etmədiniz rus rəncbərinə?!
Məni də götürmür gözü onların,
Çünki düşməniyəm, düzü, onların,
Bir yerdə gördümü, onlar nifrətlə
Məni qarşılayır min həqarətlə.
Mən burda məhbusam, zindanım saray,
Keşikçimsə çardır – mənhus Nikolay...
Lakin mən görürəm, mən inanıram,
Rusiya çöllərində bahar güləcək.
Mən həmin bahara qanadlanıram,
Gələcək o bahar, bir gün gələcək!..
Elə bir bahar ki, onun bayrağı
Məğribdən məşriqə dalğalanacaq.
Onda azadlığın günəş çırağı
Hər yanda, hər yerdə daim yanacaq!
Xalqımın qüdrəti əzəldən bəri
Ayağa qaldırmış qərinələri.
Onun çox qalındır zəfər kitabı,
Ağır işgəncəni, zülmü, əzabı
O boğmaq istəmiş rəşadətilə.
İgid Razinlərin şücaətilə
Geniş Çüd gölündə, dostum, bir zaman
Buzların üzünü boyadı al qan.
Sinəsində qalxan, əlində nizə
Nevski düşmənlə durdu üz-üzə.
Qırıb düşmənləri sulara saldı,
Rusiya torpağının başı ucaldı.

Dostum, onunçün də mən inanıram
Güvənib xalqımın rəşadətinə,
Onunçün indidən qanadlanıram
Rusiyanın gələcək səadətinə!
– Qardaş, inanıram, sənin diləyin,
Böyük əməllərin, arzun istəyin
Bu gün görünsə də şirin bir xülya,
Sabah həqiqətdir, mənası dərin:
Onda güləcəkdir böyük Rusiya,
İndidən o günü görür gözlərin.
O gözəl baharın isti nəfəsi
Bizim ellərə də verəcək həyat,
Onda Azərbaycan – Odlar ölkəsi
Sizin xalqınızla quracaq büsat.
İndisə yurdumda mülkədar, ağa,
Nə var sahib olub suya, torpağa,
Zalım ağaların həris pəncəsi
Boğur haqq istəyən, haqq deyən səsi.
Zəhmətlə ömr edən rus mujikitək
Bizim kəndlinin də bəxti qaradır.
Özünə, evinə çatmayır çörək
Qəlbi şum yeritək para-paradır.
Əlli cür cadügər, yüz cür hoqqabaz
Nə insaf, nə mürvət, na haqq tanımaz.
Sorar el qanını bir zəli kimi
Ah, necə söyləyim sənə dərdimi!
Hər gün meydanlarda dərviş səslənir,
Hər gün bu səslərlə pərdələr enir.
Xalqımın gözünə qaradan-qara
Sinəmdə qövr edir ağır bir yara.
– Mən də eşitmişəm dərviş səsini,
Qəlbə kədər verən min nəğməsini.
Şərqin istəhasız ətalətinə
Mən də acıyıram, mən də yanıram.

İran şahlarının rəzalətinə
Ocaqsız, tüstüsüz alovlanıram.
Bir gün, xatirimdən çıxmaz heç zaman
Keçərkən dolama dağ yollarından,
Gördüm çəkə-çəkə yorğun öküzlər
Bir də hay-küy ilə beş-altı nəfər
Aparır harasa bir cənazəni,
Bu səhnə yolumdan saxladı məni.
Kədərlər, şübhələr qəlbimi sardı,
Bəli, ixtiyarsız gözüm yaşardı.
Dedim: "Kimdir belə bu qərib axşam
Tərk edir həyatı bu gündən bəri?
Təzəcə yanarkən obalarda şam,
Hansı talesizin sönür ülkəri?
Amansız əcəlin iti baltası
Vaxtsız budamışmı görəsən onu?
Hansı bir amalın zövqü-səfası
Uçurmuşdur onun nəcib ruhunu".
Dinləyib sorğumu igid dağlılar –
Etdilər bu sayaq məni xəbərdar:
"İranda Rusiyanın vəziridir bu" –
Deyincə qırıldı könlümün simi.
"Deyirlər yurdumun şairidir bu".
Dondum... Bir üşütmə sardı qəlbimi.
Bu zaman üzünü tutaraq mənə,
Bir qoca astadan söylədi yenə;
"Bizim bu dağların etibarı var.
Onu xəyanətin baltası çaldı,
İranda qurulan fitnə-fəsadlar
Vəziri-muxtarı nə günə saldı?.."
Qüdsi dinləyincə böyük Puşkini
Yandı gözlərində qəlbinin kini.
Dedi: – Qriboyedov – sizin yerliniz,
Ah, mən də bilirəm qətlini onun.

Bir zaman ən yaxın sirdaş idik biz.
İstərdim xətrini o rus oğlunun.
Onun faciəsi könlümü saldı
Dərin iztiraba, məlala, aha.
O zaman qəzəblə səsim ucaldı,
Mən lənət oxudum fitnəkar şaha.

Bizdə Təbriz adlı bir şəhər də var,
Qoynunda böyümüş neçə sənətkar.
Lakin hökm sürür orda bu saat
Cəhalət adlanan boranlı bir qış.
Orda elə bil ki, ölmüşdür həyat,
Ya da ki, min illik yuxuya dalmış.
Təbriz də vətənim, doğma elimdir.
Xalqı öz xalqımdır, dili dilimdir...

Qüdsi, ey yurdumun iftixarı, sən,
Yaxşı ki, yaxşı ki, heç görməyirsən
Təbrizin bugünkü faciəsini,
Tükləri ürpərdən fəryad səsini...
Yaxşı ki, Füzuli divanın bir an
Tonqalda görmədin alışıb yanan.
İndi gör nələr var Təbrizdə, nələr
Odlara qalanır kitabxanələr,
Təbriz şəhərində axan qanların,
Əzabla asılan qəhrəmanların,
Nizəyə taxılmış kəsik başların,
Gözdən rəvan olan qanlı yaşların
İndi bilirsənmi kimdir baisi?
Dollar dünyasının sarı iblisi!
O, "Təbriz əhlinə xitab" şe`rini
Oxuyur dostuna, Təbrizi anır,
O, "Təbriz əhlinə xitab" şe`rində
Doğma millətinə ürəkdən yanır.

Uzanır dostların sözü-söhbəti,
Boşalmaq bilməyir dolan ürəklər,
Onlar düşündükcə iki milləti
Danışır, danışır qəmli, mükəddər...

Tükənib getsə də hövsələn sənin
Möhtərəm oxucum, səbr elə bir az,
Elə böyükdür ki, dərdi vətənin,
Mənim dostlarıma susmaq yaraşmaz...

Açıb "Gülüstani-İrəm"i bu dəm,
Ləkəsiz alnında vüqarlı görkəm
Qüdsi iftixarla öz rəfiqinə
Xalqının tarixin oxuyur yenə
Sonra o, hörmətlə kitabı həmən,
– Yadigar verirəm sənə, al, – deyir, –
Səninlə dost olan ilk şərqliyəm mən,
Bizim bu dostluğu yada sal, – deyir.
Al, mən də qoy sənə verim yadigar,
"Qafqaz altımdadır..." misralı şe`ri,
Yad edib deyərsən: "Bunu bir bahar
Mənə bəxş eyləmiş bir rus şairi".
Bəlkə sənin ömrün xeyli uzandı,
Bəlkə görə bildin gülgün baharı.
Azadlıq, səadət günəşi yandı.
Bəlkə nurlandırdı zülmət diyarı.
Qüdsi! Mən görürəm... mən inanıram,
Rusiya çöllərində bahar güləcək!
Mən həmin bahara qanadlanıram,
Gələcək o bahar, bir gün gələcək!..
Elə bir bahar ki, onun bayrağı
Məğribdən-məşriqə dalğalanacaq!
Onda azadlığın odlu çırağı
Hər yanda, hər yerdə daim yanacaq!...

Küçədə qapının ağzında artıq
Troyka gözləyir bayaqdan bəri.
Sanki xəbər verir "çatmış ayrılıq"
Atların aramsız kişnəmələri.

– Əlvida, rus xalqı, Puşkin, əlvida!..
Bacım Nataliya, sağlıqla qalın!
Silinməz könlümdən heç vaxt dünyada
Şirin xatirəsi bu xoş vüsalın.

Mən gördüm sizdəki səmimiyyəti,
Ondan deyəcəyəm Azərbaycana.
Dostum! Şe`rindəki böyük niyyəti
Təbrizə, Əfqana, Ərəbistana
Özüm yayacağam qaranquş kimi,
Baharın hüsnünə vurulmuş kimi.

Mən gördüm sizdəki elmi, ürfanı
Ondan deyəcəyəm təbrizlilərə.
Sevin, – deyəcəyəm, – sevin Rusiyanı!
Ordan boylanacaq günəş hər yerə!
Mən gördüm sizdəki istiqanlığı,
Əzilən xalqlara mehribanlığı.
Ondan deyəcəyəm öz diyarıma,
Gələcək nəslimə – övladlarıma.
Mən ana yurduma qayıdan zaman
Eşit, – deyəcəyəm, – eşit, Gündoğan!
Rusiyadan yurduma nicat gələcək,
Dərdli Qafqazın da üzü güləcək!
– Sən, ey fikri geniş, zəkası dərin,
Şərqdə iztiraba dözən ellərin
Mehriban övladı, isti nəfəsi!
Sən doğma xalqına belə deyərsən:

“Qüdrətli rus xalqı, Rusiya ölkəsi
Salamlar göndərir sənə ürəkdən...” –

– Əlvida, rus xalqı, Puşkin, əlvida!
Bacım Nataliya, sağlıqla qalın!
Silinməz könlümdən heç vaxt dünyada
Şirin xatirəsi bu xoş vüsalın.

Artıq vidalaşır iki mehriban,
Öpüşür, Rusiyayla Qafqaz – Gündoğan.

***

Puşkin! Rus xalqının dərin zəkası!
Sən, ey rus şe`rinin aydın səması,
Qarlı qış gecəsi kəsərkən sazaq,
Sürücü atları qamçılayaraq
Sənin cənazəni hara apardı?
Küləklər nə üçün fəryad qopardı?
Neçün səs-səmirsiz beş-altı nəfər
Səni təntənəsiz yerə gömdülər?
Sakit bir guşədə, gözlərdən uzaq
Səni öz qoynunda gizlədi torpaq.

Qüdsi də dünyadan getdi mükəddər,
Qürbətdə gömdülər torpağa onu.
Məkkə yollarında susuz vadilər
Aldı ağuşuna Odlar oğlunu...

Aylar gəlib keçdi, illər dolandı,
Sular gah duruldu, gah da bulandı.
Dəyişdi zəmanə, dəyişdi dövran,
Arzu etdiyiniz həmin baharı
Yurdumda seyr edir hər məs`ud insan.

Sizin dostluğunuz bir də sınandı
Qızğın döyüşlərin keşməkeşində,
Qafurla Matrosov məğrur dayandı
Alovlar içində, odlar içində.

Gözəl Taqanroqu, böyük Çexovu
Birgə hifz edərək qorudu onlar.
Düşmən yuvasına vuran alovu
Deyirəm sizsiniz, dostlar, a dostlar!

Rusiya, Azərbaycan əzəldən bəri
Yaşatmış, yaşadır ülfətinizi.
Qafqaz dağlarıyla Sibir çölləri
Səmum yellərindən gözləyir sizi.

Dünyanın ən xoşbəxt bir diyarında
Yenidən həyata qayıtdınız siz.
Kremlin şəfəqli ulduzlarında
Görürəm birləşib nəzərləriniz.

*1949*

## BAĞÇA

*(lirik poema)*

Bakı... İlk baharın sərin axşamı...
Günəş qürub edir, üfüqlər əlvan.
Dəniz kənarına axışır hamı
Asta addımlarla. Elə bu zaman
Gedir bir oğlanla bir qız yanaşı,
İki ürək dostu, könül sirdaşı.

Bu gün Doqquz maydır, zəfər günüdür,
Şanlı oğulların hünər günüdür.
Yaylım atəşləri sahil boyunca
Yenə əzəmətlə gurlayacaqdır.
Baxıb sevinəcək hamı doyunca,
Göylərin qoynuna nur yayacaqdır, -
Fişənglər, fişənglər, əlvan fişənglər,
Göydə salxım-salxım yanan fişənglər.

Ötüb sevgililər sakit küçədən
Yaşıl bir bağçanın yanından keçir.
Oğlan dayanaraq söyləyir həmən:
– Hələ vaxta qalıb, ayaq saxla bir!
Qız durub soruşur: – Söylə neçin sən
Bu bağın yanından hər gün keçirkən
Ayaq saxlayırsan gözündə kədər?
Bir məni başa sal, mümkünsə əgər...
Oğlan danışmadı, susdu bir qədər,

Elə bil quşlar da susdu bağçada.
Başını aşağı əyərək güllər
Nəyisə bir anlıq saldılar yada.
Eh, mənim əzizim, doqquz il qabaq,
Son imtahanlara hazırlaşaraq
Vida eyləyirdik instituta biz.
Həyəcanla vuran ürəklərimiz
Sonsuz arzularla doluydu bütün,
Nələr düşünürdük bilsəydin o gün.
Mən öz Fazil adlı mehriban, əziz,
Qırılmaz ilqarlı, ürəyi təmiz
Bir yoldaşım ilə hər səhər erkən
Tükənməz həvəslə çıxaraq evdən
Gedərdim Dağüstü parkına sarı.
Sönərkən Günəşin son şüaları
Biz ordan bir axşam dönürdük geri.
İndi gördüyümüz bu şən bağçanın
Yanından yolumuz düşdü o zaman.
Dostum çevrilərək söylədi birdən:
“Qüdrət, yavaş yeri, bir azca dayan,
Bu gözəl bağçanı seyr eləyim mən.
Gəl bir də getməyək daha uzağa,
Sabahdan hər səhər gələk bu bağa.
Bütün iradəmiz, bütün gücümüz,
Elmin yollarında oldu səfərbər.
Bax həmin bu yerdə əyləşərək biz
Dedik: dərs oxuyaq axşama qədər.
Ağacdan asılmış reproduktoru
Qüdrət göstərərək, söylədi ki, bu
O səhər qəzəblə dindi qəflətən,
Baxdım yoldaşıma bir təlaşla mən.
Bağban dik atılıb yaxına gəldi,
Get-gedə radionun səsi yüksəldi.

Oxuya bilmədik bir kəlmə, bir söz,
Kitabı-dəftəri yığışdırıb tez
Hiddətlə, qəzəblə, çıxdıq bağçadan,
Getdik evimizə məyus, peşiman...

Aylar ötüb keçdi, il başa çatdı.
Hərbin dəhşətləri nələr yaratdı?!
Kəsdi qapıların ağzını yağı,
Mərdliklə vuruşdu Vətən torpağı...
Biz o vaxt bağçaya salarkən nəzər,
Gördük ki, qalmamış ondan bir əsər.
Bağçanın qoynunda çünki o bahar,
Düzüldü yan-yana torpaq qazmalar,
Bakıya od-alov yağsaydı əgər,
Orda qorunaydı gərək körpələr.
Analar, qocalar, bu dinc əhali
Gizlənəcəkdilər bağçada, bəli!
Fazil bu bağçanı görüncə belə,
Qəzəblə söylədi gələrək dilə:
– Nəhəng zavodların məğrur səsində,
Hər gülün, çiçəyin xoş nəfəsində
Bu qadir əllərin alın təri var,
Onlara göz dikib indi yağılar.
Könüllü gedirəm, döyüşlərə mən,
Düşmən tapdağında qalmasın vətən.
Gedirəm zillətə olmasın düçar
Təzə dərsə gedən xoşbəxt uşaqlar.
Gedirəm, məktəblər tüstülənməsin,
Gedirəm, Bakıya od ələnməsin.
Gedək, birgə gedək sabah cəbhəyə,
Bağçamız yenidən canlansın deyə.
Qatar döyüşlərə apardı bizi,
Getdik qorumağa vətənimizi.

Dostum vuruşlarda məğrur dayandı,
Dayandı, pozmadı ilqarı, andı...
Qızğın döyüşlərin birində, heyhat,
Onun gözlərində qaraldı həyat.
Hörmətlə, qüssəylə dəfn etdik onu,
Məktəb yoldaşımı – ellər oğlunu.
İllər ötüb keçdi, dava dayandı.
Oğullar cəbhədən şərəflə döndü.
Zülmün səltənəti alışdı yandı,
O yandı, intiqam alovu söndü.
Döyüşdən zəfərlə qayıtdıq geri,
Məni məhəbbətlə Bakı şəhəri
Yenə qarşıladı, gördüm hər yanı,
Bu doğma bağçanı, gözəl bağçanı.
Bağça əvvəlkitək yenə şən idi,
Gülləri sayrışan bir gülşən idi.
Torpaq qazmalardan yoxdu bir nişan,
Yenə də bağçada gəzirdi bağban.
Doğrusu sevindim bilsən nə qədər,
Fazilin istəyi çatmışdı başa.
Həm də ürəyimi sardı bir kədər
Edincə bağçaya onsuz tamaşa.
O gündən gözümdə bu kiçik bağça
Olmuşdur nə qədər müqəddəs, uca.
Onu seyr edəndə hər gün elə bil,
Görüşür mənimlə sevimli Fazil.
Qüdrət bitirincə hekayəsini
Ucaltdı radio öz gur səsini.
Göstərərək qıza o, radionu
Dedi ki, sevgilim, yaxşı dinlə bir,
Gör o, nələr deyir, nələr söyləyir.
Dollar düşkünləri demək ki, yenə
Düşübdür dəhşətli hərbin eşqinə.

Yenəmi bağçamız viran qalacaq?
Yenəmi qazılıb sığnaq olacaq?
Yenəmi qalacaq dost-dosta həsrət,
Yox! Haqqın bayrağı əyilməz əlbət.
Qüdrət davam etdi bir iftixarla,
Dedi ki, qoruyur xalqım vüqarla
Qoruyur dəhşətdən bütün dünyanı,
Qoruyur tufandan yaşıl bağçanı.
Qoruyur yanğından bütün bəşəri.
Həm də al qırmızı bu çiçəkləri.
Açılır fişənglər elə bu ara,
Gurlayır dalbadal salam topları.
Şəhər başdan-başa qərq olur nura,
Gedir sevgililər sahilə sarı.

*1951*

## AQİBƏT

*(təmsil-poema)*

Təngə gəldi özü, öz tülkülüyündən tülkü,
Dedi: – Bir şey düşünüb tapmalıyam mən tülkü.

– Yaşamaq müşkül olub köhnə fırıldaqlar ilə,
Bacarırsan gəl ayaqlaş təzə yaltaqlar ilə.

Dəyişib dağ-dərə, doqqaz, dəyişib tin də tamam,
Dəyişib  dam-daş, həyət, bəndi-bərə, hin də tamam.

Hanı zülmətdə yatan kənd... hanı xəlvət gecələr?..
Bu saat tülküləşib, əşşi, toyuqlar-cücələr.

Hanı çil-çil fərə, əlvan beçə, var-vardı yenə...
Keçməyirsə dişimə, onda bu “var”dan mənə nə?

Quşçuluq fermasına, varsa, yaxın gəl, hünərin,
Bağlanıbdır kitabı orda əsil tülkülərin...

Projektorlu hasar... yüz qarovul... bir sürü it...
Lağ edir köhnə cüvəllağılığa tazə mühit.

Həsrətəm vallahi, bir parça lap iylənmiş ətə.
Baxıram düzdə siçanlar da çıxıbdır qəhətə.

O zəhərdən ki, səpirlər qırıla sovka-filan
Ona billah, dəvə dözməz nə ki, əl boyda siçan.

Bir də neyçün axı mən zəhmətə qatlaşmalıyam?
Qovhaqov düşdümü, hökmən karıxıb çaşmalıyam? –

Dayanıb bir qıçı üstündə qaşındı tülkü,
Sonra çömbəldi, düşündü və daşındı tülkü.

– Tapdım, ay can, – dedi, – əhsən, – dedi, –
– çox şad oldu,
Qayğıdan, dərddən, ələmdən tamam azad oldu,

Dedi boş sözdü ki, “tapsın gərək hər kəs tayını”.
Niyə cəlb eyləməyim dostluğa şəxsən ayını?

Göstərin, harda yazılmış, ola bilməz belə şey
“Biri bicdir nə bilim ki... nə bilim ki, biri key...”

Gedərəm, əşşi sığınnam hərifin kölgəsinə
Həm güvənnəm, döşərəm tərifi həm gövdəsinə.

Atılıb yan-yörəsində, elə quyruq bularam,
Şərik ollam ovuna, kef-damağı çağ olaram. –

“Yox” dedi tülkü fəqət, öz-özünə, “yox” dedi, “yox”.
Ayıtək zorbaya, nahəmvara bel bağlama çox!

Bir də gördün ki, basıb qol-qıçını sındırdı,
Pəncəsi bir balaca... lap atanı yandırdı.

Elə zənn etmə ki, bu qəsd-qərəz söhbətidir,
Ayıdır də... belə rəftar ayının adətidir.

Zilləyib gözünü bir nöqtəyə durdu tülkü,
– Tapmışam! – quyruğunu alnına vurdu tülkü.

Mənə də tülkü deyərlər, bə necə, olma uşaq.
Hərifim ayrı hərifdir, adə, kimdi o? Vaşaq?!

Çox çevik, çox da zirək, yırtıcı, mərdanə, qəşəng...
Nə ağırdı, nə də yüngül, elə yığcam, məntək.

Mən ölüm, "məntək"ə bax, lap deyəsən eylədim ağ
Nə zamandan tay olubdur şələquyruqla vaşaq?

Elə tay olmadığıyçın da bu iş sərfəli –
Hiyləgərlə cəsurun birliyi! Bəli, bəli!

Çəkinib qorxmayaraq təhlükədən, əndişədən
Vaşaq ov ovlaya, quş quşlaya çöldən, meşədən,

Yağlı təriflər ilə sərxoş edib mən də onu
Qoparım basdığını, kəsdiyini, tutduğunu.

Atılıb hey düşərək yan-yörəsində vaşağın,
Qorxusuz olsa əgər... Bənd-bərəsində vaşağın.

Məsləhət də verərəm ərk ilə, xoş dillər ilə
Ancaq əmmalı-müəmmalı, "özün bil...lər" ilə.

Onu sadiqliyimə eyləyib aludə tamam
Sökərəm qanlı cüyür cəmdəyin asudə tamam.

Yox, deyən, yox şələquyruq, danışırsan hədyan.
Bir də gördün ki, tutub yırtıcının gözünü qan.

Qayıdıb çəkdi qələm həm bozuna, həm ağına
Keçdi bir sıçramada.. iç-çalatın caynağına...

Qanına qəltan olandan sorasa dildə giley
Deyəcəksən ki, canım, yaxşı deyildir belə şey? –

Tülkünün gözləri yol çəkdi, düşündü çox-çox,
– Yox, vaşaq haqq-hesabı, heç  cürə baş tutmadı, yox.

Fikir edincə necə bəs ağlasın o öz gününə
Bütün hevvanları bir-bir gətirir göz önünə:

... Kərgədan, xallı bəbir, kenquru, aslan, canavar,
Hələ fil, lap hələ timsah, hələ müdhiş yaquar...

– Tapmişam...– kəllə-mayallaq vurub – ay cann! – dedi o,
Öpərək öz-özünü – Ağlıma qurban! – dedi o.

Nə üçün salmamışam meymunu bəs yadıma, hə?
Axı meymun kimi bəs kim çatacaq dadıma, hə?

Şan onun, şöhrət onundur, söz onun, söhbət onun,
Eldə məkruf kimi bir şey sayılan cür`ət onun.

Uğunub qəşş edəcək hər kimə göstərsəm onu –
Qəlbi daş, gözü şüşə zalimə göstərsəm onu.

Qeyzi yox, hiddəti yox, mənliyi-şəxsiyyəti yox,
Özünün rəyi-filanı, özünün niyyəti yox.

Başını qoy yerə, qoysun o da... sözsüz qoyacaq
Döşünü yumruq ilə döy, o da... sözsüz döyəcək.

Bircə şərt ilə: özün siftədə meymun olasan:
Meymunun boynuna bəs sonra gedib ip salasan.

İpin heç gözlə görünməkliyi lazım da deyil,
Meymunu görsə yanında biləcək hər şeyi el...

... Bəli, gəzdir onu, quyruq bula meydan-meydan
Ələ sal, xəlvəti göz vur... belə... şeytan-şeytan.

Üzdə daim ona hörmət və kiçiklik göstər,
El gözündə qəbul et ərkini, ərk etsə əgər!

Meymun hər halda deyil kütləvi çaqqal-çuqqal...
Bunu çox incə bir eyham ilə xalqa başa sal!

Başa sal ki, o sevir meyvənin ən dadlısını,
Tərifin ən şirinin, alqışın ən odlusunu.

Başa sal ki, o sevir tülkülərin şahı məni –
Bircə kərrə yerə salsa kim əgər mən deyəni –

Meymunun kefinə zənn eylə ki, doğrandı soğan
O da hirsləndi, qurtardı, üzünü görmə, aman!

İstəyirsiz ki, verə sizlərə ləzzət meymun
Siz tərəfdən mənə görsün gərək, hörmət meymun.

Kök anac, tər beçə, əntiqə fərə ta nə deyim
Ləhləyib təntimədən əyləşib asudə yeyim.

Nə köpəkdən, nə kötəkdən, nə tüfəngdən qorxum,
Nə torandan, nə dumandan, nə çisəkdən qorxum.

Elədikcə dişim altında sümüklər şıq-şıq
Döyə meymun döşünə, lovğalana aşkar-açıq.

Mənə minnət qoya ki, “Görmədiyin gündü, hərif!
Bu cür hörmət ki, görürsən, o mənimçündü hərif!”

“Bəli, bəli” deyərək mən də edim təzim ona.
Özgə heç bir şey inan, yoxsa deyil lazım ona.

Oynadım meymunu mən istədiyimtək sonra
Sən də seyr eylə özünçün, belə, kef çək, sonra.

Tülkünün beyninə öz fikri yaman batmış idi,
Onu ləzzətlə yerindən yaman oynatmış idi.

Getdi axtarmağa meymun ləlıni tülkü şələ
Qalın ormanların üstündən əsib döndü yelə.

Şələ biclikdə birinci... Lələ giclikdə rekord.
Çıxdılar qastrola, gəzdilər el-el, yurd-yurd.

Gecə-gündüz yemək-içməkdə, qonaqlıqlarda...
Ərşi-ə`ladadı meymun da ki, sağlıqlarda.

Tülkünün dilləri ütdükcə, üyütdükcə onu,
Hələ fildən də bir on dəfə böyütdükcə onu.

Qayıdıb şirə çevirdikcə cəsarətdə onu,
Tay tutunca marala hüsn-məlahətdə onu...

– Qan sağılmış o qızılquş gözünə qoyma mahal
Meymunun qıllı-qıpıq, tum gözünün seyrinə dal.

Əqli-dərrakədə Sokrat nədir? Əflatun kim?
Üstəlik – kimdi bəs insanlığa əcdadi-qədim?!

Meymunun nazını dilxoşluq üçün çəkdi hamı
Tülkünün həm səhəri, həm naharı, həm də şamı.

Gəldi dəmdəsgah ilə, gəldi əl-əl üstündə
Nə bilim pörtdəmə, həm xəngəl, əl-əl üstündə.

Tülkü ev sahibini xəlvətə bəzən çəkərək
Dedi: – Meymun lələ sizdən deyəsən inciyəcək.

Nə üçün süfrədə bəs yoxdu qızardılmış qaz,
İç-ciyər, ət qutabı, üzlü qatıq, dovğa bir az?

Tülkü öz nəfsi üçün meymunu qalxan elədi
Xantamahlıqda, fəqət, külbaşı bədnam elədi.

Meymunun vaxtı hayandaydı ayılsın başı bir
Ki, qutabdan götürüb, nuş eləsin bozbaşı bir.

Nə araq, əşşi, nə konyak, su da içmirdi hərif
Bah atonnan! Onu sərməst eləmişdi tərif.

Tülkü hər sağlığa hökmən bir əlavə elədi,
Şişirib meymunu Ahəngəri Gavə elədi.

İş gəlib çatdı nəhayət, elə bir mərhələyə
Özünü tülkü vəkil eylədi meymun lələyə.

Verdi müxbirlərə intervü, səlahiyyətlə,
Oldu intervüsü lap mətbu, səlahiyyətlə.

Meymunu istədi vəsf eylədi idmançı kimi,
Meymunu istədi vəsf eylədi bostançı kimi.

Meymunu istədi təqdim elədi zərgərtək,
Dəqiq aptekçi kimi, sehrli kimyagərtək.

Dilçi, şair, nə bilim müsiqiçi, xanəndə
Nə sənət vardı yaraşdırdı ona aləmdə...

Yazılar verdi çapa meymunun imzası ilə
Hər nə cür bildi onu saldı dişə, saldı dilə.

Yox, onun məqsədi ancaq bu deyildi əsla
Tülküyə lazım idi həm də əcayib imza.

Tərif etdi özünü ağlına hər cür batdı,
Gətirib yazdığını meymuna imzalatdı.

Baxmadı bəs nə yazılmış onun imzası ilə
Tülkü meydan suladı meymunun imzası ilə...

İş gəlib öylə bir əndazəyə çatdı bir vaxt
Tülkü meymuna dedi: – Çox qudurub şir bədbaxt.

Qoşulub şirə deyingən ayı, həm xallı bəbir
– Əşşi, meymun nə yazıbdır, – dedilər, – eh, o nədir?

Qoy gedib gül kimi meymunluğunu eyləsin o, –
Qoy gedib hər kimə xoşdursa onu əyləsin o. –

Meymunun beyninə quş beyninə qan vurdu yaman,
Dedi: – Ey qıllı, sən ey xallı, sən ey yastıdaban!

Cıraram cənginizi, partladaram ənginizi.
Ala ulduzdadı kefim, sayıram mən ki sizi?

Gərək olsun mənə lağ eyləyənin yeddi başı
Mən sovurram bu saat başınıza dağı-daşı.

– Bəli, bəli, – deyərək tülkü qızışdırdı onu
Yağ töküb, piltə qoyub möhkəm alışdırdı onu.

Dedi: – Ey hər sözü, hər kəlməsi dürdanə nəhəng!
Ey dönən şöhrəti, şəxsiyyəti dastanə nəhəng!

Əqlinin qüdrətinə söz ola bilməz! Bu belə.
Qolunun qüvvəsin azğınlara get, göstər hələ.

Dərələrdən, təpələrdən əsərək yellər ilə,
Meymunun çəkdi ipin tülkü şirin dillər ilə.

Durdu hər ikisi kənarında qalın bir meşənin.
Cəld vaşaq, tənbəl ayı, xallı bəbir, şir – meşənin –

Su kənarındakı səmtində dolanmaqda idi,
Su içib keyfilə, asudə dayanmaqda idi.

Gördülər bir-birini – şir onu, meymun da şiri
Tülkü dümsüklədi meymunu, dedi: – Durma, yeri!

Yetirən tək də, şirin odlu fanar qoy gözünə
Şir heç... ətrafdakılar gəlməyəcəklər özünə.

Nə bəbir, xallı bəbir, tənbəl ayı,vəhşi vaşaq,
Mən ölüm, qaş-göz arasında həriflər “cıracaq”.

Eybəcər görkəm alıb tükləri pırpız meymun
Şığıdı şirə həmən, gülməli arsız meymun.

Şir tutub meymunu qoltuqladı lap yüngülcə...
Sümük əhvalatı... şıqqıldadı şıqşıqla necə.

Şir baxıb gördü qabaqdan tozanaq qopdu qəfil,
Sarı bir ox göyə milləndi yayından elə bil.

Bu qaçan tülkü idi. Şir dedi: – Cum, qoyma, vaşaq!
Haqlayıb tülkünü tez tutdu vaşaq, çarpışaraq.

Şir süzüb meymunu ikrahla dedi: – Ey əntər!
Mən bilirdim ki, səfehsən, bəs axı, lap bu qədər?

Tülkü fitvası səni gör necə çaşbaş elədi...
Çevirib tərsinə güngörməzini baş elədi.

Qolunun iksi də sağ yanda, gözün alt-alta
Görməsinlər səni heç böylə gülünc münvalda.

Ürəyin böyrək olub, ağ ciyərin qara ciyər,
Eybi yoxdur balaca səbr edək, hər şey düzələr!

Şir qıyıb gözünü qeyz ilə dedi: – Ey tülkü,
Ömrünün gəl, sən heç olmazsa sonunda bil ki:

Axmağın bərkinə adətdi, gedilmirsə də çox...
Hiyləyə, məkrə və fitvaya aman yoxdu ki, yox!

Bəbir, ey xallı bəbir, parçala, yırt bişərəfi!
Necə kefindi vaşaq, eylə dağıt bişərəfi!

Sən də ey ləng ayı, caynaqlı ağır pəncəni çal,
Ye özünçün, bu səfər tülkü ətindən ləzzət al!

Etiraz etdi hamı şirə qürur ilə qət`i
İt ətindən də haramdır, – dedilər, – alçaq əti.

Aşikar şirə gileyləndi bəbir – xallı bəbir:
– Murdarın qanına batmağımıza razımı şir?

Şir qürur ilə, sınaq ilə çatıb qaşlarını
– Bərəkallah! – deyib alqışladı yoldaşlarını.

Yelləyib bir budağı tülküyə tutdu üzünü
Dedi: – Səhmanla, səliqəylə özün as, özünü!

Tülkünün görcək o ibrətli, o haqq edamını
Meymunun vahimə sarsıtdı bütün əndamını –

Qaytarıb qoydu onun baş-gözünü öz yerinə –
Özünü öz yerinə.

*1980*

# BİRİNCİ ADDIM, BİRİNCİ SEVİNC

(poema)

*Cəfər Cabbarlının ölməz xatirəsinə*

1

Böyük bir binadan çıxdı sevincək
O bu gün ömründə birinci dəfə.
“Şe`rimi bəyənən tapıldı deməkˮ –
Getdi bu fikirlə dəniz tərəfə.

Çatdı sahilinə mavi Xəzərin,
Ciyəri dolusu bir nəfəs aldı.
Əyləşdi üstündə daş məhəccərin,
Uyuyan dənizin seyrinə daldı.

“Bakı limanında Xəzər suları
Sübhün şəfəqilə yüz rəng alırmış.
Mən heç görməmişdim məxmər suları,
Dəniz dalğasız da qəşəng olurmuşˮ.

O baxdı dəryanın ayna səthinə
Bu nəhəng güzgüdə gördü özünü.
Nədənsə fikrinə gətirdi yenə
Şe`rini bəyənən şəxsin üzünü.

“O, necə sadəydi, necə mehriban,
Üzündə atalıq qayğısı vardı.

– Bundan da yaxşı yaz, – dedi, – ay oğlan,
Şe`rin ürəyimdən tikan çıxardı.

Əlini saçımda gəzdirdi bu dəm:
– Utanma, yanıma tez-tez gəl, – dedi.
Hələ çıxmamışsa bir şe`rin, nə qəm.
Qırdıq bu tilsimi, yaxşı bil, – dedi.”

Xeyirxah kişinin bu söhbətini
O, yada saldıqca həyəcanlanır.
Düşünür sabahkı səadətini,
Düşünür... sahili gəzir, dolanır.

Odur, Qız qalası, uca, möhtəşəm,
Qədim yadigarı bu məmləkətin.
Hər qaralan daşı əsrarlı aləm,
Ona sakit baxmaq çətindir, çətin!

Ayağı altında səslənir Xəzər,
Üstündən yol alır bulud karvanı.
“Qız qalası” adlı ölməz bir əsər
Sanki düşündürür cavan oğlanı.

Yox, yox, xəyalına gətirmir belə
Bu gözəl dastanı o yazacaqdır.
Axı, bir şe`ri də çıxmamış hələ,
Düşünür, yol uzun... mənzil uzaqdır...

2

Bu gecə oğlanın yuxusu qaçdı,
Sabahı gözlədi intizarla o.
Sabahın eşqilə qol-qanad açdı
Ən şirin, ən təzə arzularla o.

Səbri tükəndikcə, gecə uzandı,
"Bircə açılmadı bu səhər" – dedi
"Ürəyim həsrətlə alışdı, yandı,
Alışıb yanmadı üfüqlər" – dedi.

Hansı mürəttibdir şe`rini yığan?
Əlləri qurğuşun tozu içində?
Qaranlıq, tez əri, dan ulduzu, yan!
Qoy onun imzası aydın görünsün
Min imza içində, yazı içində.

Ey cahana gələn birinci övlad,
Ey dünya işığı görən ilk əsər,
Ey çap hərfi ilə yazılan ilk ad,
Doğma gəlirsiniz mənə nə qədər!

Siz, siz yandırdınız qəlbimdə məş`əl,
İlk vüsal həsrəti yamandır, yaman.
Küçəyə o çıxdı hamıdan əvvəl,
Bakı üzərində sökülüncə dan.

3

Zavodlar, mədənlər fit verə-verə:
– Səhərdir, – dedi.
Yayıldı nal səsi daş küçələrə:
– Səhərdir, – dedi.
Qonka təkərləri relsləri döydü:
– Səhərdir, – dedi.
Polis tində yatan yurdsuzu söydü:
– Səhərdir, – dedi.
Qalxdı əzançılar minarələrə,
Səs saldı Qızıllı kilsə şəhərə
Tacir harayladı nökər-naibi;

"Yelkən aç!" – əmr etdi gəmi sahibi:
– Səhərdir, – dedi.
Dənizin qoynundan boylandı Günəş,
Dildə beynəlmiləl, ürəkdə atəş
Yüzlər və minlər,
Bakının üstündə al bayraq kimi
Qızaran göylər:
Səhərdir, – dedi.

Onun nəzərində bu adi səhər
Ömrün unudulmaz ilk səhəridir.
Göyün tağındakı çin-çin üfüqlər
Onun bəyənilmiş sətirləridir.
– "Məktəb" məcmuəsi, gəl, ay müştəri,
Təzə nömrəsidir, yubanma ancaq,
Elm dəryasıdır səhifələri,
Kim alsa, oxusa alim olacaq!..

Məcmuə satana yaxınlaşır o:
– Bir məcmuə olar?
– Olar, ay oğul.
Elə bil sevincdən aşır-daşır o.
– Əlin yüngül olsun, apar, ay oğul.

Tələsik çəkildi kənara oğlan,
Qorxdu məcmuəni açmağa fəqət.
Dayadı çiynini divara oğlan,
Elə bil qalmadı dizində taqət.

İnamla yaşamış o, bu günədək,
Görən bu inamı olmazmı xəyal?
Dənizdən astaca tərpəndi külək
Bu dəm varaqlandı əlində jurnal.

Jurnal varaqlandı əsdikcə rüzgar,
O, gördü adını adlar içində.
Şe`rinin üstündə yazılmış "Bahar".
Ruhu qanadlandı bahar içində.

Baxdı ətrafına, elə bildi ki,
Yalnız ona baxır camaat bu an.
Ona elə gəldi, elə gəldi ki,
Şe`rini oxuyur hamı ucadan.

Xəyal eylədi ki, bu saat şəhər
Tək onu barmaqla göstərir ancaq.
Xəyal etmədi ki, ötdükcə illər
Elə doğrudan da belə olacaq.

Xəyal eylədi ki, yaratmış aləm,
Şe`rlər içində bu şe`ri təkdir.
Xəyal etmədi ki, əlində qələm
Səhnələr, salonlar titrədəcəkdir.

Bizim xalqımızın şanı-şöhrəti
Bir də parlayacaq adıyla onun,
Təzə qalacaqdır ölməz sənəti
Sənət aşiqinin sənət oğlunun.

Varaqlar yellənir əsdikcə külək,
Xoş bir mahnı çalır qəlbinin teli
Uşaq sevincilə gülümsəyərək
O, büküb jurnalı gedir irəli.

*1960*

# YANARDAĞ

*(lirik poema)*

*Həmin yer Bakının Digah və*
*Məhəmmədi kəndlərinin arasındadır*

Deyirlər ki, bir çobanın çaxmaq daşından
Çınqı düşdü, o gündən də oldun Yanardağ.
Bəli, qoca dünyamızın körpə yaşından
Çox zərurət təsadüfdən doğulur ancaq...

Çoxdan, çoxdan atəş vardı köksündə sənin
Görünməyən gərək deyil fəqət heç kimə.
Bir əjdaha uyuyardı köksündə sənin
Oyanıb od püskürməkçin bənd imiş himə...

Məcnun kimi, Kərəm kimi elə hey yanır,
Şölələrin vecə almır nə yağış, nə qar.
Bu gün sənə gəlib baxan bir də inanır
Bu torpağın allahıymış odlar, alovlar.

Sanki elin toy şamları, bayram şamları
Yandırılıb xınalanmış əllərlə burda.
Neçə-neçə cavan gəlin, ağbirçək qarı
Bu odlara ürək açıb illərlə burda.

Bu gün mən də elə bura sözlü gəlmişəm.
Ruhum, canım Yanardağdan od tutub yanır.
Yanardağa yaraları közlü gəlmişəm
Köz... xatirə... zaman – əqrəb geri fırlanır.

Yel üfürür Yanardağı, odlar qıvrılır,
Tək-tənhayam hənirtilər əhatəsində.
Qırıq əhd-peymanlardan qəlbim qırılıb,
Sıxılıram qüssə-kədər əhatəsində.

Yanardağı hər fəsildə görmüşəm mətin
Bu tufanlar, vıyıltılar səltənətində.
Qol qoyuram təsdiqinə bir həqiqətin –
Dağ-daşın da bütövlük var xasiyyətində.

Bir sinədə neçə məş'əl – neçə alov gül.
Bir ananın qucağında neçə od-uşaq.
Bu alovlar qoruğundan müşküldü, müşkül
Bircə yanar qönçə dərmək, od oğurlamaq.

Bir az əvvəl burda mənə "qardaş" deyənin
Xəyalıma gətirərəm dönük üzünü.
Bir gün məni görməyəndə bərk inciyənin
Külək sildi ləpirini, sildi izini.

Hanı burda şairləşib, o "ilhamlanan"
"Od gəlini", "Odlu diyar", "Zevs, Prometey?!"
Məni bax bu Yanardağın Kolumbu sanan
Yoldaşları səsləyirəm: eheheyy... eheyy...

Yanardağdan bir az gendə, maili düzdə
İbrətamiz, vahiməli qəbir daşları.
Daşlar deyir: "Axtarırıq, gəzirik biz də
Yoldaşlığın daşın atan bu yoldaşları".

Günəş batıb, qaş qaralıb, düşdükcə axşam
Bir səhnəyə, tamaşaya dönür Yanardağ.
Bu büsatı gün-günorta görmür hər adam
Nuru zülmət səltənəti tanıdır ancaq.

Su yandırmaz, od söndürməz biri-birini,
Təzadların çarpazında tutmuşuq qərar.
Təzə deyil, kəşf deyil bu söhbət yəni.
Ancaq elə köhnədə də bir təzəlik var.

Bir söhbət də cəlb eylədi fikrimi bu dəm,
Məlum şeyi xatırladım qoy bir də sizə.
Bir çıxanda, bir batanda fikir vermişəm:
Günəş özgə təntənəylə görünür gözə.

Heç Günəşi sevməmişəm mən günortada,
Sanki bu dəm o boğulur öz işığında.
Qıy gözünü, bax Günəşə tən günortada,
O aləmdir səhər-axşam yaraşığında.

Günortalar nə mənası, bax Yanardağa,
Olsa belə atəş həmən, mahiyyət həmən.
Fikri bir az ayrı cürə dolandırmağa,
Bir az qeyri-adilik də istəyirəm mən.

Axırıq boz axınında adiliklərin
Adilikdə özgə bir şey çətindi görmək.
Neçə odun, neçə əzmin, neçə hünərin
Təsdiqinə qeyri-adi bir məqam gərək.

Qaranlıqda baxır sərraf brilyanta da,
Qaranlıqla üzləşdirir onun bərqini.
Günəş dolu, işıq dolu açıq havada
Hər parıltı solğun olur, gəzmə fərqini.

Yanardağın qabağında dayanmışam tək,
Bürünmüşəm qaranlığa – yapıncım gecə,
Yanardağın ocağında mən isinərək
İsindikcə, qızındıqca əsirəm necə.

Min doqquz yüz yetmiş altı... yetkin bir zaman.
Kürreyi-ərz düymələrlə dönür, dolanır.
Kamalıyla xarüqələr yaradan insan
Hansı hissə, təlqinəsə bəzən inanır.

İnanmağın nisbəti var, bu başqa söhbət
Təsəvvür də, təxəyyül də əqlin qanadı.
Ən heyrətli möcüzəni yaradır əlbət
Böyük şair təxəyyülü, alim inadı.

Aman, aman bu nə işdir, bu nə qəziyyə,
Od içindən əl eyləyir bir xanım mənə.
Gör vüsalı nə şəkildə verir hədiyyə
Yanğınıma tab etməyən hicranım mənə.

O, dayanıb tonqalların gur çevrəsində,
Od sarılır əndamına xışıltılarla.
Sanki çimir qızıl-qızıl nur çeşməsində.
– Gəl, mənəm də, qorxma! – deyir pıçıltılarla.

– Gəl, yanası, odlanası nəyin qalır ki,
Elə yanıb getməmisən bir də yanasan.
Köksün altda bircə ovuc köz qaralır ki,
İşıldamaz üzərindən əssə də tufan.

Bu asudə bir yerdi ki, dedi-qodusuz...
Hicranın yox, gəl vüsalın odunda yanaq.
Tilsimləyək, ram eyləyək qorxunc odu biz,
Bir yanıqlı laylay çalsın bizə Yanardağ.

Başım üstə ulduzların gümüş şabaşı,
Qənşərimdə Yanardağın min zəbanəsi.
Beş addımda mən görürəm tanış göz-qaşı,
Eşidirəm od içindən o tanış səsi:

– Mən odda od, mən suda su pərisiyəm, bil,
Meşələrdə meşələrin ilahəsiyəm.
İstəyirsən İsa kimi göylərə çəkil,
Dörd dövrəndə ay-ulduzam, gün haləsiyəm.

Bu torpağın hər boşluğu odla dolantək
Mən də sənin qəlbindəki boşluğa doldum.
Bir qığılcım bu ətrafı oda salantək
Mən də sənin yanmağına bəhanə oldum.

Gəl, açmışam qollarımı, atıl odlara,
Dönür külə, doğur küldən səməndər hər an.
Qorxma, odu od yandırmaz qatıl odlara
Od içində çırpınmırmı bu odlu cahan?!

Yoxsa sən də inandın ki, yanan bu dağdır,
Yanan sənin ürəyindir, mənim qürurum.
Qəlb odunda bu qürurum gül açacaqdır
Mənə qənim kəsilmişdir, qənim – qürurum.

Gözdən itir od pərisi, qapanır pərdə...
Yanardağın tonqalları yanır çata-çat...
Qoca nənəm deyərmiş ki, bu həndəvərdə
Cin-şəyatin dəf-dumbulla qurarmış büsat.

Gözüm açıq, fikrim aydın, düşüncəm sərrast,
Həqiqətin əksi deyil xəyal, bəs nədir?
Həqiqətdə gördüyünə adam gələr rast,
Əsli yoxsa, şəkil, surət bir əfsanədir.

Novxanıdan, Pirşağıdan aşikar gəlir,
Gəlir dəniz hənirtisi, dəniz nəfəsi, –
Yanardağın üzərinə dalğalar gəlir
Xəyalımda odla suyun qaynar həmləsi.

Sübhə yaxın xəzri qopur, üşüyür gecə,
İsinməkçin Yanardağa sinir asiman.
Yerin-göyün damarına düşür vicvicə,
Ətraf odun ətrafında sıxlaşır bu an.

Əllərini Yanardağa tutur Abşeron,
Həm qızınır, həm diləyir xəzridən imdad.
Qırmaclanır bağ-bağçalar, batır Abşeron,
Abşeron kül üstündədir, axı bu saat.

Əncir-üzüm, püstə, badam, heyva, nar yanır,
Tumurcuqlar vıyıltıda qovrulub gedir.
Doğulmamış ölənlərçin Yanardağ yanır,
Qol-budaqlar şırıqqayla qırılıb gedir.

Gözüm qalır alovların çaxnaşmasında,
Ayaq tutur, qanad taxır, dil açır atəş.
Gözüm qalır odun oda sarmaşmasında,
Şaxələnir, mavi-mavi gül açır atəş.

Qızıl odlar yallı gedir verib əl-ələ,
Qızmar zəncir həlqəsitək bir-birinə bənd.
Sən onların birliyinə fikir ver hələ
Soldu nədir, söndü nədir, od oda peyvənd.

Xəzri coşur, od törəyir oddan daha da,
Yerdən çıxır bir alovun min bir pöhrəsi,
Sanki bir him lazım imiş Yanardağa da,
Bağrı yansın laləlònsin onun çöhrəsi.

Güclü şölə qanadının altına alır
Zəif, körpə quşcuğaztək titrək şöləni.
Adam ata-anasını yadına salır
Bax, onlar da yana-yana qorumuş səni.

Sən bir ora, o tərəfə fikir ver hələ,
İki şölə bir xırdaca şöləyə həyan.
Külək odlar cəbhəsini yarsa da belə,
İki şölə seçilməyir ata-anadan.

İki şölə yaxşı bilir, yaxşı qanır ki,
O körpəcə şölədədir nuru onların.
İki şölə bir inamda havalanır ki,
Sönüb külə dönməyəcək qoru onların.

Ata-ana! Elə biz də qoşa şöləyik.
Balamızın başı üstə hər göz qırpımı.
Biz şöləyik, biz məş'əlik, şamıq hər nəyik –
İki ruhun, iki canın yanar çırpımı.

Qoruyuruq yana-yana gül balamızı,
Keşikçiyik – ürəyimiz fanarımızdır.
Ömrümüzün xəzanında gül butamızı
Şehləndirən bizim sevinc yaşlarımızdır.

Fanar dedim, bir də baxdım mən Yanardağa
Sanki onu göydə gördüm heyrət içində.
Valeh oldum min qəndilli bu fanar dağa,
İşıq salır Abşerona zülmət içində.

Töksün  yağış, ələnsin qar, tərpənsin külək.
Duman gəlsin, dolu vursun, yanar biaram.
Aləm bilir sönən deyil bir yanar ürək,
Aləm bilir sönən deyil haqdan yanan şam.

Vay halına ağ nöyütə möhtac fitilin,
Vay halına üfürülən manqal közünün.
Vay halına şüşəlikdə bitən şitilin,
Vay halına qum üstündə ayaq izinin.

Vay halına geci-tezi tükənənlərin,
Vay halına bu dəhşəti qanmayanların.
Vay halına fitil közü tükənənlərin
Vay halına yelləməsən... yanmayanların...

Xoş halına öz içindən bağrı yananın,
Yanar qəlbə yaxın gəlməz ilan, qurbağa.
Xoş halına odlar doğan Azərbaycanın,
Bu Yanardağ bir qardaşdır min Yanardağa.

Xoş halına igidlərin, qəhrəmanların,
Xoş halına şanlı, şəhid müqəddəslərin.
Bu torpaqda yatanların, yatmayanların,
Xoş halına yad eldə də doğma kəslərin.

Babəklərin möcüzəyə dönmüş vüqarı,
Mehdilərin gül-çiçəkli qərib məzarı.
Qürurundan kədərindən səni yandırır,
Səni alov-heykəl kimi mənalandırır.

Nəsimilər inadının rəmzi Yanardağ!
Füzulilər fəryadının əksi Yanardağ!
Vətəninə həsrətlərin həsrətiylə sən
Uzaqların zülmətinə nur çiləyirsən.

Ərənlərin ürəyidir Yanardağlarım,
Oğulların şərəfinə əbədi məş'əl.
Azərbaycan, ana yurdum, odlar diyarım.
Atəş dolu ürəyinlə min dəfə yüksəl!

Sübh açılır, xəzri gedir sübh yuxusuna,
Çırpınmaqdan əldən düşüb yatır alovlar.
Al fəcrdən bayraq sancıb öz yaxasına,
Göy qızarır, qızartıda itir alovlar.

Böyük olur çılğınların təvazösü də...
Boy göstərən al günəşdən utanır odlar.
Yaxşı görür yerin üzü, göyün üzü də,
Təvazödən qızartıya boyanır odlar.

Təvazö də fitrətdədir, cövhərdədir, bil!
Qondarmaya dəxli yoxdur bu xasiyyətin.
Qondarma öz təsdiqiyçin soxar gözə mil,
Həyasızlıq təvazöyə bürünər çətin.

Azərbaycan – çınqısından vulkanınacan,
Azərbaycan – çeşməsindən ümmanınacan,
Azərbaycan – dahisindən adisinədək,
Azərbaycan – fəhləsindən aliminədək,

Azərbaycan – Babəkindən əsgərinədək,
Azərbaycan – Şahdağından düzlərinədək,
Tarixlərin yarpağında təvazölüdür,
Hər anında, hər çağında, təvazölüdür.

Körpə, yaşıl çəmənlikdə nəhəng lalətək,
Mən baxıram bağrı yanıq Yanardağıma.
Qürur ilə baş əyirəm səcdə edərək
Bu elimə, bu obama, bu torpağıma.

*1976*

## TRAMVAY PARKA GEDİR

*(poema)*

Gecə saat bir
Tramvay parka gedir.
Cingildəyir şüşələr.
Boş vaqonda bilinir bu cingilti bu qədər.
Gecə saat bir.
Tramvay parka gedir
Ləngərlə.
Bu ləngər bilinməzdi –
Vaqon dolu olsaydı sərnişinlərlə.
Uzundur parkın yolu,
Küçələr sükut dolu.
Relslərin calağında çaqqıldayır təkərlər.
Elə bil bir nəhəngin dişlərini tökürlər.
Gecə saat bir,
Tramvay parka gedir.
Məftillərdən od qopur şimşək çaxan sayağı.
Məftillər fışıldayır qızıl ilan sayağı.
Uzunsov lampoçkalar yanır-sönür arabir,
Konduktor mürgü döyür...
Tramvay parka gedir...
Konduktorun çənəsi
Boynundakı çantanın qayışına toxunur.
Yumulu gözlərindən hər şey açıq oxunur.
Sürücü siqaretin kötüyünü sümürür,
Yandakı pəncərədən –
Qaranlığın üzünə bir parça köz üfürür.
Yolda bir sərxoş durur dünyanın ağasıtək...

– Xox... qorxub qaçacağam, kişidir bassın görək.
Təkərlər xırhaxırla relsdə sürüşüb yanır.
Konduktor məhəccərə çırpılaraq oyanır.
Qaçır sürücüsarı:
– Adam basdın?
– Yox, ay qız!
Heç iti-pişiyi də candan etmək yaramaz.
Qorxdun?
– Qolum əzildi yaman.
– Can-can...
Gecə saat bir,
Tramvay parka gedir.
Sürücünün saçından sürüşür qızın əli:
– Baləli!
– Can!
– Yorulmusan?
– Az-maz.
Eybi yoxdur, Münəvvər.
Parka az qalıbdır, az.
Parkacan özümüzü çatdırarıq birtəhər. –
Gecə saat bir,
Tramvay parka gedir.
Gözətçilər bayırda hərdən fışqırıq çalır,
Gözətçilər neyləsin sübhəcən oyaq qalır,
Yuxu qovulsun gərək.
Mürgü sovulsun gərək.
– Baləli!
– Can!
– Gəl sabah ərizə yazaq, gəl çıxaq tramvaydan.
– Bu fikir hardan düşdü ağlına, ay Münəvvər?
Necə yəni gəl çıxaq, gəl ərzə yazaq səhər?
– Baləli, ayaqlarım tapdağa dözmür, inan.
Səhər-axşam ürəyim hövl edir basabasdan...

Sənə nə var, Baləli, bircə yola baxırsan.
Hay-küydən nə xəbərin, relslər üstə axırsan.
– Deyirsən də, Münəvvər.
Yoldan fikrim yayınsa yüzünün qanı gedər.
Bu – yandakı güzgüdən
Dalı da görürəm mən.
Dala da baxıram mən.
Gedə-gedə minirlər,
Gedə-gedə düşürlər,
Minəndə sürüşürlər,
Düşəndə sürüşürlər,
Hamıya cavabdehəm,
Nə qəm...
Ay dəli!
Ay tramvay gözəli!
Ay mənim konduktorum!
Köhnə bayatılarla neçin özümü yorum? –
Gecə saat bir,
Tramvay parka gedir.
– Deyirsən tramvayın səhər ataq daşını?
Qız oğlanın çiyninə toxundurur başını.
– Bəli.
Baləli!
Hansı işə deyirsən, hara deyirsən gedək.
Lap qızıl mədəninə...
Lap kömür mədəninə.
Gedək, amma, tən gedək.
Vaqonda işıqlar sönür bu zaman...
– Ay-hay,
– Eh, bu cərəyan da vaxt tapdı yaman.
Susur tramvay.
Bir az gedir-gedir durur tramvay.
“Parka yaxşı gəldik”, “Yaxşıca çatdıq”.

"Yaxşıca dincəldik", "Yaxşıca yatdıq".
– Düş, cərəyan gəlincə, gəzək bayırda bir az,
Hava almaq pis olmaz.
Gör bizim tramvaya nə yazılıb, Münəvvər,
"Komsomola hədiyyə!" əntiqədir bu sözlər.
Hər vaqonun böyrünə yazılmayır belə şey.
"Komsomola hədiyyə!" böyük şan-şöhrətdir ey!
– Əlbəttə, çox böyükdür, buna nə söz, nə söbhət,
Bu vaqonda işləmək səadətdir, səadət.
Adamla dolu olur tramvay səhər-səhər
İşə gedir camaat, işə gedir fəhlələr.
Bir parası qızarır,
Gözümdən yayınmağa bir künc-bucaq axtarır.
"Bilet alın!" deyirəm, deyirəm, dayanıram.
Bir parası ağarır.
Mən isə ağartmıram – susuram, inanıram...
– Sərnişinlər də var ki... ay Münəvvər, axı sən
Onların barəsində bəs niyə söz demirsən?
Bir biletçin bir onluq ötürür əldən-ələ
Gözünü qırpmır belə...
Bəs niyə söyləmirsən: elə sərnişin də var
Biletsiz düşmür yerə... keçir dayanacaqlar...
Yoxsa sənin sözündən belə çıxır ki, daha
Bir belə camaatın işi qalıb Allaha.
Bəlkə biri xəsisdir, natəmizdir cövhəri,
Ömrünün illərindən çox sevir qəpikləri.
Harda olsa qənimət axtaranlar da çoxdur.
Hər bilet almayanın zənn etmə ki, cibində
Üç qəpik pulu yoxdur.
Ölümə göz dikən var – ölüm olsa havayı,
Onların nə vecinə hökumət tramvayı.
Bilirəm inciyirsən səhərdən axşamadək
Əlli min cür adamla çənə-boğaz döyərək.

İxtisara düşəcək onsuz da vəzifəniz
Bütün konduktorları yığıb söyləyəcəklər:
“Başqa işə keçin siz!”
Gün gələcək bizi də yığacaqlar bir yerə,
Deyəcəklər: yaraşmır tramvay bu şəhərə.
– Sürücülər, sizinlə qurtardıq, – deyəcəklər.
– Relslərin hamısını çıxardıq, – deyəcəklər
Onda biz də taparıq ayrı peşə, ayrı iş,
Yol geniş, həyat geniş.
Sənin yaşın iyirmi, mənimki iyirmi bir,
Yelkən təzə açılır, gəmi təzə yellənir.
Parkda bizi tanıyır, parkda bizi sevirlər,
Yaxşı, çıxıb neyləyək, hara gedək, Münəvvər?
Sən biləni başqa yer burdan rahatdır yəni?
Yox, kurort zənn eyləmə fabrik ilə mə`dəni.
Üz-üzə gələcəksən insanlarla, Münəvvər,
Hər yerdə, hər məkanda.
Nə deyim, görəcəksən filan da, bəsməkan da... –
Xəttə cərəyan gəlir,
Qaranlıqdan işığa çıxan gözlər qamaşır.
Elektrik motoru elə bil donquldanır.
Kiminləsə savaşır.
Tramvay ağır-ağır öz yoluna düzəlir.
– Yadındamı, Baləli, qələm çəkdik hər şeyə.
Göz yumduq hər gileyə.
Eşqə, sədaqətə biz and içərək
Vurğunun “Komsomol poeması”nın
Ilk sətirlərini xatırladantək:
Ayazlı-şaxtalı bir qış səhəri
Iki yoldaş olub yola düzəldik.
Nabələd-nabələd gəzib şəhəri
Axırda tramvay parkına gəldik.
Bizə yataqxana... bizə iş... hörmət...

İnsanlıq... Şirinlik... Qayğı... Hərarət...
– Yaxşı ki, bunları sayırsan bir-bir...
Ötür dayanacaqlar, tramvay parka gedir,
Maşın tapa bilməyən sürücüyə əl edir,
Tramvay parka gedir...
– Mən bunları sayıram, mən bunları qanıram,
Ancaq öz qərarımı yenə doğru sanıram.
– Park bizə ev verəcək bu gün-sabah, Münəvvər!
– Parkda işləməyənlər küçədə yatır məgər?
Tramvay bir dövrənin ətrafında dolanır.
Çıxa bilməz kənara, gedə bilməz uzağa.
Ömrün, həyatın yolu üfüqlərə uzanır
Bizə qol-qanad gərək üfüqləri... aşmağa,
Üfüqün yolu çətin, üfüqün özü əlvan,
Qoy bu son dövrə olsun, ayrılaq tramvaydan.
Üfüqün bir parçası harda yanır, Baləli?
Kəndimizin üstündə, yanırmı?
– Yanır, bəli!
– Bax, o həmin parçada niyə görünməyək biz?
Tinlərin arasında tam sür'əti boğulan
Tramvayda nə üçün keçsin ilk gəncliyimiz?
Səninlə bağlamışam arzumu-diləyimi.
– Peşimansan?
– Yox.
Duymursan ürəyimi?
Getməsən də dözərəm.
Boynumda pul çantası, əlimdə bilet topu.
Tramvayda gəzərəm.
– Münəvvər!
Maaş günüdür səhər
Nəğd, halal.
Gedək nə xoşlasan al.
İkimizin qazancı üst-üstə xeyli tutur.

Maaş günüdür səhər.
Ağlayan bir uşağı konfet ovundurantək
Böyük də pul alanda hər ağrını unudur,
Qız başını bulayır:
Çanta yana əyilir, pullar dağılır yerə.
Diksinib cingiltidən geri baxır sürücü.
Gözucu.
Yenə dönür irəli,
– Saxlayım?
– Sür,
Baləli, sür!
Parkın darvazasının işıqları görünür.

*1962*

## PULLAR VƏ DÜŞÜNCƏLƏR

*(poema)*

Çoxdan bu xəznədə pul sayıram mən.
Xışıltıyla dolub beynim, qulağım.
İlbəil milyonlar keçib əlimdən,
Sürtülüb, sürüşkən olub barmağım...
Yenə də sayıram: bu on, bu yüz min.
Pulların şaxı da, əziyi də var.
Bu pul lap süzülüb; neçə yol yəqin
Onu cığarayla yapışdırıblar.

Sayıram... çaşıram... sayıram yenə
Bu gün heç bilmirəm nə olmuş mənə?
Qabaqlar başıma belə əhvalat,
Gəlib, çox gəlib,
Görüb palazqulaq yüzlüyü qat-qat
Gözüm yol çəkib,
Gözüm bərəlib.

Yüzlük, əllilik nə, lap təkliyə də
Bir özgə niyyətlə xeyli baxmışam.
Boynuma almayım, axı, niyə də...
Lap gülməyim gəlir,
Görünür ki, mən
O zaman sadəlövh bir uşaqmışam.
Hər şey adiləşdi gözümdə sonra.
Var-dövlət eşqilə qəlbim yanmadı.
Mən bir vüqar duydum özümdə sonra,
Hissim manat kimi xırdalanmadı.

Saydığım pullardan çəkdim gözümü,
Maaş cədvəlinə dikdim gözümü:
Bəs indi nə üçün fikrim dağılır?
Diqqətim bir yerə çətin yığılır?
Əllərim pul sayır, xəyalım uçur,
Uçur min yana.
Lənət şeytana.
Fikrim dağı-daşı gəzib dolanır,
Qəribədir ki –
Pulların üstündə gəlib dayanır.
Pullar yığın-yığın, qalaq-qalaqdır.
Buraya min yerdən yığılıb onlar,
Buradan min yerə dağılacaqdır.
Əllərim sayır,
Ancaq necə sayır –
Yoxdur xəbərim.
Bir yerə yığılıb cəm ola bilmir
Düşüncələrim –
Mənim pərakəndə düşüncələrim.
Bu beşlik, bu onluq, bu əllilikər
Dil açıb danışa bilsəydi əgər
Hamı yaxın gələr, maraqlanardı.
Min ömrün kitabı varaqlanardı.
Arzular-əməllər edərdi aşkar
Pullar, bu pullar...
Görünür zavoddan gəlib bu onluq,
Fəhlə donluğudur – halalca donluq.
Gerbi, nömrələri bulanıb gəlib.
Qənaət ilə,
Bəlkə çox nemətə bir həsrət ilə
Bazarı-dükanı dolanıb gəlib
Gəlib, əyri yolla gəlməyib ancaq.
Sahibi canlanır gözüm önündə

Onun alnı açıq, onun üzü ağ.
Bu beşlik deyəsən şor suya düşmüş
Bir az keşkə atmış, bir az bürüşmüş...

...Dənizin üstündə əlvan bir səhər
Oynaşır, ağarır xırda ləpələr.
Buruqlar görünür sularda tək-tək
Uçur qağayılar, səslənir külək.
Taxta meydançada bir neçə fəhlə
Danışır fərəhlə, gülür fərəhlə.

Bu səhər mükafat alıbdır onlar,
Hərənin cibində bir dəstə pul var.
Maaş yox, mükafat! Zarafat deyil.
– Tut bu əlliliyi xırdala, Xəlil.
– Əllilik köhnənin beş yüzüdür a...
– Beşliklə necəsən?
– Ver gəlsin.
– Ala!
Birdən beşliklərin biri sürüşdü,
Fırlana-fırlana dənizə düşdü.
Suya iki uzun ağac saldılar,
Dənizin əlindən pulu aldılar.
Birtəhər qurudub verdilər işə.
Xəzər belə olmur, axı, həmişə.
Polad dirəkləri qırıb qoparır.
Adamı puluyla, arzularıyla
Həyatın əlindən alıb aparır.
Bu beşlik deyəsən şor suya düşmüş,
Bir az keşkə atmış, bir az bürüşmüş
Əllərim altında pullar qatlanır,
Xəyalım-düşüncəm gəzir dolanır.

Hər pulda bir ürək, bir üz, bir sifət
Nağıl, hekayət.
Bir bu üçlüyə bax, düşüb qırağa,
Elə bil kimdənsə şikayəti var:
– Götürüb verdilər məni arağa
O gün süd içmədi xırda uşaqlar...
Ana için-için ağladı o gün,
Əyyaş əlindəki taleyi üçün.

Sayıram... gözümün önündə bu dəm
Bir sadə görkəmli alim görürəm.
Zəhməti şərəfli, zəhməti ağır,
Başından aşdıqca dövləti-varı
Adam halal edir ona pulları.
Onun ixtirası qaynar bir bulaq,
Bizə çox görünən qazancı isə
O qaynar bulaqdan damcıdır ancaq.
Pullar əldən-ələ gəzib dolanır
Axırda hamısı bura toplanır.
Bəllidir: bir cürə qazanır hərə,
Səsə, iynə-sapa, sözə, təkərə
Bağlıdır manat.
Həyat... manat... həyat...
Sayıram... hər pulun öz tarixi var,
Xəznəyə yüz yolla gəlib çıxıblar.
Burda bir-birinə qarışır gedir
Çayların dənizdə qarışdığıtək.

Necə qarışsa da saf-çürük edir –
Halalı, haramı ayırır ürək.
Pullar axıb gəlir, mən də sayıram,
Üst-üstə yığıram, hamarlayıram.
Haqq-hesab düz olsun, kimə nə var ki.

Düz olsun təki...
Nə halal-haram?
Yenə sayıram...
Sayıram... yüzlüklər əlimdən düşür.
Birini dizimin üstə tuturam.
O biri nə bilim hara sürüşür.
Deyəsən görünmək istəmir gözə
Yüzlüklər şaxbaşax, yüzlüklər  təzə.
Ağardır dişini sırtıq adamtək
Elə bil yalvarır.
– Say qurtar görək.
Sonra hədələyir:
– Üstünü vurma
Həngamə qurma
Sən nəsən? Daş, dəmir yumşaltmışıq biz.
Ağızlar yummuşuq – səssiz-səmirsiz.
Cibdən-cibə girib kara gəlmişik.
Soruşma haradan-hara gəlmişik.
Rüşvətik, hər nəyik, kimə nə var ki?
Haq-hesab düz olsun,
Düz olsun təki...
Yüzlüklər ovcumun içində yanır,
Qəzəblə sıxıram lap yumurlanır.
Boğuq bir xırıltı eşidirəm mən
Çıxır bəbəkləri hədəqəsindən.
Sıxıram, sıxıram..
– Burax, qaraldım.
Verdilər, aldım.
Mən də sənə verrəm. Boğuldum burax,
Ax...
Sıxıram, əlimdə ilan çırpınır,
Qıvrılır, açılır, yaman çırpınır.
Axır zəhəri,

Əsgiyə döndərir şax yüzlükləri.
Murdar əskilər!
İnanın, maaşım çatsaydı əgər
Sizi yığışdırıb atardım çölə
Çöl nədir, kül edib verərdim yelə.
Bir kəlmə – ayırıb dövrədən sizi –
Cədvələ yazılmış məvacibimlə
Əvəz eləyərdim bu gün mən sizi.
Başımın üstündə səslənir saat
Aman! Oturmaqdan ayağım yatıb.
Yığıram saydığım pulları qat-qat.
Haqq-hesab edirəm, yüz minə çatıb,
Başımın üstündə səslənir saat.
Əqrəbləri fırladır:
Zaman,
Ömür,
Həyat.
Əlləşir, vuruşur insan həmişə.
Hərə bir sənətə, hərə bir işə
Bağlanır, bəli.
Nəyə qadir deyil insanın əli?!
Manatlar!
Sizin çoxunuzda alın təri var
Bir güclü işığa tutsalar sizi,
Yuxusuz gözlərin görünər izi.
Ovuclar içində bərkiyən qabar
Sizi cızıq-cızıq edib, manatlar!
Sizdə qurşun tozu, dərman tozu var,
Sizdə tütün tozu, saman tozu var...
Sizdə nisgili var neçə ürəyin,
Sizdə həsrəti var neçə diləyin.
Hər kəs öz haqqını alsa da bu gün
Bütün nemətlərin ləzzəti, dadı,

Birdir, axı birdir insanlar üçün.
Başımın üstündə səslənir saat,
Dolanır zaman.
Zaman dolandıqca bizim bu həyat
Daha da bəxtiyar olacaq, inan!
Arzunun-diləyin mənası təzə,
Zəhmətin, əməyin mənası təzə.
Açarsız, xəznəsiz təzə bir aləm...
Pulların belini bağlayıb o dəm
Tarixə verəcək mənim diyarım.
Onda dincələcək bu barmaqlarım.
Sonralar cahana gələn nəsillər
Bizim pulumuza baxsalar əgər
Mənim bir arzum var:
Bizim pulda qoy
Ləkə,
          ləkə,
                    ləkə
Görməsin onlar.
Görsün əziyyətlə, şərəflə dolu
Bizim keçdiyimiz çətin bir yolu.

*1962*

## SOLO

*(poema)*

Neçə ildir yana-yana o, tar çalır...
“Rondo” çalır, “Təsnif” çalır, “Qatar” çalır.
Gicgahında dən görünür birəm-birəm,
Baxışında qəm sezilir, gizli bir qəm.
Pencəyinin yaxasında işıltı var –
Sürtmüş onu sinəsində səslənən tar...

Barmaqları pərdələrdən axa-axa,
Başlar üstdən dirijora baxa-baxa
O, tar çalır, simdən-simə qonur mizrab,
“Fantaziya”, “Sözsüz mahnı”, “Segah”, “Rahab”.

Xallar vurur bir-birindən şirin, incə,
Özgənin də, özünün də ürəyincə,
Özgələri duya bilməz bəlkə bunu, –
Tarzənin harda nə xal vurduğunu.

Orkestrdə – min sədalı bu ümmanda
Bir dalğadır adsız-sansız tar çalan da.
O, bir dəfə əl saxladı. Dedi: – Görək,
Bilinəcək?..

Yox, dirijor hiss etmədi əsla bunu,
Bir mizrabın, bircə tarın susduğunu.
O, üzünü çalanlara tutsa belə,
Bu ki, duymaq deyil hələ.

Əl saxlayan tarzənə tək öz qəlbi
Hərarətlə,
Məhəbbətlə,
Məzəmmətlə
Dedi: – Yoxdur ixtiyarın, –
Niyə susur sənin tarın?
Kim yaradır bu ahəngi, bu axarı?
Sənin tarın, onun tarı.

Hər ulduzun adı yoxdur, işığı var,
Bir ulduz da sönsə belə nur azalar.
İşarəylə solo çalır bir tarzən,
Ürək duyur: dinləyirsən həsrətlə sən.

Orkestrə gələn günü lap cavandın,
Onda birgə çalmağı da şərəf sandın.
Dirijor da görünmürdü onda bu cür...
O da sadə bir kişiydi, qəşəng, hündür.

Dinləyərdi, dindirərdi tez-tez səni,
İzləyərdi hər xalını, hər pərdəni.
Söyləyərdi: – Sən nə tələs, nə də qəm çək,
Sabah hər kəs sənə qibtə eyləyəcək.
Lap qiyamət çalacaqsan,
Əla solist olacaqsan.
O, çoxuyla belə deyib-danışardı,
İnsana da, sənətə də eşqi vardı.
Lakin nəsə... tanındıqca, ad aldıqca,
Alqışlanıb, tərifənib, ucaldıqca,
Gicəllənir, itirirdi o, başını,
Bir ədayla oynadırdı göz-qaşını.
Qürrələndi uyub şana, şöhrətə o,
Fərq qoymadı peşə ilə sənətə o.

Əlindəki zərif çubuq çomaq oldu,
İncəlikdən uzaq oldu.
O dayandı, o qaraldı kötük kimi,
Əl-qol atdı, fısıldadı körük kimi.

O zamandan aylar ötdü, illər ötdü,
Tarçı demir ömrü-günü hədər ötdü.
Vaqif oldu musiqinin axarına,
Öz tarına
Ürəyinin tellərindən tel caladı.
Ancaq solist çəkilmədi onun adı.
Səslənsə də neçə-neçə nəğməli tar,
Onun tarı eşidildi aydın-aşkar.
Çaldı-çaldı, açılmadı qol-qanadı,
Çaldı... solist çəkilmədi bir yol adı.
Yerlər gəzdi, yerlər gördü bu illərdə,
Onun tarı dilə gəldi yüz şəhərdə.
Alqış səsi titrədəndə salonları
Göylərə də sığışmadı iftixarı.
Coşub-daşsın təki xalqın istedadı,
Təki xalqa qurban olsun adsız adı...
Fəqət ürək bir həsrətlə yansa əgər,
Bu yanğını söndürərmi təsəllilər?
Gözlərini bir nöqtəyə zilləyərək
Xəyalında o, çalır tək.
Qulaq asır yaxın ona, uzaq ona,
Qulaq asır oğul ona, uşaq ona,
Sevdalı Kür, məhzun Araz, ana Xəzər,
Doğma Bakı – ruhu incə, fəhlə şəhər.
Sanki bütün kameralar
Çevrilmişdir ona sarı,
Adı gəzir bərbəzəkli elanları.
Mikrofonlar yayır onu hər bir yana,

Meşələrdə quşlar gəlir həyəcana,
Qulaq asır qaynar bulaq,
Nurani dağ
Şərqin müdrik muğamına.
Əhsən – deyir, ana torpaq
Tarizənin ilhamına.
Qulaq asır orkestrin "allahı" da,
Ona qarşı işlətdiyi günahı da
Etirafmı edir yoxsa? Edir, bəli.
Əsir əli.
Uzun çubuq düşür yerə.
Bu çubuqla o, sədd çəkib –
Neçə-neçə arzulara, diləklərə.
Bu çubuqla kökdən salıb neçə tarı,
Vahimədən batır onun qulaqları.

Tarçı çalmır xəyalında, çalır aşkar.
Pıçıltılar eşidilir, pıçıltılar...
Orkestrin üzərindən elə bil ki,
Bahar keçir.
Elə bil ki, şimşək çaxır,
Sellər gəlir, sular keçir.
Baxışlarda sevinc dolu bir iztirab...
Elə bil ki,
Orkestrdə bir orkestr dilləndirir
Zərif mizrab.
Dirijorun gözlərində qəfil heyrət,
Qəzəbindən gömgöy olur dodaqları.
– Bu nə sifət, bu nə hünər, nə cəsarət –
Nə karədir tək səslənə onun tarı?
Pozuldu ritm, batdı ahəng, qırıldı takt,
İcazəsiz, işarəsiz, heç vaxt... heç vaxt.
Necə? Sənət – dərəbəylik? Ola bilməz!

Mən icazə verməmişəm, çala bilməz!
Yox, o çalır, heç ahəng də pozulmayır,
Bircə xal da pozulmayır,
Bircə rəng də pozulmayır.
Zərif çubuq dönüb çomaq olmaz, olmaz!
Sənət odu yandırmasa,
Çalmaq olmaz.
Qəlbdən nəğmə ucalırsa –
Əldən mizrab almaq olmaz.

*1961*

## DAĞLARA QALXIRSAN

*(poema)*

*Köhnə dostum, Lənkəranlı*
*sürücü Məmmədağa Əzizova*

Dağlara qalxırsan, söylə bu dağlar
Sinənə çəkilən dağlarmı, yoxsa?
Dərədə sakitmi çağlar bulaqlar,
Gözlərin sakitcə ağlarmı, yoxsa?

Bu gün yol da rahat, maşın da rahat,
Nədən təngiyirsən, söylə, nədən sən?
Ərimiş çiynində sanki bu saat
Dağları dağlara qaldıran sənsən.

Dünənsə... dünənsə... "dünən" deyəndə
Həmin o "dünən"dən ötüb çox illər,
Bu yolsuz yollarda dumanda, çəndə
Təngimək, ləngimək bildinmi məgər?

Qorxunc keçidlərdə tank idi, nəydi?
Yoxuşda zarıyan nimdaş maşının.
Lap nəyi sınsaydı ləngidi nəydi?
Yardımlı yolunda, qardaş, maşının!

Qayalar kölgəli, dərələr bumbuz.
Bu güllü-bülbüllü meşələr sərin.
Fəqət uzandıqca bizim yolumuz
Yanırsan odunda xatirələrin.

Hər döngə, hər körpü, hər daş, hər kəsək
Sənin yazılmamış tale kitabın.
Bir az şairliyin olaydı gərək
Bir az azalardı dərdin, əzabın.

Dağlar qoynundakı xırda qəsəbə
Şahiddir az sürən xoş əyyamına.
Mən yaxşı bilirəm sən nə səbəbə
Qəribə baxırsan burda hamına.

Axı kim idin ki, nəçiydin ki, sən
Kolxoz maşınında adi sürücü...
Həm cavan, həm sağlam, həm deyib-gülən
Ruhu şən, qolunda pəhləvan gücü.

Sənin ürəyinə od saldı bir gün,
Özü öz diliylə od saldı bir qız.
Uca zirvələrə ucaldı könlün,
Qartal bəhsə girdi qəlbinlə yalnız.

Qorxulu-hürkülü ağır yolları
Sevda qanadında keçən sən idin.
Sevilmək qüruru... oğlan vüqarı...
Fərəh çeşməsindən içən sən idin.

Yükləyib maşını dağdan da hündür,
... Sən dərz daşıyırsan Ay işığında.
Yerlər də, göylər də sehrə bürünür
Səni sevən qızın yaraşığından.

Sənə yaxın idi o kənddə hər şey
Gül kimi adamlar, gül də, çiçək də.
Sənsiz hansı qayğı... sənsiz hansı toy...
Ürəyin vurmurdu hansı ürəkdə?!

...Enişin əvvəli, yoxuşun sonu
Maşınla enişə enəndə səhər.
Yoxuşda piyada görüncə onu
Saxladın maşını güclə birtəhər:

– Yordu yoxuş səni, nə biləydim, nə,
Birtəhər dönərəm, kabinaya keç!
O da pıçıltıyla söylədi sənə:
– Dönmə, səni sevən yorularmı heç?!

Səntək istəklisi olan yorulmaz –
O, bir də söylədi həmin o səhər
Sən lap dəli oldun, az qaldı ki, az...
Ruhuna sığmadı yerlər və göylər.

Eşqin fərəhindən hamıyla şirin...
Bağrına basardın bütün kəndi sən.
Bağrını yandıran xatirələrin
Dalınca gedirsən, yoxsa indi sən?

Məhəbbət mehriban etmişdi səni
Uşağa, cavana, qocaya qarşı.
Məhəbbət pəhləvan etmişdi səni,
Göyə qaldırardın külli dağ-daşı.

İndi yanıq nəfəs, indi quru can...
Bir gözlərin qalıb səndən yadigar
Bütün adamları sən tanıyırsan...
Tanıya bilməyir səni adamlar.

O gün ki... o gün ki... istəklin sənin
Keçdi ali məktəb astanasından,
Sən qaldın qoynunda dumanın, çənin
Sən qaldın dağlarda könlü nigaran.

Ən tez dəyişən nə? Ən tez dönən nə?
Vallah, insan üzü, insan sifəti!
– Daha yaraşmırsan, – dedi, – sən mənə,
Elə dağda qalsın dağın söhbəti.

Şəhər... ali məktəb, hay-küy, izdiham...
Bir də ki, Yardımlı dağlarında kənd...
Gözləri qəfildən açılan adam
Deyirlər tanımaz nə bərə, nə bənd.

Qəfil dolu vurmuş bağ-bağçalartək
Elə qırıldın ki, töküldün ki, sən,
Elə əridin ki, güneydə qartək
Elə əyildin ki, büküldün ki, sən.

Bir də düzəlmədi qəddi-qamətin
Qismət tez gətirdi sənin qışını.
Ürək zəlzələsi amansız, çətin
Daş üstə qoymadı sənin daşını...

Təsəlli xətrinə demirəm bunu,
Zəlzələ qoparan ürəyə alqış!
Adam var; ürəyin nə olduğunu
Yüz il ömür sürmüş, heç anlamamış.

Təkərlər altından qopan daşların
Düşür şaqqıltısı lal dərələrə...
Dərələr diksinir:
– Əhdin, ilqarın
Nə dəxli təhsilə, kəndə, şəhərə?!

Dağlara qalxırsan, tanış dağlara,
Bu tanış dağlarda çoxdu tanışın.
Ancaq tanış hara... tanış da hara...
Tanışlar içində yoxdu tanışın!..

*1975*

# İSGƏNDƏRİN ANASI

*(poema)*

Oğlunun dəfni günü lap fəğan etdi ana,
Gözündən göz yaşı yox, od tökdü qəbristana.
Saçını çəngə-çəngə yoldu, yellərə qatdı.
Qəzəbli fəryadilə yeri-göyü ağlatdı.
Üsyan etdi Allahın məsləhətsiz işinə,
Üsyan etdi oğlunun əlində tir-tir əsən,
Böyük məmləkətləri
Yarpaqtək bir-bir əsən
Dünyanın gərdişinə!
İsgəndəri-Kəbirin anasıydı bu ana.
Elə gəlirdi ki, ona –
Oğlu zarafat edir yer-göylə, kainatla,
Qılıncıyla "sahmana saldığı" bu həyatla.
Peyğəmbər alimlərin ağlını çaşdırır o.
Yuxuyla həqiqəti qəsdən dolaşdırır o.
İsgəndərsiz yaşamaq fikrindədirmi bəşər?
Sözsüz zarafat edir bu bəşərlə İsgəndər.
Min il bundan qabaq da,
Min il bundan sonra da
İkinci İsgəndərin zühuruna nə güman?
Uşağım yeganədir – kor deyil, görür cahan.
Yox, mənim yeganəmi basdırmayın torpağa.
İndicə silkələnib o qalxacaq ayağa.
Fəqət adicə bir dəfn... adi torpaq, adi daş.
İsgəndərin anası toxtadı yavaş-yavaş,
Başa düşdü ki, ölüm gədaya, şaha baxmır.

Göz yaşına, fəryada, amana-aha baxmır.
Ana naləsi sonsuz, ana qüssəsi dərin.
Ana layla çalsa da qəbrinə İsgəndərin,
Oğlunun ölümüylə yenə də barışmadı.
Üsyan etdi, heç yerdə büzüşüb qırışmadı.
Qaranlıq qanadını gərən kimi hər yana,
İsgəndərin anası gələrmiş qəbristana,
Ağ, pərişan saçları dağılarmış zülmətə.
Qışqırığı sükutu gətirərmiş dəhşətə.
Qəbirlərdə sümüklər şıqqıldarmış səsindən,
Sərdabələr uçarmış səsin vahiməsindən.
Yerin-göyün qulağı tutularmış az qala:
Ay İsgəndər, heyy...
Ay İsgəndər, huyy...
Əks-səda verərmiş lal qəbirlər – huyy!
Gün nədir, həftə nədir, sən danış ildən, aydan.
Ulduzlar hərasanmış sübhəcən bu haraydan.
Otlar, güllər, çiçəklər, quşlar gəlmişdi zara.
Bu fəryad qoşulmuşdu dəryada dalğalara.
Bayquşlar, yarasalar qorxub yerə sinirdi.
Qocalar köks ötürür, körpələr diksinirdi.
Az qalmışdı anadan Allah eyləsin giley...
– Ay İsgəndər, ay İsgəndər, ay İsgəndər, hey!
Gündüz bilən yox idi ana necə olurdu.
Ana harda qalırdı,
O, gecədən gecəyə dəli şivən salırdı.
Gecələrin birində öz adətiylə ana
Yenə də gəldi çıxdı lal-dinməz qəbristana.
– Ay İsgəndər, ay İsgəndər, huyy!
– Ay İsgəndər, heyy!
Bircə göz qırpımında yarıldı min bir qəbir,
Hər qəbirdən bir oğul səsləndi:
– Ana, nədir?

Hər qəbirdən bir igid qalxıb dedi:
– Anacan!
Hərasan edəcəksən bizləri haçanacan?
Ömrümüzə vəfasız çıxdı ana qucağın,
Dincələk qucağında barı ana torpağın.
Fəda olardıq sənə, sağ olsaydıq əgər, sağ.
Ruhumuz sənə qurban, bizləri rahat burax!
Girib insan şəklinə qəbir daşları bir-bir
Ananın ayağına yıxılmaqçın yeridi.
Ana bu vahimədən sanma donub dayandı.
Gördüyünü ikrahla adi həqiqət sandı.
– Karsınız? Eşitmirsiz, burda haçandan bəri.
Çağırır, çağırıram mən ancaq İsgəndəri.
Teyflər lap dövrəyə aldı ananı bu dəm.
Teyflər bir-bir dedi:
– Mən,
– Mən,
– Mən,
– Mən İsgəndərəm.
Ana qəhqəhə çəkir:
– Siz! İsgəndər?!
Bilsəydim ki, İsgəndər
Miqdarsızmış bu qədər
Bətnimin zülmətində
Boğardım İsgəndəri.
Heç doğardım İsgəndəri?!
Teyflər gülümsəyir, anaya ibrətamiz;
– Bəli, İsgəndərik biz.
– Gəl, yaxşı bax bu ucsuz-bucaqsız qəbristana.
Neçə-neçə İsgəndər gəlib-gedib cahana.
Neçə-neçə İsgəndər hələ gəlib-gedəcək
Hər İsgəndər özü də əvəzsiz, yeganə, tək...
Fikir ver ulduzlara hesabı yox, sayı yox,

Ancaq hər ulduzun da bərabəri, tayı yox.
Həsrətdən çox, qürrədən od tutan dili qafil,
Toxta ki, burda yatan tək sənin oğlun deyil.
Ey fateh İsgəndərin iddialı anası!
Sözüm yox, analar balasıyçın yanası.
Ancaq sənin övladın demə ki, yeganədir.
Yeganəlik söhbəti nağıldır, əfsanədir.
Yeganəlik söhbəti bu yerdə lap hədərdir,
Bir bax, sərdabələrə – İsgəndər nə qədərdir.
Ana, möhtərəm ana!
Ana, möhtəşəm ana!
Rahat ol, innən belə.
Qəbristan çevrəsində
Dolanma gennən belə!
Yoxa çıxdı teyflər, sükut sardı hər yanı.
İsgəndərin anası tərk etdi qəbristanı.

*Aprel, 1976*

# CIRTDAN

*(poema)*

Səni nağıllardan tanıyıram mən,
Silinib getmirsən təsəvvürümdən.
Ağzım açıq qalıb cəsarətinə,
Tilsimlər sındıran məharətinə,
Təsvirdə bir tikə boyun var sənin,
Boyuna uyuşmur ancaq düşmənin.
...Ağ div yeddi başlı, sən yeddi barmaq.
Qara div gəşt edir, titrəyir torpaq.
O üçbığ kosadır, bu göygöz kosa,
Gəlir küpəgirən əlində əsa.
Bir anda ətrafı bürüyür sükut –
Başının üstündə bir parça bulud –
Nəhəng ifritəyə çevrilir, aman!
Bir mahal qan udur bir əjdahadan...
Sənin gör nə qorxunc düşmənlərin var.
Sənin gör nə gülünc düşmənlərin var.
Aldadıb onları hər addımbaşı –
Boynuna keçirib dəyirman daşı
Divi öz əliylə qəhr eyləmisən.
Köpüklü sularda qərq eyləmisən.
Cırtdan – acizlikdən, kütlükdən uzaq,
Ağıllı, tədbirli, dəcəl, xeyirxah.
Onu yaratmışdır insan xəyalı,
Zirəklik, çeviklik, cəldlik misalı
Nağıllar dağların dalında qaldı...
Həqiqət çoxaldı, xülya azaldı,
Lap görünməz oldu gözlərə cırtdan.
İstehzalı gəldi bizlərə cırtdan.

Kiçik dövlətlərə cırtdan deyildi,
Kiçik millətlərə cırtdan deyildi,
Boyu çıxmayanlar tənəyə dözdü,
"Cırtdan" ləqəbiylə ağrıdı, gəzdi.
Cismani xırdalar cırtdan oldular,
Mənəvi xırdalar azman oldular.
Hünər boy-buxunda olsaydı əyər,
Cırtdan yaratmazdı ulu nəsillər.
Dağ boyda adamlar tanıyıram mən
Qorxaqlıq tökülür sir-sifətindən.
Xırdadır, cırtdandır onun vicdanı,
Ona tay etməyək nağıl – "Cırtdan"ı.
Vədindən çəkilən, sözündən qaçan,
Kölgəsindən qorxan, özündən qaçan,
Zavallı nəhənglər tanıyıram mən.
Min cırtdan asılıb yan-yörəsindən,
Pambıqla baş kəsən, ömür zay edən...
Matəm mitinqində ahu-vay edən...
Qılıncsız cəlladlar tanıyıram mən
Cırtdanlar sürüşür yumşaq əlindən...
Gözü dar, könlü dar, sinəsi taxta
Qınına çəkilib zal-zal otaqda
Öz səsi başına düşənlər ki var –
Bugünkü nağılsız cırtdandır onlar.
"Haralısan?" – sözü dilində əzbər
Bir xalqı az qala ev-ev bölənlər
Filtək görünsə də cırtdan deyil bəs?
Sübuta-dəlilə dəyməz, gərəkməz.
Haqqı tapdalayıb şöhrət naminə,
Haramla qovuşan arzu-kaminə,
Qorxudan təmizə ləkə vuranlar,
İgid oğlanlara tələ quranlar,
Namus oğurlayan, çörək itirən,

Yeddi arxasına lənət gətirən
Barmaq hədəsinə torpağın danan,
Əqidəsin danan, bayrağın danan –
Həqiqi... dəhşətli cırtdandır! Ancaq
Gəl, nağıl "Cırtdan"a onu qatmayaq!
...Yenə nağılları xatırlayıram:
Cırtdan meşədədir yoldaşlarıyla
Göbələk yığırlar... qaralır axşam.
Sonra? Sonra səhv yol... divin mənzili.
Qorxudan hamının tutulur dili:
"Adam-badam iysi gəlir,
Yağlı adam iysi gəlir".
Ağız marçıldadır div ləzzət ilə,
Uşaqlar quruyub bir dəhşət ilə.
Tək Cırtdan dayanıb divlə üz-üzə:
– Get, çaydan xəlbirdə su gətir bizə,
Sonra bircə-bircə halalıq sənə.
Axmaq div xəlbiri batırır çaya,
Batırır, çıxarır hey dönə-dönə
Cırtdangil ölümdən yaxa qurtarır,
Div döyür başına, tufan qoparır...
Cırtdan vəfalıdır dosta-yoldaşa
Ey nağıl-Cırtdanım, əbədi yaşa!
Eh... daşürəklilər tanıyıram ki...
Adamı əzabsız itələr oda.
Yandırıb kül elər – təki, qoy təki
Qaşı ütülməsin bir yol dünyada
Gündə min günaha batar eləsi,
Gecə səksəkəli yatar eləsi.
Qoy ona qoşulsun "Cırtdan" ləqəbi
Qoy yağsın üstünə elin qəzəbi!
Tikanlar on cürdür, çiçəklər min cür,
Onunçün laləzar əlvan görünür...

Gözəllər-göyçəklər dünyanı bəzər.
Spirtdə saxlanar təpəgözlülər...
İlanın zəhəri bir damcıdır – tək.
Sərniclər daşdırır bir qızıl inək.
Axmazlar sahilsiz olsa da bəzən,
Acizdir, gücsüzdür bircə çeşmədən.
Bir Günəş şüası min zülmət yarar.
Bir quş yuvasından soyuqdur-soyuq
Nəfəssiz kahalar, boş mağaralar.
Şikəst tək-bir olur, sağlam minə min
Yaxşı ki, yaxşı ki, bəşəriyyətin
Namərdi, nakəsi, nadanı azdır.
Pasportlu, ünvanlı cırtdanı azdır.

*1967*

# AĞ LİBASDA

*Fransız rəvayəti*

Üzündə buludlanan kədəri qovdu ana,
Gözündə tüğyan edən selləri boğdu ana,
Boğazında ilişən qəhəri uddu ana
Dodağını yandıran zəhəri uddu ana.
Ana gəlin anaydı,
Ana cavandı hələ.
Yaralanmış sonaydı
Düşmüşdü qanlı gölə.
Oğlu dar ağacından asılacaqdı səhər.
Neynirsən ki, günahı nə idi, nə deyildi?!
Hökmü möhürləmişdi biryolluq yerlər-göylər...
Vurnuxub çırpınmağın xeyri yox... yaxşı bildi.
Yaxşı bildi ki, ana
Ümid yoxdur ümidə...
Güman yoxdur gümana.
Tanışlar sorağında... ünvanlar sorağında,
Bu zülmü rəva bilməz vicdanlar sorağında.
Ana dolandı dör-dör, ana fırlandı fır-fır,
Gördü yox – bağlanıbdır, hər yol, hər iz, hər cığır.
Qapılar döydü ana,
Dost-düşmən qapısını ayırmağa hal hanı?
Qapılar döydü ana,
Olmadı açılanı...
Neylədi onda ana? Özünü öldürdümü?
Dəli olub üstünə aləmi güldürdümü?
Yox!

Ağıl dəryasına çevrildi o bu ara,
Pıçıldadı astaca, söylədi öz-özünə;
– Balama tapdım nicat, nicata tapdım çara.
Ana
Üz qoydu balasının atıldığı zindana.
Ana başdan-ayağa geyinərək zil qara
Üstəlik də bürünüb sonsuz qaranlıqlara
Yerlə-göy arasında uçurdu mələkətək,
– Şükr olsun ki, balama nicat tapdım – deyərək.
Ulduzlar göz qırpmayıb baxırdı maddım-maddım,
Ay nur saçırdı onun yoluna addım-addım.
Bir çılğın, bir pərişan, bir qorxunc, bir gənc ana
Can atırdı oğlunun atıldığı zindana.
Açarlar cingildədi, ana girdi məhbəsə:
– Ana!
– Can ana!
– Ümid varmı?
– Susss... heç nə demə heç kəsə!
– Məni asmayacaqlar səhər tezdən, deməli?!
Yol tapıb görüşmüsən hakimlə sən, deməli?!
Oğul sevindiyindən az qaldı ki, bağıra,
Ana pıçıltı ilə – Sus! – söylədi fağıra,
Qüvvətli qollarıyla oğlunu qucaqladı,
Ürəyində ağladı.
Dedi:
– Görüş qurtarır, qulaq as, mənim balam,
Səhər səni gözləyir yalanbaşdan bir edam.
– Ay ana, edamın da yalanı olur məgər?
Ana qəsdən qeyz ilə:
– Bəsdi, – dedi, – ağciyər!
Meydan da, izdiham da necə var, qaydasınca,
İpi sabunlayacaq cəlladlar qaydasınca,
Kətil də tərpənəcək ayağının altında...

Keşiş də vird edəcək dodağının altında...
Bu təsvirin önündə oğul titrədi tir-tir:
– Daha bunun harası, bunun nəyi ümiddir?
– Körpəm, sən axıracan kişi kimi dayan, dur
Axırda görəcəksən bu həngamə yalandır...
İxtiyar sahibləri mənə qəti söz verib,
“Göz üstündə oğlunun bəraəti!” – söz verib.
– Qorxma, – söylədi ana,
Hövl etdi, bağrı yandı.
Yalana bax, yalana,
Allah, bu nə yalandı?!
Açarlar cingildədi, görüş yetişdi sona.
– Ana!
– Can ana!
– Qorxuram, mən qorxuram,
Mən ölümdən qorxuram,
Yox, yox, səhərə qoyma
Bu saat qurtar məni,
Özünlə apar məni!
– Qulaq as, mənim balam,
Zarafat olacaqdır sabah səhərki edam.
– Bəs nədən biləcəyəm bu zarafatdır, ana?
– Mən ki, düm ağ libasda varid oldum meydana –
Qalx edam kürsüsünə, addımlarında inam,
Qoy çaşsın heyrətindən, qoy sarsılsın izdiham.

Açılan kimi səhər
Şeypurlar zilə çəkdi, toppuzlandı təbillər...
Meydana axdı şəhər.
Ölüm hökmü oxundu, izdiham dalğalandı.
Görüb cavan uşağı meydan alışdı-yandı.
Ölüm hökmü oxundu, göz də qırpmadı belə,
Anasa ağ libasda görsənməyirdi hələ...

Ölüm hökmü oxundu... məhəl qoymadı uşaq,
Anasını axtardı, çaşqın gözləri ancaq...
Ölüm hökmü oxundu “nə dəxli, nə mənası”,
İndicə ağ libasda görünəcək anası...
Ölüm hökmü oxundu, oxunsun, ona nə var,
Bəs neçin başdan-başa qara geyib adamlar?
Edam günü bu şəhər
Böyükdən-kiçiyəcən, adətdi qara geyər.
Ölüm hökmü oxundu, cəllad yanaşdı ona...
Ana düm ağ libasda bu dəm gəldi meydana.
Ananın gəlişiylə bir vaxta düşdü edam...
Barmağını dişləyib köks ötürdü izdiham.
İzdiham uşaq deyil, başa düşdü o saat,
Vahiməsi olmasa, nə  var ölümdən rahat.
Elə bil təzə bir şey kəşf elədi bu meydan,
Əzrayıl görünməsə, nə var ölümdən asan...
Gözünü yaxşı-yaxşı açdı xalq, açdı inan,
Bu bəyaz mələkənin əzminə qaldı heyran.
Bağrına öz əliylə daş bağladı bir ana,
Və bütün anaları çağırdı bu meydana.
Dedi:
– Saldıra bilməsəniz balanızı ölümdən
Eybi yox, heç olmasa xilas edin zülmdən...
Qoruyun – tir-tir əsib, titrəməkdən qoruyun!
Qoruyun – səndələyib, büdrəməkdən qoruyun!
Qoruyun – miskin, zəlil görünməkdən qoruyun!
Qoruyun – dizin-dizin sürünməkdən qoruyun!
Qoruyun – göz yaşından yanağını qoruyun!
Cəllad çəkmələrindən dodağını qoruyun!
Saldıra bilməsəniz balanızı ölümdən,
Eybi yox, heç olmasa xilas edin zülmdən.

*1978*

## OĞLUM MAHİRLƏ SÖHBƏT

*(poema)*

Əlli yaşında mən, on yaşında sən...
Sən – yaşıl tumurcuq, mən – sarı yarpaq.
Əlimdən sürüşən ömürdən-gündən
Əlimdə-ovcumda bir sənsən ancaq.

Quzum, uşaq şe’ri deyil bu şe’r...
Sabaha aparır məni yelkənim.
Bu gün heç sən bilmə atan nə deyir,
Gün gələr bilərsən, Mahirim mənim!

Kim öz ayranına turş deyib ki, kim...
Qoy mən də tərifi qoyum bir yana.
Başqa duyğularla çırpınır qəlbim,
Yaxın gəl, qulaq as şair atana.

Qorxma, nəsihətlə yormaram səni,
Quru nəsihəti yox görən gözüm.
Ey mənim ömrümün tənha yelkəni,
Başqadı mətləbim, başqadı sözüm.

Görərsən: hər kəsin öz taleyi var,
Heç bir şey talesiz deyil dünyada.
Küləksiz – şəlpətək yelkən sallanar,
Küləkdə qabarar yelkən dəryada.

Yelkənin taleyi küləkdir, külək,
Bu vaxt o qartaldır dor ağacında.
Küləksiz elə bil dara çəkərək,
Yelkəni asıblar dar ağacından.

Küləksiz yelkənə dönərdim sənsiz,
Həsrətlə baxardım dəryaya, oğlum!
Gərəksiz yelkənə dönərdim sənsiz,
İlişib sahildə qayaya, oğlum!

Qara torpaqdadır dənin sabahı,
Nimçələr içində dən çörək olmaz.
Mənim sabahımdır, sənin sabahın,
Daha başqa cürə düşünmək olmaz.

Lalənin taleyi – yaraşığında,
Nərgizin taleyi – ətrində, oğlum!
Gecə – qiyamətdir Ay işığında,
Səhər – qızıl fəcrin çətrində, oğlum!

Ətrim, yaraşığım, günəşim, ayım,
Qırmızı üfüqüm, yaşıl çəmənim.
Sahilsiz dənizim, hüdudsuz çayım,
Canım-gözüm mənim, taleyim mənim!

Bircə ağac bitsə, səhrada, oğul,
Yer-göy qıyıb ona, soldurmaz heç vaxt...
İnsan olan bəndə dünyada, oğul,
Yeganə ümidi öldürməz heç vaxt...

Mənim arzularım nəhəng okean,
Kiçicik bir salın ümidindəyəm.
Sənsən o kiçik sal... coşsa da tufan,
Uğurlu iqbalın ümidindəyəm.

Ömür sarayımdan hər saat, hər gün
Bir kərpic qopsa da, düşsə də, nə qəm.
Ömrün bu işini bildiyim üçün –
İlləri irəli çəkmək istərəm.

Ey körpə şitilim, fidanım mənim,
Böyü, qol-budaqlı bir aləm ol sən!
Ağıllım, şıltağım, şeytanım mənim,
Gözüm görə-görə abidəm ol sən!

Şan-şöhrət heykəli deyil gərəyim,
Gözütox, könlütox, babat şairəm.
Hər sənə baxanda uçur ürəyim,
Babat olsam belə, xoşbəxt şairəm.

Tək şe'r yazmaqla şair olmağı,
Kifayət bilmirəm – bəlkə də səhvəm.
Yalnız yazan kimi yadda qalmağı
Özcə taleyimçin kəm sayıram, kəm.

Ata həyəcanım, ata sevincim
Bütün yazdığıma bərabər mənim.
Coşur ürək qanım, axır göz incim
Mehrinlə hər axşam, hər səhər mənim.

On ildir aləmin yadındayam mən,
Şirinim, şəkərim, qəndimlə, oğlum!
On ildir aləmin yadındayam mən,
Adına içdiyim andımla, oğlum!

Çox da bənd olan yox mənə on ildir;
Təzə yazdığım nə, yazacağım nə.
Hamı soruşur ki... necədi Mahir?
Hamı xeyir-dua diləyir sənə.

Mən səni çılçıraq görmək istərəm
Qaranlıq qovuşan asimanımda;
Mən səni minbudaq görmək istərəm
Xəzanı başlayan bu ormanımda.

“Mən” ol, heç olmasa, bəd ayaqda sən...
Yox, əgər bacarsan min dəfə yüksəl!
Başqa söz demirəm, yaşamaqda sən
Ən azı mənə çək, mənə oxşa, gəl!

Bəzən unuduram, uşaqsan hələ,
Səni böyük kimi dindirirəm mən.
Gəl, bunu zənn etmə sən elə-belə,
Bu “səhvim” bilirsən nədəndir, nədən?

Tükənir, qalmayır səbrim-qərarım,
Sənin gəncliyinə can atır ürək.
Əlvan arzularım, xoş arzularım,
Dolanır başına pərvanələrtək.

Dana bilməsəm də nəsihəti mən,
Xoşuma da gəlmir deyim düzünü;
Həyat vəsiqəni al taleyindən,
Unutma atanın gəl bu sözünü.

“Xüsusi çəki” var, kimyada, bala,
Yox, daş-tərəzilik deyil bu çəki,
Kim ki, onsuz yaşar dünyada, bala,
Vücudu qovuqdur hesab elə ki.

Dəniz qurban istər, qurban, Mahirim,
Gövhər ələ gəlməz asan, birtəhər.
Mənim də ürəyim ümman, Mahirim! –
Sən də bu ümmanın içində gövhər.

Mənim daşdan çıxıb hər işim, oğlum,
Gəl ki, dumdurudur daşdan çıxan su.
Dünyaya belə gec gəlişin, oğlum,
Görməmiş eləyib məni, doğrusu.

Yox, daşdan çıxmasın sənin qismətin,
Ancaq asana da heç vaxt dadanma.
İsti-soyuq sudur asanla-çətin...
Birində titrəyib... birində yanma!

Dənizdə küləyin işi ikiqat,
İkiqat çətindir, ikiqat, oğlum!
O həm özü üçün açır qol-qanad,
Həm yelkənə verir qol-qanad, oğlum!

Sən də dəryalarda küləklər kimi,
Qanad aç, qanadın qanadım olsun.
Zülmətləri yaran şimşəklər kimi
Qüdrətin, qüvvətin inadım olsun.

“Olsun”u, filanı... qoyaq kənara,
Mənim quzu balam, gül-çiçək balam.
Gedək bağçalara, gedək bağlara,
Əlini mənə ver, gəl gedək, balam!

Əlli yaşında mən, on yaşında sən...
Sən – yaşıl tumurcuq, mən – sarı yarpaq.
Əlimdən sürüşən ömürdən-gündən
Əlimdə-ovcumda bir sənsən, ancaq!

*1976*

## BÜLBÜL OLAQ, QƏFƏSDƏ OLMAYAQ

*(poema)*

Bülbül olaq, qəfəsdə olmayaq.
Gör necə sözdür bu söz.
Gör necə düzdür bu söz:
İnsan olaq,
Məhbəsdə olmayaq!
Bülbül olaq, qəfəsdə olmayaq!
Barmaqlıqda nə cəh-cəh?!
Oxuyançın nə fərəh?
Dinləyənçin nə fərəh?
Bülbül olaq, qəfəsdə olmayaq!
Arzuların al qırmızı qönçəsi
Bu sözlərdədir.
Toyların, nişanların
Mübarək bayramların
Əl-əl gəzən xonçası
Bu sözlərdədir –
Bülbül olaq, qəfəsdə olmayaq!
Hər şeyi kəşf edən var,
Sahibsiz olmamışdır
Ən kiçik ixtiralar.
Bülbül olaq, qəfəsdə olmayaq!
Bu sözlər kəşfdir, kəşf!
Bu fikrin banisinin
Biləydim adını kaş.
Heç kim qəfəs xətrinə
İstəməz bülbül olsun.

Azadlıq həsrətilə
Yana-yana kül olsun.
Bülbül mahnı,
Bülbül bahar...
O cəh-cəhə başlayanda.
Fərəhindən könül coşar.
Mən coşğunluq söyləyəndə
Hayı-küyü düşünmürəm.
O cəh-cəhə başlayanda,
Xəyalımdan səhnə-səhnə
Gəlib keçir bütün aləm.
Susur yaxın, susur uzaq,
Güllü dərə, qayalı dağ.
Milyon səsli dərin meşə
Sükut edir dərin-dərin,
İnsan da, təbiət də
Aşiqidir
Azad-azad,
Rəvan-rəvan
Cəh-cəhlərin.
Bülbül olaq, qəfəsdə olmayaq!
Köhnə təkrar,
Əbədi təzə,
Aydın həqiqət.
Adam var bu kəlamı
Harda gəldi deməyə
Çoxdan edibdir adət.
Bülbül olaq, qəfəsdə olmayaq!
Bu sözləri sürtə-sürtə,
Özünü gözə dürtə-dürtə –
Gözdən salıb bu arzunu,
Bu incə duyğunu.
Eləsinin qəlbində:

Nə gül lətafəti,
Nə bülbül məlahəti,
Nə əsarət dəhşəti var...
Vird eləyir təkrar-təkrar.:
“Bülbül olaq, qəfəsdə olmayaq”.
Ömründə bir mahnını
Həvəslə dinləməyən,
Ömründə bir çiçəyi
Ürəkdən iyləməyən
Bifər,
Şər,
Boş adam,
Sərxoş adam
Dili topuq vura-vura,
Ayaq üstə güclə dura-dura
Deyir:
– Bülbül olaq, qəfəsdə olmayaq.
Ürəyim yanır:
Bu gözəl
Zərbi-məsəl
Ucuzlaşır, sürtülür, yıpranır!..
Bəlkə
Əla biçimli paltar
Meymuna da yaraşar,
Fəqət bilsin nadan
Onu heç zaman
Ağıllı göstərməz
Ağıllı sözlər.
Qoy o,
Mənə incilərini
Ucuz satıb-almasın.
Əvəzsiz bir kəlamı
Gözümüzdən salmasın.

Tuti vərdişli –
Zövqsüzlər dilində,
Duyğusuzlar ağzında
Bu söz olmasın dustaq
Bəli, bəli...
Bülbül olaq, qəfəsdə olmayaq!

*1966*

## TORPAĞA HAYIF

*(poema)*

Səksəkəli yatır, sərsəm oyanır,
Qalxır, gicəllənir, yıxılır yenə.
O, gah inanmayır, o gah inanır,
Ali məhkəmənin ölüm hökmünə.

Gah gedir-gəlməyir bir an nəfəsi –
Güzgünü tərlətməz güzgü tutsalar.
Gah da kameranı partladır səsi,
Əhəngli suvaqda qaralır cadar.

Günəş şüasının milyonda biri,
Kiçik pəncərədən axır içəri.
Şüa – axırıncı ümid kəndiri,
Əlləşir "kəndir"i tutsun əlləri.

Deyəsən bayırda səsləndi külək,
Qapı cırıldadı, cəftə oynadı.
Deyəsən cağırıb, dedilər: – Gedək!
Yenə qaytardılar, kimsə qoymadı.

– Sement döşəmədə çəkmə nalları,
Yenə taqqıldayır, gəlirlər demək.
Bəlkə oxudular təzə qərarı:
... Dəyişmək, döndərmək, əvəz eyləmək...

Çətin ağlım kəsir, çətin, çox çətin,
Yəni Ali Sovet əfv edər məni?
Cəzası dəyişməz bu cinayətin,
Onda bəs nə üçün üzürlər məni?

– Adamlar üzürlər dənizdə, çayda,
Dəniz nə rəng olur, çay nə rəng olur?
Dəhlizdən səs gəlir: – Ey məhbus, haydı!
Əl-ayaq titrəyir, ürək təng olur.

Bu nə mərəkədir, bu nə gurultu?
Titrəyir divarlar, döşəmə, tavan.
Başımda – beynimdə bu nə uğultu?
Dolmuş kameraya yüz təbil vuran.

Susunuz, kəsiniz. Kəsildi səslər,
Axı səs nə gəzir, haradaydı səs?
Alnında buz kimi işıltılı tər,
Dinləyir, sükutla doludur məhbəs.

– Hökumət malını bir ucdan yedim,
Ala ulduzdaydı kefim az qala.
Qoy harda qırılar qırılsın dedim,
Bax, burda qırıldı indi, çapala.

Deyirlər: qədimdə bir qayda varmış,
Üç yol qırılsaydı sabunlu kəndir,
Edam cəzasına son qoyularmış,
Üç yol qırılsaydı sabunlu kəndir.

Deyirlər, deyirlər, çox şey deyirlər,
Saat neçə olar? Çətin tapmaca.
Bir? Yox. Üç? Yox. On? Yox. Yəni fərqi var.
Tüfəng yaxşı atır, yoxsa tapança.

Tapançadan atdım müfəttişi mən,
"Ört-basdır etmərəm" – deyəndə zalım.
Balaca bir tüstü çıxdı lülədən.
Fülədim. Üşəndim... boynuma alım.

Bir körpə nə üçün belə çığırır?
Yoxsa müfəttişin küçüyüdür hə?
Bəlkə özümküdür? Yaman bağırır,
Kimin olur-olsun, əşşi, mənə nə.

Birdən ayılır ki, burada təkdir.
Gülür, gülüşündə rişxənd, kinayə.
– Görən Ali Sovet əfv edəcəkdir?
Axı, nədən ötrü, nə üçün, niyə?

Qonşu kameranın qapısı bu vaxt
Açılır-örtülür...
– Hə apardılar.
Ona xoşbaxt deyim, yoxsa ki, bədbaxt,
Hər nə... haqq-hesabı tez qurtardılar.

Zəlzələ olaydı bu şəhərdə kaş.
Özü də çox güclü, çox tez olaydı.
Uçub qalmayaydı daş üstündə daş,
Göz-gözü görməyən bir toz olaydı.

Aradan çıxaydım əl-ayağım sağ,
Birdən qolum sındı, ona razıyam.
Zəlzələ, zəlzələ olaydı ancaq,
Lap elə bu saat, elə bu axşam.

Qıvrılır açılır o ilan kimi,
– Gəlib aparsınlar, qorxmayıram mən.

Kamera qapısı açılan kimi
Huşunu itirib gedir özündən.

Bilmirəm, hardasa çəkildi çaxmaq,
Çaxmaq dilə gəldi: hayıf gülldən,
Bilmirəm, hardasa səsləndi silah,
Silah dilə gəldi: hayıf gülldən.

Düzlərə atsalar – düzlərə hayıf.,
Xəzərə atsalar – Xəzərə hayıf.
Külə döndərsələr – ocağa hayıf,
Yerə basdırsalar – torpağa hayıf.

*1963*

## ŞOFER VƏ SÜKUT

*(poema)*

Sərnişin düşdü getdi. Şofer pulları saydı
Maşın köhnə maşındı, şoferi də qocaydı.
Dala-qabağa sürüb maşını neçə kərə
Dedi "Dənizqırağı gedəcəyəm şəhərə,
Bəs sərnişin? Bu yolda sərnişin çətin olar
Zərərini ödərəm – ödərəm kimə nə var...
Könlümə sükut düşüb, könlümə dəniz düşüb.
Vallah sayğac səsindən baş-beynimə iz düşüb".
Dayandırdı sayğacı, bir anda susdu "çıq-çıq" –
Qabaqda, sağ tərəfdə yandı yaşıl bir işıq,
Yaşıl bir göz parladı sərnişin gözü üçün.
Osa ilk dəfə sürdü taksini özü üçün.
İlk dəfə "sür!" nidası eşitmədi qulağı,
Üstü yelkən "Pobeda" getdi dənizqırağı.
Günəş qürub yerində məlul-məlul dayandı,
Suların üzərində üfüq son kərə yandı.
O, sükan arxasında rahatladı yerini,
Sürdükcə ürəyinə axdı axşam sərini.
Asta sürdü, sür`əti qaldırmadı yuxarı.
– Qovhaqovdan çərlədim. Bir az dincəlim barı.
Sahilin nəm qumuyla maşın səssizcə axdı.
Şofer axşam kölgəli əngin dənizə baxdı,
– Əcəb sakitdir dəniz, əcəb sakitdir sular
Rahatlıqdan, sükutdan görəsən yaxşı nə var?
Asta sürdü, sür`əti qaldırmadı yuxarı,
Bir az yana götürdü, suya saldı çarxları.
Təkərlərin altında sular səsləndi: şır-şır,

Elə bil ki, maşının üstünə yağış yağır.
Qarşıdakı şüşəyə milyon zərrə düzüldü.
Bir-birinə qovuşdu, zolaq-zolaq süzüldü,
Axdı göz yaşı kimi, axdı üzü aşağı
Maşın suyun içilə getdi dənizqırağı.
– Qoy çıxsın canınızdan asfaltın hərarəti,
Küçələrin bürküsü, yolların kəsafəti,
Yorğun-arğın təkərlər!
Dincəlin! Sabah yenə zəhlənizi tökərlər
Tormozlar hər tin başı,
Qıjıltınız yandırar yenə torpağı-daşı . –
Qarşıdakı şüşədən gilə-gilə su axdı.
Bu gilələr onun da qəlbində iz buraxdı.
– Dəli şeytan deyir ki, burda bir yanda dayan,
Dəli şeytan düz demir –
Ev qalacaq nigaran
Park qalacaq nigaran
Çıxıb getməsəm əgər.
Canım dinclik istəyir,
Adam yorulmur məgər?!
Maşın quruyla getdi, lap sudan aralandı
Ətraf qaranlıq idi. Qoşa işığı yandı.
Damcı ləkələrini şüşədən silim gərək
Heç bir şey ürəyimi darıxdırmır ləkətək.
O, saxladı maşını. Düşdü, şüşəni sildi
Boş sahil, sakit dəniz ona qəribə gəldi.
– Oxxay – deyib açdı o yaxasını-başını.
Dənizdən əsən mehə verdi batıq döşünü.
Aylar ötüşdü getdi, illər ötüşdü getdi,
Bu döş sükan dalında çuxura düşdü getdi.
Xırda-xırda ləpələr şap-şup edirdi hərdən.
Bir hənirti gəlirdi, elə bil ki, Xəzərdən
Bir azdan ay ucaldı- bütöv ay, gipgirdə ay,

Dənizin üzərilə axdı süd rəngli bir çay.
Dalğalı qumlar üstə iki kölgə uzandı,
Kapota dirsəklənib qoca səssiz dayandı.
– Motor istidir, isti, motor da bir ürəkdir,
Motorsuz bu dörd təkər necə hərlənəcəkdir?
Motor istidir, isti, motor da bir ürəkdir
Soyuq motor, buz ürək, kimə, nəyə gərəkdir?
Dəniz, dəniz, ay dəniz, sənin də ürəyin var!
Yoxsa necə səslənər düzü dünya bu sular?
Döyün, ürək, yan, ürək!
Sən döyün mən xoşlanım.
Bu lal sükutdan, ürək!
Təkcə sənin səsindən bezməyəcək qulağım.
Dolanacaq maşınım, yeriyəcək ayağım
Eşitdikcə səsini.
Döyün, ürək!
Döyünsən,
Mən bu qoca yaşımda,
Mən bu qoca maşında
Dövrə vurub dolannam qoca yer kürəsini...
Üstü yelkən "Pobeda" yenə yola düzəldi.
Aylı gecə gözəldi, aylı dəniz gözəldi.
Birdən nəsə yapışıb təkərləri saxladı.
Motor gurultu saldı, bütün maşın laxladı.
Qərarını pozmadan qoca çıxdı qırağa,
Gördü maşın yaxşıca oturubdur qumluğa.
– Dincəl, – dedi, – sənə də bir istirahət gərək,
Batmısan batmısan də...
Neyləyək?
Yüz mini göstərirsən.
İndi
Bu neçənci yüz mindi?..
Baxma, hələ gərəksən...

Taksisən, dözəcəksən,
Hələ çox yolumuz var.
Dincəl, qonaq saxlayır bir gecə bizi qumlar...
Sükut, dəniz...
Ulduzların altında sükuta bürünək biz.
Qorxma unudulmarıq
Əlli kitabda varıq. –
Qoca arxası üstə nəm torpağa uzandı,
Maşın bərabəriydi – onun boyu uzundu.
Yağlı-qara papağı peysərinə sürüşdü,
Daranmamış çal saçlar çal qaşlar üstə düşdü.
Zilləndi ulduzlara yollar yorğunu gözlər!
Yollar yorğunu gözlər, yollar vurğunu gözlər!
– Ulduzlar, sərnişinlər, sərnişinlər, ulduzlar,
Hansını sayan olmuş, hansının qədəri var?
Ulduzlar asimanın yaraşığı, ziynəti,
Sərnişinlər həm yerin, həm də göyün şöhrəti.
Mənim sərnişinlərim, mənim sərnişinlərim,
Sizinlə azalıb da, çoxalıb da kədərim.
Sizsiz də darıxmışam, sizinlə də mən hər gün,
Sizin xəyalınızla çıxmışam evdən hər gün.
Sizinlə bağlı olmuş fikrim, arzum, diləyim,
Döyündükcə ürəyim.
Bu işıqlı dünyada nə qədər ki, mən varam,
Eh... Baxıb görürəm ki, sizsiz çətin yaşaram.
Aylı-ulduzlu gecə.
Sükutun qucağında bir səs eşidir qoca:
... Çıq... çıq... çıq... sayğac səsi.
– Şofer, bu ünvana sür!
Nə bilim nə küçəsi,
Sonra da nə döngəsi...
Böyük, qaynaşan şəhər,
Enli-ensiz küçələr.

Ayrıclar çalın-çarpaz,
Buradan keçmək olmaz,
Oradan dönmək olmaz.
... Çıq... çıq... çıq –
Yol bağlı.
... Çıq... çıq... çıq –
Yol açıq.
... Çıq... çıq... çıq –
Eniş en!
... Çıq... çıq... çıq –
Yoxuş çıx!
... Çıq... çıq... çıq –
– Hələ sür!
... Çıq... çıq... çıq –
– Çatdıq, dur!
... Çıq... çıq... çıq –
Çıq... çıq... çıq –
Tez-tez dəyişir işıq –
Qırmızı, yaşıl, sarı.
Təkərlərin başına sayğac qaxır pulları,
Onları keçəl edir.
Min ömrün axınında bir ömür axıb gedir.
Göydə ay gülümsəyir, göydə ulduzlar yanır,
Qoca arxası üstə nəm torpaqda uzanır.
Ulduzlar yaraşıqlı,
Sərnişinlər kimi çox, yollar kimi işıqlı,
Göydə ay gülümsəyir – sevinir ki, tək deyil,
Yalqızlıq, kimsəsizlik heç kimə gərək deyil...

*1961*

## TÜRKÜN QƏBRİ

*(poema)*

Türkün qəbri
Qədim Şirvan yollarının
Üstündədir.
Azərbaycan torpağının
Altında yox,
Sinəsində,
Köksündədir,
Qollarının üstündədir.

Mən bu qəbrin dövrəsində
Yetmiş bir il
Lal olmuşam.
Kar olmuşam
Yetmiş bir il!
Bu adicə müddət deyil
Bu qəribin,
Müztəribin
Bu əsgərin,
Bu yavərin
Şəhid ruhu,
Şanlı ruhu hüzurunda
Xəcalətdən xar olmuşam.

Dolu çırpdı,
Qar ələdi,
Leysan tökdü neçə kərə,
Neçə kərə

Sellə-suyla dolub daşdı
Acıdərə.
Gün yandırdı,
Qovurğatək
Qovruldu,
Daş-kəsək, torpaq
Ancaq...
Türkün qəbri yenə qaldı,
Naxələflik, yaramazlıq
Közü kimi –
Bağrımızın başındaca
O qaraldı.
Öz başının hayındaydı
Azərbaycan.
Cavidlərin, Müşfiqlərin
Vayındaydı Azərbaycan...
Türk sözünü,
Türk adını
Dilimizə gətirmək də
Cinayətdi.
Acıdərə çevrəsində
Lap uzaqdan uzağa da
Tənha qəbrə
Gözucu da... nəzər salıb
Xəlvəti köks ötürmək də
Cinayətdi...

Xain qonşu
Çəpərləri qırdı, sökdü
Öz xıltını, illətini
Açıb tökdü.
Gözlərini qan örtdü
Bu nadürüstün.

Silahlıydı,
Kəmfürsətdi,
Orda-burda
Millətimə gəldi üstün.
Od saldılar
Kürəklərdə samovar da
Qaynatdılar
Əl çaldılar...
Sinələrdə
“Dasni çors” da
Oynatdılar...
Eşidincə bu dəhşəti,
Bu zülmü, bu zilləti,
Bu təhqiri, qəbahəti
Ağlasığmaz rəzaləti
Qonşuluqda xəyanəti,
Tərgidilməz,
Tərk edilməz,
Bu şakəri, bu adəti –
Ay-ulduzlu bir diyardan
Bu dağlara o dağlardan
Əhməd gəldi, –
Dilimiz bir.
Məhməd gəldi, –
Dinimiz bir.
Orxan gəldi, –
Çölümüz bir.
Sərxan gəldi, –
Gülümüz bir.
Tural gəldi, –
Sazımız bir.
Cəlal gəldi, –
Sözümüz bir.

Hər şey yerlə yeksan oldu,
Nişanələr viran oldu.
Tək bu məzar qaldı vahid,
Şəhidlərdən qaldı şahid.

Türkün qəbri
Həsrət qaldı
Anaların-bacıların
İsti-isti göz yaşına,
Göz yaşını bulud sıxdı
Yağış tökdü başdaşına...
Türkün qəbri
Həsrət qaldı
Anaların-bacıların
Ağısına.
Bunu rəva görmürəm heç
Yağımın da yağısına.
Türkün qəbri
Həsrət qaldı
Anaların, bacıların
Qara matəm libasına.
Türkün qəbri
Həsrət qaldı
Bir dəstə gül təmasına.

Göylər bizə:
– Nankor! – deyib,
– Qorxaq! – deyib,
Özü geydi yas paltarı.
Çöllər bizə:
– Nankor! – deyib,
– Qorxaq! – deyib,
Əlvan-əlvan,

Şehli-şehli gül-çiçəklə
Əzizlədi bu məzarı.
El yolunun üstündəcə,
Görün necə,
Bir sahibsiz xəstə kimi
Gözü yolda qaldı qəbrin...
Naxışları qopdu düşdü,
Yazıları soldu qəbrin.
Çayxanalar,
Aşxanalar,
Quşxanalar,
Xaşxanalar
Abad oldu.
Boynumuzda haqqı-sayı
Bu torpaqda qurban gedən
Türkün qəbri
Bərbad oldu.
Şəhid ruhu
Naşad oldu.

Bir sonsuz bəy,
Sonsuz gəlin
Nəzir-niyaz eylədilər,
Asimana üz tutdular
Haqdan muraz eylədilər.
Diz çökdülər
Bu məzarın qabağında,–
Qədim Şirvan torpağında,
Söylədilər:
– Allah təki övlad versin,
Oğul, ya qız,
Bu məzarı
Bünövrədən
Abad edib qaldıraq biz.

* * *

Çatdı Allah dərgahına
Qəlbin səsi.
İnsan sənə baş əyməzmi,
Ey inamın möcüzəsi?!
Bu müztərib
Qərib məzar
Əndazəyə, şəklə düşdü;
Gözüqıpıq müsafirlər
Qorxusundan şəkə düşdü;
Naxış-naxış şəbəkələr,
Məhəccərli pilləkənlar –
Acıdərə qucağında
Abidəyə döndü məzar.

* * *

Ancaq bir gün...
Gənc atanı
Vurub işdən
Çıxartdılar;
Vurub heçdən çıxartdılar,
Partiyadan çıxartdılar.
Cavan ana
Yaş kağızı alammadı
Körpəsinə.
Nə var... nə var...
Rövnəq verib
Türkün qərib türbəsinə.

Bu nə yalan,
Nə şişirtmə,
Nə rəvayətdir.

Bu həm gülünc,
Həm dəhşətli
Bir həqiqətdir.

Siyasətin
Rəyasətin
Gərdişinə bax!
Bu gərdişlə
Ağlımızın
Vərdişinə bax!
Cəlladıma heykəl yapdım
Hər addım başı.
– Niyə yapdın? – xəbər alır
Türkün başdaşı.
Ey kökü bir, budağı bir
Övladlarım,
Doğma ana qucağı bir
Övladlarım!
Ey qanı bir, ey canı bir
Övladlarım!
Ey dili bir, lisanı bir
Övladlarım!
Aman, hansı məmləkətdə
Yaşamısız siz?
Nə şəkildə, nə halətdə
Yaşamısız siz?

* * *

Baxıram riqqətlə
Türkün qəbrinə.
Dərələr yamyaşıl,
Göylər bəmbəyaz.

Dövrün gərdişinə,
Vaxtın səbrinə
Əyyub peyğəmbərin
Səbri də çatmaz.

Baxıram qəbrinə türkün bayaqdan,
Sükuta bürünüb yerlər və göylər.
Dözməyib gəlmişdi bir yol uzaqdan,
Deyən yenə dözmür igid cəngavər.

*1991*

# QARALTI

*(novella–faciə)*

Bu əhvalatı mənə
Danışdı Teyyub Qurban.
Danışdıqca qalmadı
Kişinin canında can.

Başladı ki: – Bilirsən
Qaraltı nə deməkdir?
O nə cindi – nə şeytan,
Nə də mövtül mələkdir.

Qaraltı – qarabasma,
Filan deyildir qəti.
Gör nə dəhşət törədir
Bu qaraltı söhbəti.

Xəyalında həqiqət
Bildiyindir qaraltı...
Azmış – çaşmış qərara
Gəldiyindir qaraltı.

Qaraltı nişangaha
Götürdüyün hədəfdir.
Gözün səhv, hədəfin səhv,
Barmaq tətikdə səhvdir.

Qaraltı boş-boşuna
Sənə görünməz hədər.
Heç vədə elə-belə...
Yaranmır təsəvvürlər.

İntizar adamları
Qaraltı izlər müdam.
Qaraltı tilsiminə
Düşməz asudə adam.

Yox, o daban-dabana
Düşməz sənin dalınca.
Tələsmə qaraltını
Fövrən nişan alınca.

Aldadıcı olar o
Düşər tərsi avandı.
Qaraltının tərsindən,
Allah, ürəyim yandı.

Yox, göydəndüşmə deyil,
Bu qaraltı söhbəti
Anıram qaraltının,
Törətdiyi dəhşəti.

Teyyub Qurban sözünə
Ara verdi bir qədər,
Gilələndi bakılı
Şairin alnında tər.

– Kəndimizdə sayseçmə
Yaxşı bir kişi vardı.
Böyük ailəsiylə rahat
Xoşbəxt yaşardı.

Pəhləvan cüssəliydi,
Enli kürəkliydi o.
Xeyir-şər adamıydı,
Açıq ürəkliydi o.

Qazancı əllərinin
Qabarındaydı onun.
İnancı Allah verən
Ruzgarındaydı onun.

Bənnaydı, dəmirçiydi,
Nalbənd idi o kişi.
Camaata canhacan
Peyvənd idi o kişi.

Bağban idi – bağının,
Bağçasının misli yox.
Fəsillərin içində
Sanki xəzan fəsli yox.

Evdə də qızı vardı,
Ərdə də qızı vardı.
İsmət asimanında
Yeddi ulduzu vardı.

Ancaq oğul həsrəti
Sinəsində dağ idi.
Tez evləndiyi üçün
Hələ çox qovraq idi.

Bütün damarlarında
Həyat eşqi doluydu.
Qırx üç-qırx beş yaşında
Canı çox-çox suluydu.

Eşitmişdi ki, niyyət,
Danışılanda suya,
Tez yetişir, tez çatır,
Allah-təalaya guya.

Kənddən sahilə gəldi,
Sübh... evdən xəlvəti...
Ləpələr gözü yaşlı,
Gördülər bu həsrəti.

Yetirdilər o səhər
Xudavəndi aləmə.
Nişan verdi mələklər,
Bizim kəndi aləmə.

Yeddi bacıya qardaş
Dünyaya oğul gəldi.
Nura boyandı dam-daş
Nur büsatı gözəldi.

Boynundan, boğazından
Gözmuncuğu asdılar,
Neçə nəzir verdilər,
Neçə qurban kəsdilər.

Kişi qoyun saxladı
Həyətində neçə baş.
Bu neçə baş sürüyə
Çevrildi yavaş–yavaş.

Payladı qapı-qapı
Hər toyda, hər nişanda.
Həm əziz bayramlarda,
Həm yasda, həm ehsanda.

Kişinin var-dövləti
İlbəil aşdı, daşdı.
Dillərdə səxavəti
Hatəm kimi dolaşdı.

Ay ötdü, il dolandı,
Su kimi axdı zaman.
Gəlib əsgər yaşına
Çatdı mübarək oğlan.

Dedilər ki, gözündən
Uzağa qoyma getsin.
Tək uşaqdı – özündən
Uzağa qıyma getsin.

– Türk əsgər getməyənə
Qız vermir, – dedi ata.
Oğul evləndirməyib
Ata günaha bata?!

Bütün kənd çal-çağırla
Yola saldı uşağı.
Uşağın əsgərlikdən
Yaxşı gəldi sorağı.

Hər şey öz qaydasında,
Hər şey yaxşı gedirdi.
Demə bir narahatlıq
Bu külfəti güdürdü.

Haqq-salamı kəndin
Nakəslər dandılar,
Bəlkə də qonşu kənddən
Bu kəndə dadandılar.

Dadandılar kişinin
Malına, davarına,
Dırmaşdılar kişinin
Damına, divarına.

Oğru it-pişik kimi
Həya bilmədi oğru.
Elə bil ki, çoxalıb
Saya gəlmədi oğru.

İllah da ki, küləkli
Havalarda gəldilər.
Ala toran... qarışıq
Boz ruzgarda gəldilər.

Qəzəbdən yox... iyrəndi
Bu oğurluqdan kişi:
– Bu canavar işi yox,
Bu olar çaqqal işi.

Şikayət yox... polisə
Eləcə verdi xəbər:
– Mənim qapı-bacama
Oğru yaraşır məyər?!

Açıq nə istəsələr
Gəlsinlər, aparsınlar.
Xəsisəm ki, malımı
Qarətlə qoparsınlar?!

Əsgər balama qurban,
Bu qoyunum, quzum da.
Əsgər balama qurban,
Özüm... yeddi qızım da.

Bilin, həm agah olun,
Siz hökumət adamı!
Qatilə döndərər a,
Qəzəb-nifrət, adamı...

Kim gözümə görünsə
Görünsə bir qaraltı
İstəyir hasar üstü
İstəyir hasar altı.

Çaxacağam alnının
Ortasından o kəsin.
Kim canından keçməyib
Bu tərəfə gəlməsin.

Müsahibim üzümə
Baxdı gözlərində yaş
Dedi: – O Təbərriki
Allah verməyəydi kaş.

Ay ötdü, il dolandı,
Çatdı vaxt, çatdı müddət
Kaş ki, heç bitməyəydi...
Bitdi əsgəri xidmət.

O, nə telefon açdı,
Nə tel vurdu: – Gəlirəm.
Atasıyçün sürpriz...
Oyun qurdu: – Gəlirəm.

Dənizin nəriltisi
Kəndə gəlib çatırdı.
Xəzri biri-birinə
Yeri-göyü qatırdı.

Hələ işıqlanmamış,
Hələ alatorandı.
Pusquda qaraltını,
Güdənin gözü qandı.

– Gələn vaxtındı gəl-gəl,
Gəl alnını nallayım,
Səni it ölüsütək
Zibilliyə tullayım.

Əncir ağaclarının
Hərəsi bir həyula.
Xəzri, əs vahiməylə,
Canavar kimi ula!

Yarpaqlar insan əli
İnsan əli qaraltı.
Qaraltı hasar üstü,
Qaraltı hasar altı.

Hasara qalxır oğlan,
Hoppanıb aşmaq üçün.
Atasına ərmağan
Həyətə düşmək üçün.

Qapını-darvazanı
Bağladı çərxi-fələk.
Çərxi dönmüş havadan
Quş kimi ensin gərək...

Ay qaraltı, qaraltı,
Ciyərim yandı, yandı,
Vay, qaraltı, qaraltı
Vay, adam aldadandı.

Güllə açıldı... güllə.
Qaraltıyamı dəydi?
Gözlər olsun görməsin,
Allah, Allah o nəydi?!

Yox, yox oğru deyildi,
Əsgərdi o qaraltı.
Gözaydınlığı, bir xoş
Xəbərdi o qaraltı.

Bu səhvə kim dözər kim?
Özü də ata ola.
Bu boyda, bu şəkildə,
Müdhiş bir xəta ola.

Ata öz qurbanına
Dedi ki: – Xoş gəlmisən.
Ancaq, axı ay bala,
Belə deməmişdim mən.

Mən saydığımı saydım,
Fələk öz saydığını.
Anan, bacın da qara
Bağlayar yaylığını.

Bir də güllə açıldı,
Ata-bala yan-yana...
Yerlər, göylər ağladı
Bu qanlı ərmağana.

Eh... taleyin işidir
Nə mənə ver, nə də yoz.
Dur alın yazısını
Poza bilirsən də poz!

Bu əhvalatı mənə
Teyyub Qurban danışıb.
Yazıya bu gün aldım
Osa çoxdan danışıb.

*7 sentyabr 2006*

# KİTABIN İÇİNDƏKİLƏR

## ŞEİRLƏR

Alim-hakim ........ 8
Gözəllər öpür məni ........ 12
Axı niyə? ........ 14
Çadırlar ........ 17
Çadırlara alışmayın ........ 20
Belə olmaz ........ 22
Yanıq Kərəmi ........ 23
Yaddaşım ........ 27
Nəsimi bazarında ........ 30
Rəqs ........ 34
Dənizdə adam batıb... ........ 37
Ümid sənədir ancaq... ........ 41
Hava necə olacaq ........ 44
Haray, tələsin, gəlin! ........ 47
Sümüklər ........ 52
Otuz yeddidə ........ 55
Çaxmağı çək ........ 57
Lazım gəlsə... Lazımsan də! ........ 60
Sagalmadı yaran, balam! ........ 63
Oda düşərlər, yada düşərlər ........ 65
Baglı qapılar ........ 67
Bu kökdə, bu pərdədə... ........ 73
Kipr ........ 75
Atatürkün heykəli ........ 76
Hacı ........ 77
Salam , Otello! ........ 79
Pişiklər ........ 82
Yedəkdə gələn qayıq ........ 84
Teymurləngin şərəfinə ........ 86
Qabilin qars səfəri… ........ 90
Ömrün bircə gününə ........ 93
İlahi qisməti ........ 96

Hörmətimiz.....99
Deyiləm.....101
Əslində.....102
Sonuncu mogikan.....106
Üç nöqtə.....111
Cümə axşamı.....113
Mən göz yaşlarına dözə bilmirəm.......116
İstəmirəm.....119
Məhəbbətdən savayı.....121
On səkkiz yaşında.......124
Xatirə yarpaqları.....126
Terek qanlı Fərat olub.......127
Bircə saqqal daragımız.....129
Dənizin cazibəsi.....132
Borc.....135
Gülhüseyn.....139
Hələlik.....141
İşin düşəndə.....144
Saat.....146
Əbəsdir.....147
İstəyirəm.....148
Bilmirəm.....150
Bayrağımız.....152
Müstəqillik.....153
Qoru özünü!.......154
Pərdə.....157
Birini elə, birini belə.......161
Mənim ürəyimdə sirlər yatır.....163
Naşirlər.....167
Həsrətin.....169
Kəfən.....170
Telefonum.....171
Zarafat eyləmə.....173
Xəstəlik.....179
Vahimə.....181
Bizim otaq.....184

Fərman əlindədir....186
Pişik....188
Xal....189
Hind okeanı....192
Göylərin ürəyi....196
Məni qoru....197
Avtoportret....201
Mənim bəstəkarlarım....204
Şahi-şəhidan....207
Çal, qaboy....209
Köhnə qala....212
Təzə....213
İki qırx....215
İki dağ....217
Düşüncə....219
Açığını deyim ki.......221
Ən....223
Ad....225
Nə ürəyə yatdılar, nə ağıla batdılar....227
Qərəz....229
Əqidə....231
Gözüm sulanır....234
Hicran-vüsal....236
Sənə yazığım gəlir....238
İtirmə....241
Ömür gedir, səmti dəyiş....244
Vəsiyyət yüngüllük olsa da....246
Bahar.......249
Gəl gedək....251
Şər....253
Bacım Raisə xanım....255
Olsa da, olmasa da....258
Şair təbiəti....260
Telefonçu qızlar....263
Nəzihə bacım....265
Qasım və Bəxtiyara....270

Abbasəli ........ 271
Tələs, qardaşım! ........ 273
Gülas yarpağı ........ 275
İstanbulun minarəsi... ........ 279
Mübarək ........ 282
Qəndabım ........ 285
Bir müxtəsər Rafiqnamə ........ 288
Gərəkdir mənə ........ 290
Sərlövhəsiz... ........ 292
Anar ........ 294
Mən səni xatırlaram ........ 298
Körpə mələklər ........ 300
Xatirə ümidinə... ........ 303
Tofiq Mahmuda ........ 306

POEMALAR

Mehparə ........ 311
Dostlar ........ 398
Bağça ........ 416
Aqibət ........ 421
Birinci addım, birinci sevinc ........ 432
Yanardağ ........ 437
Tramvay parka gedir ........ 446
Pullar və düşüncələr ........ 453
Solo ........ 460
Dağlara qalxırsan ........ 465
İsgəndərin anası ........ 469
Cırtdan ........ 473
Ağ libasda ........ 477
Oğlum Mahirlə söhbət ........ 481
Bülbül olaq, qəfəsdə olmayaq ........ 486
Torpağa hayıf ........ 490
Şofer və sükut ........ 494
Türkün qəbri ........ 499
Qaraltı ........ 507

# QABİL

## ƏSƏRLƏR

(YEDDİ CİLDDƏ)

## III
## CİLD

Çapa imzalanmışdır: 29.03.2017
Formatı 60x90 1/16
Həcmi: 32,5 ç.v.
Sayı: 500
Sifariş: 127
Qiymәti müqavilә yolu ilә

«Adiloğlu Çap Evi»nin mətbəəsində
çap olunmuşdur.

Ünvan. Bakı şəh., Ə.Salamzadə 9c